**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

**TAHİRƏ HƏSƏNZADƏ**

# MARAĞALI MƏHƏMMƏDHƏSƏN XAN ETİMADÜSSƏLTƏNƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Bakı, "Tural -Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001**

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 28 mart 2001-ci il tarixli 3 №-li iclasının qərarı ilə nəşr edilir.

Elmi redaktoru: T.Ə.(Şahin) İbrahimov,
tarix elmləri doktoru

Redaktoru : F.U.Ələkpərov,
tarix elmləri doktoru

Rəyçilər : Ş.Ə.Tağıyeva,
tarix elmləri doktoru
V.Mustafayev,
tarix elmləri namizədi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təqdim olunan kitab XIX əsrin II yarısında yaşamış İran tarixçisi Marağalı Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənənin həyat və yaradacılığından, əsərlərində öz əksini tapmış Azərbaycan tarixi məsələlərindən bəhs edən ilk tədqiqat əsəridir.

## ÖN SÖZ

Marağalı Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənənin XIX əsrin ikinci yarısı İran tarixində tarixçi-coğrafiyaşünas alim və dövlət xadimi kimi görkəmli yer tutur. O, mürəkkəb tarixi bir şəraitdə yaşamışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tarixi şəxslərin fəaliyyətinin araşdırılmasına son zamanlar diqqət daha da artırılmışdır. Müxtəlif dövrdə və quruluşlarda yaşayıb-yaratmış azərbaycanlı dövlət xadimlərinin fəaliyyətinin tədqiq edilməsi zəruri bir problemdir.

XIX əsrin ikinci yarısından etibarən İranda elm, mədəniyyət və maarifin inkişaf etməyə başladığı dövrdə Azərbaycan ziyalıları bütün sahələrdə həmişə ön sırada getmişlər. Məsələn, maarif sahəsində ilk üsuli-cədid məktəbi məşhur maarif xadimi, "İran maarifinin atası" Mirzə Həsən Rüşdiyyə tərəfindən tə'sis edilmişdir və sonralar onun vasitəsilə Tehranda da yeni məktəblər açılmış və inkişaf etdirilmişdir. Mirzə Əbdürrəhim Talıbov Təbrizi İran ədəbiyyatı tarixində novator kimi şöhrət tapmış, Avropada inkişaf etmiş roman janrını ədəbiyyata gətirmişdir.

İranda hökm sürən feodal quruluşuna, onun mütləqiyyət üsuli-idarəsinə qarşı, ölkənin demokratik siyasi quruluşa çatdırılması üçün Azərbacan ziyalıları uzun müddət mübarizə aparmışlar. Öz fəaliyyətində Qərbi Avropa maarifçilərindən, onların mədəniyyətindən istifadə edən təbrizli Mirzə Yusif xan Müstəşarüddövlə, Seyid Cəmaləddin Əsədabadi, Hacı Zeynalabdin Marağayi, Əbdürrəhim Talıbov Təbrizi kimi ziyalılar İranın dövlət dairələrində köhnə feodal quruluşu ilə yeni yaranmaqda olan burjua nümayəndələri arasında gedən siyasi mübarizənin aparıcıları olmuşlar, XIX əsrin ikinci yarısında belə şəxsiyyətlərin bir qismi müxtəlif siyasi təşkilatlarda, cəmiyyətlərdə birləşərək, İranın Avropa



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yolu ilə (kapitplizm yolu ilə) inkişaf etməsi və İranda insan hüquqlarının, ölkə istiqlalının qoruması uğrunda gedən mübarizələrdə fəaliyyət göstərmişlər. İranın ictimai, iqtisadi və siyasi vəziyyətindən asılı olaraq, bu hərəkətda əhali arasında çox böyük nüfüza malik görkəmli din xadimləri və alimləri ön sırada gedirdilər. Bu dövrdə İranda fəaliyyət göstərən müxtəlif siyasi qruplar hələ onları bir-birindən ayıran sinfi, ictimai və siyasi ziddiyyətlər inkişaf etmədiyinə görə mütləqiyyət və müstəmləkəçilik əleyhinə birgə mübarizə aparmışlar. Seyid Cəmaləddin Əsədabadi, Mirzə Mülküm xan, Mirzə Yusif xan Müstəşaüddövlə, Mirzə Həsən Aştiyani ilə yanaşı Seyid Məhəmməd Təbatəbai, Seyid Əbdullah Bəhbəhani, Şeyx Hadi Nəcmabadi və başqalaları belələrindən idi. Ölkənin demokratik siyasi quruluşa çatdırılması üçün azərbaycanlı dövlət xadimlərindən Mirzə Yusif xan Təbrizi qanune əsasi yazmış və onun İranda tədbiqi üçün çalışmışdır. O, milli, dini adət-ənənələri nəzərə alaraq, hazırladığı bu qanune-əsasidə eyni zamanda islamın yüksək qanunlardan da istifadə etmişdi.

XIX əsrin sonlarında yeni İran tarixinin, mədəniyyətinin yaranması, ölkənin milli müstəqilliyə çatması üçün adlarını çəkdiyimiz və çəkə bilmədiyimiz belə şəxsiyyətlər böyük ictimai-siyasi fəaliyyət göstərmişlər. Onların öyrənmədən 1905-1911-ci illər İran məşrutə inqilabının yaranması, inkişafı tarixini əsaslı şəkildə öyrənmək qeyri-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mümkündür. Çünki bu inqilaba zəmin həmin dövrdə yaranmışdır.

XIX əsrin ikinci yarısında İranda baş verən ictimai-siyasi hadisələrin iştirakçısı, görkəmli dövlət xadimi və tarixçi-çoğrafiyaşünas kimi tanınmış dünya şöhrətli alim marağalı Məhəmmədhəsən xan Səniüddövlə, sonralar E'timadüssəltənənə (1843-1896) belə şəxsiyyətlərdən olmuşdur. Əsası məşhur islahatçı Mirzə Tağı xan Əmir Kəbir tərəfindən qoyulmuş Tehran Darülfünununun ilk mə'zunu E'timadüssəltənə haqqında İran alimi Yəhya Ariyanpur belə yızır: "Tehran Darülfününunun məzunları içərisində elə bir şəxsi tanımıram ki, fəzilət və kamalda onun müdiri Rzaqulu xan hidayətə bərabər olsun. Lakin Darülfünundan bəhs edərkən orada təhsil almış, özündən sonra mühüm əsərlər yadigar qoyub getmiş Məhəmmədhəsən xan Səniüddövlə, sonralar Etimadüssəltənə haqqında danışmamaq olmaz"(1, 264).

Məhəmməlhəsən xan Etimadüssəltənə azərbaycan, fars, ərəb rus və fransız dillərini yaxşı bildiyi üçün iyirmi beş il Qaçar sarayında, bilavasitə Nəsrəddin şahın (1831-1896) şəxsi mütərcimi və ona qazet-jurnal oxuyan olmuşdur. Bu böyük vəzifələrlə birlikdə Etimadüssəltənə dövlətin Nəşriyyat idarəsi naziri vəzifəsi daşımışdır.

Məhəmmədhəsən xan Etimadüssəltənə ictimai elmlər və həmçinin "Xabnamə" və "Səfərnamə"lər silsiləsindən 30 cildə qədər çox samballı əsərlər yazmışdır. Onarın xeyli hissəsi İranın XIX əsr tərixini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və coğrafiyaşünasını öyrənmək üçün tədqiqatçılara faydalı yardım göstərən mənbələrdir və bu əsərlər, eləcə də Avropanın ən görkəmli yazıçılarının əsərlərindən etdiyi siyasi məzmunlu tərcümələr İranın ictimai-siyasi həyatına yeni ab-hava gətirirdi.

O, bilavasitə sarayda şaha xidmət etməsinə baxmayaraq, ölkənin xarici dövlətlər arasında yarımmüstəmləkəyə çevrilməsinə qarşı mütrəqqi islahatçı ictimai-siyasi ximətlərlə, o cümlədən Mirzə Yusif xan Müstəşarüddövlə, Seyid Cəmaləddin Əsədabadi və başqaları ilə gizli də olsa, həmkarlıq etmiş, ölkə istiqlalının qorunması üğrunda gedən mübarizələrə, üsyanlara yardım göstərmişdir. Bu səbəbdən saraydakı düşmənləri, xüsusən baş nazir Əminüssultan onun yüksəlməsinə mane olmuşlar. Nəsrəddin şahın qətlindən iyirmi səkkiz gün əvvəl zəhərlənib öldürülmüş Etimadüssəltənə şahın arzusu ilə Baş Nazir təyin olunacaq imiş. Bu da təsadüfi deyil ki, Nəsrəddin şahı qətlə yetirmiş Mirzə Rza Kirmaninin məhkəməsində ondan Seyid Cəmaləddinin Etimadüssəltənə ilə görüşüb-görüşmədiyi barədə soruşmuşlar.

Məhəmmədhəsən xan fitnə-fəsadlara baxmayaraq, mühüm məsələlərə düzgün mövqeyini saxlamış, siyasi mübarizədə iştirak etmişdir. "Politike haliyyeye rus və ingilis dər Asiya", "Kəşfül məayebe ingilis", "Ketabçeye enhesare tənbaku", eləcədə xarici inhisarın ölkədə fəaliyyətinə etiraz ifadə edən Nəsrəddin şaha yazdığı məktublarında çar Rusiyası və İngiltərə kimi imperialist dövlətlərin İran haqqında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

planlarını açılmağa çalışmışdır. Onun siyasi məzmunlu "Xabnamə, ya yek pərdə əz əsrare enhetate İran" əsəri bu cəhətlərinə görə müəllifin sağlığında gizli saxlanmış və ölümündən sonra aşkar edilərək nəşr olunmuşdur. "Əlhimar yəhmilül əsfarən" işıq üzü görən kimi o, düşmənlərinin hücumlarına mə'ruz qalmışdır.

Məlumdur ki, 1889-cu ildə İranda "Şahənşah" ingilis bankının təsis olunması imtiyazının Röytera verilməsi ingilis müstəmləkəçələrinin bu ölkəyə nüfuz etməsi tarixində yəni bir dövr açmışdır. Etimadüssəltənə bu məsləyə mənfi münasibətini bildirmiş və Nəsrəddin şaha yazdığı məktubda məsləhət görmüşdür ki, ölkənin xarici siyasəti mənfeyi üçün həmin imtiyazı ingilislərə verməsin. O, ingilispərəst Baş nazirin yürütdüyü səhv xarici siyasəti tənqid edərək yazırdı: "Siz İranı ingilis və rusların arasında bölmək istəyirsiniz. Allah şahı və İranı rusun, ingilisin və cahil vəzirin şərindən qorusun"(Ruznmeye xaterate Etimadüssəltənə, s. 794).

Etimadüssəltənə haqqında İran alimlərindən Abdulla Müstofi, Yəhya Dövlətabadi, Xan Məlik Sasan, Mehdi Bamdad, Əziz Dövlətabadi, Yəhya Ariyənpur, İrəc Əfşar, M.Tərbiyət və başqaları, Avropa alimlərindən Eduard Braun, Yan Ripka, Çarlz Stori, Fevriye bəhs etmişlər. Məhəmmədhəsən xan Etimadüssəltənə rus şərqşünas alimlərindən V.A.jukovski, İ.Kraçkovski, Y.E.Bertels və başqalarının da nəzər-diqqətini cəlb etmiş, onun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əsərləri barədə fikir söyləmişlər. Təsadüfi deyil ki, tədqiqatçıların ona verdikləri qiymət ziddiyyətli olmuşdur. Çünki bu görkəmli alim və ictimai-siyasi xadim haqqında fikir söyləyənlər onun yaradıcılığına başqa-başqa mövqelərdən yanaşaraq çıxış etmişlər.

Azərbaycan alimlərindən tar.e.d.T.Ə.İbrahimov(Şahin), tar.e.d.Ş.Ə.Tağıyeva, tar.e.n.O.S.Məlikov, A.Fazili, V.Mustafayev öz tədqiqatlarında onun haqqında fikir söyləmiş, bəzi əsərlərində bəhs etmişlər.

Görkəmli İran alimi Xan Məlik Sasan "Siyasətgerane doureye Qacar" əsərində XIX əsrin bir sıra ictimai-siyasi xadimlərilə yanaşı Məhəmmədhəsən xana da yer verərək, onun həyat və yaradıcılağını təhlil etmişdir. Qeyd etmək lazımdır ki, Etimadüssəltənə haqqında ən obyektiv mə'lumat demək olar ki, Xan Məlik Sasan vermişdir. Onun atası vaxtilə Etimadüssəltənənin Tehranda rəhbərlik etdiyi Darültərcümə və Darültəbada çalışmış, oğluna danışdığı xatirələrində nazirin (Etimadüssəltənənin - H.T.) İran mədəniyyətinə etdiyi təmənnasız xidmətlərini yüksək qiymətləndirmişdir. X.M.Sasan yazır ki, avropalılar Məhəmmədhəsən xanı o qədər də sevmirdilər, çünki o, bacardıqca onların əlində oyuncaq olmamışdır və Qərbin Şərq ölkələrinə aid tədqiqatları ilə o qədər razılaşmamışdır. X.M.Sasan göstərir ki, XIX əsrin ikinci yarısında İranda Etimadüssəltənə qədər elm yolunda, cəmiyyət üçün çalışan ikinci bir şəxs olmamışdır. O sözün əsl mə'nasında geniş dünyagörüşünə malik olan ziyalı idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İri həcmli tarixi-coğrafi əsərlərini: dördcildlik "Miratül buldane Nasiri", üçcildlik "Mətlə-üş-Şəms", Xeyrate həsan", "Dürərüt-tican fi tarix-i bəni-Əşkan","əl-Məasir vəl-asar" və s. əsərlərin müəllifi olan Etimadüssəltənə dünyanın bir sıra elmi cəmiyyətlərinin: Paris Coğrafiya Cəmiyyəti, Fransa-Asiya Cəmiyyəti, İmperator Rus Arxeoloji Cəmiyyəti, Londonda Britaniya krallığı Asiya cəmiyyətinin üzvü seçilmiş, Tehranda elmi məclis yaratmış, bu məclisin yığıncaqlarını öz şəxsi evində keçirmişdir.

Tədqiqat üçün Məhəmmədhəsən xan Səniüddövlə E'timadüssəltənənin ictimai-siyasi fəaliyyəti kimi geniş bir mövzunu seçən müəllif yuxarıda adları qeyd olunan alimlərin əsərlərindən yeri gəldikcə istifadə etmişdir.

Bununla bərabər, məlum nəticələri inkişaf etdirmək məqsədilə Etimadüssəltənənin ictimai-siyasi fəaliyyətinin indiyə qədər izah edilməmiş bəzi başqa cəhətlərinə də bu əsərdə toxunulmuş və ona məxsus olan yeni keyfiyyətlər aşkara çıxarılmışdır.

Etimadüssəltənə istər tarixi-coğrafi, istərsə də siyasi məzmunlu əsərlərini yazmaqla dünya tarixşünaslığına böyük xidmətlər göstərmiş, onu yeniləşdirmişdir. İran tarixşünaslığında Avropa elmi metodunun banisi Etimadüssəltənə haqqında məşhur rus alimi Kraçkovski yazır ki, onun əsərləri XIX əsr fars nəsrinin sadələşmiş nümunələrindən hesab olunur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

O cümlədən Azərbaycanın qədim tarixi, onun görkəmli elm, sənət adamları haqqında məlumat verən əsərləri diqqətəlayiqdir və bu əsərlər tədqiqatın əsas obyektlərindən biri olmuşdur.

Azərbaycanın müqəddəm elinə mənsub olan marağalı Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənə  və onun ictimai-siyasi fəaliyyətinə həsr olunmuş bu monoqrafiya müqəddimə, ilk fəsil (hər fəsil ilk bölmədir), və istifadə edilmiş ədəbiyyat və mənbələrin biblioqrafiyasından ibarətdir. Birici fəsil - "Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin həyatı və yaradıcılığı" - iki bölmədən ibarətdir: "XIX əsrin ikinci yarısında İranda vəziyyət" adlanan 1 bölmədə bəhs olunan dövrdə İranın xarici dövlətlər tərəfindən xammal mənbəyi və satış bazarı olması, ölkənin yarım-müstəmləkəyə çevrilməsi prosesi göstərilir. Qeyd etmək lazımdır ki, bəhs olunan dövrün hakimi, Qacarlar səltənətinin 4-cü şahı Nəsrəddin şah ziddiyyətli bir şəxsiyyət olmuşdur. Şahın ətrafında iki dəstə fəaliyyət göstərirdi. Birinci dəstəyə ölkədə konstitusiyalı monarxiya tərəfdarları (Mirzə Yusif xan Müstəşaüddövlə, Əli xan Əminüddövlə, Seyid Cəmaləddin və b.), ikinci dəstəyə isə mütləq monar-xiyaçılar (Baş nazir Əminüssultan və bütün istibdad tərəfdarları) daxil idilər.

İkinci bölmədə "Etimadüssəltənənin həyatı və dövrün müxtəlif siyasi cəmiyyətlərinə münasibəti" adlanır. Burada adları XIX əsrin ikinci yarısı İranın ictimai-siyasi mübarizə tarixində qalmış bir sıra



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəxsiyyətlərin ölkənin istiqlaliyyəti yolunda apardıqları mübarizədən və onlarla həmfikir və sıx əlaqədə olmuş Etimadüssəltənənin onlara münasibətindən bəhs olunur.

Monoqrafiyanın birinci fəslində Məhəmmədhəsən xan Etimadüssəltənənin yaradıcılığından geniş bəhs olunmuşdur. Bu fəsildə ilk dəfə olaraq alimin əsərlərinin tam siyahısının tərtibinə təşəbbüs göstərilmiş, iri həcmli tarixi-coğrafi əsərlərindən, Avropa ədəbiyyatının ən yaxşı nümunələrindən etdiyi tərcümələrindən, dilçi-alim kimi fəaliyyətindən bəhs olunmuşdur. Yüz il bundan əvvəlki İranın ictimai-siyasi həyatının güzgüsü olan 1216 səhifəlik "Ruznameye xaterate Etimadüssəltənə" adlı gündəliyinin XIX əsr memuar ədəbiyyatının gözəl nümunəsi olduğu göstərilmişdir.

Bu fəsildə Etimadüssəltənənin "Politike haliyyeye rus və ingilis dər Asiya", "Kəşfül məayebe ingilis", "Ketabçeye enhesare tənbaku" kimi siyasi məzmunlu əsərlərindən də bəhs olunur.

İkinci fəsil "Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri" adlanır. Burada onun "Mir'atül buldane Naseri" əsərini 1 və 4 cildlərində öz əksini tapmış Azərbaycanın qədim tarixi abidələri, şəhər və kəndləri haqqında, "əl-Məasir vəl-asar" əsərindən isə Azərbaycanın görkəmli sənət adamları haqqında olan mə'lumatların tərcümələri verilmişdir.

Sonda istifadə olunmuş zəngin ədəbiyyat siyahısı dərc olunmuşdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## MƏHƏMMƏDHƏSƏN XAN ETİMADÜSSƏTƏNƏNİN HƏYATI VƏ YARADICILIĞI

### XIX əsrin ikinci yarısında İranda vəziyyət

XIX əsr İran tarixinin yeni dövrüdür. Bu dövr artıq kapitalizmin inkişaf etdiyi Avropa dövlətləri tərəfindən İranın sənaye kapitalizmi təsirinə düşməsi ilə səciyyələnir. Şərqə aparan yollar üzərində, əlverişli mövqedə yerləşən İran Fətəli şah Qacarın zamanından geniş dünya bazarı axtaran Avropa dövlətlərinin daha artıq maraqlandığı, daimi və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müntəzəm diplomatik əlaqələr yaratmağa cəhd etdikləri ölkə olmuşdur. Hindistan və başqa Şərq ölkələrinə yollar İrandan keçdiyi üçün İngiltərə, Fransa və Rusiya bu regionda rəqabət aparırdı /2, 235/.

XIX əsrin əvvəllərində İran ağır iqtisadi çətinliklərlə üz-üzə dayanmışdı. Uzun əsrlərdən bəri yadellilərin işğalına mə'ruz qalmış ölkə dağılmış, var-yoxdan çıxmış bir vəziyyətdə idi. Digər tərəfdən feodallararası daxili çəkişmələr hələ də patriarxal həyatın hökm sürdüyü İranın iqtisadi və ictimai inkişafını ləngidirdi. Lakin İran XVIII əsrdə hələ öz müstəqilliyini itirməmiş, müstəmləkə vəziyyətinə düşməmişdi. Bu dövrə qədər Avropa dövlətləri İranla yalnız ticarət əlaqələri saxlayır, onun daxali və xarici siyasətinə qarışmırdılar.

XIX əsrin ilk illərində İran dövləti Avropa dövlətlərinin siyasət cərəyanına, beynəlxalq siyasət dairəsinə cəlb olunmağa başladı. Fransa Hindistana qoşun göndərmək məqsədilə əlverişli coğrafi mövqeyə malik İranla yaxınlışmağa səy etdi. İngiltərə dövləti bunu hiss etdikdə İranla əlaqə yaratmağ üçün bir sıra müqavilələr bağladı. Fransa və İngiltərənin İranla yaxın münasibətlər yaratmaq cəhdi Zaqafqaziyada özünün işğalçı siyasətini yeritməyə çalışan Rusiyanı narahat edirdi və o, İngiltərə ilə diplomatik əlaqəyə girərək yaxınlaşdıqda, İran bundan böyük zərər çəkdi. Rusiya və İngiltərə İranı bölüşdürmək siyəsəti yeritməyə başladı və Rusiya iyirmi beş il ərzində İranla iki dəfə işğalçı müharibə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

apardı. Birinci Rusiya-İran müharibəsi (1804-1813) Gülüstan müqaviləsi ilə bitdikdə Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və talış xanlıqları, ikinci Rusiya - İran müharibəsi (1826-1828) isə Türkmənçay sülh müqaviləsi ilə bitdikdə Naxçıvan xanlığı, Ordubad dairəsi və İrəvan xanlığı Rusiya tərəfindən işğal olundu. Şah İranı Zaqafqaziyada mövqeyini itirmiş oldu.

Ölkə daxilində müharibələrin vurduğu maddi ziyanlar, müharibənin İran xalqlarının üzərinə qoyduğu 20 milyon manat borc ağırlığı siyasi və ictimai vəziyyəti mürəkkəbləşdirdi.

XIX əsrin 50-ci illərində İranda hökumət Baş nazir vasitəsilə idarə olunurdu. 1858-ci ildə Nəsrəddin şah Qaçarın (1831-1896) yaratdığı altı nazirlik: daxili işlər, xarici işlər, maliyyə, qoşun, ədliyyə, oqaf və təqaüd məsələlərinə baxırdı. Lakin bu nazirliklər əhalinin zəruri ehtiyaclarını ödəmirdi. İranın inkişafına mane olan amillərdən biri kimi dövlətlərin, xüsusilə Rusiya və İngiltərənin bu ölkədə apardıqları rəqabət, müstəmləkəçilik siyasətindən başqa hökumət və saray dairələrində onların yaratdıqları fitnə-fəsad da ölkədə vəziyyəti gərginləşdirirdi. Rusiya və İngiltərə hər ikisi sə'y edirdi ki, İrandan daha artıq mənfəət götürsün. Məsələn, əgər İngiltərə İran hökumətindən müəyyən bir imtiyaz alırdısa, Rusiya ondan daha üstün bir imtiyaz əldə edirdi. XIX əsrin ortalırından Xarəzm, Mavərəünnəhr və Xəzərin şərqinə göz tikmiş Rusiya bu geniş əraziləri ələ keçirərək, İranla Şimali-Şərqdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

həmsərhəd oldu və 1881-ci ildə Nəsrəddin şahla sərhəd müqaviləsi bağladı. Bu müqavilə bağlanandan az müddət keçdikdən sonra İngiltərə Xorasan valisinin Heratı zəbt etdiyinə e'tiraz əlaməti olaraq Xarək adasını, Buşehr, Xürrəmşəhr və Əhvazı tutdu. III Napoleonun vasitəciliyi ilə 1857-ci ildə bağlanmış müqaviləyə əsasən Nəsrəddin şah Heratı boşaltdı və İranın Əfqanıstandakı hüquqlarından imtina etməyə məcbur oldu. Bunun ardınca İngiltərə tələb etdi ki, İranın xərac aldığı Belucistan da Hindistan imperatorluğuna verilsin. İngilislər həmçinin Nəsrəddin şahı Hindistan sərhədləri barədə sənədə qol çəkməyə məcbur etdilər və bununla da İngiltərə Belucistanda hökmranlığını rəsmiləşdirdi /3, 322-324/. 1868-ci ildə ruslar Xəzər dənizində balıq ovu imtiyazını Nəsrəddin şahdan aldılar. Bunun müqabilində İngiltərə kapitalisti Röyter İranda özünün bir sıra imtiyazını əldə etdi. Bu imtiyaz ölkədə dəmir yolları çəkilişi, mədənlərin istismarı, sulardan və meşələrdən götürülən mənfəəti ona aid edirdi. Lakin bu böyük imtiyaz rusların təzyiqi ilə ləğv edildi. 1889-cu ildə İngiltərə İran "Şahənşah" bankının təsisi və kağız pulların imtiyazını aldıqda, Ruslar 1890-cı ildə istiqraz bankının imtiyazını ələ keçirdilər. Bütün bu rəqabət əhalini böyük çətinliklər qarşısında qoyur və narazılıqlar doğururdu. İranda ən ciddi narazılıq doğuran və geniş əhalinin çıxışlarına səbəb olan hadisə tənbəki imtiyazı oldu. Bu imtiyaz Nəsrəddin şahın Avropaya üçüncü səfəri zamanı İngiltərə təbəəsi Talbotun inhisarına verdiyi tütünün



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

satın alınması, emalı və satılması haqqında olan imtiyaz idi. Lakin 1891-ci il 7 martda imzalanmış imtiyazı Nəsrəddin şah xalqın təzyiqi ilə 1892-ci il yanvarın 5-də ləğv etməyə məcbur olmuşdu. Bununla əlaqədar Təbriz, Tehran, İsfahan və b. şəhərlərdə izdiyamlı mitinqlər keçirilmişdir. Əgər babilər üsyanı İranın Avropa ölkələrinin sənaye malları üçün satış bazarına çevrilməsi nəticəsində yaranmış sosial ziddiyyətlərə qarşı ilk antifeodal üsyanlar idisə /1848-1852/, "Tənbəki üsyanı" xarici dövlətlərin ölkədə apardıqları müstəmləkə siyasətinə qarşı ilk çıxış olmuşdur.

İran XIX əsrin ortalarından get-gedə Avropa dövlətlərinin, xüsusən Çar Rusiyası və İngiltərənin sənaye malları üçün satış bazarına və xammal mənbəyinə çevrilirdi. Xarici kapitalın buraya yol açması xırda sənətkarlığın dağılmasına səbəb olurdu. Çünki Avropa malları burada 2-3 dəfə ücüz satılırdı /4, 470-472/. Bu dövrdən etibarən İranın yarımmüstəmləkə vəziyyətinə düşməsi prosesi başlayır.

İranın ictimai həyatının gərgin dövründə haqsızlığa etiraz edən kiçik bir çıxış amansızcasına yatırılırdı. Buna baxmayaraq bir sıra vətənpərvər ziyalılar əhalinin bu çətinlikdən çıxması üçün yollar arayır, bunu dövlət işlərində islahatlar aparmaqda, xalq kütlələrinin oyanaraq siyasi mübarizəyə qoşulmasında, demokratik dövlət quruluşu yaradılmasında görürdülər. Əvvəllər hakim quruluşa qarşı mübarizə əsasən müxtəlif dini cərəyanlar



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəfindən aparılırdı. XIX əsrin ikinci yarısında yaranmış bir sıra siyasi təşkilat və cəmiyyətlər isə (onlar çox vaxt mütərəqqi ruhanilərin, din xadimlərinin nüfüzündan istifadə edirdilər) İranın Avropa yolu ilə inkişaf etməsi, İran istiqlalının qorunması uğrunda mübarizə aparırdılar /5, 3/. Lakin ölkədə müəyyən qanunlar tətbiq etməyə çalışan, səy göstərən, maarifin, mədəniyətin inkişaf etməsi üçün çalışan mütərəqqi fikirli şəxslər təqiblərə, ağır işgəncələrə məruz qalırdı. İranın yüksək rütbəli dövlət qulluqçuları arasında mütərəqqi fikirli ziyalılar da var idi. Nəsrəddin şah dövrünün birinci baş naziri Mirzə Tağı xan Əmiri-Kəbirin (1848-1851) apardığı bir sıra islahatlar /4, 70/ İranda ingilislərin təcavüzlərini məhdudlaşdırır, iri torpaq sahiblərinin fəaliyyət dairəsini azaldırdı və s. İranda ilk darülfünün təsis etmiş (1851) bu ictimai xadimin ingilislərin və daxili irtica qüvvələrinin əlilə qətlə yetirilməsini söyləmək azdır. "Bu hadisə sarayda yeniliklə köhnəlik arasında, dövrün mütərəqqi məfkurələrilə göhnə irticacı məfkurələrin arasında, yenicə meydana gəlməkdə olan burjua ünsürləri ilə feodal zadəganları arasında gedən ziddiyyət və mübarizə ilə əlaqələndirilməlidir /5, 23/.

Məhz Nəsrəddin şah hakimiyyəti dövründə İranda nisbətən sakitlik bərpa olduğunu, xarici dövlətlərlə müharibələr baş vermədiyini qeyd edən Tehran universitetinin professoru İsa Sadiq öz mülahizələrində haqlıdır. Həqiqətən əvvəlki dövrlərlə müqayisədə maarif, elm və mədəniyyəti



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

canlandıran şərait məhz Nəsrəddin şah zamanında hiss olunur. Bu zaman Avropa dövlətlərilə əlaqə yaranır, orada nəşr olunan qazetlər İrana gətirilirdi. Ölkədə ilk Darülfünunun açılması, mütərəqqi fikirli ziyalıların yardımı ilə Qərbin hərbi-texniki, inzibati nailiyyətlərinin öyrənilib, tətbiqinə cəhd edilməsi, Avropa ölkələri ilə diplomatik rəsmi nümayəndəliklərin yaradılması, nizami qoşun təşkil edilməsi, xarici ölkələrə tələbə göndərmək kimi yeniliklər bu zaman başlamışdır. Nəsrəddin şahı Qaçar şahlardan fərqləndirən başlıca cəhətlərdən biri də onun hakimiyyəti dövründə həyata keçirilən islahatlar, kapitalizm ünsürlərinin, burjuaziya sinfinin əmələ gəlməsi, feodal münasibətlərinin parçalanmasıdır. Şahın özünə məxsus müsbət xüsusiyyətdəri də olmuşdur. Məsələn, Əmiri-Kəbir Fərəhani öldürüldükdən sonra şah İran şəhərlərinə səyahət edərkən, Fərəhanda dayanmış, Əmirin nəsli ilə maraqlanmış, onun adına olan "Məhəlleyi-Mirzə Tağı xani" küçəsini tapmış, onun haqqında nə isə eşitmək üçün ayrı-ayrı şəxslərlə görüşüb söhbət etmişdir /6, 6/. Qeyd etmək lazımdır ki, sonralar Tağı xanın oğlu Mirzə Əbdürrəhim xan İranın Peterburqda vəziri-muxtarı olmuş, şah tərəfindən yüksək ada layiq görülmüşdü. E'timadüssəltənə yazır ki, Nəsrəddin şah sonralar İran ordusunun pis vəziyyətə düşdüyünü görürkən, Mirzə Tağı xanı xatırlamış və bu işdə onun üsulundan istifadə etməyi tapşırmışdı /7, 214/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Beləliklə Nəsrəddin şahı, Qaçar şahlardan fərqləndirən bə'zi xarakterik xüsusiyyətləri olmuş və bu bir neçə cəhətdən səciyyəvidir:

Əvvələn, onun hakimiyyəti dövründə azadlıq nurunun zəif şüası dünyanı bir qədər işıqlandırmışdı, bu zaman artıq mütərəqqi millətlər azadlığa, elm, sənaye sahəsində inkişafa doğru gedirdilər. İranlılar tədricən yeni mədəniyyət, ümumi hüquq normaları ilə tanış olurdular və hökumətin əməllərinə qarşı müqavimət göstərmək əhvali-ruhiyyəsi meydana gəlirdi.

İkinci, Nəsrəddin şah əzmli və iradəli şəxs idi və bir qədər çalışsa idi, öz millətini irəli, tərəqqiyə doğru apara bilərdi.

Üçüncü, bu şahın hakimiyyəti əlli il davam etmişdir. Bu müddətlə o, ölkəni irəli apara bilən müəyyən xeyirli addımlar atdı.

Digər tərəfdən isə bu müstəbid şah xalqın mədəniyyət karvanında uzaq düşməsinə səbəb olmuşdu, məmləkətin ətrafında istibdaddan hasar hörmüşdü /8, 132-133/. Lakin unutmaq olmaz ki, onun dövründə mütərəqqi addımların atılması nəticəsində yaranan uğurların davam və inkişaf etdirilməsinə mane olan işğalçı Rusifa və İngilətərə kimi qüvvətli, hiyləgər dövlətlər var idi. Bu dövlətlər İranda iqtisadiyyatın mühüm nöqtələrini ələ keçirməklə onu dünya kapitalist bazarının mənafeyinə uyğunlaşdırmış, xarici ticarəti öz əllərində saxlamışdılar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Göründüyü kimi Nəsrəddin şah çox ziddiyyətli bir şəxsiyyət olmuşdur. Onun hakimiyyəti dövründə İran kəskin konfliktlər meydanı idi. Şahın ətrafında iki dəstə fəaliyyət göstərirdi. Birinci dəstəyə İranda konstitusiyanın (qanune əsasi) fəaliyyət göstərməsinin tərəfdarları, ikinci dəstəyə isə konstitusiya əleyhdarları daxil idilər. Birinci cəbhəyə Seyid Cəmaləddin Əsadabadi, Mirzə Mülküm xan, Mirzə Yusif xan Müstəşarüddövlə, Əminüddövlə, Etimadüssəltənə və başqaları, ikinci cəbhəyə isə Əminüssultan və onun ideya tərəfdarları daxil idilər. Göründüyü kimi adları çəkilən mütərəqqi şəxsiyyətlər arasında milliyyətcə azərbaycanlı olan siyasi xadimlər də vardır.

1828-ci il Türkmənçay müqaviləsindən sonra İranın tərkibində qalmış Cənubi Azərbaycan bütün İranın ictimai-siyasi, mə'nəvi inkişafında mühüm mövqe tutur. Qacarlar hakimiyyəti əsasən Azərbaycanın müxtəlif qəbilələrinin-əfşarlar, şəqaqilər və b. hesabına qorunurdu /9, 8/. İranda baş verən xalq hərəkatının tərəfdarları və onu müdafiəyə qalxanlar ilk növbədə Azərbaycanın Təbriz, Zəncan və başqa şəhərlərinin əhalisi olmuşdur. Bunun səbəbi Cənubi Azərbaycanda çox mürəkkəb sosial-iqtisadi və siyasi vəziyyətin xalqın normal yaşayışı ilə tam uyğunsuzluq təşkil etməsi və xalqın bununla barışmaması idi /9, 36/. Heç də təsadüfi deyil ki, Nəsrəddin şah bu regiona xüsusi dtqqət yeririrdi. O, 1880-cı ildə daxili işlər naziri Mustofiyülməmalikə yazdığı məktubda Cənubi Azərbaycan əyalətinin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

daxili vəziyyətinə diqqəti artırmağı xüsusi tapmışdı /9, 103/. Lakin görülən tədbirlər vəziyyəti sabitləşdirməmiş, 1881-ci ildə Təbriz əhalisi Sahib-Divanı Cənubi Azərbaycandan qovmuşdu /10, 252/. Sinfi mənsubiyyətindən asılı olmayaraq Cənubi Azərbaycanın mədəniyyət, ictimai xadimləri həmişə İranda yaranan və dövrün mütərəqqi fikirlərini özündə əks etdirən ziyalılar dəstəsinin önündə gedirdilər. /M.H.Rüşdiyyə, Mirzə Yusif Təbrizi, Ə.Talıbov və b. /9, 212/. Azərbaycanın nisbətən yuxarı təbəqələrinin nümayəndələri Rusiyaya və Avropanın digər ölkələrinə diplomat, rəsmi nümayəndəliklərin üzvləri sifətilə və ya təhsil almaq üçün gedərkən bu ölkələrin yalnız dövlət quruluşu, elmi-texniki yenilikləri ilə deyil, həm də, mədəni həyatı ilə tanış olur, onu öyrənirdilər /11, 128/. Onların Qərbin tərəqqisi, Şərqin, o cümlədən İranın isə tənəzzülü çox düşündürür, bundan çıxış yolları axtarırdılar.

## Məhəmmədhəsən xan Etimadüssəltənənin həyatı, dövrün müxtəlif siyasi cəmiyyət üzvlərinə münasibəti

Nəsrəddin şah Qaçar dövrünün görkəmli siyasi xadimləri olan Mirzə Yusif Təbrizi, həmədanlı Seyid Cəmaləddin "Əfqani", Mirzə Əli xan Əminüddövlə, marağalı Məhəmmədhəsən xan Səniüddövlə E'timadüssəltənənin onlara münasibətindən bəhs



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etməmişdən əvvəl həmin siyasi xadimlərin həyat yoluna nəzər salmaq məqsədəuyğun hesab edilir.

İranın mühüm sosial-siyasi problemlərini yeni qayda ilə həll etməyi çalışan, geniş dünyagörüşünə malik, Mirzə Melkum xan və həmfikirlərinin yaratdıqları "Adəmiyyət cəmiyyəti"nin başçılarından biri, təbrizli Mirzə Yusif xan Müstəşarüddövlə ictimai mənşə e'tibarilə ticarət burjuaziyasına mənsub olsa da, öz məmləkətində əsaslı dəyişikliklər tərəfdarı olan açıqfikirli ziyalı idi. O, öz əqidəsi yolunda çox zəhmətlərə qatlaşmış, dəfələrlə həbs olunub, zindana atılmışdı. Gəncliyində Təbrizdə ingilis konsulluğunda münşi vəzifəsini icra etmiş, oradan Xariciyyə nazirliyinə işə düzəlmiş, sonra Həştərxan, Peterburq, Tiflis şəhərlərində konsul olmuş, 1867-ci ildən 1871-ci ilədək Parisdə İranın səfəri vəzifəsini daşımışdır. Orada çalışarkən Londona getmiş, Mirzə Mülküm xanla tanış olmuşdur. Mirzə Yusif xan Rusiyada və Fransada olduğu müddətdə bu ölkələrin siyasi-ictimai vəziyyətləri ilə yaxından tanış olmuş, 1871-ci ildə Fransanın 1789-cu ildə qəbul edilmiş 19 maddəlik konstitusiyasından iqtibasən "Yek kəlmə" əsərini yazmış, burada öz əksini tapmış qanunların İran həyatına tətbiq edilməsinə çalışmışdır /12, 493/ Tehrana qayıtdıqdan sonra Ədliyyə naziri Mirzə Hüseyn xanın yanında məsləhətçi işləmiş, buna görə də Məstəşarüddövlə ləqəbi almışdır. Mirzə Yusif xan Ədliyyə nazirinin müavini olarkən İran divanxanalarında və nazirliklərində olan mühit onu çox düşündürürdü. Bu vaxtlar İstanbulda Məhəmməd



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tahir Təbrizi və Mirzə Mehdi Təbrizi tərəfindən buraxılan, İranda yayılması və nəşri qadağan edilmiş "Əxtər" qəzeti İranın nazirliklərində hökm sürən yaramaz işlər barədə "Birovuz /Müstəar/ imzası ilə məqalələr yaydığı və bu məqalələrin Mirzə Yusif xan tərəfindən yazılması mə'lum olduğu üçün şahın əmrilə dövlət işlərindən azad edilərək həbs olunmuşdur /8, 225/. Məhəmmədhəsən xən E'timadüssəltənənin gündəliyindən bu hadisənin 1882-ci ilin 26 sentyabrında baş verdiyi mə'lum olur. Mirzə Yusif xan Mirzə Əli xan Əminüddövlə və Məhəmmədhəsən xanın yaxından köməyi ilə həbsdən azad edildikdən sonra Azərbaycanın xarici işlər müdiri vəzifəsində çalışmışdır. O, 1890-cı ildə həmin vəzifədə ikən Mirzə Mülküm xan Nazimüddövlə ilə yaxın münasibətdə olduğu üçün məvacibi kəsilmiş, ləqəbi xarici nazirlikdə yüksək vəzifədə çalışan və 1888-ci ildən İranın İstambuldakı səfirliyinin əməkdaşı olmuş qardaşı Cavad xana verilmiş, onun yerinə Azərbaycana göndərilmişdi. Mirzə Yusif xanı isə qandallayıb Qəzvinə apararaq, orada həbs etmişdilər. Bu hadisə o vaxt baş vermişdi ki, bir sıra gizli cəmiyyətlərin üzvləri həbs edilərək Qəzvin zindanına göndərilmişdilər. Onlar "adəmiyyət cəmiyyəti"nin Tehran camelərindən birinin üzvləri olduqlarına, "Qanun" qəzetini (Londonda çıxırdı), digər gizli vərəqləri yaydıqlarına görə həbsə alınmışdılar /5, 72/. Mirzə Yusifi həbs edərkən "Yek kəlmə" kitabını o qədər başına vurmuşdular ki, gözlərinə qara su gəlmişdi /12, 492/



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Yek kəlmə" əsəri Mirzə Yusif xan Təbrizinin yüksək siyasi fikirlərinin təzahürü idi. Onun əsərində ifadə olunan baxışları öz demokratik ruhu ilə müasirlərindən xeyli fərqlənir /13, 52/. Belə ki, o,i dealistcəsinə olsa da, dövlət quruluşunun bütün siniflərin mənafeyini təmsil etməli olduğu ideyasını irəli sürür. Məhz bu nöqteyi-nəzərdən Mirzə Yusif xan başqalarının əslində toxunmadığı məsələləri - demokratik seçki sistemi, siyasi partiyaların,o cümlədən zəhmətkeşlərin öz siyasi partiyası olması zəruriliyini qeyd edirdi /9, 285/. Lakin əsərin hakim dairələr tərəfindən mənfi qarşılandığı, təklif etdiyi qanunların həyata keçmədiyini gördükdə bu onu ruhən sarsıtmış və ölümünə yaxın vəliəhd Müzəffərəddin Mirzəyə məktub yazaraq, bu tarixi sənədin Nəsrəddin şaha çatdırılmasını xahiş etmişdir. O, məktubda göstərirdi ki, nə qədər ki, İranda zülm və şəxsiyyət məhrumiyyəti hökm sürür, İran tərəqqi və əmin-amanlıqdan çox uzaq olacaq və ayaqlarla sürünəcək... İranda qanun hökm sürməli, hamı bu qanuna tabe olmalıdır... insanlar qanun qarşısında bərabər olmalıdır. Qanun qarşısında şah və gəda bərabərdir /14, 56. 1, 282/. Mirzə Yusif xan Tiflisdə olarkən dostlarına deyirdi: Nə olaydı ki, əziz vətənimdə qayda-qanun, asayiş və abadlıq olaydı.

"Yek kəlmə" əsəri 1905-ci ildə Tehranda yarnmış "Əncümənе məxfi" (gizli əncümən) tərəfindən siyasi proqram kimi qəbur olunmuşdu.

Mirzə Yüsif Təbrizi "Yek kəlmə"dən başqa "Rəmze Yüsifi", "Tə'limül ətfal", "Kitabe hesab",



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"İslam xəttinin islah edilməsi luzumu haqqında", "Kitabe bənəfş" (əsərdə dəmir yolunun ölkənin abadlaşmasında mühüm rola malik olmasından danışılır) əsərlərinin müəllifidir.

İranın nicat yolunu məşrutə və konstitusiya üsulunun bərqərar edilməsində görən Mirzə Yusif Təbrizi Azərbaycanın görkəmli ziyalılarından Mirzə Kazım bəy və M.F.Axundovla məktublaşırdı. O, M.F.Axundova göndərdiyi məktublardan birində "Yek kəlmə"yə işarə edərək yazırdı: "Mən əlifbanı dəyişdirməkdən daha əhəmiyyətli olan, xalqa və dövlətə daha artıq fayda verən böyük bir işlə məşğulam. Əgər mənim və mənimlə həmrə'y olan iş yoldaşlarımın sə'yinin səmərə verməsinə tale yardım edərsə, bizə və həmvətənlərimizə ən gözəl nemətlər nəsib olacaqdır" /15, 283/. M.F.Axundov "Yek kəlmə"nin liberal ruhda yazılmasını tənqid etmişdir. O, "Yek kəlmə" haqqında tənqidi məqaləsində həmin əsərin faydalı məsləhət olduğunu, lakin "ölmüş millət üçün" yazıldığını göstərmişdir. Çünki o vaxt İranda zalıma "Səltənət və hökumət busatından əl çək!" deməyə qüdrəti çatan yox idi və nəsihət zalımın təbiətinə tə'cir etməzdi. Axundova görə xalq əvvəlcə bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: "Səltənət və hökumət busatından əl çək! Ondan sonra konstitusyonu millət özü ümumi iş və ədalətin icrası üçün icad edər" (M.F.Axundov. Əsərləri. C.2, s.172, 176). Lakin o dövrdə İranda hökm sürən gərgin istibdadın çox örtülü və yumşaq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tənqidi belə qəbul etməməsi nəzərə alınsa, Mirzə Yusif xanın əsərinin qiyməti bilinər. Əsərdə tərəqqi və mədəniyyət məsələlərinə dair fikirlər Qur'andan, hadisələrdən gətirdiyi misallarla əsaslandırılır ki, "daha deməsinlər ki, filan şey islam dininin ziddinədir və yainki islam dini tərəqqi və mədəniyyətin inkişafına maneədir" /15, 286/.

Mirzə Yusif xanın həqiqi qiyməti Fətəli şah Qacarın oğlu Cəlaləddin Mirzənin bu sözlərində verilmişdir: "Aydındır ki, əgər İranda beş nəfər ağıllı adam olarsa, onlardan biri sizsiniz və əgər iki nəfər olsa yenə də biri sizsiniz" /15, 287/.

Mirzə Yusif xan Təbrizi ictimai qüdrətin mənbəyini xalqda və xalqın iradəsində olduqunu e'lan etmiş birinci iranlı içtimai xadimdir /5, 46/. Seyid Cəmaləddin həmədani (1839-1897) XIX əsrin yarısı İran tarixinin yeni dövrünün diqqəti cəlb edən görkəmli siyasi, ictimai xadimidir. "Əfqani" kimi məşhur olmuş Seyid Cəmaləddin 1838-ci ildə Həmədanın yaxınlığındakı Əsadabad qəsəbəsində doğulmuşdur. Seyid Cəmaləddin Qəzvin, İsfahan və Buxara şəhərlərində təhsil almış, sonra Hindistana, Məkkəyə, oradan Kabilə getmiş, sarayda qulluq edərək hakimiyyətdə olan Məhəmməd Ə'zəm xanın yaxın məşvərətçisi olmuşdur. Lakin hakimiyyətdən kənar edildikdə Seyid Əfqanıstandan Misirə, sonra İstanbula getməyə məcbur olmuşdur. Seyid Cəmaləddin Türkiyədə bir sıra elmi müəssisələrə üzv qəbul edilmiş, şöhrət qazanmışdı. Burada Şeyxülislam və onun tərəfdarları olan köhnə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ruhanilər onun şöhrətinə qibtə edərək hörmətdən salmağa çalışmış, nəhayət Seyid Türkiyədən sürgün olunmuşdur. Bundan sonra Misir darülfünununda oxuduğu mühazirələri vasitəsilə ətrafına xeyli tələbə, gənc ziyalı toplamışdı. 80-cı illərdə İngiltərə Misiri işğal edərkən ayağa qalxmış mütərəqqi qüvvələrə Seyid başçılıq etmişdi. O, yaratdığı "hizbül-vətən" əncüməninin proqramında Misir üçün siyasi, iqtisadi azadlıq tələb etmiş, ölkədə xaricilərin mənafeyini məhdudlaşdırmışdı. Lakin İngiltərə Seyid Cəmaləddinin Misirdən çıxarılmasını tələb etmiş və o, 1879-cu ildə Hindistana getməli olmuşdu. O, sonralar, yə'ni Parisdə olarkən, yenə də Misirin azad olması üçün mübarizə aparmışdır. 1886-cı ildə İran hökumətinin də'vətilə (Dövlət Nəşriyyat naziri Məhəmmədhəsən xan E'timadüssəltənənin sə'yi nəticəsində) Tehrana gəlmiş, burada qaldığı müddətdə bir sıra dövlət adamları, yüksək ruhanilərlə görüşmüş, özünün mütərəqqi baxışlarını təbliğ etdiyinə görə tə'qib olunaraq, İrandan sürgün edilmişdir. O, 1889-cu ildə yenidən İranda olarkən məhdudiyyətlərə baxmayaraq, əhali onun görüşünə gəlir, tez-tez yığıncaqlarda iştirak edirdi. Bunun qarşısını almağın mümkün olmayacağını gördükdə, şah onun Quma köçürülməsi üçün göstəriş vermiş, Seyid Cəmaləddin isə müqəddəs Şahəbdüləzimdə bəst əyləşməyə, mütləqiyyətə qarşı mübarizəni burada davam etdirməyə məcbur olmuşdu. Seyid Cəmaləddin köhnə quruluşu, sarayı və mütləqiyyəti ifşa edirdi. Buna görə həbs edilib,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İraqa sürgün edildi. O, İraqda da mübarizəsini davam etdirir, İranda baş verən hadisələri izləyərək onları istiqamətləndirirdi. Xüsusən "Tənbəki üsyanı" dövründə tütünün işlədilməsinin ruhanilər tərəfindən haram e'lan edilməsi hadisəsi onun təşəbbüsü ilə olmuşdur /5,71/. Seyid Cəmaləddin XIX əsrin sonlarında fəaliyyət göstərən "İttihadi-islam" cəmiyyətinin təşkilatçılarından idi. Milli şüurun inkişafı nəticəsində yaranmış cəmiyyətlərdən biri olan "İttihadi-islam" müxtəlif vaxtlarda yaranmışdır və müxtəlif mahiyyətli olmuşdur /5,63/. Mütərəqqi panislamizm cərəyanının banisi, müsəlmanları xaricilərlə mübarizədə birləşməyə çağıran Seyid İranda müsəlman ittifaqı, məşrutə və respublika yaradılması uğrunda mübarizə aparırdı. Onun "Əfqani" adının tarixi barədə İran tarixçisi Mehdi Bamdad belə yazır: "Bir gün Əfqanıstanın İranda ilk səfiri olmuş sərdar Əbdüləziz xan Əfqanıstan ingilis əsarətindən qurtulduqdan sonra, 1919-cu ildə İrana gəlmiş və əmisi, eyni zamanda qaynatası olan sərdar İsgəndər xandan eşitdikləri barədə mənə belə söyləmişdir: "Bir dəfə sərdar Tehranda olan Seyid Cəmaləddindən soruşur ki, mən Əfqanıstanda olan bütün məşhur ailələri yaxşı tanıyıram və siz Əfqanıstanda sakin olan ailələrin heç birindən deyilsiniz, nə üçün özünüzü "əfqani" kimi tanıtmısınız? Seyid Cəmaləddin İsgəndər xanın sualına cavab verərək demişdir ki, İran dövlətinin xarici ölkələrdə nümayəndələri vardır, onlar mənim həyata keçirmək istədiyim işlərə mane ola bilirlər və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

həbs edə bilərlər, ona görə "əfqani" olmuşam. Əfqanıstanın isə heç bir yerdə siyasi nümayəndəsi yoxdur və mən öz planlarımı arxayın həyata keçirə bilərəm, heç kəs də məni narahat etməz" /7, 257-258/.

Nəsrəddin şah dövrü baş naziri Əminüssultan "Xatirate-siyasi" adlı gündəliyində Seyid Cəmaləddinə düşmən münasibət bəslədiyini gizlətməmişdir. O, Seyidin Tehrana gəlməsinə və şahla görüşməsinə mane olur, ingilislərə nifrət etdiyini, ruslarla yaxşı münasibətdə olduğunu bildiyi və İranda kiməsə arxalandığından şübhələndiyi üçün onun İrandan çıxıb getməsinə çalışırdı. O vaxt hələ poçt naziri olan Mirzə Əli xan Əminiddövlə isə Seyid Cəmaləddinlə həmfikir və sıx əlaqədə idi. Seyid həbs olunaraq, Türkiyəyə sürgün edilərkən, ələ keçən məktublar olan çantası saraya Nəsrəddin şahın hüzuruna gətirildikdə, istər Əminüddövlə, istərsə də E'timadüssəltənə çox narahat olmuşdular /16, 252-253/. Çox maraqlıdır ki, şah da çantadan onun rəğbət bəslədiyi adamlardan heç birinin məktubunun tapılmamasından xoşhal olmuşdu. Əminüssultan isə Seyidin məktublarını ona görə ələ keçirməyə cəhd edirdi ki, öz düşmənlərinə (Əminüddövlə, E'timadüssəltənə və b.) şər atsın, onları cəzalandırsın.

Seyid Cəmaləddin İranın böyük rühanisi Məhəmmədhəsən Şiraziyə və İran üləmalarına yazdığı məktublarında vətən torpağına məhəbbət, yeni nəslin düzgün tərbiyə olunması məsələsi, xalqla birləşmək, dini (lakin xürafatı yox) qorumağa çağırış



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ideyaları güclüdür. Onun fikrincə, əgər şah və onun əlaltıları hakimiyyətdən qovulmasalar, iranlılar ingilis müstəmləkəçilərinin əsarəti altına düşəcəklər /14, 115/. Mütləqiyyətin barışmaz düşməni olan Seyid Cəmaləddin, Əminüssultan və onun kimi xarici istismarçılara satılmış güclü cəbhənin əli ilə məhv edildi.

Mütləqiyyət üsuli-idarəsini yıxmaq, şahı hakimiyyətindən salmaq ideyaları Seyid Cəmaləddini, o dövr ziyalılarının çoxuna xas olan liberalizmdən uzaqlaşdırırdı. Lakin tədqiqatçı T.Ə.İbrahimovun dediyi kimi, Seyid və onun məsləkdaşları xalq gütlələrinin silahlı üsyanını təşkil etməyi qarşılarına məqsəd kimi qoymamışdılar və bu səviyyəyə gəlib çatmamışdılar. Seyid Cəmaləddin ömrünün axırlarında siyasi fəaliyyətində buraxdığı səhvi başa düşərək e'tiraf etmişdir ki, qarşısında qoyduğu məqsədə şahı və ümumiyyətlə ayrı-ayrı dövlət başçılarını aradan götürməklə deyil, kütlələrlə birləşərək, onları öz ardınca aparmaqla, silahlı üsyanla çata bilərdi. O yazımışdır: "...kaş mən öz faydalı fikirlərimi çürümüş, çirkin saraylarda yox, xalq kütlələri içərisində yaymağa çalışardım /14, 68/.

Nəsrəddin şah dövrünün görkəmli siyasi xadimlərindən biri də Mirzə Əli xan Əminüddövlədir. O, Mirzə Tağı xan Əmir Kəbir, Mirzə Əbdülqasim Qaimməqam Fərəhani və Hacı İbrahim E'timadüddövlə istisna olmaqla bütün baş nazirlərdən mütərəqqi və ağıllı olmuşdur. Əli xan Əminüddövlə XIX əsrin ortalarında İranda yaranmış siyasi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cəmiyyətlərdən olan "Adəmiyyət" cəmiyyətinin ən fəal üzvlərindən biri olmaqla bərabər "İttihadi islam" və ya "Hövzeye bidaran" adı ilə aparılan mübarizəyə də başçılıq edənlərdən biri idi /5, 78/. Maarifə böyük diqqət yetirməsi, məktəblər açması onun özünəməxsus xüsusiyyətlərindən idi. O, - "xalqı ayıltmağın başlıca əlacı mədrəsələrdədir" - deyirdi. Əminüddövlə 1844-cü ildə Tehranda ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini atasından almış, fransız dilini, qədim və müasir elmləri, ədəbiyyatı, Qərb ədəbiyyatını, fəlsəfə və dünya siyasətini öyrənmiş, gözəl xəttə malik olduğundan (o, şikəsteye-nəstə'liq xətt növünün banisidir) Nəsrəddin şahın ilk münşisi olmuşdur və onun əksər risalələrini yazmışdır /1, 272/. O, İranda ilk dəfə poçt işlərini tə'cis etmiş və bir müddət ona başçılıq etmişdir. 1879-cu ildə atasının apardığı Təqaüd və Vəqflər naziri vəzifəsi ona tapşırılmış, bir qədər sonra Əminüddövlə, (dövlətin e'tibarlı adamı) titulunu almış, nazirlər Məclisinin başçısı seçilmişdir. 1896-cı ildə Nəsrəddin şah qətlə yetirildikdən sonra Baş Nazir Əminüssultan vasitəsilə Tehrandan uzaqlaşdırılaraq, Azərbaycana göndərilən Əminüddövlə Təbrizdə Mirzə Həsən Rüşdiyyə ilə görüşmüş, orada öz xərci ilə məktəb açmışdır.

1897-ci ildə Müzəffərəddin şah onu Tehrana dəvət edərək, Əminüssultanın əvəzinə Baş nazir tə'yin etdikdə "heç kəsdən qorxmayaraq, ölkənin irəli getməsi üçün çalışmasını /1, 272/ tapşırmışdı. Bu zaman Əminüddövlə Mirzə Həsən Rüşdiyyəni də özü ilə Tehrana gətirib burada yeni üsulla mədrəsə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

açdırmış və onu müdir tə'yin etmişdir /17, 40/. Əminüddövlənin təşəbbüsü ilə məktəblərdən birinə də'vət olunmuş şah buraya 36 000 tümən pul bağışlamış, bunun da bir hissəsi məktəbin ehtiyaclarına, bir hissəsi isə Əminüddövlənin təşəbbüsü ilə yaradılmış "Əncümənе maarif" təşkilatına xərclənmişdi.[1] Əminüddövlə Tehranda ilk qənd fabrikini açmış, lakin işğalçı Rusiyanın rəqabəti nəticəsində bu sənaye müəssisəsi fəaliyyətini dayandırmalı olmuşdu. Çünki Rusiya öz qəndini İranda ucuz qiymətə satırdı /4, 177/. Əminüddövlənin həyata keçirdiyi mütərəqqi tədbirlərlə razılaşmayan Əminüssultan başda olmaqla bir sıra bədxahlar Müzəffərəddin şahın nəzərində respublika tərəfdarı kimi tanınmış və onu inandırmışdır ki, guya Əminüd-dövlə Baş nazir kimi fəaliyyt göstərməkdə davam edərsə, qacarlar səltənəti məhv olacaq. Beləliklə, Əminüddövlə bir il beş aydan sonra öz xahişi ilə vəzifəsindən istefa verməyə məcbur oldu. O, əvvəlcə Gilana, oradan Qafqaza, Qara dəniz vasitəsilə Məkkəyə getmiş, sonra Rəştə qayıdıb guşənişin olaraq əkinçiliklə və yazmaqla məşğul olmuş, 1905-cü ildə vəfat etmişdir.

İranda maarifin yayılmasında böyük xidmətləri olmuş Əli xan Əminüddövlə demokratiya və azadlıq tərəfdarı idi. O, Seyid Cəmaləddin, Mirzə Hüseyn xan Müşirüddövlə Qəzvini, Şeyx Hadı Nəcmabadi və Təbatəbai ilə həmfikir idi.

Seyid Cəmaləddin və əqidə dostları məhv edildikdən sonra "İttihade islam" cəmiyyətinin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

fəaliyyəti dayandırıldısa da, mütərəqqi qüvvələr öz mübarizələrini davam etdirirdilər. 1897-ci ildə Əminüssultanın Baş nazir vəzifəsindən kənar edilərək Əminüddövlənin təyin olunması mütərəqqi siyasi qüvvələrin qələbəsi idi. Onun Baş nazir vəzifəsindən uzaqlaşdırılaraq yenidən Əminüssultanın tə'yin olunması isə müstəmləkəçi Rusiya və İngiltərənin daxili mürtəce qüvvələrlə birləşməsi nəticəsində baş vermişdi. Çünki Əminüddövlə ölkənin düşdüyü çətin vəziyyəti görərək, lazım olan pulu Rusiya və İngiltərə kimi İranı parçalamaq məqsədi güdən dövlətlərdən deyil, bitərəf bir dövlətdən - Belçika, Fransa və ya başqa bir dövlətdən almaq istəyirdi. Məhəmmədhəsən xan Etimadüssəltənə xatirələrində ondan söhbət açmış, "əl-Məasir vəl-asar" əsərində onu "bütün elmlərin canlı lüğəti" adlandırmışdır /18, 193/. Əfzəlülmülk "Tarixe Əfzəl" əsərində Əminüddövlənin ən ali xüsusiyyətlərə malik bir insan olduğundan bəhs etmiş, fövqə'ladə gözəl xətlə yazdığını göstərmişdir /17, 37/.

Biz yuxarıda Nəsrəddin şah dövrünün görkəmli siyasi xadimlərindən Seyid Cəmaləddin, Əminüddövlə və Mirzə Yusif Təbrizinin İranın ictimai-siyasi həyatında böyük rol oynadıqları barədə qısa mə'lumat verdik. Bu şəxsiyyətlərlə yaxın münasibətdə, həmfikir olan və XIX əsrin ikinci yarısında, İran tarixinin yeni dövründə fəaliyyət göstərmiş tarixçi alim, mütərcim, təzkirəçi və ictimai-siyasi xadim marağalı Məmmədhəsən xan öz layiqli qiymətini almamış, xalqımız tərəfindən az tanın-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mışdır. O, hacı Əli xanın oğlu, Hüseyn xan Müqəddəm Marağayinin nəvəsidir.[2] Hüseyn xan Azərbaycan bəylərbəyisi Əhməd xan Müqəddimin əmisi oğludur. Əhməd xanın atası Əli xan Müqəddəm atlı və piyada dəstələri ilə Nadir şahın Hindistan yürüşündə iştirak etmiş, oğlu Əhməd xan Müqəddəm Sadıq xan Şəqaqidən sonra Fətəli şah zamanında Azərbaycanın bəylərbəyisi olmuşdur. O, İrəvanda ermənilər qarışıqlıq salanda vali kimi oraya göndərilmiş və hərakatı yatırmışdı. Əhməd xanın oğlu Hüseyn Paşaxan Heratın mühasirəsində birinci sərkərdə idi ki, öz qoşunu ilə qalaya daxil olmuşdu. 1837-ci ildə İranın diplomatik nümayəndəsi kimi Paris və London səfirliklərinə gedən Fars hökmdarı Hüseyn xan Nizamüddövlə Müqəddəm bu tayfadandır. Hazırda Zəncanda yaşayan Müqəddəm ailə və tayfaları da bu nəsildəndir /16, 176/. Məhəmmədhəsən xanın babası Hüseyn xan əvvəllər Abbas Mirzə Naibüssəltənənin yanında qulluq etmiş, müxtəlif vəzifələrdə çalışmışdır.

Məhəmməd şah Marağa hakimi ikən Hüseyn xan onun yanında xidmət etmiş, çox qabil şəxs olduğu üçün şah Tehrana köçərkən onu da özü ilə buraya gətirmişdi.

İngilis alimi Ç.A.Stori Məmmədhəsən xanın babası Hüseyn xan Müqəddəm Marağayini onların nəslindən olan və Tiflisdə Baş Konsul olmuş Əli xanın atası Hüseyn xan Nizammüddövlə Müqəddəm Marağayi ilə səhv salmış, nəticədə böyük dolaşıqlığa yol vermişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məmmədhəsən xanın atası Hacı Əli xan Ziyaülmülk E'timadüssəltənə Müqəddəm Marağayi Abbas Mirzənin oğlu Məhəmməd Mirzə (Məhəmməd şah) Marağanın hakimi olarkən, onun uşaqlarının baxıcısı idi. Abbas Mirzə vəfat etdikdən sonra Fətəli şah nəvəsi Məhəmməd Mirzəni vəliəhd tə'yin edir. Bu zaman Əli xan Təbrizdə Xəzinədar vəzifəsində (sənduqdar) idi. 1834-cü ildə Fətəli şah vəfat edir və Məhəmməd Mirzə şahlıq taxtında əyləşir. Əli xan o dövürdə mühüm vəzifə sayılan xansalar tə'yin olunur. Məhəmməd şahın həyatının sonlarında Əli xana şər atılır və o, şahın nəzərindən düşür. (Guya Əli xan onun var-dövlətini ələ keçirmək niyətində imiş) /7, 375/.

Əli xan bundan sonra Quma gəlmiş, orada həzrət Mə'sumənin ziyarətgahına pənah aparmışdır /7, 376/.

Məhəmməd şah öldükdən sonra Əli xan bəraət qazanır və Gilan hakimi təyin olunur. Bir ildən artıq Xuzistan və Luristan hakimi olduqdan sonra Tehrana qayıdaraq ədliyyə naziri (vəziri-ədliyyə) tə'yin olunur və E'timadüssəltənə (səltənətin etimadlı adamı) titulunu alır. Bir qədər sonra Nəsrəddin şah dövlət quruluşunda bir sıra yeniliklər edərkən Həmədanla əlaqədar işdər Əli xana tapşırılır.

Məmmədhəsən xanın yazdığına görə atası Əli xan hicri qəməri 1285 (1868)-ci ildə vəfat etmiş, Qum şəhərində, həzrət Mə'sumə ziyarətgahında dəfn olunmuşdur.[3]

Hacı Əli xan Müqəddəm Marağini 4-cü oğlu olan Məhəmmədhəsən xan Səniüddövlə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

E'timadüssəltənə hicri 1259-cu il 21 şabanda (1843-cü 16 sentyabr) Tehranda anadan olmuşdur. Ana tərəfdən Ağa Məhəmməd şah Qacarın qardaşı Mustafa xan (Məhəmmədhəsən xanın yazdığına görə Mustafaqulu xan) Qacarqovanlının[4] nəvəsidir / 21, 90/.

Məhəmmədhəsən xan Nəsrəddin şah hakimiyyətinin ilk illərində yavər dərəcəsilə vəliəhd Qasım xanın xidmətində olmuşdur. O öldükdən[5] sonra isə Mirzə Məhəmmədxan Sipəhsaların yanında qulluq etmişdir.

1851-ci ildə Tehranda Baş nazir Mirzə Tağı xan tərəfindən təcis edilmiş Darülfünunun ilk mə'zunu olmuş, onun hərbi xidmət elmi tədris olunan mədrəsəsində (mədrəseyi-nizami) tarix, coğrafiya, rəsmxətt, riyaziyyat elmlərini, fars, ərəb, ingilis və rus dillərini öyrənmişdir. Darülfünunda dövrünün böyük tarixçi, alim və ictimai xadimləri olan Rzaqulu xan Hidayət, Mirzə Mülküm xan, Avropadan də'vət olunmuş mütəxəssis-müəllimlər çalışırdılar. Məhəmmədhəsən xan burada təhsil aldığı müddətdə dörd medalla: bürünc, gümüş, qızıl suyuna çəkilmiş və qızıl medalla təltif olunmuş, Darülfünunda oxuduğu on iki il müddətində hərbi biliyə mükəmməl yiyələnmişdir.

Qeyd etmək lazımdır ki, Məhəmmədhəsən xan hələ 9 yaşında ikən piyada qoşunlar komandanı Əziz xanın yanında qulluq etməyə başlamışdı /22, 331/. Otuz il keçdikdən sonra həmin günü xatırlayan Nəsrəddin şah öz şəxsi adyutantı haqqında demişdi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ki, E'timadüssəltənə indiki mərtəbəyə öz xidməti, düz işi və sədaqətinə görə çatmışdır.

1859-cu ildə atası Əli xan İranın Xuzistan və Luristan əyalətinə hakim təyin olunduqda, 16 yaşlı Məhəmmədhəsən xan həmin əyalətlərdə polk komandiri (sərhəng) kimi xidmət etmişdir.

O, 1860-cı ildə, 17 yaşında Şüştərin hakimi vəzifəsinə təyin olunur, 1861-ci ildə atası ilə Tehrana qayıdır. Bu zaman şah dövlət quruluşunda dəyişikliklər etməyə başlayır və yeni yaradılmış Ədliyyə naziri vəzifəsinə Əli xan, oğlu Məhəmmədhəsən xan isə onun müavini tə'yin olunur, həmin il, yə'ni 18 yaşında baş adyutant rütbəsini alır və şahın şəxsi adyutantı tə'yin olunur.

Məhəmmədhəsən xan öz tərcümeyi-halında yazdığı kimi, 1863-1867-ci illərdə, üç il yarım Parisdə təhsilini davam etdirmiş, eyni zamanda səfirlikdə ikinci katib, daha doğrusu İranın Parisdəki səlahiyyətli səfiri (vəziri-muxtar) Əmiri-Nizam Həsənəli xan Gorusinin[6] müavini, attaşe kimi çalışmışdır /21, 90/. O bu müddətdə fransız dilinə mükəmməl yiyələnir, boş vaxtlarını isə Mirzə Mülküm xandan ingilis dilini öyrənməyə sərf edirdi /23, 6/.

Məhəmmədhəsən xan Fransadan Tehrana qayıtdıqdan sonra ona P dərəcəli Şiri-xurşid ordeni verilmiş və Nəsrəddin şahın şəxsi mütərcimi və pişxidmət tə'yin olunmuşdur.[7] O, şahı bir sıra səfərlərində müşayiət etmişdir ki, bu da ona yazacağı əsərlər üçün zingin material vermişdir.[8] Bu vaxtdan e'tibarən Tehranda nəşr olunan "Millət" qəzeti



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmmədhəsən xanın Fransa ədəbiyyatının ən yaxşı nümayəndələrindən tərcümələri çap etməklə, əvvəlki quru, statistik materiallar dərc edən orqandan oxunaqlı bir qəzetə çevrilir.

1871-ci ildə Nəsrəddin şahın göstərişi ilə İranda bütün kitab nəşri və tərcümə illərini bir yerdə mərkəzləşdirən Dövlət Nəşriyyat və Tərcümə idarəsi (Darültəba' və Darültərcümə) tə'cis olunur və ona Səniüddövlə (dövlət sənətkarı) titulu almış Məhəmmədhəsən xan rəhbərlik etməyə başlayır.

Darültərcümədə Avropa dillərindən hərbi və diplomatik işə aid kitablar, coğrafiya, kimya, fizika, tarixə dair dərsliklər tərcümə olunurdu. İranda Avropa mədəniyyətinin yayılmasında bu idarənin rolu çox böyük idi.

Məhəmmədhəsən xan Darültərcümə və Darültəba' rəisi kimi 1881-ci ilədək çalışmış, 1882-ci ildən ömrünün axırınadək Dövlət nəşriyyat və tərcümə idarələrinin naziri (vəziri-İntibaat və Darültərcümə) vəzifəsində qalaraq, İranda nəşriyyatın inkişafına əvəzsiz xidmətlər etmişdir.

Məhəmmədhəsən xan özünün "əl-Məasir vəl-asar" (hünərlər və əsərlər) əsərində İranda qəzet nəşrindən, ümumiyyətlə nəşriyyat işindən bəhs edərək göstərir ki, Nəsrəddin şah hakimiyyət başına gəldikdən sonra ölkədə qəzet nəşrini təşkil etmək haqqında sərəncam vermişdir. Qəzetin ilk nömrəsi 1851-ci ildə çıxmışdır.[9] Sonralar Məhəmmədhəsən xan aşağıdakı qəzetlərin nəşrində iştirak etmişdir:

1. "Ruznameyi-milləti"



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

2. "Ruznameyi-elmi". h.1293-1297-ci illər
3. "Mərrix". h.1289-1297-ci illər
4. "Fərhəng"
5. "Daneş"
6. "Təbriz"
7. "Ruznameye orduye hümayun"
8. "Depress". Müəllifin fransız dilində nəşr etdirdiyi jurnal.
9. "İttila".
10. "Şərəf". 1300 h.q. /18, 104/.

İranda latın şriftlərini tədbiqi Məhəmmədhəsən xanın adı ilə bağlıdır. O ilk dəfə bu şriftlərlə (Lüğəte-Nasiri" kitabını və fransızca jurnal çap etdirmişdir.

E'timadüssəltənə sarayda yüksək vəzifədə çalışmasına baxmayaraq çox da firavan yaşamamışdır. Buna baxmayaraq o, yeri gəldikcə qəzet və kitab nəşrinə maddi köməyini əsirgəməyirdi. O, hər il öz cibindən Darültərcüməyə min tümən pul verirdi /24, 963/. Maddi ehtiyac üzündən sonralar şahın bağışladığı Həsənabad kəndini satmağa məcbur olmuşdur /24, 1145/.

M.Tərbiətin yazdığı kimi "40 ilə yaxın bir müddətdə İran mətbuatı və maarifinin inkişafına xidmət etmiş Məhəmmədhəsən xan 25 il şahın (qiraətçisi) olmuşdur. Şah isə onun yazdığı kimi, bu qiaətə siyasi aləmdə baş verən hadisələr barədə savad artırmaq və ya yeni-yeni mə'lumatlarla zənginləşmək vasitəsi kimi yox, sadəcə olaraq nağıl kimi baxır və "mən də bir nağılçıyam" /22, 337/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmmədhəsən xan 1881-ci ildə Dövlət Şurası məclisinə üzv seçilmiş, 1886-cı ildə ona vaxtilə atasının daşıdığı E'timadüssəltənə (səltənəti e'timadlı adamı) titulu verilmişdi.

O şaha yaxın adam olduğundan bu yaxınlıqdan yaxşı, xeyrxah məqsədlər üçün istifadə etməyə çalışır, Avropada baş verən inkişafı görür və bu barədə ona vaxtaşırı mə'lumat verirdi. Şahın müəyyən bir tərəqqiyə rəğbət bəslədiyini hiss etdikdə, dərhal bu barədə onunla söhbət edir və özünün təkliflərini irəli sürürdü.

Şah da müəyyən bir çətinliklə qarşılaşdıqda Məhəmmədhəsən xanla məsləhətləşir, dövlətin xeyrinə söylədiklərinə diqqətlə qulaq asırdı. İranın də Avropa kimi tərəqqi yoluna düşməsi üçün Məhəmmədhəsən xanın göstərdiyi yollar inkişaf yolları idi. Lakin şah onun məsləhətlərini tez unudurdu. O, bu xeyirxah məsləhətləri nəinki nəzərə almırdı, hətta bə'zən yeri gəldikcə ona e'tinasız yanaşır, yüngül zarafatlar edirdi. Məsələn, bir dəfə onlar şahın Fransaya 3-cü səfəri zamanı Parisdə olarkən kiçik uşaq olan Məlicək (Məhəmmədhəsən xanın gündəliyində bu saray nökəri haqqqında mənfi fikirlər vardır) şahdan xahiş edir ki, ona Məhəmmədhəsən xanla birlikdə şəkil çəkdirməyə icazə versin, şah icazə verir və uşağın bu hərəkəti artıq yaşa dolmuş, dünyanın bir neçə ölkəsində mö'təbər cəmiyyətlərin üzvü olan görkəmli, tanınmış alimin xətrinə dəyir. Şəkildə də bu inciklik hiss olunur / 16, 181/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xan Məlik Sasani "Siyasətgərane doureye Qacar" əsərini yazırkən vaxtilə Məhəmmədhəsən xanın nazir olduğu nəşriyyat və tərcümə idarəsində işləyən atasının xatirələrindən də istifadə etmişdir. O yazır ki, Məhəmmədhəsən xan çox həssas, ciddi, mə'nəviyyatı təmiz və mədəni bir şəxs idi. O, mətin və vüqarlı, heç vaxt kobud sözlər işlətməyən, tabeliyində olduğu şəxslərlə yumşaq və mədəni rəftar edən bir insan idi. Çox vətənpərvər və azadlıq sevən idi. Onun İranın tərəqqisi üçün bəslədiyi arzuları indi də həyata keçməmişdir. Anasını çox sevirdi. Hər səhər əvvəlcə onun yaşadığı Nizamiyyə xiyabanına gedər, sonra idarəyə tələsərdi /16, 171/.

Məhəmmədhəsən xan 3 aprel 1896-cı ildə 53 yaşında vəfat etmiş, Nəcəfdə dəfn olunmuşdur. Ölümü haqqında İran tədqiqatçısı Əhməd Gülçin Məani ş. 1346-cı (1967) ildə "Məcəlleyi-rahnümayi-kitab"da "Mərge ibrətəngize E'timadüssəltənə" (E'timadüssəltənənin ibrətamiz ölumu) adlı məqalə dərc etdirmişdir. Bu məqalədən mə'lum olur ki, Məhəmmədhəsən xanın "Xatiratı"nın Astani-Qüds kitabxanasında saxlanılan avtoqraf nüsxəsi 1345-ci (1966) ildə İrəc Əfşar tərəfindən çapa hazırlanarkən bir cəhət nəzərdən qaçmışdır. O da gündəliyin 1292 h.q. ilinin sonuna əlavə olunmuş Məhəmmədhəsən xanın ölümü haqqında olan mə'lumatdır ki, 28 il sonra Soltan Əhməd Dövlətşahi tərəfindən yazılmışdır. (Dövlətşahi Məhəmmədhəsən xanın rəhbərlik etdiyi Darültərcümədə işləyirdi. O öz dəsti-xəttilə yazdığı bu mə'lumatla çox dərin bir sirri açmışdır). Əhməd



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gülçin Məani yazır ki, E'timadüssəltənə qəfil ölümdən çox qorxurdu və belə bir ölümlə də üzləşdi.

Dövlətşahinin həmin mə'lumatından aydın olur ki, Məhəmmədhəsən xan aprelin 3-də səhər onu yanına çağırtdırır, öz zəngin kitabxanasında qarşılayır və yeni bir şüanın kəşfi barədə dərc olunmuş qəzet məqaləsini fransız dilindən tərcümə etməyi tapşırır.[10] Bu məqalə şahın göstərişi ilə sabahadək hazır olmalı idi və Məhəmmədhəsən xan müqəddəs Şah Əbdüləzim ziyarətgahına[11] gedəcəyi üçün bu işi görməyi Soltan Əhməd Dövlətşahidən xahiş edir.

Həmin gün axşamçağı Məhəmmədhəsən xanın ev adamlarından biri tələsik gələrək, yarı azərbaycanca, yarı farsca dili dolaşa-dolaşa deyir ki, tərcümə lazım deyil, nazir (Məhəmmədhəsən xan) qəflətən ölmüşdür. (O, Şah Əbdüləzimdən qayıtdıqdan sonra bir fincan qəhvə içmiş və keçinmişdir).

Məhəmmədhəsən xan ömrünün xeyli uzanacağına görə bu şüanın kəşfindən çox sevinmişdi, çünki özünün dediyi kimi, bu şüa ilə hər cür daxili xəstəlikləri tezliklə aşkar etmək mümkün olacaq idi /25, 616/.

Əhməd Gülçin Məaninin yazdığına görə onun düşmənləri tərəfindən zəhərlənməsi şayiəsi əsaslandırılmamış qalır. Lakin baş nazir Mirzə Ələsgər xan Əminüssultanın onunla ədavət etdiyi hamıya mə'lum idi və bu barədə yuxarıda bəhs olunmuşdur. Xan Məlik Sasan yazır: "Mərhum Mirzə Həsən Mustofiülməmalik və Mirzə Hüseyn Pirniya



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mö'təmənülmülkdən eşitmişəm ki, Nəsrəddin şah hakimiyyətinin 50 illiyini qeyd etdikdən sonra Əminüssultanı aradan götürüb, onun yerinə, yə'ni Baş nazir vəzifəsinə Məhəmmədhəsən xanı tə'yin etməyi qərara almışdır. Lakin bu xəbəri Əminüssultana kim çatdırmışdı? Bəlkə Nəsrəddin şahın Mirzə Rza Kirmani tərəfindən öldürülməsində onun da əli varmış? Hər halda bu saray sirridir və mühüm tarixi hadisədir" / 16, 184/.

Bizim fikrimizcə heç də tərəddüd etmədən demək olar ki, əgər şahın Əminüssultan haqqında olan fikri ona mə'lum olubsa, bu bir həqiqətdir ki, Məhəmmədhəsən xanı Baş Nazir Əminüssultan zəhərləmişdir.

Məhəmmədhəsən xanın hər hansı bir dünya kitabxanasınan ziynətini artırmağa layiq olan: Fransa, Misir, Hindistan, Qəstəntiniyyə və s. yerlərdən gətirdiyi 4 min cild kitabı 4 min tümənə satıldı. Uzun illər topladığı qədim sikkələr (o, numizmatika ilə də məşğul idi) Gülüstan muzeyinə aparıldı. Saray qadınları Nəsrəddin şahdan sonra bu sikkələri baş örtüklərinə düzdülər, qolbaq kimi istifadə elədilər. Ondan qalan 40 min tümən pula şah yiyələndi. Bu pul da Məhəmmədhəsən xandan 28 gün sonra öldürülən Nəsrəddin şahın dəfn mərasiminə sərf olundu, çünki özünün 50 illik təntənəsinə hazırlaşan şah /4, 533/ xəzinəni tamam boşaltmışdı.

Ev, avadanlıq, cah-cəlal və daş-qaşlar arvadı Əşrəfüssəltənə xanıma bağışlandı. O bütün bunları sataraq, Məhəmmədhəsən xanın 8 cildlik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Yaddaşthaye ruzane" əsərinin əlyazmasını Rəzəvi kitabxanasına təqdim etmək üçün Məşhədə köçdü.

Məhəmmədhəsən xan geniş elmi, ictimai fəaliyyətinə görə bir sıra xarici cəmiyyətlərə üzv seçilmiş, xadimlərinə görə İran dövləti, həmçinin xarici dövlətlər tərəfindən orden və medallarla, qiymətli hədiyyələrlə təltif olunmuşdur. Əllidən artıq orijinal və tərcümə əsəri vardır.

Məhəmmədhəsən xan E'timadüssəltənə İranın dövlət dairələrində köhnə feodal quruluşu ilə yeni yaranmaqda olan burjua nümayəndələri arasında gedən siyasi mübarizənin iştirakçısı olmuşdur. O, Nəsrəddin şah Qacar dövrünün siyasi xadimlərindən Seyid Cəmaləddin, Mirzə Yusif xan Təbrizi, Mirzə Hüseyn xan Müşirüddövlə və başqalarının İranın tərəqqisi uğrunda apardıqları siyasi mübarizəyə hüsn-rəğbət bəsləmiş, yeri gəldikcə onların şahın qəzəbindən də qorumuşdur.

Bə'zi tədqiqatçılar siyasət aləmində Məhəmmədhəsən xan E'timadüssəltənənin Rusiyaya meyl etdiyini göstərirlər (Stori, C.I.). Lakin o, rus dilinə bələd olduğundan Nəsrəddin şahla Rusiya arasında İran üçün faydalı əlaqələr yaratmışdır. O, yazır: "Mən rusların dostu kimi tanınmışam. Bu, bir cəhətdən doğrudur. Lakin məmləkətin bir barmaq boyda torpağını belə onlara verməręm". Rusiya və İngiltərə kimi imperialistlərin İranda mühüm mövqeləri (banklar, istiqraz, gəmiçilik və s.) ələ keçirdiklərini dövlətin faciəsi kimi qiymətləndirən E'timadüssəltənə bu barədə e'tirazını şaha həm şifahi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

həm də məktubları, kitabları vasitəsilə bildirmişdir."Politike haliyyeye rus və ingilis dər Asiya", "Risaleye məayebe ingilis" və başqa əsərlərində özünün yazdığı kimi bu dövlətlərin biçarə İran həqqında planlarını açıqlamağa çalışmışdır. O, deyirdi: "Əgər bizim ruslarla işləməyi bacaran qabil vəzirimiz olsa, çox faydalana bilərik. Təəsüf ki, xarici işlər nazirimiz ingilispərəstdir. Görkəmli dövlət xadimlərimizin əksəriyyəti ingilisin nökəridir. Şaha söyləmişəm ki, nəbadə İranı büsbütün ingilislərə təslim edə. İndi ruslardan da ehtiyat etmək lazımdır. /24, 13/.

Xarici ölkələrin (xüsusilə İngiltərənin) təzyiqinin artması Nəsrəddin şahı nazirlərin birgə fəaliyyətini təşkil etmək və məsləhət üçün 1859-cu ildə Məclis (Məclise dərbar ə'zəm) yaratmağa məcbur etmişdi. Məclis nazirlərdən və başqa yüksək rütbəli əyanlardan ibarət idi. Məclis üzvləri müxtəlif dövrlərdə aşağıdakılardan ibarət olmuşdur:

1. Naibüssəltənə Kamran Mirzə, şahın oğlu
2. Əzədülmülk Əlirza xan Qacar
3. Sahibi-Divan Fətəli xan Şirazi
4. Yəhya xan Müşirüddövlə
5. Əminüddövlə Mirzə Əli xan
6. Müxbirüddövlə Əliqulu xan, Nasiri dövrünün elmlər naziri
7. Qəvamüddövlə Mirzə Abbas xan, xarici işdər nazirinin müavini
8. Ağa Əli Əmine hüzur
9. Mirzə Məhəmməd xan İqbalülmülk



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

10. Mirzə Əlinəqi xan Həkimülməmalik (şahın həkimi)

11. E'timadüssəltənə Məmmədhəsən xan (vəzire-intibaat)

12. Əminüssultan Mirzə Əli Əsğər xan /26, 336/.

Nəsrəddin şah Dövlət Şurasının üzvlərini vaxtaşırı təzələyirdi və 1876-cı ildə mütərəqqi dünyagörüşlü Mirzə Əli xan Əminüddövləni şuranın sədri vəzifəsinə tə'yin etmişdi /17, 95/. Məhəmmədhəsən xan h.1299 (m.1881) və h.1300 (m.1882/83)-cü illərdə şuranın üzvü seçilmişdi. Şuranın iclaslarından birində ingilis Reyterin tələb etdiyi imtiyaz barədə (bu imtiyaz İranda dəmir yolları çəkilişi, mə'dənlərin istismarı, sular və meşələrdən götürülən mənfəəti almaq məqsədi güdürdü) mə'lumat verilmiş və Nəsrəddin şah məclis üzvlərinə müraciətlə demişdi: "İngiltərənin tələbinə cavab vermək üçün hər şeydən əvvəl aranızda olan hər cür ədavəti, kini bir kənara qoyub, millətin mənafeyi naminə bir fikrə gəlməyiniz lazımdır. İngilislər öz tələblərində haqsızdırlarsa, onlara qəti cavab vermək lazımdır. Elə edin ki, on ildən sonra İran xalqı mənə lə'nət oxumasın. Bu işə görə hər biriniz səlahiyyətli və məs'ulsunuz. Bu işi təmkinlə həll etmək lazımdır" /17, 95/.

Sonralar E'timadüssəltənə şahın məclisdə bu çıxışını belə şərh etmişdir: "İndiyədək heç bir padşah belə ibarələri dilinə gətirməmişdir. Heç bir millətin başçısı belə danışmamışdır". /17, 95/. (Bu imtiyaz ingilislərə verilsə də, tezliklə rusların təzyiqi altında ləğv edilmişdi). O, açıq göstərirdi ki, məclis



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üzvlərindən yalnız beş-altı nəfəri bəlkə dünya siyasətindən xəbərdar olardı. Bunların əksəriyyəti mə'lumatsız, yaxud az mə'lumatlı idilər. Bunlar ya öz mənfəətlərini güdürdülər, ya da şah və sədri-Ə'zəmlə müxalifətdə idilər, ona görə də ingilis hiyləsindən bixəbər idilər. Məsələn, Məhəmmədhəsən xan Məclis üzvü Əliqulu xan Müxbirüddövləni savadsız, elmlər naziri olduğu haldı elmdən xəbərsiz olduğuna görə tənqid edirdi. "Əliqulu xan Müxbirüddövlə vəziri-ulumdur, lakin elmin iyi heç onun burnuna dəyməmişdir və o, şübhəsiz, bu xörəyin dadını bilmir" /17, 227/.

Şuranın adı dəbdəbəli, üzvlərin əksəriyyəti yuxarıda qeyd olunduğu kimi, siyasətdən bixəbər nazirlər idi. Mərasimlər qeyd olunmalı olan bu mö'təbər məclisinin yalnız adı var idi. Əslində isə heç bir fəaliyyəti yox idi. Məclisin üzvləri həftədə iki dəfə məclisə gəlib qəlyan çəkir, söhbət etdikdən sonra evlərinə gedirdilər /26, 359/.

Məhəmmədhəsən xan sonralar xatiratında məclisin fəaliyyətini tənqid edərək yazırdı: "Nahardan sonra şura məclisinə getdim, Allaha and olsun ki, bu məclis tövlədən betər idi" /16, 195/.

Məhəmmədhəsən xan İngiltərənin İran dövlətindən müxtəlif imtiyazlar əldə etməklə ölkəni asılı vəziyyətə salacağını yaxşı başa düşürdü. İngiltərə İranda olan əsas dövlət idarəedici orqanların (banklar və s.) imtiyazını ələ keçirməyə cəhd etməklə özünü bu torpaqda möhkəmlətməyə çalışırdı. Buna görə də E'timadüssəltənə ingilislərin şah



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sarayına yol tapmasını həyəcanla qarşılayır və bunun nəinki mütərəqqi şəxsiyyətlərin həyatları üçün çox təhlükəli olduğunu başa düşürdü, eləcə də bu yolun İranı səfalətə sürüklədiyini götürdü. O, Tehrana çoxlu ingilis gəldiyini pisləyərək göstərirdi ki, həqiqətdə indi İran ingilis səltənətidir. Allah İranı onların şərindən saxlasın /12, 288/.

Bə'zi tədqiqatçılara görə Rusiyaya münasibəti müsbət olan Məhəmmədhəsən xan torpağını çox sevirdi, məmləkətinin bir qarışını da onlara verməyə razı olmazdı. Bununla əlaqədar olaraq o göstərirdi ki, onun əqidədəsinə görə padşah qorxaqlıq göstərsə, vətən kiçilər. Əgər torpaq verilsə, İranın tabeliyində olanlar rusa tabe olacaq, həmçinin ingilislər də Bəlucestan və Kirman sahələrindən istəyəcəklər. Məhəmmədhəsən xan gündəliyində bu qeydləri o vaxt yazmışdır ki, Aşqabad tərəfdə Cəmiyyətabad adlı bir parça qeyri-məhsuldar yer ruslara verilmişdi /22, 345/.

Məhəmmədhəsən xan İranın istər siyasi, istərsə iqtisadi həyatı üçün zərərli olan xarici dövlətlərə verilən hər cür imtiyazın əleyhinə olmuşdur. O, h.1308-ci (m.1890) ildə yazır: "Eşitmişəm ki, İran dövləti Rusiya kompaniyasına əmlakını və işçilərinin təhlükəsizliyi üçün imtiyaz vermişdir" /17, 181/. Bu ifadə Məhəmmədhəsən xanın ümumiyyətlə xaricilərə imtiyaz verilməsindən narazı olduğu görməyi Sultan IX əsrin ikinci yarısında mühüm siyasi hadisələrdən biri olan "Tənbəki üsyanı" məsələsinə E'timadüssəltənə də digər xadimlər kimi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

biganə qalmamışdır. İranda ilk antiimperialist xalq hərəkatı olan bu üsyan Nəsrəddin şahın 9 mart 1891-ci ildə tənbəkinin alınıb-satılması, e'malı və ixracı üzərində inhisar yaratmaq imtiyazını ingilis kapitalisti Talbota verməsi nəticəsində baş vermişdi. Lakin 1892-ci il yanvarın 5-də şah hökuməti xalq kütlələrinin təzyiqi altında Tolbotla bağlanan müqaviləni ləğv etməyə məcbur olmuşdu.

İngilis hökumətinin İranın mühüm mövqeləri ələ keçirməsini dövlətin faciəsi kimi qiymətləndirən E'timadüssəltənə haqqında tənbəki imtiyazı ilə əlaqədar İbrahim Teymurinin verdiyi ikimə'nalı hökmü ilə razılaşmaq olmaz. O, "Təhrime tənbaku" əsərində "E'timadüssəltənə tənbəki imtiyazının mənfəəti ingilislərə demişdir" ifadəsindən sonra yazır ki, Nəsrəddin şah Avropa səyahəti zamanı İngiltərədə olarkən, (1889-cu il) E'timadüssəltənə ingilis sahibkarı Talbotla İranda tənbəki istehsalı barədə söhbət etmiş, alim bu barədə çox mə'lumatlı olduğundan, hətta tənbəkinin tarixindən də danışmışdır. Burada başqa bir niyyət olmamışdır. Bundan sonra Talbot Əminüssultanla görüşmüş və Nəsrəddin şahdan tənbəki imtiyazını istəmişdir. Deməli, ingilis sahibkarı Əminüssultanla məsləhətləşmişdir. Bu da həmçinin mə'lum ki, Talbot imtiyaz almaq üçün Nəsrəddin şaha 25 min funtsterlinq, Əminüssultana, Naibüssəltənəyə və başqalarına 400 min tümən rüşvət vermişdir. E'timadüssəltənənin Talbotla söhbəti heç nədən xəbəri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmayan bir alimin ümumiyyətlə tənbəki haqda olan söhbətdən ibarət olmuşdur /27, 25/.

Bununla əlaqədar olaraq E'timadüssəltənənin xatirələrində bir maraqlı cəhət nəzər-diqqəti cəlb edir. O yazır: "H.1302, 3 cəmadiüləvvəl, doşənbe. Tənbəki inhisarına dair şah üçün bir kitabça yazmışam. Dünya təcrübəsindən mə'lumdur ki, indi tütündən dövlət külli miqdarda gəlir götürə bilər. Əgər Əminüssultanın əlinə düşsə, kitabçanı şaha çatdırmayacaq, ya da ağılsız nazirlər rədd edəcəklər" /24, 461/. Göründüyü kimi həmin kitabça 1885-ci ildə yazılmışdır. Tənbəki imtiyazının xaricilərə verilməsi göstərir ki, o şahın əlinə çatmamışdır və Baş nazir Əminüssultan ingidlislərlə sazişə girmişdir. E'timadüssəltənə ilə Baş nazir Əli Əsğər xan Əminüssultan arasında olan ədavətin səbəbləri var idi. E'timadüssəltənə xaricilərin İrana axışıb gəlməsini sevmirdi. Əminüssultan isə ingilis dövləti və onun İranda olan nümayəndələri, Volf və Çerçil ilə əlanədə idi və onlar vasitəsilə bütün dövlət sirlərini ingilislərə çatdırırdı. Məhəmmədhəsən xan Əminüssultanın yürütdüyü səhv siyasətin nəticəsində əsəbiləşmiş və bir dəfə Rusiya nümayəndəsinə demişdi ki, siz İranı ingilis və ruslar arasında bölmək istəyirsiniz. "Allah şahı və İranı rusun, igilisin və cahil vəzirin şərindən qorusun". Bu hadisədən sonra o, Seyid Cəmaləddinin evinə gedib onunla xeyli söhbət etmişdi /24, 794/.

Baş nazir Azərbaycanda ingilislər əleyhinə iğtişaşlar baş verəndə E'timadüssəltənənin oraya



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

göndərilməsinə də mane olmuş, şahı başa salmışdı ki, bu işdə rusların əli vardır. Əminüssultanın fikrincə E'timadüssəltənə ora gedərsə, şahın gözlədiyinin əksi baş verə bilər (Burada Məhəmmədhəsən xanın azərbaycanlı olduğunu da nəzərə almaq lazımdır). İranın problemlərini çox gözəl bilən poçt naziri Əminüddövlə Xorasan General-qubernatoru tə'yin olunduqda E'timadüssəltənə Nəsrəddin şahın bu qərarını eşidərək çox təəcüblənmiş və bu işdə Əminüssultanın və ingilislərin əli olduğunu dərhal başa düşmüşdü. Bu barədə o, gündəliyində ingilislərə işarə edərək yazırdı: "Əvvəcə Əminüddövləni uzaqlaşdırırlar, növbə mənə də çatacaq" /26, 362/.

Əminüssultanla ingilislərin Məhəmməhəsən xana münasibətində bir uyğunluq var idi. Baş nazir ingilis dövləti ilə sıx əlaqədə olmaqla yanaşı Nəsrəddin şahı ruslara ağıldan zəif bir şəxs kimi tanıtmış, bir sıra mühüm dövlət sənədlərini onlara vermişdi. Bir dəfə Rusiyanın səlahiyyətli nümayəndəsi E'timadüssəltənə ilə söhbətində şahdan razı qaldığını bildirərək demişdi ki, təəsüf ki, kamil, ağıllı şah Baş nazir tərəfindən belə tanıdılmışdır /22, 309/.

E'timadüssəltənə Nəsrəddin şahın tapşırığı ilə Türkiyə, Rusiya və İngiltərənin İranda yerləşmiş diplomatik korpusun nümayəndələri ilə vaxtaşırı olaraq, müxtəlif məsələlərlə əlaqədar görüşürdü. Bu onun siyasi cəhətdən nüfuzlu və tanınmış bir şəxsiyyət olduğunu sübut edir /24, 461/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əminüssultan isə onu izləyir, ardınca casuslar gəzdirirdi /24, 924/.

Nəsrəddin şahın şəxsi həkimi fransız Fevriye "Se sal dər dərbare İran" (Üç il İran sarayında) əsərində E'timadüssəltənə haqqında yüksək fikirdə olduğunu bildirmiş və eyni zamanda qeyd etmişdir ki, o, həyatından narazı bir şəxs idi. Bu da səbəbsiz deyildi. Savadlı, bacarıqlı dövlət xadimi kimi fəaliyyət göstərdiyi üçün ona müxalif şəxslər meydana çıxmış, yüksəlməsinə daim mane olmuşlar.

1892-ci ildə Nəsrəddin şahın əmri ilə İranın İstambuldakı səfiri Mirzə Əsədulla xan Nizamüddövlənin yerinə onun qardaşı, İranın Peterburqdakı səlahiyyətli səfiri Mirzə Mahmud xan Əlaülmülk tə'yin olunduqda, Peterburq səfirliyində yer boş qaldığı üçün rus dilini bilən, kamil savada malik Məhəmmədhəsən xan Peterburqda işləmək arzusunda olduğunu bildirmiş, lakin Əminüssultan mane olduğundan, Peterburqa təbrizli Mirzə Rza Daneş (Ərfəüddövlə) göndərilmişdi.

Məhəmmədhəsən xan İranın İstambuldakı səlahiyyətli səfiri Hacı Şeyx Möhsün xan Müinülmülk vəzifəsindən azad edildiyi vaxt həmin vəzifəni tutmaq üçün Nəsrəddin şaha ərizə ilə müraciət etmiş, rədd cavabı almışdı. Lakin bizim fikrimizcə, bu rədd cavabı şahın onu saraydan kənara göndərmək istəməməsindən irəli gəlmişdir. Məhəmmədhəsən xan gündəliyində belə yazır: "İstambul səfirliyində işləmək üçün xahişlə yazdığım ərizəyə şah elə bir cavab yazmışdır ki, bundan sonra



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hətta əgər özü məni bir yerə göndərmək istəsə gərək mən qəbul etməyim".

1886-cı ildə Məhəmmədhəsən xan Səniüddövlə çox zəhmətə qatlaşaraq, vaxtilə atasının daşıdığı E'timadüssəltənə titulunu aldıqda onun düşmənləri Nəsrəddin şahın bu səxavətini pis qarşılamış və Məmmədhəsən xana qarşı hücuma keçmişdilər. Baş nazir Əminüssultan titulun ondan alınıb yenidən Məhəmməd Mirzəyə verilməsinə xüsusilə çox çalışırdı. Məmmədhəsən xan isə özünün dediyi kimi atasının daşıdığı titulu Zilli Sultan ləqəbindən də üstün tuturdu. (O vaxt Zilli Sultan çox ali titul idi).

Nəsrəddin şahın Məmmədhəsən xana rəğbət bəsləməsi Əminüssultana mə'lum idi və bu da Baş naziri narahat edirdi və ona daim mane olurdu. Məhmmədhəsən xan Əminüssultanın ona düşmən münasibətini siyasi əsəri olan "Xabnamə" də, onun mənəviyyatı və psixologiyasını isə "Xatirat"ında bariz şəkildə vermişdir.

Məhəmmədhəsən xan E'timadüssəltənə dövrün görkəmli siyasi xadimi Seyid Cəmaləddinin dostlarından idi və özünün "əl-Məasir vər-asar" (Hünərlər və əsərlər) əsərində onun adını ehtiramla çəkmişdir. Seyid haqqında verdiyi mə'lumat onun əfqanıstanlı deyil, həmədanlı olduğunu bir daha təsdiq edir /18, 223/. Seyid xaricdə olarkən onunla məktublaşırdı və 1886-cı ildə Seyid Cəmaləddin Tehrana Məhəmmədhəsən xanın vasitəcili ilə gəlmişdir. Bu barədə xatiratında yazırdı: "1304 rəbiülsani, (1886, dekabr), səhər tezdən Seyid



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cəmaləddini görmək üçün məl'un Hacı Məhəmmədhəsən Əmin Darülzərbin evinə getdim. Bu şəxs Buşehrdən mənim vasitəçiliyimlə gəlmişdir. Çox elmin və mö'təbər adamdır. İki-üç dil bilir. Ərəbcə yazmaqda birincidir. Özünün dediyinə görə Həmədan əhlidir. Xülasə, Hacının evi nifrətəliyiq yerdir. Onun atası İranı və millətti yaman günə qoymuşdur. Seyid Cəmaləddini öz evimə aparmaq istədimsə də razı olmadı" /22, 338/

1890-cı ildə mə'lum səbəblərə görə Seyid Cəmaləddin və həmfikirlərindən bir neçəsi Tehranda həbs olunduqda ona məxsus əşyalar, o cümlədən kağız çantası müsadirə edilərək saraya, baş nazir Əminüssultanın yanına gətirildikdə o, Seyid Cəmaləddinin məktublar olan çantasını böyük maraqla axtararaq, düşmənləri E'timadüssəltənə və Əminüddövləyə məxsus məktubları tapıb şaha çatdırmaq istəyirdi. Lakin çantadan E'timadüssəltənənin kağızı çıxmadıqda çox mə'yus olmuşdu. Əminüssultan Seyidin ruslara rəğbət bəslədiyini, onlara güvəndiyini və Tehranda kiməsə arxalandığını bilirdi.

Seyid Cəmaləddin də Məhəmmədhəsən xana hüsn-rəğbət bəsləyirdi. O, Bəsrədə olarkən Tehrana, müəyyən şəxslərə göndərdiyi məktublarından birində Məhəmmədhəsən xanın kamil, sınanmış, dəqiq və düzgün bir adam olduğunu göstərirdi /22, 338/. Məhəmmədhəsən xanın gündəliyindən mə'lum olur ki, o, Seyidlə yaxınlığını şahdan gizli saxlayırmış. Görünür belə məsləhət idi. Nəsrəddin şahı qətlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yetirmiş Mirzə Rza Kirmanidən (1 may 1896) məhkəmə E'timadüssəltənə ilə Seyid Cəmaləddinin müqəddəs Şahəbdüləzimdə görüşüb-görüşmədiyi barədə sual etdikdə, o rədd cavabı vermişdir. Mirzə Raz Kirmani çox güman ki, Məhəmmədhəsən xanı siyasi dolaşığa salmaq istəmədiyi üçün belə cavab vermişdi. Halbuki, Məhəmmədhəsən xan Seyidlə Tehranda olduğu vaxt gizlində körüşürdü. Bu barədə öz gundəliyində belə yazır: "1308-ci il səfər ayının 20-də (1890, 5 oktyabr) tə'ziyədən sonra Həzrət Əbdüləzim ziyarətinə getdim. Ziyarətdən sonra fatihə vermək üçün öz qızımın məqbərəsinə girdim. Seyid Cəmaləddin oradan keçirdi. Məni gördü və məqbərəyə girdi. Təxminən yarım saat söhbət etdik. Sonra şəhərə qayıtdım" /24, 786/. 1891-ci il 17 yanvarda, həmin görüşdən dörd ay sonra kağızlar olan çantasının şahın yanına aparıldığını eşidəndə Məhəmmədhəsən xan burada onun məktubunun olmadığını bildiyi üçün rahat idi. Məhəmmədhəsən xanın sağlığında nəşr olunmamış gündəliyində Seyid Cəmaləddinlə əlaqədə olan qeydlər də diqqəti cəlb edir: " 1307 h., 26 rəcəb, seşənbə (1890, 16 mart). Axşam Seyid Cəmaləddin görüşümə gəldi. Axşamdan bir saat keçmiş onunla Əminüddövlənin evinə getdik ki, dövlət qiymətləri ilə əlaqədar kitabçanı yenidən oxuyaq". "1307, zilhiccə (1890, iyul). Eşitdim ki, Seyid Cəmaləddin ingilislərin tələbilə Tehranı tərk edərək Şahəbdüləzimə gedib" /24, 806/. "1308, 12 rəbiüləvvəl, doşənbə (27 oktyabr, 1890). Bu gün şah Əbdüləzimə gəlib. Mən ondan əvvəl sübh



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tezdən buraya gəldim və Seyid Cəmaləddinin qaldığı evə getdim. Hörmətli seyidlər və onların böyükləri də burada idilər. Sonra şahın hüzüruna getdim" /24, 825/.

Məhəmmədhəsən xan XIX əsrin axırlarında fəaliyyət göstərən "İttihadi-islam" cəmiyyətinin başçısı Seyid Cəmaləddinlə şəxsən tanış olub görüşdüyündən onun fəaliyyətini öz əsərində qələmə almışdır. Tədqiqatçı-alim T.Ə.İbrahimovun (Şahin) yazdığına görə o, Seyid Cəmaləddt Əminüssulir və sıx əlaqədə idi.

Təəsüf ki, iyirmiyə yaxın tədqiqat, o cümlədən "əl-Məasir vəl-asar" əsəri Seyid Cəmaləddinin Həmədanın Əsədabad qəsəbəsindən, yə'ni azərbaycanlı olduğunu bildirdiyi halda, Azərbaycan Sovet Ensiklopediyasında onun Əfqanıstanın Kabil şəhəri yaxınlığındakı Əsədabad kəndində anadan olduğu göstərilmişdir /28, 412/. Məhəmmədhəsən xan İranın ilk siyasi cəmiyyətinin başçılarından biri, amalı İran xalqının maariflənməsi və ictimai quruluşun dəyişdirilməsi olduğundan hər cür əziyyətlərə düçar olmuş Mirzə Yusif xan Təbrizinin tutduğu yolu təqdir etmişdir. Mirzə Yusif xan 1867-1871-ci illərdə Parisdə olarkən Məhəmmədhəsən xan qısa müddətdə onunla görüşmüşdür (Mə'lumdur ik, o da 1863-1867-ci illərdə Parisdə qulluq etmişdir). Mirzə Yüsif xan Tehrana qayıtdıqdan sonra İranın Ədliyyə naziri Yəhya xan Müşirüddövlənin yanında müstəşar (məsləhətçi) işlədiyi müddətdə İstambulda çıxan "Əxtər" qəzetində tənqidi məqalələr dərc



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etdirirdi. O, İran nazirliklərindəki yarıtmaz işləri tənqid edən bu məqalələrə görə həbs olunduqda Məhəmmədhəsən xan bu hadisəni şərh edərək yazır: "12 zilqəd'ə h.1299 - (26 sentyabr 1882-ci il) çağırılmış məhkəmə üzvləri gəldilər. Müşirüddövlə mənim yanımda şaha ərz elədi ki, bu iş Yusif xan Müstəşarüddövlənin işidir. Müqəssir hesab olunan bu biçarə bu gün tutuldu. Allah onun aqibətini xeyir eləsin" /24, 217-218/. Məhəmmədhəsən xan Mirzə Yusif xanı həbsdən qurtarmaq üçün Mirzə Əli xan Əminüddövlə ilə görüşmüş və onun bağında birlikdə tədbir tökmüşdür /12, 490-493/. İki aydan sonra o, azad edilmişdi. Qeyd olunduğu kimi Məhəmmədhəsən xan Mirzə Yusif xanın getdiyi yolu təqdir etmiş və onunla həmfikir olmuşdur. O istər Seyid Cəmaləddinlə, istərsə də Mirzə Yusif xanla əlaqədar tədbirlərini Nəsrəddin şahdan gizlətmişdir. Onun xatiratında Mirzə Yüsif xanla əlaqədar olan qeydləri bunu sübüt edir. Məhəmməhəsən xan yazır: "1292 h., 25 cəmadəlsaniyyə, pəncşənbə (1875, 30 iyul). Günbatana yaxın evə getdim. Gecə Mirzə Yusif xan Müstəşarüddövlə qonağımdır. Saat altıyadək bir yerdə olduq" /24, 11/, və yaxud "1292 h., 3 rəcəb, pəncşənbə (1875, 6 avqust). Axşamdan iki saat keçmiş Mirzə Yusif xan Müstəşar (Azərbaycan xarici işlər vəzarətinə göndərilir) gəldi /24, 12/. "1292 h. 8 rəcəb, seşənbə. Bu gün Azərbaycana göndərilən, çox hörmətə layiq, şərəfyab bir şəxs olan Mirzə Yusif xan Müstəşar xüsusi geyimdə gəldi. Həkimülməmalikin[12] mənzilində şam yeməyinə yığışdıq və mən Mirzə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yusifi oraya də'vət etdim" /24, 134/. "1299 h. 20 rəcəb, çəharşənbə. Əminülmülkə baş çəkməyə getdim. Nizamülmülk, Nazimüddövlə, Müstəşarüddövlə də orada idilər. Mirzə Yusif xan Müstəşar Müstəşardüddövlə ləqəbi almışdır" /24, 194/. Məhəmmədhəsən xan Mirzə Yusifin həbs olunmsı xəbərini eşitdikdə narahat olmuş, azadlığa buraxıldığı gün isə çox sevinmiş və bu barədə gündəliyində belə yazmışdır: "1309 h. 7 şəban, seşənbə (1892, 8 mart). Təbrizdə təhqiramiz bir vəziyyətdə həbs olunaraq aparılan Mirzə Yusif xan Müstəşar bu yaxınlarda azad olunub və bu gün Tehrana gəlib..." /24, 919/.

Dövrün görkəmli siyasi xadimi Mirzə Melkum xana Məhəmmədhəsən xanın münasibəti ziddəyyətli olmuşdur. O, "əl-Məasir vəl-asar" əsərinin bir yerində Melkum xanı töhmətləndirir, yazılarını mə'nasız cızmaqara adlandırır, digər bir yerində isə onu görkəmli diplomat, Avropa və Şərq biliklərinin ustası səviyyəsinə yüksəldir" /18, 118, 397/.

Tədqiqatlardan mə'lum olur ki, 1889-cu ilin avqustunda Londonda tütün imtiyazı haqqında müzakirə getmişdir. Mirzə Melkum xan orada şaha min qızıl lirə verərək, İranda lotereya təşkil etmək imtiyazını almışdı. Lakin "ruhanilərin e'tirazı" bəhanəsilə Nəsrəddin şah bu imtiyazın ləğv olunmasını bildirdikdə, Melkum xan həmin imtiyazı ingilis şirkətlərindən birinə sataraq, İranın imtiyazı ləğv etmək qərarını rədd etmişdi. Nəticədə bu iş İran hökuməti tərəfindən London məhkəməsinə verilmiş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və Melkum xan səfir vəzifəsindən kənar edilmişdi /5, 57/. Yəqin ki, Məhəmmədhəsən xanın Melkum xana qarşı mənfi münasibəti bu cəhətdən irəli gəlir. O, h.1299-cu ilin rəcəb ayında (1882, may) gündəliyində yazır: " Nizamüddövlə ilə xeyli söhbət etdim. Qısası budur ki, mənim bu müəllimim və mürşidim bir qədər divanədir, izahı sonraya qalsın" /24, 193/. 1889-cu il London əhvalatından bir neçə il öncə deyilmiş bu sözlər Məhəmmədhəsən xan şəxsiyyət haqqında müzakimə yürüdürkən yanılmadığını sübut edir. İctimai vəziyyətnə görə Məhəmmədhəsən xan yüksək burjua təbəqəsinə mənsub olsa da, xalq kütlələrinin apardığı mübarizəyə mənfi münasibət bəsləməmişdir. O, şaha yaxın şəxs olduğu halda, yeri gəldikcə istər şifahi surətdə, istərsə də yazılarında İranın düşdüyü vəziyyətə acıyan, bundan çıxış yolları göstərən ağıllı məsləhətçi olmuşdur.

Bu deyilənlərdən mə'lum olur ki, Məhəmmədhəsən xan E'timadüssəltənə XIX əsrin ikinci yarısında İranın tərəqqisi uğrunda gedən siyasi mübarizənin iştirakçısı olmuşdur. Bununla bərabər o, İranda, Avpropa dövlətlərində tarixçi-alim və ictimai xadim kimi də tanınmışdır.

Mə'lum olduğu kimi Məhəmmədhəsən xan 1871-ci ildən İranda nəşriyyat və tərcümə idarəsinə rəhbərlik etmiş, bu müddətdə onun sə'yi ilə kitab nəşri sür'ətlənmiş, qəzetlərin məzmunu dəyişmişdir.

Mənbələr göstərir ki, Məhəmmədhəsən xan şahı səfərlərdə müşayiət edərkən özü ilə litoqrafiya dəzgahını da aparırmış. O, 1871-ci ildə Mazandaran



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

səfəri zamanı yolda "Mir'atüs səfər", 1882-83-cü illərdə Xorasan səfəri zamanı isə "Orduye humayun" qəzetini çap etmişdir /29, 53/. "Xabnamə" əsərinin ilk nəşrinin müqəddiməsində E'timadüssəltənənin tərcümeyi-halından söhbət açan Məhəmməd Şəhid Nurayi yazır ki, onun çox vaxt öz xərci ilə nəşr etdirdiyi qəzet və jurnallar min cür çətinliklə başa gəlirdi /23, 1/.

İran alimi Xan Məlik Sasan Məhəmmədhəsən xan haqqında qiymətli mə'lumatlarla zəngin olan əsərində yazır ki, XIX əsrin axırlarında İranda elm yolunda, cəmiyyət üçün heç kəs onun qədər zəhmət çəkməmişdir /16, 174/.

Məhəmmədhəsən xan 1872-73-cü illərdə Darültərcümə nəzdində pulsuz "Müşiriyyə" adlı məktəbin açılmasında da fəal iştirak etmişdir. Burada dərslər ingilis və fransız dillərində aparılır, əsasən həndəsə və coğrafiya fənləri tədris edilirdi. "əl-Məasir vəl-asar" əsərində qeyd etdiyi kimi, onun xarici dilləri tədris edən bu məktəbi açmaqda əsas məqsədi fransız və ingilis dillərinə yiyələnən mütə-xəssislər hazırlamaq və onların vasitəsilə Avropada çap olunmuş və İranda böyük ehtiyac hiss olunan texniki kitabların tərcümə işini sür'ətləndirmək idi /18, 118/. Məktəb Baş nazir Mirzə Hüseyn xan Müşirüddövlənin arzusu ilə açıldığından onun şərəfinə "Müşiriyyə" adlandırılmışdır. Müşirüddövlə vəzifəsindən azad edildikdən sonra (bu şəxs məşhur islahatçı Mirzə Tağı xanın yaxın lostu, Seyid Cəma-ləddinlə həmfikir olmuş, bir sıra islahatlar həyata



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

keçirmişdir) məktəb bağlanmışdır. Sovet şərqşünası E.A.Doroşenko İsa Sədiqin "Seyre fərhəng dər İran və Məğribzəmin" (Tehran, 1332/1953) kitabına əsaslanaraq göstərir ki, Tehranda Müşiriyyə" məktəbi görkəmli siyasi xadim, alim və filosof Sipəhsaların təşəbbüsü ilə açılmışdır. Ümumiyyətlə tədqiqatçıların bu məktəbin təşkilatçısı Məhəmməhəsən xanın heç adını belə çəkməmələri insafdan kənar hesab olunmalıdır /30, 66/.

Məhəmmədhəsən xan dünyanın müxtəlif ölkələrindən gətirilmiş, dörd min cilddən artıq qiymətli kitabı olan zəngin bir kitabxana yaratmışdı. O, vaxtının çoxunu bu kitablar arasında keçirir, gələcək tədqiqatı üçün mənbələr araşdırırdı. Xarici ölkələrdə olarkən mütləq zəngin əlyazma kitablar olan xəzinələrlə maraqlanırdı. Bu fikri onun 1884-cü ildə Tehranda çap olunmuş "Mətlə'üş-Şəms" əsərinin II cildinin sonunda verdiyi İmam Rza kitabxanası adı ilə məşhur olan Məşhəd kitbxanasının siyahısı da təsdiq edir. "Hal-hazırda həzrəti-imam Əbdülhəsən Əli ibn Musa əl-Rza Əleyhüssəlamın kitabxanasında olan əksər elmlərə aid kitabların siyahısı" böyük maraq doğurur /31, 469-500/. Məhəmmədhəsən xan İmam Rza kitabxanasının siyahısını 1884-cü ildə çap etdirmişdir. 10 il keçdikdən sonra Ukrayna Volınski polkunun zabiti Baumqarten də Şərqi İrana səfəri zamanı aldığı təəssüratı əks etdirən kitabında /32/ bu kitabxana haqqında mə'lumat vermişdir. Həmin siyahı sonralar sovet şərqşünası M.S.İvanov tərəfindən, nəhayət, 1972-ci ildə Tehranda çap olunmuşdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İmam Rza kitabxanası haqqında elm aləminə ilk mə'lumatı görkəmli rus şərqşünası N.V.Xanıkov (1818-1878) vermişdir. O, 1858-1859-cu illərdə təşkil etdiyi Xorasan elmi ekspedisiyasının materiallarına əsasən yazdığı əsərini /35/ 1862-ci ildə Parisdə fransız dilində çap etdirmişdir. Nikolay Vladimiroviç Xanıkov Şərq dillərini gözəl bilirdi. O, 1853-cü ildən Təbrizdə rus konsulluğunu idarə etmiş, 1858-59-cü illərdə Xorasana elmi ekspepdisiya təşkil etmiş, xeyli material toplayaraq, Parisə elmi e'zamiyyətə getmişdi. Parisdə olduğu illərdə (1860-1870-ci illər) orada çoxlu əsərlər çap etdirmişdir. Ən samballı əsəri "İran" adlanır ki, yalnız 1 cildi 1874-cü ildə çapdan çıxmışdır. Xanıkovun əsərləri "Vestnik" ... və "İzvestiə İmperatorskoqo Russkoqo Qeoqrafiçeskoqo obhestva" məcmuələrində də dərc olunmuşdur.

Məhəmmədhəsən xan "Mətlə' üş-şəms" əsərində yazır ki, hələ 1861-ci ildə Paris coğrafiya cəmiyyətinin iclasında Xanıkovun Xorasan və Əfqanıstan səfəri barəsində mə'lumtı dinlənilmiş, Xorasanın o vaxt Avropa alimlərinə namə'lum yerləri haqqında bu yeni tədqiqat cəmiyyət tərəfindən yüksək qiymətləndirilmişdi. Məşhəd şəhəri həmin vaxtlar coğrafiya alimləri üçün gizli bir sirr idi və İranın bu müqəddəs şəhəri, binaları, arxitekturası haqqında heç bir mə'lumat yox idi. Bə'zi səyyahların verdiyi mə'lumat isə naqis və məhdud olmuşdur. Xanıkovun kitabı elm aləminin həmin nöqtəsində mövcud olan qarışıqlığa son qoymuş oldu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qeyd etmək lazımdır ki, Xanıkov Məşhədddəki İmam Rza məscidi yanındakı kitabxanaya buraxılmış ilk avropalı idi. O, burada nəinki kataloqla tanış olmuş hətta nadir əlyazma və sənədlərin surətini də əldə etmişdi. /34, 13-14/.

Bu da mə'lumdur ki, Məhəmmədhəsən xan "Mətlə üş-şəms" əsərini Nəsrəddin şahı Xorasan səfərində müşayət etdiyi zaman gördüklərinə, faktik materiallara və sənədlərə əsasən yazmışdır. Ona görə də Xanıkovun Məşhəd haqqında tədqiqatını heç də kamil hesab etməmiş və bu fikri "Mətlə üş-şəms" əsərində vermişdir. O yazır ki, Xanıkov Məşhəd və onun binaları, ümumiyyətlə coğrafiyası haqqında, eləcə də kitabxana haqqında çox qısa mə'lumat vermişdir. O, 90 səhifəlik qeydlərində əsasən şəxsi sərgüzəştlərindən bəhs etmişdir... "Bizim o yerdə olmağa ixtiyarımız çatdığı üçün Məşhəddə hər bir kitabəni oxumuşuq, Məşhədin coğrafiyası, tarixi və şəxsiyyətləri barədə Xanıkovun yazdığı yüz beyt əvəzinə on min beytdən artıq yazmışıq. Çox təəssüf ki, üzvü olduğum və dillərini bildiyim Paris coğrafiya cəmiyyətinin üzvləri bizim dilə bələd deyillər ki, yazdıqlarımla tanış olsunlar" /31, 5-6/.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İmam Rza kitabxanası XII-XIX əsrlərdə Məşhəd şəhərinin şimali-şərq hissəsində, 8-ci şiə imamı Rzanın (imam Musa Əli-Rza) qəbri ətrafında salınmış dini ansambllara daxildir. Bu kitabxana Teymurun oğlu Şahrux hakimiyyətinə qədər, çox güman ki, mövcud deyildi. Şahrux zamanı (1409-1447) Teymurun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nəvəsi, məşhur xəttat və Məşhədin hakimi Baysunqur Mirzə tərəfindən üzü köçürülmüş Qur'an xəzinəyə verilmiş ilk əlyazma kitabı idi.

Daha sonralar kitabxanaya Şah Abbas (1571-1629), Sultan Hüseyn (1694-1722), Nadir şah (1736-1747) və başqaları qiymətli əlyazma kitablar bağışlamışlar. Kitabların kataloqunu sonuncu mütəvəllibaşı, həmçinin sədri-divanxana (yerli hökumət dəftərxanasının müdiri), yə'ni vəqf əmlakının qəyyumu tərtib etmişdir. (Bu şəxs vaxtilə Rusiyada, Sankt-Peterburq İmperator kitabxanasında olmuş, çox savadlı bir şəxs idi) /35, 99/. İmam Rza kitabxanası haqqında ilk mə'lumat kimi Xanıkovun tədqiqatı qiymətlidir.

Xanıkov mütəvvəlibaşının köməyi ilə xəzinədə 3654 cild əlyazma və çap kitabı, 64 sənəd (bu sənədlər 100 ədəd bükülü kağızda yerləşmişdir) olduğunu öyrənir. Bu kitablardan 1041 nüsxəsi Qur'an, (bu qur'anlar arasında Ağqoyunlu hökmdarı Uzun Həsənin türk dilinə tərcümə etdirdiyi nüsxə də vardır[13]. Bu, qur'anın ən qədim tərcümə və təfsir olunmuş nüsxəsidir) 180 ədədi çap, 852 ədədi isə müxtəlif əlyazmaları olmuşdur. Güman edilir ki, 5 nüsxəsi kufi, qalanları nəsx və reyhani xəttilə olan 42 əlyazması imamlar tərəfindən yazılmışdır. Əlyazmaların içərisində nadir gözəlliyə və çox böyük ölçüyə malik kitablar vardır. Bunların sırasında Nadir şahın kitabxanası öz zənginliyi ilə seçilir. Məhəmmədhəsən xan Nadir şahın kollleksiyasından 400 əlyazması, o cümlədən "Tarixi-ibn-Xəllikan",



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Gülşəni-raz", "Təzkirətüş-şüəra", "Divani-Cami" və başqa əlyazmalarının olduğunu müəyyənləşdirmişdir /31, 469-500/.

Mövcud sənədlər içərisində isə Şah Təhmasib, Şah Abbas, Şah Səfi, II Şah Abbas, Şah Süleyman, Şah Sultan Hüseyn, Nadir şah hakimiyyətləri dövrünə aid mühüm fərman və hökmlər vardır /35, 101/.

N.Xanıkovun İmam Rza kitabxanası haqqında verdiyi ümumi və yağcam mə'lumatın əksinə olaraq, Məhəmmədhəsən xanın tədqiqatında Məşhəd kitabxanasında mövcüd olan bütün əlyazma, çap kitabı və sənədlər haqqında ayrı-ayrılıqda mə'lumat verilir, onların kağızının növü, rəngi, cildi və s. göstərilir. Məhəmmədhəsən xanın tərtib etdiyi siyahıda kitablar aşağıdakı ardıcılıqda verilmişdir: Qur'anlar və cüzvlər; kütübi-məani; bəyan; kütub dər elmi-məntiq; tibb; maarif və əxlaq; kütubi nəhv və sərf; kütübi-riyazi; həndəsə, hesab; kütub dər elmi tarix və divani-əş'ar; vəqfnaməcat, tə'liqə və icarənaməcat.

Marağalı Məhəmmədhəsən xan, adı çəkilən əsərində həmin siyahını verərək, Məşhəd şəhərinin tarixini, onun görkəmli alim, şair və sənətkarlarını tanıtmaqla yanaşı, Şərqin zəngin, mədəni irsini özündə əks etdirən əlyazmalar kollleksiyasını da geniş ictimayyətin nəzər-diqqətinə çatdırmaq fikrində olmuşdur.

Dünya şöhrətli alim Məhəmmədhəsən xan bir sıra xarici ölkələrin elmi cəmiyyətlərinin üzvü olmuşdur. O, 1878-ci ildə Paris Coğrafiya



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cəmiyyətinə (1821-ci ildə yaradılmışdır), 1885-ci ildə Fransa-Asiya cəmiyyətinə[14] və İmperator Rus Arxeoloji cəmiyyətinə, 1888-ci ildə isə Londonda Britaniya Krallığının Asiya cəmiyyətinə[15] üzv seçilmişdir. Məhəmmədhəsən xanın üzv olduğu Rusiya Arxeoloji cəmiyyəti 1846-cı ildə 3 bölmədən ibarət təşkil edilmiş, 80-cı illərdən e'tibarən bu bölmələr 3 şö'bədə fəaliyyət göstərməyə başlamışdır:

1. Slavyan-rus, 2. Klassik-Bizans və Qərbi Avropa, 3.Şərq şö'bəsi. Cəmiyyətin Şərq bölməsinin orqanı "Zapiski Vostoçnoqo otdela İmperatorskoqo Ruskoqo Arxeoloqiçeskoqo obhestva" (ZVOİRAO) jurnalı 1886-cı ildən nəşr olunmağa başlamışdır.[16] Bu, şərqşünaslığa dair rus dilində çap olunan ilk elmi jurnal idi və ümumdünya əhəmiyyəti kəsb edirdi. jurnalın banisi 1885-ci ildən Şərq şö'bəsinə rəhbərlik edən Baron Rozen artıq öz məqalələrini əvvəlki illərdən fərqli olaraq xarici dillərdə deyil, Rus dilində yazıb burada dərc etdirirdi /36, 100-101/.

Məhəmmədhəsən xan üzvü olduğu xarici cəmiyyətlərlə daima əlaqə saxlamış, İranda çap olunan kitabların Avropada yayılması üçün bu cəmiyyətlər vasitəsilə müəyyən işlər görmüşdür. Xüsusən İmperator Rus Arxeoloji cəmiyyəti (İRAO) ilə onun əlaqəsi daha sıx olmuşdur.

Məhəmmədhəsən xan vaxtaşırı olaraq bu cəmiyyətə İranda yeni çap olunan bütün kitablar barədə dəqiq mə'lumat verirdi. Həmçinin şö'bə iclaslarının protokollarından, onun öz kitablarından da cəmiyyətin kitabxanasına hədiyyə etdiyini öyrənmək



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olar. Məsələn,cəmiyyətin Şərq şö'bəsinin 14 oktyabr 1894-ci il tarixli iclas protokolundan şö'bənin rəisi Baron Rozenin verdiyi mə'lumatda İranın nəşriyyat naziri E'timadüssəltənə tərəfindən cəmiyyətin kitabxanasına hədiyyə edilmiş 6 cild kitab göstərilir. 3 cildlik "Mir'atül-buldani-Nasiri" və 3 cildlik "Tarix-i müntəzəmi-Nasiri" /37, V/ 15 mart 1895-ci il tarixli şö'bə iclasının protokolundan da Baron Rozenin Məhəmmədhəsən xan tərəfindən daha bir kitabın hədiyyə olunduğu barədə mə'lumatı vardır. Bu, onun "Kitab ət-Tədvin fi əhvali-cəbal əş-Şərvin" adlı tarixi-topoqrafik monoqrafiyasıdır /37, IX/.

Cəmiyyətin orqanı olan "Zapiski..."-də Məhəmmədhəsən xanın "Mətlə'üş-şəms" və redaktoru olduğu (çox güman ki, özünün yazdığı) "Ruznameyi-səfəri-hümayun be Mazandaran" əsərlərinə V.jukovskinin resenziyaları da dərc olunmuşdur. jukovski burada "Mətlə'üş-şəms" əsərini yüksək qiymətləndirir. Onu "vicdanla yazılmış, çox maraqlı tarixi-coğrafi əsər" adlandırır /38, 119-121/. İkinci resenziya isə E.Koriander tərəfindən rus dilinə tərcümə olunmuş "Ruznameyi-səfəri-humayun be Mazandaran" əsəri haqqındadır. jukovsinin yazdığı kimi dağ mühəndisi olan mütərcim, tərcümədə çox təhriflərə, səhvlərə yol vermişdir. Nəticədə, orijinalın əksinə olaraq tərcümə çox keyfiyyətsiz çıxmışdır. jukovski bu əsərin böyük əhəmiyyətini qeyd edərək göstərir ki, burada hər səyyaha görmək nəsib olmayan şahın keçdiyi yollar, məntəqələr, dağlar, çaylar haqqında mə'lumat öz əksini tapmışdır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və ona görə də topoqrafik əhəmiyyətə malik coğrafi adlar düzgün tərcümə olunmalı idi /39, 280-282/.

Məhəmmədhəsən xanın ölümü ilə əlaqədar görkəmli rus iranşünası V.A.Jukovski arxeoloji cəmiyyətin 13 aprel 1896-cı il tarixli iclasında etdiyi mə'ruzəsində onun ictimai fəaliyyətinə yüksək qiymət vermiş, Məhəmmədhəsən xanın elm və maarif işlərinə sağlam düşüncə ilə yanaşdığını qeyd etmişdir.

Məhəmmədhəsən xan həmçinin arxeologiya və numizmatika ilə də məşğul olmuş, Aleksandr Makedonskidən Nəsirəddin şah hakimiyyəti dövrünə qədər mövcud olan qədim sikkə və medal nümunələrinin çox səliqəli, zəngin kolleksiyasını düzəltmişdi. Sonralar bu kolleksiyanın bir hissəsi onun vəsiyyətinə görə Dövlət muzeyinə verilmişdir.

Məhəmmədhəsən xan ictimai fəaliyyətinə görə bir çox dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. O, Fransa Elmlər Akademiyasının h.1295 (1878), Yaponiyanın h.1298 (1881-1882-ci il), Osmanlı dövlətinin h.1300 (1882-1883-cü il), Venesuelanın h.1301 (1883-84-cü il), Almaniyanın h.1302 (1884-85-ci il). Bavariyanın h.1306 (1888-89-cu il/, İngiltərənin, Belçikanın, Rusiya dövlətinin orden və medalları ilə təltif edilmiş, mükafatlandırılmışdır.

Göründüyü kimi, Məhəmmədhəsən xanın sarayda yüksək vəzifələrdə çalışması onun elmi, ictimai və siyasi fəaliyyətinə mane ola bilməmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dövrünün ictimai-siyasi hadisələrinə biganə qalmayan alim, əsərlərində yeri gəldikcə həm bu məsələlər, həm də görkəmli şəxsiyyətlər, o cümlədən azərbaycanlı alim və ictimai xadimlər haqqında da mə'lumat vermişdir.

## Məhəmmədhəsən xan Etimadüssəltənənin yaradıcılığı

"Tehran Darülfününun yetirmələri içərisində xüsusi olaraq seçilən" /40, 317/ Marağalı Məhəmmədhəsən xan İran tarixinin yeni dövründə yaşayıb yaratmış dövlət xadimi, həm də tarixçi-coğrafiyaşünas, təzkirəçi alimdir. O, əsərlərini fars dilində yazmış, "Xeyarte hesan" isə türk dilindən tərcümədir.

Mə'lumdur ki, İranda və Cənubi Azərbaycanda yetişməkdə olan yeni ziyalıların əksəriyyəti ikidilli olub, eyni dərəcədə həm doğma dili, həm də fars dilini bilirdilər. Bu onlara öz elmi-ədəbi fəaliyyətlərində ölkənin bütün əhalisinin dilinə müraciət etməklə dövrün ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmələrinə şərait yaradırdı /9, 216/. Dövrünün görkəmli ictimai-siyasi xadimi olan Məmmədhəsən xan sarayda yüksək vəzifə daşıması ilə yanaşı yazıçı-alim kimi də fəaliyyət göstərmiş, əlliyə yaxın orijinal və tərcümə əsərlərinin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müəllifidir. Qeyd etmək lazımdır ki, XIX əsrin 80-cı illərində İranda kitab nəşrinin yeni mərhələsi başlanmışdır. Mə'lumdur ki, bu dövrdə yaranmaqda olan burjua ziyalılarının maarifçi fəaliyyətinin qüvvətlənməsi, Qərblə mədəni əlaqələrin genişlənməsi nəticəsində, ölkədə hərbi-inzibati, diplomatik kadrlar hazırlamaq üçün elmi bilikləri tədris edən kitabların tərcümə və nəşrinə tələbat artmışdı. Bu işdə Tərcümə və Nəşriyyat Naziri Məhəmmədhəsən xan E'timadüssəltənənin də xidmətləri az olmamışdır.

Məhəmmədhəsən xan özü tarixi-coğrafi əsərlə yazır, həm Qərb ədəbiyyatından tərcümələr edir, həm də onun təşəbbüssü ilə İranın, Azərbaycanın tarixinə dair əsərlər yazılırdı. O, əsərlərini fars dilində yazmaqla F.B.Köçərlinin dediyi kimi "Ümumiran əhalisinin boynuna böyük minnət qoyubdur". Onun yazdığı əsərlərdəki tarixi, coğrafi və arxeologi mə'lumat əsasən səyahətləri zamanı müşahidə etdikləri idi. Mə'lumdur ki, o, Nəsrəddin şahı istər Avropaya səfərlərində və istərsə ölkə daxilində olan bir çox səyahətlərdə mütərcim kimi müşayiət etmişdir. Avropa ölkələrinə səyahət, o ölkələrdəki xalqların adət və ən'ənələri, dili və ədəbiyyatı ilə tanışlıq Məhəmmədhəsən xana iri həcmli əsərlər yazmaq üçün çoxlu mənbələrə müraciət etməyə, tutduğu mövqeyi isə lazım olan dövlət sənədlərindən istifadə etməyə imkan yaradırdı. Bu cəhətlər onu İranda Avropa elmi üsulunun banisi kimi ümumən XIX əsr İran tarixçilərindən fərqləndirir /41, 539; 42,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

160; 43, 92-100/. İranda Avropa mədəniyyətinin yayılmasında onun xidmətləri misilsiz idi.

Məhəmmədhəsən xanın əsərləri dövrün adət-ən'ənlərini aydın lövhələrlə əks etdirən, görkəmli şəxsiyyətlər haqqında qiymətli mə'lumat verən mənbələrdir. Bu əsərlərdə onun səyahətləri zamanı gördüyü yerlərin canlı təsviri verilir. Onun dilində, mühakimələrində sadəlik, təsvirlərində iti müşahidə vardır. Onun sadə dildə yazılmış əsərləri XIX əsr fars nəsrinin sadələşmiş nümunəsidir.

Tarixçi alim Əli Hüseynzadə yazır ki, mə'lum olduğu kimi, müsəlman şərq tarixçilərindən bir çoxunun məcaz, istiarə və mübaliğəli təşbehlərlə zəngin olan üslubu çox zaman onların ifadə etmək istədikləri fikri pərdələyir və onun oxucuya çatmasına mane olur. Məşhur tarixçilərdən Vəssaf /XIV/, Mirzə Mehdi xan /XVIII/, Məhəmmədrəzi Təbrizi /XVIII-XIX/, coğrafiyaşünas hacı Zeynalab-din Şirvani /XVIII-XIX əsrlər/ kimi müəlliflərin əsərləri buna ən yaxşı nümunədir. Vaxtilə K.Marksa göndərdiyi bir məktubunda F.Engels bu üslub haqqında belə yazmışdır: "Fars nəsri dəhşətlidir. Misal üçün, İran qəhrəmanlıq dastanını çox obrazlı, lakin tamamilə məzmunsuz bir dil ilə ifadə edən alicənab Mirxondun "Rövzətüs-səfa"sını göstərmək olar... iste'faya çıxmış bir padşah haqqında yazır: O,işdən getmək ağacı ilə iste'fa təbilinə vurdu... /44, 59-60/.

Məhəmmədhəsən xanın əsərlərində çoxlu şe'r nümunələri, xüsusən öz şe'rlərindən və Sə'didən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gətirdiyi misallar vardır /41, 539/. Bizim fikrimizcə Nəsrəddin şahın müəllifliyi təsdiq olunmuş səyahət gündəliklərinin dili və üslub tərzi Məhəmmədhəsən xan E'timadüssəltənəyə aiddir. Halbuki yalnız Kərbəla səfərinin çap olunmuş nüsxəsində onun redaktorluğu qeyd olunmuşdur. Məhəmmədhəsən xan yaradıcılığını üç istiqamətdə davam etdirmişdir:

1. İri həcmli tarixi-coğrafi və təzkirə xarakterli əsərlər.
2. Dərin siyasi məzmunlu tərcümələr.
3. Lüğətlər.

Məhəmmədhəsən xan yaradıcılığının ilk dövründə şahın verdiyi sərəncamları, nazirlərin mə'ruzələrini, e'zamiyyət hesabatlarını səliqə ilə yığıb, toplayıb çap etdirirdi.

Avropa ədəbiyyatından etdiyi tərcümələr də ədəbi fəaliyyətinin ilk dövrlərinə təsadüf edir. Bu tərcümələr əvvəlcə "Millət" və digər qəzetlərdə çap olunurdu. 1871-ci ildən başlayaraq "Tarixe iktişafe Yengi Dünya" /Amerikanın kəşfi tarixi/ və digər tərcümələri nəşr olunmuşdur. Məhəmmədhəsən xanın iri həcmli orijinal əsərləri Avropaya və ölkə daxilinə dəfələrlə etdiyi səyahətləri zamanı topladığı çox nadir kitabları və sənədləri mükəmməl öyrəndikdən sonra yaranmışdır.

Məhəmmədhəsən xanın əsərlərinin tam siyahısını tərtib edib düzəltmək çətindir, haqqında söz demiş tədqiqatçılardan heç biri onun əsərlərinin tam, mükəmməl siyahısını tərtib etməmişlər. Lakin son vaxtlar Tehranda yaşayan Mirhaşım Mühəddis



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəfindən Məhəmmədhəsən xanın çap olunmuş "Tətbiqe lüğate coğrafiyaye qədim və cədide İran" (İranın qədim və yeni müqayisəli coğrafi lüğəti) kitabının müqəddiməsində onun əsərlərinin nisbətən geniş siyahısı verilmişdir. Burada otuz yeddi əsərin adı öz əksini tapmışdır. Naşir siyahının sonuna əlavə edərək göstərir ki, risalə, kitab va məqalələrinin bə'zisi əlyazma şəklindədir /45, 14/.

Məhəmmədhəsən xan yaradıcılığının ən məhsuldar dövrü 1879-1896-cı illər olmuşdur. On altı il ərzində çap olunmuş əsərlərindən əlavə "Ruznameye xatirate E'timadüssəltənə" adlı səkkiz cild əlyazma kitablarının bir qismi öz xətti ilə, digəri isə arvadı Əşrəfüssəltənənin xətti ilədir ki, hal-hazırda Məşhədin "Astane Qodse Rəzəvi" kitabxanasında saxlanılır.

Bir mənbələrə əsasən onun əsərlərinin tam siyahısını xronoloj i surətdə tərtib etmək təşəbbüsündə olduq.

I Tarixi- coğrafi əsərləri:'

I. "Salnamə". Tehran, 1290/1873. İranın və başqa ölkələrin
qısa tarixi verilir. Müntəzəm olaraq Məhəmmədhəsən xanın rəhbərliyi ilə hazırlanmış, onun əsərlərinin sonuna əlavə edilmişdir.

2. "Tarixe İran". 1292/1875-ci ildə çap edilmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

3. "Müxtəsər coğrafiyaye ümumiye dünya (əlyazması).

4. "Ruznameye səfəre Firəngistane Nəsrəddin şah. Tehran, 1294/1877.

5. "Mir'atül buldane Nasiri". (Nasiri şəhərlərinin aynası). Dörd cilddən ibarət olan bu bitməmiş əsər 1877-1880-cı illərdə Tehranda çap olunmuş, İranın coğrafiyası, tarixi, iqtisadiyyatı və etnoqrafiyası haqqındadır. Burada vilayət, şəhər, rayon, kənd, küçə, məscid, bazar və s. yerlərin coğrafi lüğəti verilir. Bu əsərdə həmçinin məşhur şəxsiyyətlər haqqında mə'lumat, bə'zi sənədlər, məktublar, kitabələr və bu kimi başqa materiallar öz əksini tapmışdır. "Mir'atül-buldan" əsərində bir sıra xarici dövlətlərdə baş vermiş hadisələr haqqında da mə'lumat verilmişdir. Əsərin birinci cildi əlif / / te / / hərflərini əhatə edir. Bu cilddə Tehran şəhərinin tarixi geniş şərh olunmaqla yanaşı Azərbaycanın təbiəti, şəhərləri, məşhur şəxsiyyətləri haqqında qiymətli mə'lumat verilir. Bu mə'lumat ona görə qiymətlidir ki, müəllif bunları qədim mənbələrdən almaqla bərabər, səyahətləri zamanı gördüklərini və tanıdığı şəxslər haqqında öz fikirlərini də yazmışdır.

Birinci cilddə "Zinət əl-məcalis" və "Təqvime buldan" əsərlərinə istinad edilərək Təbriz şəhərinin toponimi şərh olunur, onun ictimai-iqtisadi həyatı və xüsusilə, qədim tarixi haqqında mə'lumat verilir. Məhəmmədhəsən xan göstərir ki, Təbriz Azərbaycanın böyük şəhərlərindəndir və xalq arasında Toriz adı ilə ilə məşhür olmuşdur. /46, 195/ Təbriz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ətrafında ağ mərmər mə'dənləri vardır. Bunların bə'ziləri nə qədər qalın olsa da yenə də işığı keçirir. Deyilənlərə görə bu mərmər ilk dəfə mənbəyindən maye halında çıxır, sonra isə bərkiyir və donur /46, 355/. Həqiqətən Təbriz şəhəri yaxınlığında olan Azərşəhr adlı yerdə yumşaq halda mərmər çıxmışdır, hətta bunlardan uşaq oyuncaqları da düzəldirmişlər. Lakin bunun istehsalı dayandırılmışdır. Ona görə ki, bu işin zərərli olması aşkar edilmişdir. Deməli, mərmərin maye halda yox, yumşaq halda çıxması əfsanə deyil, həqiqətdir. Müəllif Təbriz şəhərindən bəhs edərkən onun görkəmli şair və fazillərindən şah Qasim Ənvar, Şeyx Şəbüstəri və başqalarını da xatırlayır, şəhərin hələ Sasanilər dövründə mövcud olduğunu göstərir.

İkinci cilddə Nəsrəddin şah Qacar Hakimiyətinin ilk on beş ilində İranın daxili həyatına aid hadisələr, xüsusən dövrün mühüm hadisələrindən olan Babilər hərəkatı, Babın həyatı, təhsili, fəaliyyəti öz əksini tapmışdır. Bu cilddə həmçinin müəllifin qısa tərcümeyi-halı, əsərləri haqqında mə'lumat və xarici ölkə xəbərlərinin xülasəsi də verilmişdir. İkinci cild 1878-ci ilin salnaməsilə bitir.

Üçüncü cild Nəsrəddin şah hakimiyyətinin sonrakı 17 ilində İranda və xarici dövlətlərdə baş vermiş hadisələr haqqında mə'lumat verir. Cildin sonuna isə 1879-cu ilin salnaməsi əlavə olunur.

Dördüncü cilddə Azərbaycanın Bakı, Gəncə, Ordubad, Həmədan, Ərdəbil, Mərənd, Qəzvin və başqa şəhərləri haqqında maraqlı mə'lumat diqqəti



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

cəlb edir. Müəllif Azərbaycan torpağını təsvir edərək göstərir ki, bu yerlərin insanları gözəl və mülayimdir, çoxlu sərin bulaqları vardır, qədim tarixi abidələri bu xalqın uzaq keçmişindən xəbər verir. Məhəmmədhəsən xan göstərir ki, 1873-cü ildə Nəsrəddin şahı Avropa səfərində müşayiət edən zaman Bakıya gəlmiş, şəhəri öz gözləri ilə görmüşdür. O, Bakını təsvir edərək yazır ki, şəhər möhkəm qala divarları ilə əhatə olunmuşdur, bu divarlar artıq Xəzər dənizi sahilindən bir kilometrə qədər uzaqlaşmışdır, lakin vaxtilə sular bu divarlara dəyərmiş. Məhəmmədhəsən xan İçərişəhərdəki Şeyx Sultan Xəlilullah məscidinin h.780-cı (m.1378) ildə Bakı yaxınlığındakı Suraxanı atəşgahı formasında tikildiyini göstərmişdir /47, 98/. Dördüncü cildin sonunda 1880-cı salnaməsində verilmişdir.

6. "Tarixe müntəzəme Nasiri". Üç cilddə. Tehran, 1881-1883. Əsər İranın və Avropanın 622-1882-ci illər tarixinə həsr olunmuşdur.

Birinci cild 622-1258-ci illər, ikinci 1259-1779-cu illər, üçüncü cild isə Qacarların sülaləsinin 1779-1882-ci illər tarixini əhatə edir.

7. "Mətlə'üş-Şəms" (Gündoğan). Üç cilddə. Tehran, 1884-1886. Tədqiqatçılar bu əsərin "Mir'atül-buldane Naseri"nin davamı olduğunu göstərirlər. Burada Xorasan vilayətinin coğrafiyası və tarixi verilir. Əsər Nəsrəddin şahın Xorasan səfəri ilə əlaqədar yazılaraq tarixi mənbələri, kitabələri, sənədləri, Xorosanın yerli əhalisi ilə müəllifin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

söhbətlərini, hər bir rayonun coğrafiyasına və tarixinə aid mə'lumatları özündə əks etdirir.

Birinci cilddə Tehrandan Məşhədə qədər olan yerlərin təsviri, eyni zamanda məşhur şəxsiyyətlər haqqında mə'lumat verilir.Tus şəhəri haqqında olan mə'lumat kitabın böyük bir hissəsini əhatə edir. Cildin əlavəsində 1883-1884-cü illərdə İranda və eləcədə xarici ölkələrdə baş vermiş hadisələrə dair mə'lumat və birillik səlnamə dərc olunmuşdur. Cildin əlavəsində bir çox ölkə, şəhər, o cümlədən Azərbaycan sözünün mənşəyi ilə əlaqədar mə'lumat vardır.

İkinci cild Məşhəd şəhərinin tə'rifi ilə başlayır. Burada şəhərin 1036-1885-ci illəri əhatə edən tarixi, onun məşhur adamları, tarixi abidələri, təhsil ocaqları, karvansaraları və sairə yerləri haqqında mə'lumat verilir. Müəllif kitabın sonunda Məşhəd məscidi yanında qədim İmam Rza kitabxanasının zəngin əlyazma, qədim çap kitabı və arxeoqrafik sənədlər siyahısını dərc etmişdir. Bu barədə yuxarı mə'lumat verildiyindən onun haqqında geniş izahata ehtiyac qalmır. Çox qiymətli olan bu kitabxanada saxlanılan Qur'anın türk dilinə ilk tərcüməsi son vaxtlar aşkar edilmişdir.

E'timadüssəltənə əlyazma nüsxələrinin çapı ilə də məşğul olmuşdur. O, "Mətlə'üş-Şəms" əsərinin bu cildinə ilk dəfə olaraq, 1885-ci ildə Şah Təhmasib" adlı qiymətli bir əlyazmanı daxil etmişdir /s.165-216/. Məhz həmin əsər çap edildikdən sonra P.Horn 1890-cı ildə əsərin farsca mətni ilə alman dilinə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərcüməsini çap etdirmişdir. Həmin əsərin adı haqqında P.Horn ilə V.A.jukovski arasında elmi mübahisələr getmişdir.

Üçüncü cild Nəsrəddin şahın Xorasandan qayıdarkən keçdiyi şəhər və məkanı təsvir edir. Oranın məşhur adamları haqqında da mə'lumat verilir.

Əlavə 1885-1886-cı illərin salnaməsi dərc olunmuşdur. "Mətlə'üş-Şəms" əsəri çox böyük zəhmətlə yazılmışdır. Y.Ariyanpur yazır ki, Mirzə Məhəmməd xan Qəzvininin iddiasına görə bu əsərin müəllifi Şeyx Məhəmməd Mehdi Şəmsülüləmadır /1, 197/. Bununla əlaqədar olaraq Məhəmmədhəsən xan E'timadüssəltənənin gündəliyinə müraciət etdikdə hər şey aydın olur:

"1306-cı il, 12 məhərrəm, çəharşənbə (1888, 19 sentyabr). Səhər Darültərcüməyə getdim. Qəribədir ki, Müxbirüddövlənin bacısı oğlu Məhəmmədtağı xan coğrafiyaya dair bir kitab yazıb, onu "Gəncineyi-daneş" (Bilik xəzinəsi) adlandırıb, eynilə mənim zəhmətlə yazdığım "Mir'atül-buldan" və "Mətlə'üş-Şəms" əsərindir. Bu aşkar oğurluqdur..." /24, 677/.

8. "əl-Məasir vəl-asar" (Hünərlər və əsərlər). Tehran, 1889, Nəsrəddin şah hakimiyyətinin qırx ilinə həsr olunmuş təzkirə xarakterli əsərdir. Burada İranın dövlət quruluşu şərh olunmaqla yanaşı XIX əsrdə yaşamış azərbaycanlı elm, incəsənət nümayəndələri, xəttat, astronom, riyaziyyatçı və məşhur din xadimləri haqqında da mə'lumat verilmişdir. İkinci fəslin sonunda həmin əsərdən ətraflı bəhs olunacaqdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

9. İranın Parfiyada hakimiyyətdə olmuş Əşkanilər sülaləsi (e.ə. 247 - bizim eranın 226-cı illəri) haqqında yazılmış tarixi-coğrafi əsərlərdən E'timadüssəltənənin üçcildlik "Dürər üt-tican fi tarixe bəni əl-əşkan" (Əşkanilər tarixində dürlər toplusu) adlı əsərdir. Əşkanilər tarixindən ərəb tarixçiləri Məs'udi, Təbəri, İbn əl-Əsir, həmçinin latın, yunan alimləri, Firdovsi, Xandəmir və başqaları bəhs etmişlər. Məhəmmədhəsən xan bu mənbələrdən bəhrələnərək, əsərin birinci cildində bunların xülasəsini vermiş, əşkanilər sülaləsinin yaranma tarixi, dövlət quruluşu, ictimai münasibətlər, mədəniyyət və ideologiyasından bəhs etmişdir. Əsərin qiymətli cəhətlərindən biri bu cildin sonunda əşkanilər sülaləsi şahları və onlardan bəhs edən latın, ərəb, fars və qədim yəhudi alimləri haqqında olan bioqrafik mə'lumatdır.

Əsərin ikinci cildi on beş fəsildən ibarət olub, əşkanilər sülaləsinin ilk hökmdarı I Arşakdan on beşinci Arşaka qədər (yaxud IV Fərhad), yə'ni eramızın əvvəlinədək Parfiya şahlarının hakimiyyətindən bəhs edir. On beşinci Arşakın hakimiyyətinin sonu xristianlığın başlanğıcına təsadüf etdiyi üçün bu cildin sonunda İsa peyğəmbərin həyatı verilir.

Üçüncü cild eramızın başlanğıcından 220-ci ilədək hakimiyyətdə olmuş Parfiya şahlarından bəhs edir. Əlavədə əşkanilərin İran ərazisində əcdadları haqqında mə'lumat verilmişdir. Əsər 1890-1892-ci illərdə Tehranda çap olunmuşdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmmədhəsən xan E'timadüssəltənə əsərində qədim Azərbaycan tarixinin mühüm bir məsələsini də tədqiq etmişdir. O yazır: "Azərbaycan xüsusi şahlığa malikdir. Belə ki, Böyük İsgəndərin dövründən burada şahlar hökmdarlıq edib müstəqil olmuşlar. Azərbaycan şahları eramızın 30-cu ilinə qədər öz istiqlaliyyətlərini tam şəkildə saxlaya bilmişlər. Parfiya şahı Azərbaycan şahının Mark Antoniyə kömək göstərdiyini bəhanə edərək həmin ildə ona hücum edib qələbə çalmışdır" /48, 138/. Azərbaycan alimi Abdulla Fazili həmin əsərdən çıxış edərək yazır ki, Məhəmmədhəsən xanı İranın başqa tarixçilərdən fərqləndirən cəhət həmin dövrdə (yə'ni e.ə. 328, eramızın 30-cu ili) Azərbaycanda mövcud olan dövləti (Atropatena sulaləsini) İran dövləti hesab etməməsidir /49, 89/. Bu cəhət Məhəmmədhəsən xanı həm Qərbin, həm də İranın burjua tarixçilərindən fərqləndirir. İranın burcua tarixçilərindən fərqləndirir. Əsərin üçüncü cildi 1892-ci ildə tamamlanmışdır. Müəllif bu cildin sonunda maraqlı bir mə'lumat vermişdir. Məhəmmədhəsən xan bu üçcildliyi yazarkən çoxlu qədim məkan, ölkə, vilayət adlanını toplayıb araşdırdığı üçün qədim coğrafi adlar lüğəti tərtib etmək fikrinə düşür və 2-ci cildin sonunda belə bir lüğət tərtib edəcəyinə söz verir. Məqsəd bu lüğət vasitəsilə hal-hazırda işlənən yer adlarının mənşəyini öyrənmək idi. Əgər belə bir lüğət tərtib olunsa, məsələn, Xarəzm və ya Gürgan yer adlarının haradan alındığı aydınlaşar və s. Müəllif bu lüğəti tərtib edərkən rast gəldiyi çətiinlikləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

göstərərək yazırdı ki, hazırda bir tərəfdən fars dili xarici sözlərlə yüklənmişdir, digər tərəfdən də fars dilinin lüğəti azdır. Asiya dövlətlərinin heç birində Akademiya tə'sis edilməmişdir ki, bu nöqsanı aradan qaldırsın. Lüğət tərtib edirkən əlimizdə heç olmasa 30-40 min sözdən ibarət olan fars dilinin lüğəti olmalıdır ki, qeyri-fars lüğətinə möhtac olmayaq. Məhəmmədhəsən xanın tərtib etdiyi lüğət Tehranda 1363 ş. (1984)-cü ildə Mirhaşım Mühəddis tərəfindən çap olunmuş "Tətbiqe lüğate coğrafiyaye qədim və cədide İran" kitabıdır ki, ilk dəfə yuxarıda adı çəkilən 3 cildlik əsərin 3-cü cildinin sonunda "Tətbiqe lüğate coğrafiyaye" adı ilə verilmişdir. 10. "Tətbiqe lüğate coğrafiyaye qədim və cədide İran". Tehran, 1301 ş, 1363 ş. Əsər haqqında yuxarıda mə'lumat verilmişdir. 11. "Xeyrate həsan" (Gözəllərin yaxşı əməlləri). Tehran, 1886-1888. 3 cilddən ibarət olan bu əsər məşhur islam qadınları haqqında bioqrafik mə"lumat verən təzkirədir. Əsərin əsasını türk ədibi Zehni əfəndinin "Məşahirün-nisa" (məşhur qadınlar) əsəri təşkil edir. Məhəmmədhəsən xan tərcümə etdiyi kitaba bir çox mənbələrdən bəhrələnərək əlavələr etmiş, yeni bioqrafik lüğət yaratmışdır. Bu təzkirədə məşhur İran,türk,.ərəb,hind və həbəş qadınlarının tərcümeyi-halları əlifba üzrə verilmişdir. (Aminə-Yəhəbulla əl-Cəziyyə). Müəllif Lütfəli bəy Azərin "Atəşkədə", Mahmud Mirzə Qacarın "Noqle məclis" və İzədüddövlə Əhməd Mirzə Qacarın "Tarixe İzədi" təzkirələrindən də bəhrələnmişlər. İran tədqitatçısı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əhməd Gülçin Məani yazır ki, Mirzə Məhəmməd Məlikül-küttab Şirazi bu əsəri ələ keçirərək E'timadüssəltənənin adını pozmuş, "Təzkirətül xəvatin" (Xanımlar təzkirəsi) adı ilə Bombeydə çap etdirmişdir /50,611; 51, 94/.

Məhəmmədhəsən xan yazır ki, "Xeyrate həsan"ın 1 cildi çapdan çıxandan sonra bir nüsxə Məhəmməd Zehni Əfəndiyə göndərmiş və ondan öz tərcümeyi-halını istəmişdir. Zehni əfəndi bu xahişə əməl etmiş və müəllif ondan məktub almışdır. Həmin məktubun türkcə mətni və farsca tərcüməsi əsərin II cildində dərc olunmuşdur. Kitabda həmçinin Azərbaycanın məşhur qadınları haqqında verilmiş qısa mə'lumat E'timadüssəltənə tərəfindən Məhəmməd Zehni əfəndinin əməyinə edilmiş əlavələrdir. Birinci cilddə şuşalı İbrahim xan Cavanşirin qızı Ağabacı /52, 11/, Şah İsmayıl Xətainin sevgilisi Bəhruzə /52, 90/ haqqında mə'lumat və şe'rlərindən nümunələr verilmişdir. İkinci cilddə Şah İsmayıl Xətainin anası, Uzun Həsənin qızı Ələmşah Bəyim /53, 187/, Fətəli şahın xanımı Tavus, qızları Zibeydə, Sərvicahan, Təyyibə, İsmət və başqaları haqqında mə'lumat verilir. Qeyd etmək lazımdır ki, məşhur xanımlar haqqında olan bə'zi mə'lumatlar Fətəli şahın oğlu şahzadə Mahmud Mirzənin "Noqle məclis" adlı təzkirəsindən götürülmüşdür /53, 141/. Bu cilddə əsli Şamlu tayfasından olan şairə Zivər xanımın qəzəl və heca vəznində şe'rlər yazdığı göstərilmiş, farsca bir qəzəli də dərc olunmuşdur /53, 49/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Üçüncü cilddə Abbas Mirzə Naibüssəltənənin qızı Fəxrüddövlə /54, 22/, Qürrətüleyn /54, 36/, Məshəti Gəncəvi /54, 103-104/ haqqında mə'lumat və şe'rlərindən nümunələr verilmişdir.

Məhəmmədhəsən xan E'timadüssəltənə "Xeyrate həsan" əsərinin tarixi haqqında gündəliyində belə yazır: "1309 h.1 səfər, şənbə.. (1891, 7 sentyabr). Nahardan əvvəl Parisdən təzə bir kitab gətirmişdilər, İran və islam aləmi qadınları haqqında yazılmışdı. Tə'rif edirdilər ki, İran qadınları Fransanın qadınlarından çox fazil və alimdirlər və "Xeyrate həsan" kitabını nümunə göstərirdilər. Şah buyurdu ki, bu kitabı nə vaxt yazmısan? Ərz elədim ki, üç il bundan əvvəl hüzurunuza gətirmişdim. Təəccüb etdi ki, görməyibdir. Xahiş elədim ki, cildləyib, şah üçün gətirsinlər" /24, 886/.

12. "Səfərnameye Nəsrəddin şah be Mazandaran". 1294/1877.

13. "Səfərnameye Nəsrəddin şah be Xorasan". Səfəre sevvom. Tehran, 1300/1883; 1362/1983.

14. "ət-Tədvin fi tarixe cebale Şəlfin". Tehran, 1312/1894.

Mazandaranda yerləşən Sevadkuh (Şelfin) dağları ilə bağlı və həmin rayondan olan görkəmli adamların bioqraiyası ilə tamamlanan bir əsərdir.

Müəllif əsərin yazılma tarixi ilə əlaqədar gündəliyində belə yazır: "1311 h., 4 rəbiül əvvəl, yekşənbə... (1893, 16 sentyabr). Bu gün şah ova getdi. Mən evdə qaldım, "Tarixe Sevadkuh"dan bir qədər yazdım"... /24, 1040/. Daha sonra yazır: "1311 h., 18



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ramazan, doşənbe.. (1894, 26 mart). Neçə müddətdən bəri üzərində işlədiyim Mazandaran, Gilan, Astarabad və Ruyan tarixindən bəhs edən "ət-Tədvin fi tarixe cebale Şəlfin" adlı Sevadkuh tarixini bugün bitirdim" /24, 1081/.

15 "Tarixe Fransa". Tehran, 1312/1894-95.

16. "Tarixe sasaniyan". 2 cilddədir.

17. "Kaşef ül-kərb fi tarix ül-Qərb". Əsərin yalnız bir cildi yazılmışdır.

18. "Şərhe hale Kristof Kolumb".

19. "Müsamireye Şəmiran".

20. "Şərhe hale Aleksandr İmperatore Rusi və yaxud Aineye İsgəndəre sevvomi". Əlyazması Məşhəd kitabxanansıdır.

21. "İmperator Nikolaye Sani". Əsərin yazılma tarixini E'timadüssəltənənin gündəliyinə əsasən müəyyənləşdirmək olar. O yazır: "1313 h.19 şəban, seşənbə (1896, 5 fevral). Rusiyanın imperatoru ikinci Nikolayın tarixini bitirdim, indi katibin əlindədir, yazır" /24, 1203/.

22. "Fəlahət və bağbani". 1328/1910.

23 ."Kəşfül mətalib" nəzire kəşfül ayat (zə edire Qur'an. Tehran, 1313/1895:  1353/1974.

24. "Vəqayeye əzime" əz tarixe xilqəte Adəm, ta tarixe hicrəte həzrəte xətmi mərtəbət.

25. "Coğrafiyaye Taleqan" (be zəmimeye ketabe Feşendek). 1341/1962. Təshihe huşəng Pur Kərim.

26. "Sədrül-təvarix". Be kuşeşe Məhəmməd Müşiri. 1349/1970, 1357/1978.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

27. "Səfərnameye Tiflis". (Səfərnameye Səniüddövlə, məşhur be E'timadüssəltənə /Be kuşeşe Məhəmməd Kolbin. Tehran, 1356/1978).

28. "Məasire sultan". 2 cilddə. Bu əsərə kataloqlarda təsadüf olunmadı, lakin Məhəmmədhəsən xanın "Xabnamə"sinə yazılmış müqəddimədə əsərin adı Məhəmmədhəsən xanın əsərləri sırasında göstərilir.

29. "Müntəxəbe məsnəviyeRumi". Tehran, h.1294 (m.1877) Nəsrəddin şah həvəskar rəssam, xəttat olmaqla yanaşı, həm də şair təbiətli idi. Onun Mövlana Cəlaləddin Rumi (1207-1273) məsnəvisindən seçdiyi parçalardan ibarət olan bu kitabı Məhəmmədhəsən xan nəşrə hazırlamışdır.

30. "Xəlsə, ya Xabnamə, ya yek pərdə əz əsrare enhetate İran" (Yuxu kitabı, yaxud İranın tənəzzül etməsi sirlərindən bir pərdə). Məşhəd, 1324/1945; Tehran, 1348/1969.

Əsər haqqında sonra geniş bəhs olunacaq.

31. "Ruznameye xatirate E'timadüssəltənə". Tehran, 1354/1966.

Məhəmmədhəsən xanın 4 iyul 1875-ci ildən 15 fevral 1876-cı ilədək və 18 mart 1881-ci ildən 29 mart 1896-cı ilədək yazdığı "Ruznameye-xatirate-E'timadüssəltənə" adlı gündəliyinin avtoqrafı Məşhəddəki Astane Qüds kitabxanasında saxlanılır. Əsər h.1345/1966-cı İrəc Əfşarın müqəddiməsilə Tehranda çap olunmuşdur. 1216 səhifəsindən ibarət olan bu gündəlik dövrünün bir sıra mühüm ictimai-siyasi hadisələrini əks etdirən, ümumiyyətlə XIX əsrin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sonunda İranın ictimai-siyasi həyatını tədqiq etmək üçün bu gün də qiymətli olan mühüm mənbədir /55, 29/. Əsər XIX əsrdə İranda yaşamış memuar ədəbiyyatın ilk nümunələrindən biri kimi təzkirəçilərin nəzər-diqqətini cəlb etmiş, burada öz əksini tapmış tarixi mə'lumatlar mühüm mə'xəzlərdən olmuşdur. Məsələn, İran alimi Mehdi Bamdad "Tarixe ricale İran" adlı bioqrafik lüğəti yazarkən bu gündəliyə çox müraciət etmişdir. Gündəlik müəllifin bir sıra əsərləri haqqında yaranmış səhv müddəaları, qərəzli fikirləri təkzib etmək üçün tədqiqatçıya gömək edən qiymətli mənbədir. E'timadüssəltənənin gündəliyinin fasilə ilə yazılmasının səbəbi İrəc Əfşarış yazdığına görə mə'lum deyil /24, 3/. Gündəliyin qiymətli cəhətlərdən biri E'timadüssəltənənin mənbələrdə göstərilən əsərlərindən bir sıra orijinal və tərcümə əsəri barəsində mə'lumatın verilməsidir.

E'timadüssəltənəin gündəliyinə əsaslanaraq həmin əsərlərin siyahısını veririk:

1. "Politike haliyeye rus və ingilis dər Asiya". S.457.
2. "Tarixe çehel-o-do salaye səltənəte şah". S.694.
3. "Tarixe xanevadeye Romanov". S.1150.
4. "Tarixe Səlmas". S.570.
5. "Tarixe südure Qacariyyə". S.917.
6. "Tarixe Mərv". S.1098.
7. "Tarixe Məğribül-əqsa". S.679, 697.
8. "Tarixe sale 1269". S.582.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

9. "Tur dü Mond" (tərcümə). S.957.
10. "Hacı Baba" (tərcümə) [17]. S.868, 874, 877.

Tərcümələri:

1. "Tarixe iktişafe Yengi Dünya" (Amerikanın kəşfi tarixi). Tehran, 1288/1871. Əsər Amerikanın XV-XVI əsrin birinci yarısında avropalılar tərəfindən kəşfi və öyrənilməsinə həsr olunmuşdur.

2. "Xərnamə, ya məntiqül himar". Tehran, h.1306, h.1322/ 1888, 1904. (Əsərdən aşağıda ətraflı bəhs olunur).

3. "Höccət üs-səadət fi hiccət əş-şəhadət" (Zülm ziyarətində xoşbəxtliyin sübutu). Təbriz, 1892. Tarixi əsər olub, hicrətin 61-ci (m.680) ilində Kərbəlada, həçinin həmin il dünyanın bir sıra ölkələrində baş vermiş qanlı hadisələri təsvir edir. Görkəmli rus şərqşünası V.A.jukovskinin yazdığına görə əsər ilk dəfə 1886-cı ildə Qahirədə çap olunmuşdur. E'timadüssəltənə bu barədə belə yazır: "1305 h.q. 14 məhərrəm, (1887, 2 oktyabr) mənim 61-ci il hadisələrinə aid yazdığım "Höccət üs-səadət" kitabımı Təbrizin müctəhidi və Mirzə Həsən Aştiyani çox tə'riflədilər və şaha xəbər verdilər, o da kitabı istədi. Mən bunu keçən il şahın göstərişi ilə 3-4 ay zəhmət çəkərək yazmışam, şah oxumamışdır. Kitabı mərhum atama həsr eləmişəm. İndi bütün rövzəxanlar və başqaları tə'rifləyirlər" /24, 589/.

4. "Tərcümeye şərhe hale Robinzon".



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

5. " Tərcümeye müsafirəte kapitan Ətras (Qatteras) be qütbe şimal". Tehran, 1311/1893. jül Verndən tərcümə.

6. "Xatirate Madmuazel dü Mont Pansiyer, doxtəre əmuye Lui Çəhardəhhom". Tehran, 1313 h. (1895/96).

7. "Sərgüzeşte misters hortestet xanume ingilisi dər şureş və bəlvaye Hindistan dər səneye 1857 məsihi". Bombey, 1318/1900. Fransız yazıçısı Feliks Meynardın əsəridir.

8. "Təbibe icbari". Molyerdən tərcümə. Tehran, 1904. Y.E.Bertels bu tərcümənin yüksək keyfiyyətindən bəhs edərək göstərirdi ki, tərcüməçi əsərə milli don geydirərək, orijinal bir əsər yaratmış, onu milli zəminə gətirmişdir /56, 509/.

9. "Əruse icbari". Molyerdən tərcümə.

10. "Mərize xəyali". Molyerdən tərcümə.

11. "Dastane Robinzon". D.Defodan tərcümə.

12. "Kadastre" (momayyezeye əmlak və ərazi və te'dadi-nüfus).

13. "Müxtəsər tarixe Heredot". Əlyazması.

14. Bunlardan əlavə, mənbələrdən Məhəmmədhəsən xanın "Şərhe əhvale' sultan Əbdülhəmid və ovdeye məmləkəte Osmani" əsərini fransız dilində tərcümə etdiyi mə'lumdur /57, 1272/.

E'timadüssəltənə dilçi-alim kimi fəaliyyət göstərmiş, ərəb, fars və fransız dillərinin lüğətini tərtib etmişdir. Onun "Lüğəti ərəbi be farsi", "Lüğəti farsi be farsi", "Nəf"əl lisan" (Dər lüğəte farsi və frane), "Qrammere fransəvi", "Mükalime əz franse be



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

farsi", "Əlfaze mütəşabehə (Fransız dilində oxşar sözlər) əsəriləri Yəhya Ariyanpurun göstərdiyi kimi avtoqrafdır /1, 268/.

Məhəmmədhəsən xanın əsərlərinin siyahısı aşağıda göstərilən mənbələrə əsasən tərtib olundu:

1. Məhəmmədhəsən xan. Mir'atül-buldane Nəsiri. C.2,Tehran, 1295/ 1878, s, 90_98 ,

2. Tətbiqe lüğəte coğrafiyaye qədim və cədide İran. Müqəddimeye. Mir Haşım Mühəddis . Tehran, 1363/1984.

3. E'timadüssəltənə. Xabnamə. Müqəddimeye Məhəmməd Şəhid Nurayi. Məşhəd, 1324\1945.

4.Y.Ariyənpurr Əz Səba ta Nima. C.I. Tehran, 1357/1978, s.264-271.

5.V.A.jukovski. Muxammed-Xasan-xan /İtimad-al-saltane/. - 3V0, t.X., Vıp. I-IV, S-Pb., 1897, s.187-191.

Yuxarıda qeyd etdiyimiz kimi Məhəmmədhəsən xan E'timadüssəltənənin ictimai-siyasi baxışları onun tərcümələrində də öz əksini tapmışdır. O, Avropa ədəbiyyatının ən yaxşı nümunələrini fars dilinə çevirməklə jül Vern, Molyer kimi məşhur yazıçıları İran oxucusuna tanıtmışdır. Məhəmmədhəsən xanın bu sahədə fəaliyyəti Y.E.Bertelsin nəzər-diqqətini cəlb etmiş və onu "mahir mütərcim" adlandırmışdır.

Yəhya Ariyənpur da özünün "Əz Səba ta Nima" təzkirəsində Məhəmmədhəsən xan yaradıcılığına yer verərək, onun tərcümə əsərlərindən bəhs etmişdir. Bu siyahıda olan əsərlər içərisində Fransa yazıçısı və dramaturqu Pol de Kokun "Məntiqül-vəhş" əsəri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xüsusi qeyd olunur və əsərin qısa məzmunu verilir: Bir ulağa sahibi saman və arpa vermir, ona sığal çəkmir onun üçün tövlə və cilovunu bağlamağa yer düzəltmir. Beli yaralı, özü isə qorxu içərisində yaşayan ulaq isti və soyuqda, yaz-qış açıq havada qalır. İnsafsız sahibi onu hər gün çox ağır yüklə yükləyir. Nəhayət, biçarə ulağın səbri tükənir. O bir gün üstündəki yükü atıb, təpiklə sahibinin qabırğasını sındırır. Bununla da əziyyət və bədbəxtçilikdən qurtulur" /1, 267/. Ariyənpur daha sonra yazır: "Məhəmmədhəsən xanın düşmənləri şaha çatdırırlar ki, o, bu əsəri tərcümə etməklə, İran xalqının ağır vəziyyətini təsvir etmək, onu şah hakimiyyətinə qarşı üsyana və inqilaba çağırmaq istəmişdir" /1, 267/.

Məhəmmədhəsən xan bu hadisədən sonra təşviş keçirmiş və məktub yazıb, arvadına tapşırmışdı ki, əgər qəza üz versə, onu şaha çatdırsın.

Siyasi pamflet olan bu əsərin adı Xanbaba Moşarın kataloqunda "Məntiqül-vəhş və əlhimar yəhmilül əsfarən" (Heyvanın məntiqi, ya kitab yüklü eşşək) kimi verilmişdir. Əsərin Azərbaycan EA Əlyazmalar İnstitutunda saxlanılan h.1306-cı il (m. 1888) və h.1322-ci il (m.1904) çap olunmuş Tehran nüsxələrində də adı belədir və bunların məzmunu Y.Ariyənpurun göstərdiyin həmin əsərə tamamilə uyğundur.[18]

Lakin nədənsə istər "Azərbaycan ədəbiyyatı tarixi"ndə, istərsə də M.Mənafinin apardığı tədqiqatda bu əsərin müəllifi Əbdürrəhim Talıbov hesab edilmişdir. Halbuki böyük alim Ə.Talıbov



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

özünün belə bir əsəri olduğunu heç bir yerdə qeyd etməmiş və bildirməmişdir.

Pol de Kokun böyük siyasi mə'na daşıyan, əxlaqi, idraki və tərbiyəvi əhəmiyyətə malik olan bu əsərinin əsl mütərcimi, iqtibas və təbdil edəni Məhəmmədhəsən xan unudulmuş və nəticədə tədqiqatçı M.Mənafi bunu Əbdürrəhim Talıbov Təbrizinin nəinki tərcümə etdiyini, hətta onun orijinal əsəri olması fikrini irəli sürmüşdür.

Bu mə'lum həqiqətdir ki, əsər fransız dilindən fars dilinə tərcümə olunaraq çap edildikdən sonra Məhəmmədhəsən xan düşmənlərinin hücumlarına mə'ruz qalmışdır. Digər tərəfdən əsərin giriş hissəsində mütərcimin yazdıqlarından belə mə'lum olur ki, əsərin fars dilinə tərcümə olunmasından əsas məqsəd xarici dil bilməyənləri bu əsərlə faydalandırmaqdır. M.Mənafinin yazdığına görə Ə.Talıbov fransız dilini bilmirdi. Eyni zamanda o yazır ki, əgər Talıbov bunu tərcümə etmiş olsaydı, rus dilindən etməliydi. Halbuki rus dilində buna oxşar əsərə təsadüf edilmir. M.Mənafi daha sonra yazır: "Britaniyanın nadir əlyazmaları muzeyində də "Əlhimar..." əsəri saxlanılır. Muzeyin çap olunmuş kataloqunda əsərin təsviri verilərkən göstərilir ki, "Əlhimar..." əsəri Fransa yazıçısı Kontes de Sequrun kiçik bir hekayəsinin tərcüməsidir. Bir çox əlaqədar ədəbiyyatı nəzərdən keçirib, Qərb ədəbiyyatı mütəxəssisləri ilə məsləhətləşdikdən sonra mə'lum olur ki, Fransa yazıçısının belə bir əsəri haqqında heç bir yerdə qətiyyən mə'lumat yoxdur. Bir sözlə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Əlhimar..." romanının hansı əsərin tərcüməsi olması mə'lum deyildir" /58, 66/.

Göründüyü kimi, Britaniya muzeyi kataloqunda səhvə yol verilsə də, "Əlhimar"ın müəllifinin fransız olduğu haqqında mə'lumatla dəqiq tanış oluruq. Lakin əsl müəllif dolaşıqlıq üzündən unudulmuş və Fransa' ədəbiyyatından tərcümə və iqtibas edilmiş əsər M.Mənafi tərəfindən səhvən Ə.Talıbovun orijinal əsəri kimi təqdim edilmişdir. Əsərin giriş hissəsinə müraciət etdikdə, digər bir maraqlı faktla rastlaşırıq: "Budur, nəsihət, möv'izə, əxlaq fəzilətləri və ən'ənələrlə zəngin olan bir kitab əlimizə çatdı: eşşəyin dilindən söz deməyinə baxmayaraq, onu fars dilinə tərcümə etməyi layiq bildim ki, xarici dil bilməyənlər faydalansınlar" /59, 2/

Yuxarıda qeyd olunan "bir kitab əlimizə çatdı" ifadəsi Məhəmmədhəsən xanın bir sıra xarici dövlətlərdən, o cümlədən Fransadan aldığı kitabların hesabına, sayını dörd minə çatdırdığı qiymətli şəxsi kitabxanaya malik olduğunu yada salır. Bu da mə'lumdur ki, o, çox mütaliə edərdi və hər gün gecə yarıdan keçənədək "hər hansı bir dünya kitabxanasının bəzəyi ola biləcək" qiymətli kitablarla zəngin kitabxanasında işləyirdi.[19] O, şübhəsiz ki, maraqlı süjetə malik həmin kitabı oxumuş və onu fars dilinə tərcümə və iqtibas etmək qərarına gəlmişdi.

Təsadüfi deyidir ki, mütərcim kitaba ön söz yazaraq, oxucunun əsərndən çox faydalanacağına əmin olduğu üçün onu heç olmasa bir dəfə oxumağı məsləhət bilmişdir /60, 4/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Digər tərəfdən kitabın müəllifi Pol de Kok o dövrdə çox tanınmış yazıçı idi və əsərləri bütün dünya xalqlarının dillərinə, o cümlədən rus dilinə də tərcümə olmuşdur.

Böyük rus tənqidçisi V.Q.Belinskinin (1811-1848) yazdığına görə "iste'dadlı Paris hekayəçisi", "xeyirxah Pol de Kokun" romanları rus dilində nəşr olunmuşdur. O, "Rusiyanın Homeri" adlandırdığı Pol de Koku Balzak, V.Hüqo, A.Düma, jorj Sand kimi dahi yazıçılardan üstün tutmuşdur, onu Valter Skota bərabər hesab etmişdir /61, 215/. Belinski onun Rusiyada tərcümə olunub nəşr edilmiş bütün əsərlərinə resenziyalar yazmış, onları yüksək qiymətləndirmişdir. Paris cəmiyyətinin yüngül adət və qüsurlarını bə'zən açıq lövhələrlə təsvir edən əsərləri ilə həm Fransanın geniş dairələrinin, həm də Avropa ictimaiyyətinin sevimlisi Pol de Kok Məhəmmədhəsən xanın nəzər-diqqətini cəlb etməyə bilməzdi.

Qeyd etmək lazımdır ki, təkcə Y.Ariyanpur deyil, İran tədqiqatçılarından Məhəmməd Şahid Nurayi, Mirhaşım Mühəddis, Xan Məlik Sasani də "Məntiqül vəhş, ya əlhimar yəhmilül əsfarən" əsərini Məhəmmədhəsən xanın əsərləri siyahısında vermişlər.

Görkəmli İran alimi Səid Nəfisi bu əsəri Məhəmmədhəsən xanın fransız dilindən tərcümə və təbdil etdiyini, əsərin qəhrəmanlarına İran adları qoyduğunu göstərmişdir /62, 204/. İran alimləri F.Adəmiyyət, Y.Ariyənpur, M.Bamdad va Ə.Talıbov



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

haqqında da tədqiqatlarında "Əlhimar..."ı onun əsərləri siyahısına daxil etməmişlər /63, 3; 1, 291-292; 26, 263/.

Sovet tədqiqatçısı O.P.Şeqlova E'timadüssəltənənin tərcüməlik fəaliyyətindən bəhs etmiş, onun tərcümə və iqtibas etdiyi Pol de Kokun bu əsərlərinin bir nüsxəsinin Leninqradda saxlandığı barədə mə'lumat vermişdir /64, 242/.

Beləliklə, faktlara əsaslanaraq demək olar ki, "Əlhimar..." əsərinin tərcüməsi və təbdil edəni Marağalı Məhəmmədhəsən xandır.

Məhəmmədhəsən xan "Məntiqül vəhş, ya əlhimar yəhmilül əsfarən" əsərinin nəşri ilə əlaqədar olan narahatçılıqlar keçib getdikdən sonra hakim dairələri kəskin tənqid edən digər bir əsəri - "Xatirate madmuazel Dü Mont Pansyer"i fransız dilindən tərcümə edərək nəşr etmişdir. Həmin qadın Fransa kralı 14-cü Lui sarayının şahzadə xanımlarından olub, çox savadlı, həssas və siyasi cəhətdən hazırlıqlı idi. O, Fransa hakim sarayındakı boş danışıqları, çirkinlikləri öz xatirələrində qələmə almış, onlar gülmüş və bununla yüksək dairələri tənqid və ifşa etmişdir.

Əsərin fars dilində çap olunması Məhəmmədhəsən xanın düşmənlərinin əlinə daha bir fürsət düşür və yüksək dairələr tərəfindən yenidən şaha şikayət olunur. Şah da Məhəmmədhəsən xanın zəkasına və şəxsiyyətinə çox hörmət etdiyi üçün qardaşı oğluna[20] belə bir tapşırıq verir: "Oğul, mənim tərəfimdən sevimli əmimin yanına get və ona de ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bu "Madmuazel Dü Mont Pansiyer"i yığışdırsın. Amma, oğul, elə demə ki, incisin və halı pozulsun" /16, 181/.

Məhəmmədhəsən xanın bu əsərlə əlaqədar gündəliyində olan qeydləri əsərin yazılma tarixini dəqiqləşdirir və eyni zamanda onun bir sıra əsərləri barədə şübhəli fikirləri təkzib edir. O, bununla əlaqədar olaraq yazır: "1311, 16 rəməzan, şənbə. Bu gün darıxdığımdan "şərhe hale madmuazel Mont Pansiyer"i tərcümə etməklə məşğul oldum" /24, 1080/.

"1311, 24 zilqədə, "Madmuazel Mont Pansiyer"in 2-ci cildini tərcümə edib qurtardım, üzünü köçürtdürüb cildlətdim və şahın hüzuruna göndərdim" /24, 1096/ və s.

Qeyd etmək lazımdır ki, E'timadüssəltənənin gündəliyinə əsasən "Şerhe hale madmuazel Mont Pansiyer" əsərinin yeddi cilddən ibarət olduğunu öyrənirik /24, 1098, 1123, 1156, 1189/.

Avropa mədəniyyətinin İranda yayılmasında böyük xədmətləri olmuş Məhəmmədhəsən xan bu iki siyasi pamfleti tərcümə etməklə, özünün şahdan gizli saxladığı siyasi baxışlarının üzərinə işıq salmış və bunları düşmənlərin əlində özünə qarşı silaha çevirmişdi.

Məhəmmədhəsən xanın tərcümələri, bir qədər sonra haqqında bğhs ediləcək orijinal "Xabnamə" əsəri göstərir ki, o, dövrünün çox açıq fikirli bir şəxsiyyəti olmuşdur. Onun əsərlərindən yalnız iranlılar və farsdilli xalqlar yox, həmçinin Avropa və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Amerika şərqşünasları da bəhrələnmişlər. Bu əsərlər indi tarixi sənəd kimi çox qiymətlidir. Ondan sonra tədqiqat aparan təzkirəçi alimlər "Mətlə"üş-şəms", "Mir'atül-buldane Nasiri ",
"əl-Məasir vəl-asar", "Xeyrate həsan", "Ruznameye xaterate E'timadüssəltənə", "Xabnamə" və digər əsərlərdən ilkin mənbə kimi bəhrələnmişlər, Bu əsərlər sırasında "xabnamə" tarixi hadisələr və faktlarla zənginliyi cəhətdən çox səciyyəvidir.

"Xabnamə", ya yek pərdə əz əsrare enhetate İran" ilk dəfə yazıçının ölümündən xeyli sonra, 1945-ci ildə Məşhəddə çap olunmuşdur. Gec nəşr olunmasının səbəbi əsərin müəllif tərəfindən gizli saxlanılmasıdır. "Xabnamə"nin maraqlı nəşr tarixi vardır. Kitabın naşiri Hüseyn Zəvvar yazır ki, bir dəfə o, Məhəmməd Şəhid Nurayinin kitabxanasında işləyərkən, təsadüfən kitabların arasında nəfis bir nüsxəyə rast gəlir Tanış olduqdan sonra bu qiymətli kitabın tağlar arasında qalaraq unudulacağını bilib, kitabxananın sahibindən onu nəşr eləmək üçün icazə alır və Məhəmmədhəsən xanın tərcümeyi-halını yazmağı da Şahid Nurayidən xahiş edir. Məhəmməd Şəhid Nurayi aşağıdakı mənbələrdən istifadə edərək, Məhəmmədhəsən xanın tərcümeyi-halını qələmə almışdır:

"Vəqayeye-yevmiyyə", "əl-Məasir vəl-asar",, "Daneşməndane Azərbaycan", "ruznameye dövlətiye əliyyeye İran", /şomare 471, 532/, "Ruznameye Şərəf" /şomare 81/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müəllifin tərcümeyi-halını yazan Məhəmməd Şəhid Nurayi Nasiri dövrünün görkəmli alimi Məhəmmədhəsən xanın elm və mədəniyyətin inkişafı yolunda çox zəhmət çəkdiyini və külli miqdarda əsər yazıb yadigar qoyduğunu göstərir. O, "Xabnamə"dən bəhs edərək yazır ki, əsər qacarlar sülaləsinin baş nazirlərinin bəd əməllərini açıb göstərdiyindən və sonuncu baş nazir Mirzə Ələsgər xan Əminüssultanın Məhəmmədhəsən xanla düşmənçiliyi, ədavəti üzündən gizli saxlanılmışdı. Deməli, "Xabnamə" əsərinin gizli saxlanılmasının əsas səbəbini onun məzmununda axtarmaq lazımdır. Sadə dildə, dastanvari yazılmış bu əsərdən mə'lum olur ki, hicri qəməri 1310-cu ildə /1892 m./ Nəsrəddin şah İraqe Əcəmə səfər etmiş, Məhəmmədhəsən xanı da özü ilə aparmış və ona şah Təhmasib zamanından qalan binaların üzərindəki kitabələri tədqiq etməyi və onların mə'ziyyətləri barədə yazmağı tapşırmışdı. E'timadüssəltənə hava çox isti olduğundan işləyib yorulur və Tehrana qayıdarkən Savə şəhərində Təhmasib Səfəvi zamanından qalmış yarım-uçuq məscidlərin birində yuxulayır, dastanvari yazılmış "Xabnamə" əsərinin məzmununu təşkil edən yuxu görür. Burada təsvir olunur ki, səltənətin on bir Baş naziri Ağa Məhəmmədşah Qacarın hüzurunda İran şahları tərəfindən mühakimə olunur. Hacı İbrahim E'timadüddövlə Şirazini Kuruşe Kəbir (Kir), Mirzə Şəfi Mazandaranini Kuruşu Kəbir, Hacı Məhəmmədhüseyn xan Sədre İsfahanini Daryuşe



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bozorg (Dara), Mirzə Əbülqasim Qaimməqam Fərəhanini Daryuşe Bozorg, Hacı Mirzə Ağası İrəvanini Şah İsmayıl Səfəvi, Mirzə Tağı Əmire Kəbir Fərəhanini Nadir şah Əəfşar, Mirzə Ağa xan Sədr-Ə'zəm Nurini Ərdəşir Babkan, Mirzə Məhəmmədxan Sepəhsaları Ərdəşir Babkən, Hacı Mirzə Hüseyn Müşirüddövlə Qəzvinini Nuşirəvane Adil, Mirzə Yusif Aştiyani Mustofiyül-Məmaleki Əşke əvvəl (I Arşak) və Mirzə Əliəsğər xan Əminüs-sultanı Ağa Məhəmməd şah Qacar mühakimə edir.

Məhəmmədhəsən xan E'timadüssəltənə bu mühakimələrlə bir çox sirləri açmış, Baş nazirlərin hər birinin mənşəyi, xarakteri, digər dövlət adamlarına münasibəti və s. aşkar olunmuzdur. İstintaq h.1305 (1887/88) -ci ildən Baş Nazir olmuş Əli xan Əminüssultanın dövrünə çatdıqda Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd şah Qacar üzünü məhkəmə üzvlərinə və Baş nazirlərə tutaraq soruşur ki, bəs İranın bu vəziyyətə düşməsinin səbəbi nədir? Bu eybəcər işləri kim etmişdir? Bizim gülşənimizi kim soldurmuş, ağ günlərimizi qara günlə, iqtidarımızı düşgünlüklə, sərvətimizi ehtiyacla kim əvəz etmişdir? O kimdir və indi haradadır? Sonra Ağa Məhəmmədşah əsəbi halda üzünü Əminüssultana tutub deyir: "İranın üzünə səadət qapılarını bağlayan, bu çətinliklərin banisi və bədbəxtçiliyin səbəbkarı on birinhi stulda əyləşəndir" /23, 54/.Ağa Məhəmmədşah mənfi xüsusiyyətlərini bir-bir söyləyir. Müttəhim titrək səslə danışmağa başlayır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əminüssultanın mühakimə olunduğu yığıncağda özü haqda mə'lumat çox maraqlıdır: "Adım Əliəsğər, Atam İbrahim, Babam Səlmas ermənilərindən olan Zaldır. Ailəm bu əyalətin kəndlərindən birində yaşamışdır. Zalın atası Gürcüstan əmirlərindən idi. Qacar Tiflisi işğal edəndən sonra onu özü ilə İrana gətirmişdir...".

Təqribən kitabın yarısını əhatə edən və İran dövlətini daxili və xarici düşmənlərin gətirib çıxardığı siyasəti açıqlayan söhbətdə rusların və ingilislərin İrandakı əməlləri: Röyterin və "Şahənşah bank"ının fəaliyyəti, Ənzəli-Tehran şosse yolu imtiyazı, Xəzər və çaylarda gəmiçilik imtiyazı, Mülküm xana lotereya imtiyazının verilməsi, tənbəki imtiyazı, şahın zəif malik olması və dövrün bir sıra başqa siyasi hadisələri göstərilmişdir /1, 270/.

E'timadüssəltənənin ölümü, gündəliyi kimi "Xabnamə" əsərini yarımçıq qoysa da, hər halda o, Baş Nazir Əminüssultanın İranın xarici imperializmin yarımmüstəmləkəsinə çevrilməsində oynadığı rolu açıq surətdə göstərə bilmişdir. Əsərdə tarixi baxımdan maraqlı, tədqiq olunmalı, dəqiqləşdirilməli cəhətlər vardır. Bu baxımdan keçmiş Baş nazir Mirzə Hüseyn xan Sepəhsaların Mirzə Mülküm xanın ünvanına söylədiyi tənqidi fikirlər diqqəti cəlb edir. Mülküm xana böyük səlahiyyyət verildiyini göstərən Sepəhsaların dilindən çox sirlər açılır. Eyni zamanda ingilis Röyterin dəmiryol imtiyazını almaq üçün Sepəhsalara, Mülküm xana və digər dövlət başçılarına rüşvət verdiyi də mə'lum olur. Əsərdə Baş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nazirin E'timadüssəltənəyə münasibəti diqqəti cəlb edir.

Əminüssultan mühakimə səhnəsində dövlət şurası üzvlərini xarakterizə edərkən, E'timadüssəltənə haqda deyir ki, eyiblərimi yaxşı bildiyi üçün onunla səmimi ola bilmirəm. Deyirlər bə'zi elmləri və işləri yaxşı bilir, mənim qabiliyyətim olmadığı üçün onu imtahan edə bilmirəm. Lakin nə qədər mən sağam, onun yüksəlməsinə imkan verməyəm. Əlahəzrət ona məhəbbət etsə, mane olacağam. Allahdan ona ölüm istəyirəm. Düşmənim olduğu üçün onu əqrəb kimi ayağımın altında əzib yox etmək istəyirəm /16, 168/. Göründüyü kimi E'timadüssəltənə Əminüssultanı yaxşı tanımışdır.

"Xabnamə"dən bəhs edən Xan Məlik Sasan yazır ki, Əminüssultan haqqında onun əlində bu mə'lumatlar vardır:

1. Əminüssultanın E'timadüssəltənəni zəhərləməsi.

2. Nəsrəddin şahın qətlində əli olması.

3. Əminüssultanın özünün də öldürülməsi /16, 146/.

"Xabnamə" əsərində Əmiri-Kəbir haqqında yazılanlar da maraqlıdır. Mirzə Tağı xan Nadir şah tərəfindən mühakimə olunurkən mə'lum olur ki, o, Nəsrəddin şahı aradan götürmək, onun kiçik qardaşı Abbas Mirzə Mülkaranı taxta əyləşdirmək fikrində idi ki, özü vəliəhd olsun və ruslarla münasibəti düzəltsin, osmanlıları Ərzən-ər-Rum (Ərzurumun keçmiş adıdır) məsələsinə görə cəzalandırsın,[21]



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bundan sonra isə rusların əleyhinə ingilislərilə saziş bağlasın. Bundan da məqsəd Hindistana qoşun yeritmək və Nadir şah kimi böyük bir ərazini İrana tabe etmək idi.

Mirzə Tağı xanı vəzifədən uzaqlaşdırıb, Kaşana apardıqdan sonra onun bütün yazılarını müsadirə edib, şahın yanına gətirdilər. Saraya gətirilmiş yazıların əksəriyyəti rəmzi işarələrlə olduğundan onları oxumaq mümkün olmamışdı. Şah bunları xəzinədə saxlamağı əmr etdi. Bir müddət keçdikdən sonra, Mirzə Yusif Mustofiyyülməmalik Baş nazir olarkən, Mazandaran əhalisindən bu yazıları oxuyan bir nəfər tapıldı. Mə'lum oldu ki, bu yazıların əksəriyyəti Hindistana aid imiş. Burada Hindistanın İngiltərə əleyhinə çıxışlarının, üsyanın proqramı yazılmışdı. Doğrudan da Mirzə Tağı xan öldürüldükdən bir qədər sonra hind ordusunun üsyanı[22] başlamışdı /16, 177/. "Xabnamə"də bir maraqlı cəhət də vardır ki, bu da Şah İsmayıl Səfəvinin Qacarlar dövlətinin beşinci Baş naziri Hacı Mirzə Ağasi İrəvani ilə müsahibəsinin Azərbaycan dilində verilməsidir /23, 20/. Əsərin tarixilik baxımından dəyəri ondan ibarətdir ki, Məhəmmədhəsən xanın uşaq ikən gördükləri və yaxud atasından eşitdikləri, çap edə bilmədikləri yaddaşında möhkəm hifz olunmuş, olduğu kimi cəmlənmiş və bu əsərdə öz əksini tapmışdır. "Xabnamə" Qacarlar səltənətindəki mənfilikləri göstərir, xalqı zülmdən agah edir və qacarlar tarixini tədqiq edən alimləri gələcəkdə həqiqəti bu mə'lumatlardan istifadə edərək yazmağa səsləyirdi /16, 178/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Xabnamə"ni E'timadüssəltənənin digər tarixi əsərlərindən fərqləndirən cəhətlərdən biri onun dastanvari yazılmasıdır. Müəllif əsəri sadə dildə yazmış, bə'zən onu qit'ələrlə bəzəyərək tə'sirləndirmişdir.

Bununla əlaqədar olaraq deyə bilərik ki, "Əl-himar...", "Xabnamə" və başqa siyasi məzmunlu əsərləri Məhəmmədhəsən xanın Mirzə Yusif xan Təbrizi, Əli xan Əminüddövlə, Əbdurrəhim Talıbov Təbrizi kimi dövrün qabaqcıl, demokratik fikirli ziyalılarının gördüklərini inkişaf etdirən bir yazıçı, alim və ictimai xadim olduğunu göstərir.

Məhəmmədhəsən xan E'timadüssəltənə istər tarixi-coğrafi, istərsə də siyasi məzmunlu əsərlərini yazmaqla dünya tarixşünaslığına böyük xidmətlər göstərmiş, onu yeniləşdirmişdir. O cümlədən Azərbaycan tarixi, onun görkəmli şəxsiyyətləri barədə yeni mə'lumat verən əsərlərin diqqətəlayiqdir. Cənubi Azərbaycandan olan alim, şair xəttat haqqında mə'lumat verən əsərlərindən biri "əl-Məasir vəl-asar"dır ki, haqqında bir qədər geniş bəhs olunacaq.

## Məhəmmədhəsən xanın "Əl-Məasir vəl asar" ("Hünərlər və əsərlər") əsəri

Neçə əsrlərdən bəri yazılmışt təzkirələr başqa xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlı elm, mədəniyyət xadimlərinin də öyrənib aşkara çıxarılmasında tədqiqatçılara kömək baxımından



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müstəsna rol oynayır. Təzkirə müəllifləri sanki uzaq keçmişlərdə qalmış şəxsiyyətləri nə vaxtsa axtarılacağı ümidində olmuşlar və xeyirxah işləri ilə görkəmli alim, şair və sənətkarların adlarını əbədiləşdirmək məqsədilə onlar haqqında əldə etdikləri mə'lumatları toplayaraq qiymətli əlyazmalar yaratmışlar. Tədqiqatçılar göstərirlər ki, təzkirələr Şərqdə hələ XIII-XIV əsrlərdən yaranmağa başlamışlar. XIII əsrdə Buxara alimi Məhəmməd Ovfi o dövrdə yaşamış sufilər haqqında mə'lumat verən "Lübalül-əlbab" adlı təzkirə yazmışdır. daha sonralar Əhdi Bağdadi, Dövlətşah Səmərqəndi, Lütfəli bəy Azər, Rzaqulu xan hidayət və başqa müəlliflər Şərqin bir çox məşhur sənətkarları haqqında ilkin mə'lumat vermişlər /65, 3/. Bu təzkirələr müxtəlif xalqların ədəbiyyat, elm, mədəniyyət nümayəndələri haqqında qiymətli mənbələr hesab olunur.

Bunlarla yanaşı bə'zi tarixi əsərlər də yaranmışdır ki, yeri gəldikcə müəyyən dövrün görkəmli adamları haqqında mə'lumat verir. İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi", A.Bakıxanovun "Gülüstani-İrəm", Nadir Mirzənin "Tarix və coğrafiye darüssəltəneye Təbriz be zəmimeye şərhe hale bozorqan" və başqaları belə əsərlərdəndir.

Marağalı Məhəmmədhəsən xanın "Mətlə'üş-şəms", "Mir'atül-buldane Nasiri", "əl-Məasir vəl-asar" əsərləri də təzkirə xarakterlidir. Şərqin təzkirəçi alimləri içərisində elələri olmuşdur ki, onlar bu və ya digər əsərində yalnız həməsr olduğu görkəmli adamlar barəsində mə'lumat vermişlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yuxarıda adını çəkdiyimiz "əl-Məasir vəl-asar" əsəri bu qəbildəndir.

İran tarixinin müəyyən dövrünü işıqlandıran bu əsər Nəsrəddin şah hakimiyyətinin 40 illiyinə həsr olunsa da, eyni zamanda XIX əsrdə İranda, eləcə də Cənubi Azərbaycanda yetişmiş neçə-neçə alim, astronom, şair, rəssam, nəqqaş, xəttat, riyaziyyaçı, filosof haqqında mə'lumat verir. Bu cəhətdən əsər XIX ərs cənubi Azərbaycanda mədəniyyət, ədəbiyyat, elm tarixini öyrənmək üçün qiymətli mənbədir. "əl-Məasir vəl-asar" təzkirəsi, müəllifin gündəliyndə qeyd olunduğu kimi, 1306-cı il rəcəb ayının 13-də (1889-cu il 16 mart) tamamlanmış, həmin ildə Tehranda daşbasma üsulu ilə çap olunmuşdur. Qeyd etmək lazımdır ki, əsərin tamamlandığı tarix səhv olaraq, Çarlz Stori də 9 mart, Mikluxo Maklayda isə 10 aprel kimi verilmişdir /57, 983; 66, 217/. Məhəmmədhəsən xan bu haqda gündəliyində belə yazır: "...1306-cı il rəcəb ayının 13-də şənbə günü dörd ilə zəhmətlə yazdığım "əl-Məasir vəl-asar" əsərini bitirdim /22, 335/.

Kitaba müəllif tərəfindən ön söz yazılmışdır. Müqəddimədə orta əsr ərəb poeziyasının görkəmli nümayəndəsi Mütənəbbinin[23] ərəb dilində bir fəlsəfi beyti verilmişdir. (Sənin bağışlamağa nə atın, nə də var-dövlətin var, onda öz nitqini zənginləşdir ki, xoş əhval-ruhiyyə yaratsın). Əsər bir çox təzkirəçi alimin, o cümlədən Ç.Stori, M.Tərbiyət, M.Bamdadın nəzər-diqqətini cəlb etmiş, onlar təzkirəsində görkəmli şəxsiyyətlər haqqında olan bu ilkin mə'lumatın bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hissəsindən istifadə etmişlər. Lakin əsər diqqətlə öyrənilməmiş və tədqiqata cəlb olunmamışdır. İran alimi Əhməd Gülçin Məani /67, 766/ "Tarixe təzkirehaye farsi" əsərində "əl-Məasir vəl-asar" haqqında çox qısa və səthi mə'lumat vermişdir. M.Maklay, F.A.Rozenberq /68, 487/ isə onun yalnız adını çəkmişdir (Rozenberqin mə'lumatına görə əsər 1919-cu ildə Peterburqda Asiya müzeyinə daxil olmuşdur).

Əsərin avtoqraf nüsxəsi Məhəmədhəsən xan tərəfindən (Tehran, 24 fevral 1895-ci il tarixdə) Rusiyanın İrandakı müvəkkili İqnatyevə bağışlanmışdır. Əlyazmasının ilk vərəqində hədiyyə olunması barədə müəllifin fransız dilində, vərəqin bir qədər aşağı sol küncündə isə həmin məzmunda fars dilində avtoqraf yazısı vardır. Bu yeganə nüsxə keçmiş SSRİ EA Şərqşünaslıq institutu Leninqrad şö'bəsinin Əlyazmaları bölməsində saxlanılır /67, 217/. Azərbaycan EA Əlyazmalar İnstitutunda bu əlyazmasının mikrofilmi və foto-surəti, h.q.1306-da çap olunmuş bir daşbasma nüsxəsi vardır. Bu əsəri yazarkəq Məhəmmədhəsən xanın sələfləri İsgəndər bəy Münşi, Mehdi xan Asarabadi, Rzaqulu xan Hidayət və başqalarından bəhrələndiyi hiss olunur. Məsələn, İsgəndər bəy Münşi "Tarixe alemaraye Abbasi" əsərində (1616-cı ildə yazılmış) I Şah Abbasın həyat və fəaliyyətindən bəhs etməklə yanaşı, həmin dövrün söz ustaları haqqında mə'lumat verilmişdir. Və yaxud "əl-Məasir vəl asar" təzkirəsi ilə Mahmud Mirzə Qacarın Fətəli şah (1766-1834)



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dövründə yazılmış və h.1240-cı ildə (1824-25) çap olunmuş "Səfinətül-Mahmud" əsəri /50, 728/ arasında da oxşarlıq vardır.

Məhəmmədhəsən xan həmçinin Lütfəli bəy Azərin "Atəşkədə", Mahmud Mirzə Qacarın "Noqle məclis", İzədüddövlə Əhməd Mirzə Qacarın "Tarixe İzədi" və başqa əsərdən də faydalanmışdır. O, sələflərinin təzkirəçilik ən'ənələrinin davam etdirərək, "əl-Məasir vəl asar"ı dövrünün görkəmli sənət adamları haqqında qısa mə'lumatla ziynətləndirərək 16 fəslə bölmüşdür.

I-ci fəsildə şahın Əbüturab Qaffari tərəfindən çəkilmiş portreti, onun əqli və mə'nəvi keyfiyyətləri, təvəllFki, eyiblərimiaxtına çıxması hadisəsi; 2-ci fəsildə oğlanları, qızları, nəvələri; 3-cü fəsildə arvadları, onların hər birinin övladları barədə mə'lumat; 4-cü fəsildə Ali hökumət qulluqçularının siyahısı; Məşhəd və Qumdakı ibadətgahların qəyyumluq şuraları, Sədri-Əzəmin dəftərxanası, nazirlik, idarə və saray xidmətlərinin qulluqçuları; 5-ci fəsildə əyalətlərin və Tehranın qubernatorlarının siyahısı (onların dəftərxana qulluqçularının siyahısı ilə birlikdə); Xorasan və Sistan, Tehran, Azərbaycan, Fars, Kirman və Bilucistan, Ərəbistan və Xuzistan, Kürdüstan, Luristan, Gilan, Təbəristan, Qəzvin, Yəzd, Zəncan və Xəmsə vilayəti, Kaşan, Bürucerd, ona bitişik rayonlarla, Qum, Savə, Kirmanşahan, Astarabad - Gürkan və türkmən qəbilələri yerləşmiş rayonları, Gülpayiqan və Xunsar, Məlayer və Tuysergan, Nəhavənd, Simnan və Damqan, Şahrud



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və Bistam; 6-cı fəsildə müharibələrin siyahısı (əsasən türkmən və başqa qəbilələrlə), üsyanlar, qiyamlar, iğtişaşlar, cəza ekspedisiyaları, e'damlar və s. 169 hadisənin qısa təsviri; 7-ci fəsildə tə'mir olunmuş və yenidən yüksəldilmiş tikililərin siyahısı (müxtəlif sahələr, məscidlər, hamamlar, körpülər, saraylar, karvansaralar, mehmanxanalar, dükan və e'malatxanalar, çəkilmiş şosse və başqa yollar, ucaldılmış qalalar, salınmış bağlar və parklar və s.); 8-ci fəsildə sosial islahatların, müxtəlif yeniliklərin siyahısı; dəmir yolu, elektrik stansiyaları, poçt, telefon, fotoqrafiya və s. maarif tədbirləri (nəşriyyat), mətbuat, yeni tədris müəssisələri, təbiət elmlərinin yayılması), sənaye kompaniyaları, kənd təsərrüfatı tədbirləri və s.); 9-cu fəsildə şahın İrana iyirmi, xaricə (İraq və Avropa) üç səyahətinin qısa təsviri; 10-cu fəsildə 691 qısa tərcümeyi-hal (şahın müasirlərinin) səh.135-180; görkəmli din xadimlərinin - müctəhidlər, fəqhlər, müdərrislər, Qur'anın şərhçiləri, hədis biliciləri, külli-məscidlərin imamları və s. (cəmisi 364 təlcümeyi-hal); s.186-198. Yüksək xidməti mövqedə olan, incəsənətin və elmin müxtəlif sahələrində özünü göstərmiş təhsilli şəxslərin əlifba sırası ilə bioqrafiyası verilmişdir (61 tərcümeyi-hal); və bundan sonra 226-cı səhifəyədək əlifba sırasına riayət etmədən 266 ədəbiyyatçı, şair, kalliqrafların, vaiz və rövzəxanın, həkim, astronom, riyaziyyatçı, yerölçən, qazi, sufi və başqalarının tərcümeyi-halı verilmişdir; 11-ci fəsildə xüsusi xidmətə görə "Nişane timsale humayun" nişanı ilə təltif olunmuş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəxslərin siyahısı. Səh.227; (həm müəllif, həm də atası Hacı Əlixan təltif olunmuşdur). 12-ci fəsildə Nəsrəddin şahın hakimiyyəti dövründə bir sıra mükafatlandırılmış titulların Əlifba üzrə siyahısı; 13-cu fəsildə İranın 1268/1851-52-ci və 1303/1885-86-cı) illərində milli gəliri: (ümumi və ayrı-ayrı əyalətlər üzrə) səh.242; 14-cu fəsildə müxtəlif dövlət başçıları (hakimiyyətin birinci və qırxıncı ilində şahın müasirləri) səh.245; 15-ci fəsildə Tehranda müxtəlif dövlətlərin diplomatik nümayəndələrinin tərkibi, s.253; 16-cı fəsildə Şah hakimiyyəti illərində İranın xaricində verilmiş mühüm hadisələrin salnaməsi, s.257. Əlavədə 1306/1888-89-cu illərin salnaməsi verilmişdir /57, 983-984/.

Göründüyü kimi, əsərdə şah hakimiyyəti dövründə baş vermiş hadisələr və s. haqqında mə'lumatla yanaşı, XIX əsrin ikinci yarısında İranın, eləcə də Cənubi Azərbaycanın mədəni, ictimai-siyasi və hərbi həyatını öyrənmək üçün böyük faktik material vardır. Bu materiallar müəyyən prinsiplə qruplaşdırılmışdır. Əsərin səliqəli mündəricatında hər bir fəslin qısa məzmunu verilmişdir.

"Əl-Məasir vəl-asar" əsəri yuxarıda qeyd edildiyi kimi, Nəsrəddin şah hakimiyyətinin 40 illiyinə həsr olunmuş və ilk fəsilləri İran dövlətinin inzibati quruluşu haqqında olan mə'lumatdan ibarətdir. Əsər sırf təzkirə olmadığı üçün o qədər də nəzər-diqqəti cəlb etməmiş və bu səbəbdən də üzü köçürülüb, əlyazma halına geniş yayılmamışdır. Lakin təzkirəçilər onuncu fəsildən həmişə bir mənbə kimi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

istifadə etmiş və əsər barədə müəyyən fikir söyləmişlər. Lakin bu fikirlər ziddiyyətlidir İran alimi Məhəmməd Qəzvini və onun dediklərini təkrar edən ingilis alimi E.Braunun fikrincə Məhəmmədhəsən xanın digər əsərləri kimi "əl-Məasir vəl-asar" əsəri də kollektiv əməyin məhsuludur /22, 335/. Şübhəsiz, bu subyektiv fikirlərdə şəxsiqərəzlik də hiss olunur. Təbiidir ki, tabeliyində olan nəşriyyat və tərcümə idarəsində bu və ya digər əsərini çapa hazırlayarkən, materialların qaydaya salınması və üzünün köçürülməsində, mənbələrin araşdırılmasında Məhəmmədhəsən xana yaxından kömək edən şəxslər olmuşdur. Mənbələrdə onun bu və ya digər vilayətin tarixinin yazılmasının təşəbbüsçüsü olduğu, bu işə digər alimləri də cəlb etdiyi barədə mə'lumat vardır. Eyni zamanda onun əsərlərinin tə'sirilə bir çox samballı kitablar da yazılmışdır.

Məhəmmədhəsən xan nəinki başqalarının yazdıqlarını öz yüksək mövqeyindən istifadə edərək mənimsəməmiş, əksinə, digər müəlliflər onun qiymətli mə'lumatla çox zəngin əsərlərindən istifadə etmişlər. Yuxarıda qeyd olunduğu kimi, onun tərcümə edərək təkmilləşdirdiyi "Xeyrate həsan" əsərinin başqasının əsəri kimi Bombeydə nəşr olunduğu haqda mə'lumat da vardır. Mənbələr göstərir ki, Məhəmmədhəsən xan böyük zəhmət bahasına iri həcmli tarixi-coğrafi əsərlər yazmaqla bərabər alimləri bu və ya digər ölkənin tarixini yazmağa cəlb etmişdir /57, 1061; 51,59/. Onun göstərişi ilə Əhməd Əli xan "Tarixe Kirman", Mirzə Əli Əkbər xan "Coğ-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

rafiyaye Cavanrud" əsərini yazmışdır. Əhməd Təbrizinin "Azərbaycan", Məhəmmədtağı xanın "Gənce daneş", Mirzə Həsən Şirazinin "Farsnameye Nasiri" və başqa əsərlər Məhəmmədhəsən xan E'timadüssəltənənin əsərinin tə'siri ilə yazılmışdır.

Biz "əl-Məasir vəl-asar" əsərinə isnad edərək, Məhəmmədhəsən xanın müəllifliyini şübhə altına alan fikirləri təzkib edə bilərik. Məsələn, təzkirədə verilmiş Ali hökumət qulluqçularının siyahısında Hacı Əlixan E'timadüssəltənə - "Vələde müəllif" deyə qeyd olunmuşdur /18, 17/. Və yaxud "İftitahe məktəbe müşiriye məccanən" sərlövhəli məqalədə göstərilir ki, bu kitabın müəllifi Həsən ibn E'timadüssəltənə tərcümə idarəsi nazirliyində pulsuz "müşiriyyə" məktəbi açmışdır /18, 118/. Mətbuat üzrə senzura idarəsi müəllifin təşəbbüsü ilə təşkil edildiyi barədə mə'lumat verərək yazır ki, o, avropa ölkələrindən ibrət götürərək, bu idarəni tə'sis etməyi məsləhət görmüşdür. Eyni zamanda onun rəhbərliyi ilə təşkil edilmiş Darültərcümədə dünyanın hər yerindən gələn qəzet, jurnalların fars dilinə tərcümə olunması barədə mə'lumat verir /18, 117/.

Əsərin digər qiymətli cəhəti ondadır ki, burada Məhəmmədhəsən xanın öz əsərindən də bəhs olunur. Bu da bizə bir daha onun haqqında yaranmış şayiələrin doğru olmadığını söyləməyə haqq qazandırır.

Əsərin 8-ci fəslində Məhəmmədhəsən xan İranda bir sıra elmlərlə yanaşı, coğrafiya və tarix elminin də inkişafından bəhs edərək göstərir ki, bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sahədə müəllifin həm nəşr olunmuş, həm də yazılmaqda olan çrxlu əsərləri vardır /18, 92/. Məsələn, o yazır ki, İranda ilk dəfə olaraq müəllif tərəfindən h.1291-ci (m.1872) ildən e'tibarən salnamələr tərtibinə başlanılmışdır. Avropalıların "Almanax" adlandırdıqları "Salnamə"də bir il ərzində dövlətdə baş vermiş yeniliklər, mühüm hadisələr öz əksini tapmalıdır /18, 109/. Müəllif "Mir'atül buldane Nasiri" əsərindən bəhs edərək göstərir ki, İranın coğrafiysı və ölkələrin tarixi haqqında olan bu kitabın müəllifi mərhum Hacı Əli xan E'timadüssəltənənin oğlu Məhəmmədhəsən xan E'timadüssəltənədir. "Məasire sultan", "Mətləüş-Şəms" əsərləri də "Mir'atul buldan" qismindəndir /18, 127/. Müəllif məşhur alim və xəttat Seyid Məhəmmədbağır Qəzvini haqqında yazır: "... o, "Məasire sultan" əsərində yazdığım kimi, 1286-cı ildə vəfat etmişdir" /18, 146/. Göründüyü kimi burada müəllifin başqa bir əsəri barədə mə'lumat verilmişdir. E'timadüssəltənənin gündəliyini dərindən öyrəndikdə bir çox məsələlər aydın olur. O yazır: "əl-Məasir vəl-asar"ı mənim tapşırığımla Şeyx Mehdi yazmışdır. Sözün qısası budur ki, o kitabı zay etmişdir. Kitabda istədiyi kimi dəyişikliklər etmiş, istədiyi adamlar haqqında daha çox mə'lumat vermişdir. /18, 146/.

Gündəliyin əvvəlki səhifələrindən birində rast gəldiyimiz bir fikir bu məsələyə diqqətlə yanaşmağa əsas verir. O yazır: "1303 h.q. rəcəb, pəncşənbə, Axşam on bir il bundan əvvəl yazdığım və itirdiyim "Ruznameye səfəre Mazandaran"ı tapıb xeyli xoşhal



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

oldum. Xanıma (Əşrəfüssəltənəyə - H.T.) verdim ki, yazsın" /18, 486/.

Görünür ki, E'timadüssəltənə əsərlərini yazdıqdan sonra üzünü köçürmək üçün başqalarına verirmiş. "Şeyx Mehdi yazmışdır" ifadəsi o demək deyil ki, əsərin müəllifi Şeyx Mehdidir. Əgər belə düşünmək doğru olsaydı, onda "Ruznameye səfəre Mazandaran" əsərinin müəllifi Məhəmmədhəsən xanın yoldaşı Əşrəfüssəltənə hesab olunmalı idi. Əlbəttə, Şəmsülüləma və nəşriyyatın başqa əməkdaşları əsərin qaydaya salınması və yaxud üzünün köçürülüb çapa hazırlanmasında müəyyən işlər görə bilərdi. Göründüyü kimi, Məhəmmədhəsən xan gündəliyində Şəmsülüləmanın işindən razı qalmadığını, onun əsərə özü barədə daha geniş mə'lumat daxil etdiyi üçün başaqalarının narazılığına səbəb olduğunu da bildirmişdir /22, 335/. "Mir'atül buldan" və "Mətlə'üş-Şəms" əsərlərində də bə'zi alimlərin yanlış fikirlərini təkzib edən faktlar vardır.

Məhəmmədhəsən xan "əl-Məasir vəl-asar" əsərində özünün numizmatika ilə məşğul olduğu barədə mə'lumat verərək göstərir ki, imperator İsgəndərin dövründən Nəsrəddin şahın dövrünə qədər buraxılmış sikkələri toplamış və muzeyə bağışlamaq fikrindədir.

Məhəmmədhəsən xan saray mühitinin ab-havasında, öz sağlamlığının qayğısına qalmadan üzərinə düşən mühüm vəzifələri yerinə yetirmiş, ömrünün axırınadək qələmi əlindən yerə qoymamışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Əl-Məasir vəl-asar" əsərinin onuncu fəsli, qeyd olunduğu kimi, XIX əsrdə yaşamış görkəmli şəxsiyyətlər haqqında ilkin mə'lumat verir. Bu sənət adamları arasında azərbaycanlı alim, şair, xəttat da vardır.

Əsərin onuncu fəslini məzmununa görə iki qrupa bölmək olar. Birinci qrupa görkəmli alimlər: filosof, riyaziyyatçı, astronom və məşhur din xadimiləri daxildir. İkinci qrupa isə şair-xəttat, alim-xəttat və dövrün bir sıra görkəmli ziyalısı daxildir. Məhəmmədhəsən xan E'timadüssəltənə göstərir ki, bir çox əsərlər yadigar qoyub getmiş alimlərdən şeyx Murtuza Ənsari, Molla Ağa Dərbəndi, Seyid Əli Qəzvini, "Cilvə" təxəllüslü Mirzə Əbülhəsən İsfahani və başqaları ustad filosof, alim kimi çox savadlı şəxsiyyətlərinin yetişməsində böyük rol oynamışlar. Bunların sırasında azərbaycanlılar da olmuşdur. "əl-Məasir vəl-asar" əsərində yüzə yaxın belə şəxsiyyət haqqında qısa, lakin ilkin mə'lumat verilmişdir. Həmədan, Zəncan, Qəzvin, Təbriz, Xoy, Zünüz, Xalxal, Xamnə, Urmiya torpağlarından olan bu alimlər XIX əsr Cənubi Azərbaycanın elm tarixində özlərinə məxsus mövqe tutmuşlar. Burada haqqında mə'lumat verilən alimlər dövrünün hərtərəfli savadlı, dərin biliyə malik şəxsiyyətləri olmuş, əsərlər yazıb yadigar qoymuşlar. Müəllif qısa, aydın, bir neçə cümlə ilə alimin yaradıcılığını qiymətləndirən mülahizələr irəli sürməyi bacarmışdır. O, bu mülahizələrdə alimin, sənətkarın elm aləminə gətirdiyi yenilikləri üzə çıxarmağa çalışmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dövrünün ictimai xadimi olan Məhəmmədhəsən xan öz yazılarında haqqında söz açdığı alimin, sənətkarın yaradıcılığını öyrənərkən, XIX əsrdə Azərbaycanda yaranan elm, mədəniyyət tarixini tədqiq edirdi və onları özündən sonra yetişən təzkirəçilərə tanıdırdı. O, sarayda, məs'ul vəzifələrdə çalışmasına baxmayaraq, alim haqqında öz elmi düşüncə və baxışını söyləməkdən çəkinmirdi. Bu cəhətdən E'timadüssəltənənin "dövrün təhlükəli şəxsiyyəti olan", görkəmli filosof Seyid Cəmaləddin haqqında çox yüksək fikirdə olması diqqəti cəlb edir. Seyid Cəmaləddinlə həmfikir və sıx əlaqədə olan Məhəmmədhəsən xan onun Əsədabad qəsəbəsində anadan olduğunu, Qəzvində təhsil aldığını, həm qədim, həm də müasir elmlərdə yüksək mövqe tutduğunu, xalqın onunla fəxr etdiyini göstərir. Məhəmmədhəsən xan Seyid Cəmaləddinin ictimai fəaliyyətindən geniş bəhs etdiyi məqaləsində onun dünyanın bir sıra dövlətlərində məşhur bir şəxs kimi tanınması, ruzigarın nadir bir adamı olduğunu göstərirdi. "əl-Məasir vəl-asar" əsərindən Seyidin 1306 (1888)-ci ildə Peterburqa gəldiyini öyrənirik /18, 224/.

Məhəmmədhəsən xanın bu əsərində alimlərdən Ağa Əli Zünuzi, Mirzə Məhəmmədhüseyn Təbrizi, Məhəmməli Qaracadaği, Məhəmməd Zəncan, Məhəmmərza Həmədani, Ağa Təqi Əfşar Urməvi, Əhməd Gavgani, onun oğlu Əbdüləli Gavgani, Hacı Ağa, qardaşı Əbdülqəni Qaracadaği və bir çox başqalarının elmi fəaliyyətindən bəhs olunur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əsərdə Ağa Məhəmmədrza Marağayinin oğlu Nəsrulla haqqında verilmiş mə'lumat göstərir ki, onun nəsli Marağada məşhur alimlər sülaləsidir. Mirzə Nəsrulla nücum elmində çox bilikli olmuş, riyaziyyatda yüksək mövqe tutmuşdur. O, Fətəli şah Qacar sarayında xüsusi münəccimbaşı olmuşdur. Ulu babası xacə Şəmsəddin Marağa rəsədxanası tə'sis edilərkən Nəsirəddin Tusi tərəfindən rəsədxanaya də'vət olunmuşdur. Mirzə Nəsrulla 1276 (1869)-cu ildə vəfat etdikdən sonra oğlanları onun yolunu davam etdirərək elm sahəsində sə'ylə çalışmışlar /18, 221/.

Əsərdə Azərbaycan alimlərinə ayrılmış bölmələrdə maraqlı bir cəhət nəzər-diqqəti cəlb edir. Bu da oğulun ata-baba sənətini yaşatması, onun davamçısı olması, sülalə təşkil etməsidir. Bu cəhətdən müəllifin həmədanlı alim Mirzə Məhəmmədrza haqqında verdiyi mə'lumat maraqlıdır. Mirzə Məhəmməd Həmədani fiqh, üsul, hədis, təfsir, fəlsəfə və ürfan elmlərinə dərindən bələd olmuşdur. Məhəmmədhəsən xan yazır ki, o, ürfan və hikmət ocağında böyümüşdür. Atası Hacı Mirzə Əlinəqi məşhur alim və filosof olmuş, babası Hacı Molla Rza nübüvvəti isbat edən "Miftahül-nübüvvət" əsərinin müəllifidir. Bir çox əsəri çap olunmuşdur. Hacı Molla Rzanın şöhrəti Henri Padri kimi Avropa ölkələrinə gedib çatmışdır.

Mirzə Məhəmmədrza özü bir çox əsərin müəllifidir: Nüxbətüs-sovarim fil-fiqh vəl-üsul (Fiqh və üsuldan seçilmiş surətlər), Mənzumeye təcvid



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mə'əş-şərh (Şərhlə təcvid mənzuməsi", Divani-əş'ar və s. /18, 164/.

Məhəmmədhəsən xan "əl-Məasir vəl-asar" əsərində digər Azərbaycan alimi Ağa Əli Zünuzi (1818-1898) haqda mə'lumat vermiş, onu ustadlar ustadı adlandırmışdır. Ağa Əli Zünuzi atası Abdulla Müdərrisin yolu ilə gedərək Tehranın qədim Sepehsalar mədrəsəsində kəlam, hikmət və riyaziyyat elmlərini ustalıqla tədris edirdi. Məşhur alim Məhəmmədəli Müdərris Təbrizi "Reyhanətül-ədəb" təzkirəsində ata-oğul barədə mə'lumat verərək göstərir ki, Abdulla Müdərris Azərbaycanın məşhur alimlərindən olmuşdur. Güzəranı pis keçdiyi üçün Xoy vilayətinə getmiş, orada ərəb elmlərini və ədəbiyyatını mükəmməl öyrənmiş, məşhurlaşmışdır. Sonra Kərbəlaya gedərək fiqh elminə yiyələnmiş, Qum, İsfahan şəhərlərində fəlsəfi elmləri öyrənmiş, nəhayət, Tehrana gələrək, həmin Sepehsalar mədrəsəsində iyirmi il fiqh və fəlsəfə elmlərini tədris etmişdir. "Reyhanətül-ədəb'in müəllifi onun dörd əsərinin, oğlu Ağa Əlinin isə altı əsərinin, o cümlədən "Haşiyeye Əsfare Molla Sədra" (Molla Sədranın aşkar haşiyəsi), "Risalei dər inke məntiq əz ülume hikəmiyyə əst" (Hikmət elmlərindən məntiqə dair bir risalədir) adlı fəlsəfi əsərlərinin adlarını çəkmişdir, Məhəmmədhəsən xan E'timadüssəltənə yazır ki, Ağa Əli Zünuzinin fiqhə dair kitablar haqqında özünəməxsus nəticələri vardır. Zəmanəsinin alimləri içərisində yüksək düşüncəsi və hörməti ilə seçilir. Bu kamil filosof və fəqihin atası



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Abdulla və qardaşı Molla Hüseyn Münəccim də zəmanənin böyük alimləri olmuşlar, fəlsəfi, riyazi elmlərdə ustad sayılırdılar /18, 157/.

Ağa Əli Zünuzi h.1307-ci ildə (1889-90) Tehranda vəfat etmiş və müqəddəs Şahəbdüləzim ziyarətgahı yaxınlığında dəfn olunmuşdur /69, 134, 135/. Onun bir çox şagirdləri öz müəllimləri kimi fəlsəfə, kəlam və riyaziyyat elmlərini ustalıqla tədris etməklə seçilmişlər /69, 223/.

Məhəmmədhəsən xanın "əl-Məasir vəl-asar" əsərində riyaziyyatçı alim Əhməd Gövgani və onun oğlu Əbdüləli Mirzə Gövganinin (Təbrizin kəndlərindəndir) məşhur alimlərdən olduqları barədə mə'lumat vardır. Azərbaycanda uzun müddət təqvim tərtibi, astronomiya və astrologiya işləri məhz Əbdüləli Mirzəyə tapşırılmışdır. Onun N.Tusinin "Si fəsil" (Otuz fəsil) əsərinə şərh yazması mükəmməl, dərin biliyə malik alim olduğunu göstərir. Əsər 1904-hü ildə Təbrizdə çap olunmuşdur.

E'timadüssəltənənin bizə tanıtdığı azərbaycanlı alimlər külli miqdarda əsərlər yazmış, iste'dadlı şagird yetişdirmiş, kitabxanalar təşkil etmişlər. Əsərdə bu alimlərin şəxsi kitabxanaları barədə də mə'lumat vardır. Məsələn, Azərbaycanın məşhur alimi təbrizli Mirzə Məhəmmədhüseyn Şəriətmədar Nəcəfdə ümumi kitabxana təşkil etmiş, gördüyü xeyirxah iş bəhrə vermişdir /18, 174/. Əhməd Münzəvi onun "Şobəhate vahiyyə" (əsassız şübhələr) adlı əsəri olduğu barədə mə'lumat vermişdir /18, 161/. Qəzvində rəisülüləma kimi tanınmış, məşhur fəqih



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hesab olunan Ağa Seyid Cəfər Qəzvininin nəslindən böyük bir kitabxana yadigar qalmış, indi onun sərəncamındadır /70, 962/. Təbrizli Hacı Ağa XIX əsr Azərbaycanın məşhur alimlərindən olmuşdur. Dəqiq elmlərdə məharətli olan bu alimin nücum və astrologiyada xüsusi üsulu olmuşdur. Onun qardaşı Mirzə Əbdülqəni Qaracadaği də fiqh, üsul, təfsir, ərəb elmləri və ədəbiyyatının şö'bələri sahəsində çox məharətli idi.

Məhəmmədhəsən xanın verdiyi mə'lumata görə nücum elminə dair təqvimlər çap etdirmiş Hacı Ağanın əsərləri Mirzə' Əbdülqəni Qaracadağidə qalmışdır /18, 207/.

Təbrizin nüfuzlu alimi, mütərəqqi ruhani başçılarından olmuş Nizamülüləma Mirzə Rəfi Təbatəbai haqqında "əl-Məasir vəl-asar" əsərində verilmiş qısa mə'lumat bu alimin sonralar daha dərindən öyrənilməsinə çox kömək etmişdir. Mirzə Ələsgər Mustofinin oğlu Nizamülüləma Mirzə Məhəmmədrəfi Təbrizin ədiblərindən olub "Tarixe Təbriz"in müəllifi Nadir Mirzənin dediyi kimi, ümumiyyətlə xoşagələn şəxs idi, ata-babası nüfuzlu seyidlərdən olmuşdur.

Nizamülüləma şair təbiətli idi. Məşhəddə olarkən "Divane rəzəviyyə" adlı bir şe'rlər külliyyatı tərtib etmişdi. Mirzə Rəfi aşağıdakı əsərlərin müəllifidir: "Ənis-ül-üdəba" ( Ədiblərin munisi). "Töhfətül-əmsal" (Misalların ən seçilmişi), "Məqalate nizamiyyə", "Məcməül-fəzail" (Fəzilətlər məcmuəsi), "Məsabihül-ənvar" (İşıqlı çıraqlar),



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Səfərnameye Rəzəvi", "Səfənameye Qərəvi" /71, 157/. Mirzə Rəfi Nizamülüləmanın "Səfərnameye Rəzəvi" kitabı Təbrizdə çap olunmuşdur. Onun nəsr dili rəvan, mətləbi səthidir, lakin bununla belə əsərlərində toxunduğu gündəlik məsələlər indi tarixə çevrildiyi üçün qiymətlidir. Məsələn, əsərdə Nəsrəddin şaha yazılan ərizələr və bnlara onun verdiyi cavablar da öz əksini tapmışdır.

Mirzə Məhəmmədrəfi "Nizam" təxəllüsü ilə şe'rlər də yazırdı.

Azərbaycanlı alim Mirzə Rəfi Ə.Dehxuda, Ə.Münzəvi və başqa görkəmli tədqiqatçıların diqqətini cəlb etmişdir. Onun M.F.Axundovla məktublaşması mə'lumdur /15, 234/. M.F.Axundov ərəb əlifbasının əhalinin savadlanması yolunda maniə olduğunu bildirərək ona yeni bir əlifba tərtib etməyi məsləhət görürdü. Mirzə Məhəmmədrəfi M.F.Axundovun bu məktubuna cavab yazmış (5 aprel, 1874-cü il) və göstərmişdir ki, Axundovun ona məktubla göndərdiyi yeni əlifba layihəsi onun zəkasının, ağlının dərəcəsini kəşf edən bir sənəddir /72, 321/.

M.Müctəhidi "Ricale Azərbaycan dər əsre məşrutiyyət" əsərində Məhəmmədrəfinin Mirzə Əsədulla xan adlı qardaşı olduğu və onun İranın İstambulda səfiri vəzifəsində çalışdığı barədə mə'lumat vermişdir. Bu mə'lumatı görkəmli Azərbaycan alimi Əbdürrəhim Talıbov "Kitabi-Əhməd" əsərində təsdiq edir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mirzə Məhəmmədrəfinin Azərbaycan EA Əlyazmalar İnstitutunda 1310-cu ildə (1892) çap olunmuş "Məqalate Nizamiyyə" adlı bir əsəri saxlanır. Əsər kiçik nəslin tərbiyəsinə həsr olunmuş, islamın dini, etik və əxlaqi normaları kimi qanunlarından bəhs edir. Kitabın sonunda müəllifin digər on bir adda əsərinin siyahısı verilmişdir. Qeyd etmək lazımdır ki, V.A.jukovski bu kitabın anonim əsər olduğunu göstərmişdir /73, 3/.

Həmin sülalədən olan Ağa Seyid Sadıq Təbatəbai Həmədani fiqh elmində dövrünün qabaqcıl alimi idi. Məhəmmədhəsən xanın yazdığına görə Tehranda yaşayan Seyid Sadıq öz hökmləri ilə böyük nüfuz qazanmışdı. Tələbəsi olduğu "Füsul"un müəllifi Şeyx Məhəmmədhüseynin qanunları onun üçün əsas idi və Seyid Sadıq həmin kitaba şərh yazmışdı. O, bə'zən fəqihanə şe'rlər də yazırdı. "Divanbəyi" təxəllüslü məşhur Hacı Əhməd Eşikağası Şirazi "hədiqətüş-şüəra" adlı təzkirəsində onun "Xadim Təbatəbai" imzası ilə şe'rlər yazdığını göstərir /71, 157/

Məhəmmədhəsən xanın haqqında mə'lumat verdiyi alimlərdən bir qismi ən yüksək mədrəsələrdə fəlsəfə, nücum, riyaziyyat elmlərini tədris edən, dərin zəkalı şəxsiyyətlər olmuşlar. Ağa Əli Zinuzi zəmanənin alimləri içərisində yüksək düşüncəsi, hörməti ilə seçilirdi /18, 157/. Mirzə Məhəmmədəli Qaracadaği fiqh, üsul, dilçilik elmləri və ədəbiyyatda yüksək mərtəbəyə çatmışdı. O, Məşhəddə olarkən, Xorasan hakimi Mirzə Əbdülvahab xan ona



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məşhədin ən görkəmli mədrəsələrində dərs deməyi təklif etmiş, bir qədər orada çalışdıqdan sonra Tehrana qayıtmışdı. Məhəmmədhəsən xan bu zaman dövlət qəzetlərində onun haqqında maraqlı yazılar dərc etdirmişdi /70, 1245-50, 3489/.

XIX əsrin II yarısında digər azərbaycanlı alim Seyid Saleh Xalxali də fəlsəfə və kəlam elmlərində ustad olmuş, həm müdərrislik etmiş, (Tehranda Dostəlixan Nizamüddövlə mədrəsəsində) həm də əsərlər yazaraq çap etdirmişdir. O, dövrün görkəmli filosofu, "Cilvə" ləqəbli Mirzə Əbdülhəsən İsfahaninin şagirdi idi. Məhəmmədhəsən xan göstərir ki, onun ən məşhur əsəri "Şüruhe səlasə" ("Üç izah") adlanır. Bundan başqa Möhyəddin ibn əl-Ərəbinin (638) 1240-cı ildə vəfat etmişdir) "Dəvazdəh imam", Mir Findriskinin (1050/1640-cı ildə vəfat etmişdir) "Qəsideye yaiyyə" /70, 1245/, Şeyx Murtuza Ənsarinin (1281/1864)-cı ildə vəfat etmişdir) "Fəraid" əsərlərinin tərcümə və şərhi ona aiddir. Bu əsərlər Tehranda çap olunmuşdur. Ağa Seyid Saleh 1888-ci il 7 sentyabrda vəfat etmiş və İbn Babəveyh qəbiristanında dəfn edilmişdir

"əl-Məasir vəl-asar" əsərində Qacarlar elinin görkəmli alimləri haqqında da mə'lumat vardır. Məhəmmədhəsən xanın yazdığına görə Fərhad Mirzə ibn Abbas Mirzə ibn Fətəli şah Qacar (1818-1888) dövrünün yüksək, mütaliə dairəsi geniş olan fazillərindən idi. O, Elmlər Nazirinin məsləkdaşı olub, "Zənbil", "Came Cəm", "Nisabe ingilisi" əsərlərinin müəllifidir, Məhəmmədhəsən xan tarixə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dair əsərlərində Roma müharibəsi, Mərivan qalası və başqa tarixi mə'lumatları məhz Fərhad Mirzənin əsərlərindən istifadə edərək yazmışdır. Fərhad Mirzənin Müqəddəs Kazimeyndəki tikintini bərpa etdirməsi onun islam aləminə etdiyi xidmətlərdən idi /18, 195/. Fərhad Mirzənin oğlu Əbdüləli Mirzə ərəb ədəbiyyatına mükəmməl yiyələnmiş və xoş xəttə malik idi. "Əbdi" təxəllüsü ilə şe'r yazırdı. Əbdüləli Mirzə Ali fəlsəfəni və riyaziyyat elmlərini, sufi və ariflərin kitablarını, dövrün görkəmli ustadları Mirzə Məhəmmədəli Qaini və Mirzə Məhəmmədrza Qəmişedən öyrənmişdi

Nadir Mirzə (1827-18885 Fətəli şahın nəticəsi olub, zəmanəsinin kamil alimi idi. Atası kimi hərbi qulluqçu olmuş Nadir Mirzə Nəcəf və Kərbəla səyahətləri zamanı xeyli əlyazma toplayaraq kolleksiya düzəltmişdi. 1880-1881-ci illərdə Təbrizin hakimi olarkən çəkişmələr nəticəsində onun kolleksiyasından 200 cild əlyazması oğurlanmışdı. M.Tərbiyətin verdiyi mə'lumata görə Nadir Mirzənin əlyazmaları qohumlarında qalmışdır. Onun "Tarix və coğrafiye darüssəltənəye Təbriz", "Nəvadire Nadiri" və digər əsərlərində İranın coğrafiyası, milli adət-ən'ənələri, tarixi şəxsiyyətləri, müəllifin müasirləri haqqında indi tarixə çevrilmiş mə'lumatlar öz əksini tapmışdır.

Məhəmmədhəsən xan Qacar elinin digər nüfuzlu fazillərindən olan Təhmasib Mirzənin farslar və ərəblər haqqında, onların həyat tərzi, elmləri barədə zəngin biliyə malik şəxs olduğunu göstərir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Göründüyü kimi, "əl-Məasir vəl-asar" əsərində haqqında bəhs olunan alimlər dövrünün hərtərəfli biliyə malik çox savadlı şəxsiyyətləri olmuşlar. Azərbaycan alimi həm kamil ədəbiyyatçı, həm mahir xəttat, həm də müəllim kimi şərəfli və müqəddəs vəzifəni icra etmişdir. Mə'lum səbəblər üzündən fars dilində yazsalar da, Cənubi Azərbaycanın elm tarixinin səhifələrinin yazılmasında bu şəxsiyyətlərin mühüm xidmətləri olmuşdur.

"əl-Məasir vəl-asar" əsərində azərbaycanlı ədəbiyyat və incəsənət nümayəndələri haqqında olan mə'lumat da diqqətəlayiqdir. Cənubi Azərbaycanın mədəni inkişafının mühüm mərhələsi XIX əsrin 70-90-cı illərinə aiddir. İranın cənub əyalətlərinə nisbətən Cənubi Azərbaycanda mədəni təkamül, yeni mədəniyyət, ideologiya daha sər'ətlə inkişaf edirdi. Mə'lumdur ki, bu zaman Şimali Azərbaycanda A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani və başqa ədəbiyyat xadimləri fəaliyyət göstərirdilər. Heç də təsadüfi deyil ki, Mirzə Yusif xan, Ə.Talıbov, Hacı Zeynalabdin Marağayi və başqaları M.F.Axundovu özlərinin müəllimi hesab edirdilər /9, 211/. Deməli, sərhəddin qoyulmasına baxmayaraq, heç bir maniə vahid, dili bir, adət-ən'ənəsi bir olan xalqı ayıra bilməmişdi.

İlk dövrlərdə Cənubi Azərbaycanda yeni mədəniyyətin yaranmasında cəmiyyətin məhdud bir hissəsi, daha doğrusu yuxarı təbəqə daha fəal iştirak edirdi. Ölkəni gerilikdən çıxarmaq üçün Avropa elmi, texnikası və mədəniyyətilə maraqlanan Mirzə Yusif



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xan Müstəşarüddövlə, Məhəmmədhəsən xan E'timadüssəltənə Qərbin texnika və mədəniyyət aləmində baş vermiş yenilikləri İranda yayırdılar. Sonralar Avropa şəhərlərinə təhsil almağa göndərilənlər təkcə elmi-texniki nailiyyətləri deyil, həmçinin mədəni yenilikləri, diplomatikanı da öyrənirdilər... /9, 212/.

Bu dövrdə artıq azərbaycanlılar arasında kamil xəttatlar, riyaziyyat elminin dərin biliciləri, alimlər, məşhur rəssamlar, ədəbiyyatçılar var idi. Cənubi Azərbaycanda nəqqaşbaşı Ağamir Gülüstan Təbrizi (1887-ci ildə vəfat etmişdir), xəttat Mirzə Razi (1911-ci ildə vəfat etmişdir), xəttat Mirzə Əli xan Əfşar kimi görkəmli sənətkarlar yaşayırdılar /74, 134-75, 212/.

Məhəmmədhəsən xanın "əl-Məasir vəl-asar" təzkirəsində dövrün bir sıra ictimai xadimi: xəttat, müdərris və ədəbiyyat nümayəndələrindən bə'ziləri haqqında ilk dəfə mə'lumat verilmişdir və bu əsərə qədər heç bir mənbədə onların adlarına rast gəlmirik

Müəllifin bizə tanıtdığı xəttat kamillikdə Mir İmad hürri, haqqında bəhs etdiyi şair isə Fəridəddin Əttar və ya Cəlaləddin Rumi timsallıdır.

Əsərdə xəttatlardan Mirzə Mahmud Xəttat Ürməvi, Mirzə Həbib Həmədani, Hacı Rəşid xan Beqdili, Molla Kəlbəli Əfşar, Mirzə Rəzi, rəssamlardan Ağa Əbülhəsən Nəqqaşbaşı Əfşar Ürməvi, Hacı Mirzə Hüseyn həkkakbaşı, Mirzə Cəfər xan Zəncani, şairlərdən "Mail" təxəllüslü Mirzə Həsən, Mirzə Rəşid, Ağa Məhəmmədrəhim Əfşar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mirzə Əlihüseyn, Ədibül-mülk (Məhəmmədhəsən xanın qardaşı), Nizam Əfşar Mirzə Həbib, Mirzə Əbdülsəməd Xameneyi, Mirzə Cəfər Həmədani və başqaları haqqında qısa mə'lumat verilir.

Xəttat Mirzə Mahmud Ürməvi Mirzə Hüseynin oğlu olub, əslən Üştübindəndir. Urmiyada yaşamış bu iste'dadlı xəttat şikəstə və nəstə'liq xətti ilə yazmaqda məşhur Əbdülməcid, Mir İmad Hürri[24] və həqiq kimi sənətkar idi. Musiqi aləmində onu dövrün Farabisi hesab edirdilər. Bu sənətkar haqqında Şəmsəddin Sami "qamus-ül-e'lam" da yazır: "İranın şüəra və xəttateynindən olub, mövlana Mirəli şagirdanindən və Şah Təhmasib Səfəvi mənsubiyyətindən idi" /76, 4246/. Burada onun farsca şe'rlərindən bir beyt verilmişdir.

Xəttatlıq sənətində Mir Əli hərəvi və Mir İmad Seyfi Qəzvinidən sonra tanınmış sənətkar Mirzə Məhəmmədrza Kəlhurdur,[25] (1829-1892) Məhəmmədhəsən xan bu məşhur xəttat haqqında mə'lumat verərək göstərir ki, onun xəttini nəstə'liqin böyük ustadı Mir İmadın xəttilə müqayisə edirlər /18, 203/.

Kəlhur haqqında ilk mə'lumatı onun şagirdi olmuş tarixçi Abdulla Mustofi vermişdir. Onun xatirələrindən müəlliminin açıq ürəkliliyini, xəttatlıq sənətinə məhəbbətini, şagirdləri ilə xoş rəftar edən müdərris olmasını öyrənmək olur /4, 237/. Mirzə Məhəmmədrza Kəlhur ilk gəncliyində at çapıb, ox atmaqla məşğul olmuşdur. Lakin onu daha çox xəttatlıq cəlb edirdi. Bu sənəti öyrənmək üçün



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məşhur kalliqraf Məhəmməd Xunsarinin yanına gəlib xəttatlıqla məşğul olur. Kəlhur köhnə əlyazmaların üzünü köçürməklə İsfahan və Qəzvində Mir İmad Qəzvininin xəttini öyrənmiş, sənətkarlıqda öz ustadını ötmüşdür. Kəlhurun şöhrəti Nəsrəddin şaha da çatmış, onu Tehrana də'vət edərək, nəşriyyat nazirliyində işləməyi təklif etmişdir. Lakin Mirzə Məhəmmədrza razı olmamışdır. O, Tehranda katiblik etməklə və şigirdlərə öz xəttatlıq sənətini öyrətməklə həyatını maddi çətinliklərdən qurtarırdı. Kəlhur iri həcmli mətnləri köçürməyi xoşlamırdı. O, əsasən kiçik vərəqlərdə yazırdı ki, bu nümunələr də saxlanmamışdır. Onun xətt nümunələrini litoqrafiya üsulu ilə çıxmış kitablarda axtarmaq lazımdır. Məsələn, Füruqi "Divan"ı ilə yerdə çap oluqmuş Qaani "Divan"ı ilk işlərindədir. Kəlhur Məhəmmədhəsən xanın nəşriyyatla əlaqədar bir sıra işlərinə kömək edirdi. Məhəmmədhəsən xanın nəşr etdirdiyi, Nəsrəddin şahın Xorasana ikinci səfərinə həsr olunmuş "Orduye Humayun" qəzeti və "Rəsmli səyahətnamə" məcmuəsi Kəlhurun incə xəttilə yazılmışdır /77, 44/.

Mirəz Məhəmmədrza Kəlhur Nəsrəddin şaha xəttatlıq sənətini öyrədirdi. Onun üzünü köçürdüyü əlyazmalardan biri olan "Müntəxəbe divane Sultani" incə nəstə'liq xətti ilə yazılmışdır /33, 1040/.

Məşhur İran alimi Abbas İqbal ömrünü xəttatlığa bağlamış Mirzə Məhəmmədrza Kəlhura böyük bir məqalə həsr etmiş, Mehdi Bəyaələrnun haqqında yazmışdır /29, 119/.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qeyd etmək lazımdır ki, tədqiqatçı O.P.Şeqlova səhvən kəlhuru kürd tayfalarından hesab edir /29, 116/.

Məhəmmədhəsən xan başqa bir xəttat, qəzvinli Məlik Məhəmməd haqqında mə'lumat verərək yazır ki, əgər Mirzə Mahmud Həqiq kimi sənətkar idisə, Qəzvinli Məlik nəstə'liqdə Həqiqi ötmüş ustad olmuşdur /18, 203/. O yazdığı qit'ələri öz qələmi ilə bəzəyir, onlara yeni çalarlar vururdu.

Məhəmmədhəsən xan həmədanlı xəttat Mirzə Həbib Həmədaninin şikəstə xəttinin mahir ustadı olduğu və özündən sonra qiymətli bir təzkirə də yadigar qoyduğu barədə yazır.[26]

"əl-Məasir vəl-asar"da haqqında mə'lumat verilən xəttat Hacı Rəşid xan Bekdili məşhur "Atəşkədə" təzkirəsinin müəllifi Lütfəli bəy Azərin nəvəsidir. Mə'lumdur ki, Lütfəli bəy Azərin oğlu da "Şərər" təxəllüslü şair olmuşdur. Onun oğlu Rəşid xan isə XIX əsrdə şikəstə xətti ilə yazan böyük ustad hesab olunurdu. Məhəmmədhəsən xanın verdiyi mə'lumatından onun yüksək dairələrdə böyük hörməti olduğunu və "Əxgər" təxəllüsü ilə şe'lər yazdığını öyrənirik. Rəşid xan Məşhəd şəhərində vəfat etmişdir /18, 204/. Mirzə Məhəmmədəli ibn Abutalib Məzhəb İsfahani də "Mədayeh-əl-mö'təmədiyyə" təzkirəsində (h.1259) Rəşid xan haqqında mə'lumat verir /67, 186/.

Bir çox əlyazmalarda öz dəstxəttini yadigar qoymuş Kəlbəli Əfşar dövrün məşhur xəttat-sənətkarı olduğu üçün Məhəmmədhəsən xanın nəzər-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

diqqətindən yayınmamış, təzkirədə onun haqqında ilhamla danışmışdır. Molla Kəlbəli Əfşar Həmədanın Xərqan kəndində anadan olmuşdur. Mə'lumdur ki, bu torpaq Azərbaycanın bir çox məşhur alimini yetirmişdir /78, 2035/.

Molla Kəlbəli nəsx xətti ilə zərif və gözəl yazırdı. İranda onun kimi mahir xəttat az idi və köçürdüyü əlyazmaları bir misrası, bir beyti ilə tanınırdı /18, 223. Məhəmmədhəsən xan onun sənətkarlığını zəmanəsinin mö'cüzəsi, özünü isə qüdrət sahibi adlandırır və onun çoxlu çap olunmamış kalliqrafik yazılarının qaldığını bildirir. "əl-Məasir vəl-asar" yazılarkən o artıq həyatda yox idi. Qeyd etmək lazımdır ki, Molla Kəlbəli Əfşarın Ağa Sədra adlı oğlu də şikəstə və nəsx xəttilə yazmaqda məşhur olmuş, üzünü köçürdüyü əlyazmalar yadigar qalmışdır.

"Əl-Məasir vəl-asar" əsərində onlarla azərbaycanlı xəttat haqqında belə ilkin mə'lumat vardır. Mahir sənətkarların əksəriyyəti, gördüyü kimi, həm də şair təbiətli olmuşlar. Məhəmmədhəsən xan "Riyaz təxəllüslü Mirzə Cəfər Həmədanini ustad ədəbiyyatçı, risalələr yazmaqda mahir şəxsiyyət kimi tanıdır, onun Həmiddədin (məşhur şair olmuşdur) və Bədiüzzaman[27] tərzində zərbülməsəllərin müəllifi olduğunu göstərir. Mirzə Cəfər Həmədani Fətəli şah və Məhəmməd şah zamanı münşilərindən olmuş, ingilis səfirliyində qulluq etmişdir. Məliküşşüəra Bahar onu "Riyaz" təxəllüslü şair və nasir kimi tanıdır və şe'rlər "Divanı"nın çap olunduğunu bildirir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

/79, 334/. Əhməd Münzəvi yvzır ki, o, Əmiri-Kəbir dövrünün şair və katiblərindən idi. H.q.1268-ci ildə vəfat etmişdir. Qeyl etmək lazımdır ki, Məşhədin Astane Qüds kitabxanasında Mirzə Cəfər Həmədaninin "Riyazül-ədəb" əsərinin əlyazması da saxlanılır /33, 834/.

Yuxarıda qeyd olunduğu kimi "əl-Məasir vəl-asar" təzkirəsində XIX əsr Cənubi Azərbaycanda nəqqaşlıq sənətinin inkişafında xüsusi mövqe tutmuş şəxsiyyətlər haqqında da maraqla mə'lumat vardır. Məhəmmədhəsən xan İranda incəsənətin bu növünün vəziyyətindən bəhs edərkən bu sahədə məşhur olan görkəmli sənətkarların, Ağa Əbülhəsən Nəqqaşbaşı Əfşar Ürməvi və Mirzə Cəfərxan Zəncaninin adlarını hörmətlə çəkmişdir /18, 219/. "əl-Məasir vəl-asar" yazılarkən artıq vəfat etmiş Ağa Əbülhəsən Nəqqaşbaşı Urməvi haqda yazılır ki, onun rəssamlıq əsərləri, rəngli peyzajları, əmisi məşhur rəssam Ələşrəf Əfşarın miniatür və rəsmlərindən seçilirdi. Bu əsərlər Tehranda kubar ailələrin mənzillərini bəzəyərmiş. Əbülhəsən Nəqqaşbaşının atası Allahverdi də ustad rəssam olmuşdur.

Zəncanlı rəssam Mirzə Cəfər xan isə Tehran darülfünunun iki mədrəsəsində təhsil almış, rəssamlar içərisində istər yağlı və istərsə də sulu boyalarla çəkməkdə mahir olub, zəmanəsinin fövqəl'adə rəssamı idi /18, 202/. Məhəmmədhəsən xan yazırdı ki, o, məşhur mədrəsə müəllimi Sadığın oğluddi.

İlk dövrlığın çap olunmuş dərslikləri vardır).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmmədhəsən xanın müasiri, əsli Şirazdan olsa da, 40 il əvvəl Azərbaycana köçmüş Mirzə Hüseyn Həkkakbaşı (1793-1873) haqqında "əl-Məasir vəl-asar" təzkirəsində verilmiş mə'lumat XIX əsr Azərbaycanda rəssamlığın bir çox sahələrinin inkişafını və məşhur sənətkarlar yetişdiyini sübut edən, göstərən amillərdəndir. Mirzə Hüseyn Təbrizdə həm kamil xəttat, həm rəssam, həm də həkkak kimi tanınırdı. Müəllif onun monoqramm işində əsrin yeganə adamı, zəmanəsinin fövqəl'adə şəxsiyyəti olduğunu bildirirdi. O, dövlət fərmanı ilə Həkkakbaşı (baş oymaçı) titulunu almışdı. Bir çox sarayların divarlarındakı naxışlar, möhürlər, Təbriz sikkələri Mirzə Hüseynin e'cazkar sənətindən yaranırdı. O, h.1290-cı (1873) ildə 80 yaşında TƏbrizdə vəfat etmişdir. Qardaşı Mirzə Hüseyn də Şiraz Akademiyasında bu sənətdə ona bərabər idi /18, 220/.

Məhəmmədhəsən xan "əl-Məasir vəl-asar" əsərində XIX əsr Cənubi Azərbaycanın tanınmış şəxsiyyətlərindən olan bir çox şairi, ədibi haqqında da ilkin mə'lumat vermişdir. Onlardan bə'zisi haqqında mə'lumat verməyi məqsədəuyğun hesab edirik.

Məhəmmədhəsən xanın bu əsərində ilk dəfə haqqında mə'lumat verdiyi "Mail" təxəllüslü şair Mirzə Həsən Əfşarlar nəslinə mənsub olub, XIX əsrin ikinci yarısında yaşamışdır. İlk təhsilini Urmu şəhərində almış, sonralar elm və təhsil ardınca Tehrana getmişdir. Əvvəllər Xariciyyə vəzirliyində mirzəlik etmiş get-gedə bacarıq və iste'dadını biruzə verərək "Mail" təxəllüsü ilə şe'lər yazmış və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Məliküşşüara" ləqəbini almışdı. O, Tehranda çox qala bilməmiş, uzun müddət Bəndərləngədə yaşamışdır. Lakin burada həyat onu sıxmış, gözəl təbiətli Urmiyaya qayıtmaq fikri onu bir an tərk etməmişdi. Bu barədə Dövlət idarələrinə dəfələrlə müraciət etməsinə baxmayaraq heç bir nəticə əldə elə bilməmiş, iş yerini icazəsiz tərk edərək Tehrana qayıtmışdır. Burada işsiz qalması onun çox ağır həyat keçirməsinə səbəb olmuşdur. Məhz belə bir yaşayış onun qələmini iti, sözlərini isə acı edir, adamları özündən incik salırdı /18, 207/.

"Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nda yazılmışdır: "Mail Mirzə Həsən Əfşarın təvəllüd və vəfat tarixi dürüst müəyyənləşdirilməmişdir. Şe'rlərindən, XIX əsrin axırlarında təqribən 87 yaşında Tehranda vəfat etdiyi mə'lum olur. Əfşarın farsca, xüsusən Azərbaycan dilində yazdığı qəzəllərdə Füzuli şe'rinin ətri gəlir, onun davamçılarından olduğu hiss edilir" /80, 224/. Antologiyada şairin azərbaycanca bir qəzəli də verilmişdir. Əziz Dövlətabadi "Süxənvərani Azərbaycan" adlı tədqiqatında Mail Əfşarın "Şeyxüşşüəra" ləqəbli şair olduğunu və h.XIII əsrin sonlarında yaşadığını bildirmiş, əsərlərinin siyahısını vermişdir /81, 919/. Mail Əfşarın əsərləri həmçinin Tehran milli kitabxanasında, "Məclise şuraye melli", "Astane Qodse Rəzəvi", "Kitabxaneye mərkəziye Daneşqah", "Kitabxaneye Məlik", Əsğər Mehdəvi kitabxanalarındadır. Əhməd Münzəvi onu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Şeyxüşşüəra" adlandırmış, "Divan"ından bəhs etmişdir /82, 2508-50, 2968/.

Məhəmmədhəsən xan əl-Məasir vəl-asar" əsərində şair Mirzə Rəşid haqqında da mə'lumat verir, onun fars və türk dillərində duzlu və fəsahətli şe'lər yazdığını göstərir. Əbdürrəşid Mirzə Məhəmmədşəfi Mahmudlu Əfşar h.q.XII əsrdə yaşamışdır. Çox qiymətli "Tarixe Əfşar" aldı əsərini 1866-ci ildə yazmağa başlamış, 1869-cu ildə bitirmişdir. Əziz Dövlətabadi bildirir ki, əsərin əlyazma nüsxəsi "Bozorqane süxənsərayane Azərbaycane Qərbi" kitabının sahibindədir. Mirzə Rəşidin sufiyane şe'rlərindən bir nümunə veririk:

Sən dilbərin özüsən, ya ürəyisən, ya gözüsən, bilmirəm
Candan xilas oldun, ya özün varsan, bilmirəm,
Rəşida, vəhdət nöqtəsi (sirri) şe'rindən aşkar oldu,
Cənab Mövləvisən, ya şeyx Əttarsan, bilmirəm[28].

Məhəmmədhəsən xan digər azərbaycanlı şair Ağa Məhəmmədrəhim Əfşar haqqında mə'lumat verərək göstərir ki, onun qəzəllər divanı geniş yayılmış, xəttat kimi də tanınmışdır, O, 1868-ci ildə vəfat etmişdir /18, 222/. Oğlu Mirzə Əli dövrünün arif şəxsiyyətlərindən sayılaraq şikəstə və nəstə'liq xətlərini yazmaqda çox mahir bir şəxs olmuşdur /18, 222/. Ağa Məhəmmədrəhim Əfşar kimi həm şair, həm də iste'dadlı xəttat olmuş Mirzə Həbib (Nizam Əfşar Mirzə Həbibulla) haqqında olan çox qısa



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mə'lumatda onun ədəbiyyat, incəsənət sahəsində dövrünün tanınmış ustad şəxsiyyətlərindən olduğu göstərilir. Nizam Əfşar öz yazılarında qeyd edir ki, əsli Urmiyanın Qarağac kəndindəndir. O, mahir xəttat olmaqla bərabər həcvlər yazar, satirik və məzəli şe'rlər qoşarmış. Ə.Münzəvinin mə'lumatına görə, onun "Divan"ı var imiş. O, "əl-Məasir vəl-asar"ın katibliyində çalışmışdır /83, 3679/. "Qamusül-e'lam" müəllifi Ş.Sami Mirzə Həbibi İran şüərasından hesab edərək bir beytini vermişdir /78, 1926/. Mənbələrdən Nizam Əfşarın Əbu Nəsr Fərahinin məşhur "Nisabüs-sibyan" əsərini təzmin etdiyi barədə mə'lumata da rast gəlirik /18, 213/. Onun "Məsabb" adlandırdığı bu əsər Tehranda "Məclis" kitabxanasındadır və bu nüsxə h.XIII əsrin əvvəllərinə aid şikəstə xətti ilə yazılmışdır. Nizam Əfşarın "Məqvim" (məqvim-məh-vale-təqvim) adlı bir əsəri də vardır. O, XX əsrin əvvəllərində vəfat etmişdir. "Əl-Məasir vəl-asar" əsərində Mirzə Əbdülsəməd Xameneyi haqqında olan mə'lumat onun ustad ədəbiyyatçı olduğunu bildirir. Sağlam təb'i olan bu şair müəllifin dövründə Xamənəndə (Təbrizin kəndlərindəndir) yaşayıb, şe'rlərini ərəb dilində yazmışdır. Xamənənin cümə imamı olan Mirzə Əbdülsəməd görkəmli ruhani, fazil və ədib idi /81, 149/.

Əli Xiyabani "Üləmaye moaserin" (Müasir alimlər) əsərində Mirzə Əbdülsəmədi qoca çağlarında Təbrizdə gördüyünü şairin ona öz şe'rlərindən bir neçəsini verdiyini bildirmiş və ondan nümunələr dərc etdirmişdir. Xiyabaninin yazdığına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

görə Mirzə Əbdülsəməd h.1308-ci ildə Təbrizdə idi. O, h.1311-ci ildə vəfat etmişdir.

Məhəmmədhəsən xanın verdiyi mə'lumata görə Nəsrəddin şahın məşhur münəccimlərindən olan təbrizli Mirzə Əli şe'r yaradıcılığında da iste'dadlı olmuşdur. O, Mirzə Cəfər Münəccimbaşının oğlu, məşhur alim Mirzə Rza Nəcmülmülkün qardaşlığı idi. "Soxənvərane Azərbaycan" təzkirəsinin müəllifi yazır ki, Mirzə Əli Nəsrəddin şahın məşhur münəccimlərindən olub, hüccətülislam "Nəyyir"in[29] dostlarındandır.

"Əl-Məasir vəl-asar" təzkirəsində Nəsrəddin şah hakimiyyəti dövrü şairlərindən olan Ədib Marağayi haqqında qısa mə'lumat verilmişdir: Ədibül-mülk Əbdüləli xan E'timadüssəltənə müəllifin qardaşı, gözəl natiq, ustad və mahir şair idi. Onun haqqında "Əncümənaraye Nasiri" və "Gənce şayeqan" kitabları da yazmışdır.

Əziz Dövlətabadi "Süxənvərane Azərbaycan" əsərində Məhəmmədhəsən xanın yuxarıda verdiyi mə'lumata əlavə olaraq göstərir ki, Əbdüləli xan Nəsrəddin şah hakimiyyəti dövrü şairlərindən olmuş və hökmdara yazdığı çoxlu qəsidələri vardır. Ə.Dövlətabadi onun "Ədibül-məlik" ləqəbini almaq mərasimindən də söhbət açmışdır. Ədibül-məlik Nəsrəddin şahın ilk dəvatdarı (katib) olmuşdur. Sonra bu vəzifədə Yəhya xan Müşirüddövlə Qəzvini, Əlixan Əminüddövlə və az bir müddət də Məhəmmədhəsən xan E'timadüssəltənə çalışmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qeyd etmək lazımdır ki, saray şairi mövzu seçməkdə azad olmamışdır. O, bu və ya digər şe'rini istər-istəməz hökmdara xitabən yazmalı, onu mədh də etməli idi. Bu məddah şairlər içərisində qüdrətliləri az deyildi. Bu cəhətdən M.N.Osmanovun fikrilə tanış olmaq yerinə düşərdi: "Əlbəttə, heç kəsin ağlına mədhiyyətçi şairlərin mal-dövlətə uzaq olmaları fikri gəlməsə də, onların hökmranlıq edən şəxslərin tə'rifləməklə yalnız dar mə'nada xeyir-mənfəət güddüklərini fikirləşmək də səhv olardı. Hökmdarlar sənətkarların və müasirlərin əsərlərində onları görmək istədikləri kimi təsvir edilirdilər /84, 31-85, 23/.

Məşhur təzkirəçi-alim Rzaqulu xan Hidayət, M.Bamdad, Ə.Münzəvi və başqaları öz tədqiqatlarında Əbdüləli xan haqqında mə'lumat vermişlər.

1937-ci Tehranda "Gülçine Cəhanbani" adlı bir şe'rlər məcmuəsi nəşr olunmuşdur. Sərhəng Məhəmmədhüseyn Cahanbaninin tərtib etdiyi bu topluda Şərqin Böyük filosof-şairləri: Nizami, Xaqani, Məhsəti, Sə'di, Hafiz, Xəyyam və başqaları ən gözəl lirik beytlərdən nümunələr öz əksini tapmışdır. Ustadlarla yanaşı Ədib Marağayinin şe'rlərindən də topluda nümunə verilməsi, onun lirik şe'r yaradıcılığında iste'dadını göstərir /86, 126/.

Əhməd Münzəvi də Əbdüləli Marağayinin bir əsərindən, kiçik dastanlardan ibarət olan "Hekayətha" əsərindən bəhs etmişdir. Ədibülməlik şəxsi möhüri olan nüsxə h.1273 (1856)-cü ildə yazılmış, ədibin qızı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mə'sumə xanım tərəfindən Tehran Milli kitabxanasına bağışlanmışdır /83, 3679/.

Göründüyü kimi "Məhəmmədhəsən xan E'timadüssəltənənin "əl-Məasir vəl-asar" əsəri Azərbaycanın XIX əsrdə yaşamış, elmə və maarifə xidmət etmiş görkəmli ictimai xadimlərinin tarix səhifələrində qalmasına xidmət etmiş, onları bu günümüzə gətirib çıxartmışdır.

E'timadüssəltənənin əsərlərinin bir hissəsi onun ölümündən sonra çap olunmuşdur. Xüsusən, siyasi məzmunlu əsərindən olan "Xabnamə"nin ilk nəşrinin (1945) İranda milli-azadlıq hərəkatının genişləndiyi illərə təsadüf etməsi onun müasir İranın siyasi həyatı ilə səsləşdiyini göstərir.

## MƏHƏMMƏDHƏSƏN XAN ETİMADÜSSƏLTƏNƏNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

Etimadüssəltənənin "Mir'atül buldani-Nasiri" və "əl-Məasir vəl-asar" əsərində Azərbaycan tarixi məsələləri.

Məhəmmədhəsən xan E'timadüssəltənə əsərlərində dünyanın tarixi, coğrafiyası və ictimai-siyasi hadisələrindən bəhs edərək Azərbaycan, onun tarixi keçmişinə aid maraqlı faktlar vermişdir. Bu cəhət xüsusilə qeyd olunmalıdır ki, o, Qərbin və İranın tarixçilərindən fərqli olaraq eramızdan əvvəl 328-ci ildən eramızın 28-ci ilinədək Azərbaycanda mövcud olan dövləti (Atropatena sülaləsi) İrana aid



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etməmiş, onun müstəqil şahlıq olduğunu göstərmişdir.

E'timadüssəltənə dördcildlik "Mir'atül buldani-Nasiri" əsərində Azərbaycan Bakı, Dərbənd, Bərdə, Təbriz, Urmiya, Ərdəbil və s. iri şəhərləri, tarixi abidələri Haqqında ətraflə mə'lumat vermişdir. Bunlarla yanaşı əsərdə Cənubi Azərbaycanda on-on beş evdən ibarət olan kiçik bir kənddən bəhs etməklə onu tarixdə yaşatmışdır. O, bu mə'lumatları verərkən "Mö'cəmül buldan", "Nüzhətül-qülub", "Asarül əvvəl", "Təqvimül-buldan" kimi qədim tarixi mənbələrlə yanaşı, Avropa və ölkədaxili səyahətləri zamanı əldə etdiyi materiallardan da istifadə etmişdir. Onun 1873-cu ildə ziyarət etdiyi Bakının altı-yeddi kilometrindəki Bibiheybət məscidi, Gəncədə Nizaminin türbəsi və başqa tarixi yerlər haqqında verdiyi mə'lumat bə'zi tarixi hadisələrə aydınlıq gətirir.

E'timadüssəltənə Azərbaycanın ən görkəmli şəhərlərindən biri olan Təbrizin tarixindən geniş bəhs etmişdir, ilk dəfə oldaraq onun bə'zi Avropa səyyahları və missionerlərinin bu şəhər haqqında təəssüratları öz əksini tapmış "Səfərnamə"lərini tərcümə edərək "Mir'atül buldani-Nasiri" əsərinə daxil eməsi çox maraqlı faktdır.

E'timadüssəltənənin əsərlərində Azərbaycanın görkəmli sənət adamları da xüsusən xatırlanır. Xüsusən "əl-Məasir vəl-asar" əsəri XIX əsrdə Cənubi Azərbaycanda yaşamış neçə-neçə alim, şair, xəttat və digər məşhur şəxsiyyətlərin tarix səhifələrində yaşamasına səbəb olmuşdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azərbaycan tarixinə aid bu kitabda toplanmış iqtibaslar E'timadüssəltənənin "Mir'atül buldani-Nasiri" əsərinin 1876-cı və 1878-ci il, "əl-Məasir vəl-asar" əsərinin 1889-cu il Tehranda nəşr olunmuş daşbasma nüsxələrindən tərcümə olunmuşdur.

## TƏRCÜMƏLƏR

("Mir'atül-buldane Nasiri", Cild 1,4)

Nəsrəddin şah Qacarın bəzi fərmanlarının surəti:
1288, rəbiülsani.

Darültəbayi-humayunun tərəqqi etməsi Darültəbanın rəisi, mənim şəxsi mütərcimim və pişxidmətim, bütün İranda məşhur Məhəmmədhəsən xanın artıq dərəcədə sə'y göstərməsi nəticəsindədir. Mən ondan çox razıyam. Ona yüksək Səniüddövlə ləqəbini verirəm ki, başqalarından fərqlənsin və fəxr etsin və ona tapşırılmış vəzifədə həmin xeyirxahlıqla daha artıq çalışsın.

Rəbiülsani, 1288 (20 iyün, 1871-ci il).

"Bizim tərbiyəmiz və qayğımız ilə yetişmiş Məhəmmədhəsən xan Səniüddövlə neçə müddətdir ki, bizim hüzurumuzda bacarıqla qulluq edir və sədaqətini sınamışıq. Bu gündən e'tibarən əvvəlki vəzifələrindən əlavə dövlət bağlarının idarəsi də onun öhdəsinə verilir:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nigaristan imarəti və bağı, Laləzar imarəti və bağı, zoopark və quşlar bağı, Elxani bağı və imarətləri, Səltənətabad imarəti və bağları, Əqdəsiyyə imarətləri və bağı, Neyavəran imarət və bağları, mərhumə Məhdi-Ülya tabəsərahanın Neyavərandakı bağı, Neyavəranda böyük xiyaban, padşaha məxsus nahar yeri olan xiyabandakı imarət, Nəsiriyyə xiyabanı, Elxani bağı xiyabanında yerləşən imarətin ətrafındakı küçələr, Şəmiran darvazası səmtindəki xiyabanlar və E'timadüddövlənin evinin qarşısı, Dövlətabadın imarətləri, Cacerudun qədim və yeni imarətləri, Qəsri-Qacarın imarət və bağı, bağların suvarılması üçün lapzım olan bütün yeraltı suvarma kanalları və burada çalışan fəhlələr.

Digər işləri kimi bu işləri də yerinə yetirmək üçün göstərəcəyi sə'y padşahın nəzərində olacaq və bu dövlət işində də gözəl xidmətini göstərəcəyini ümid edirik. Zilhiccə ayı, 1290 (1874 yanvar).

"Mir'atül buldan" əsərinin üçüncü cildində dərc olunmuş bu fərmanlarla yanaşı Parisdən Şərq dilləri mədrəsəsinin rəisi müsyö Şeferin göndərdiyi məktubun mətni də maraq doğurur.

Cənab müsyö Şeferin məktubunun surəti:

1878-ci il 15 iyul, Parisdən Əlahəzrət şahənşahi-İranın katibi və şəxsi mütərcimi və həmin məmləkətin Darültəba və Darültərcümə rəisi Məhəmmədhəsən xan Səniüddövləyə:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mənim ağam,rəis! Elm, sənət və dinlər nazirinin iyulun əvvəlində rəsmən sizin üçün imza edib göndərdiyi orden və fərmanı, şərəfdaram ki, elmlər naziri tərəfindən tapşırılan bu işi məmnuniyyətlə icra etməyi üzərimə götürürəm.

Xüsusi olaraq mənə tapşırılıb ki, elmlər nazirliyi tərəfindən Sizə təşəkkür edim. Sizin tərcümələrinizdən yə'qin ki, həmvətənləriniz də xəbərdardır. Fransanın elm adamları, alimlər, xüsusən vəziri-ülum sizə çox təşəkkür edir və razılığını bildirir. Sizin nəşr etdirdiyiniz və yaydığınız kitablar Avropa və qeyri dillərin tə'limini və öyrədilməsini asanlaşdırır və bizlər də bütünlüklə Şərq dillərinə və elminə dair təcrübə qazanırıq. Ümidvarıq ki, tutduğunuz düzgün və doğru yolda həmin əqidəni davam etdirəcəksiniz və gördüyünüz işin faydası tam xalqın mənafeyinədir.

Sizin səmimi, həqiqi dostunuz, Şərq dilləri mədrəsəsinin rəisi "Şefer".

(C.1, s.119-124) "Mö'cəm ül-büldan" yazır: Bab əl-Əbvab, Ona Bab və Bab-o-Əbvab da deyirlər. O, Şirvan Dərbəndidir. Bu şəhər Təbəristan (Xəzər) dənizinin kənarındadır. İstəxri yazır:

Bab əl-Əbvab elə bir şəhərdər ki, dənizin suyu daima onun divarlarını yuyur, o, dənizdə bir körfəzdir. Sanki iki daş səddi iki tərəfdən dənizə doğru uzatmışlar və qurğuşunla onu möhkəmlədib, giriş qapısı düzəltmişlər və buraya dəmir zəncirlər bağlamışlar ki, icazəsiz girib-çıxmaq mümkün olmasın. Bu şəhər Ərdəbildən böyükdür, ərazisi iki



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mil kvadrat metrdir. (1 mil 7420 metrə bərabərdir - H.T.). Burada əkinçilik çox inkişaf etmişdir, amma meyvəsi az olduğundan kənardan gətirilir. Şəhəri qorumaq üçün dağdan uzun divar düzəldilmişdir, dağdan şəhərə keçmək üçün bir yol yoxdur və vaxtilə olan yol da dağılmışdır, həm kafirlər və həm müsəlmanlar yaşayan bu şəhərdə yollar çətindir. Bundan başqa haqqında bəhs olunan divarın buruna oxşar bir hissəsi lap dənizin içərilərinə doğru uzadılmışdır ki, gəmilər şəhərə yaxınlaşa bilməsinlər. Bu divar Ənuşirəvanın möhkəm tikililərindən biridir. Və bu şəhər əzəmətli sərhəd və böyük yurddur. Çünki onun ətrafında müxtəlif tayfalardan olan saysız-hesabsız düşmənlər vardır. Şəhərin yaxınlığında Zə'əb - yə'ni qurd adlı əzəmətli bir dağ vardır. Bu dağın başına hər il çoxlu odun yığılır. Düşmənin təhlükəsi gözlənilərsə, onda odunlara od vurulur və bu zaman Azərbaycan, Arran və Ərməniyyə xalqlarına xəbər verilir, köməyə çağırılır.

Mə'lumdur ki, ardıcıl uzanan bir dağın üstündə Bab əl-əbvab və divar kimi qurulmuş məşhur olan bir yerdə 70-dən çox tayfa yaşayır və bunlar biri digərinin dilini bilmir. İran padşahları bu sərhəddi qorumaq üçün artıq dərəcədə sə'y göstərir, hər dəqiqə onun mühafizəsi üçün lazım olan silah və sursatla, e'tibarlı mühafiz və döyüşçülərlə tə'min edir. Çünki sərhəd qorxu, xətər və dedi-qodu ilə pozula bilər. Tə'yin olunmuş keşikçilərə ixtiyar verilmişdir ki, sərhəddə nə qədər bacarırlarsa, əkinlə və abadlıqla məşğul olsunlar, fərarilik etməsinlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hökumət onlardan vergi tutmur, təki mülklərini abad etsinlər, sərhəddi mümkün qədər möhkəm qorusunlar ki, türk və qeyri qoşunların təhlükəsi olmasın, sərhəd başqa tayfalardan ayrı olsun. Bu tayfalardan təbərsaran, cilan, ləzgilər sayca çoxdurlar. Lirlər, Şirvan və başqaları əvvəl saydığımız tayfalardan azdırlar. Hər bir tayfanın özünəməxsrifləməkçi mərkəzi vardır. Bütünlüklə Bab əl-əbvab Xəzər dənizinin limanı və buxtasıdır ki, xəzərlər, sərir, səndlər, cəndlər və kərəc və qeyri tayfalar onun ətrafında yaşayırlar. Orada iplik parça toxunur. Xüsusi kətan otu bu şəhərin yaxınlığında bitir. Arran, Azərbaycan və Ermənistan əhalisi bu otu tanımırlar. Burada zə fəran və taxıl yetişdirilir. Şəhərin yaxınlığında müsəlmanlar rayonunda Məsqət qəsəbəsi vardır və bu qəsəbənin yanında ləzgi tayfası yaşayır. Bu tayfanın adamları hündürboylu və güclüdürlər. Əkinçilikdə məharətlidirlər. O ətrafda bir vilayət də vardır ki, əhalisi Xəmaşərə adlanır, onlar heç bir dövlətə tabe deyillər. Bab əl-Əbvabla Xəmaşərə arasında Təbərsəran tayfasının torpaqları yerləşir. Bu tayfanın da adamları hündürboy, güclü və əkinçilikdə məharətlidirlər. Lakin ləzgi tayfasının əhalisi sayca çoxdur və torpaqları genişdir. Onların başçıları fillər qəbiləsidir. Və ərazisi çox da geniş deyildir. Dənizin kənarında Məsqət qəsəbəsindən başqa Şabran şəhəri yerləşir ki, kiçik, lakin sarsılmazdır və onun ətrafında qəsəbələr vardır. Yuxarıda haqqında bəhs etdiyimiz Babda olan böyük tikintilər barədə Əbül Abbas Tusi yazır: Mənsurun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xilafəti zamanı o, bizdən sual etdi ki, aya, bilirsinizmi Ənuşirəvan Bab əl-Əbvabın divarını nə üçün tikdirmişdir, ya yox? Cavab verdilər: xəbərimiz yoxdur. Mənsur dedi: Xəzərlər tayfası İran məmləkətinin Həmədan və Mosula qədər zəbt etmişdilər, Ənuşirəvan bu tayfanın padşahının yanına özünün bir neçə elçisini göndərərək, onun qızını almaq istədiyini bildirdi. Eyni zamanda öz qızını o padşaha verəcəyini və'd etdi ki, aralarında möhkəm ittifaq yaransın və öz düşmənlərini birgə məğlub etməyə çalışsınlar. Bu tayfanın padşahı Xaqan təklifi qəbul etdikdə Ənuşirəvan qızının əvvəzində çox gözəl kənizlərindən birini qiymətli hədiyyələrlə Xaqanın yanına göndərdi. Xaqan da öz qızını Ənuşirəvana göndərirdi. Onun xahişi qəbul edildi. Munasib bir yer müəyyən edildi və hər iki padşah bir-biri ilə görüşdülər və bir müddət birlikdə qaldılar. Ənuşirəvan bir gün zabitlərindən birinə tapşırır ki, 300 nəfər döyüşkən əsgərləri götürüb yatmış düşmənə hücum etsinlər. Ənuşirəvanın əmri yerinə yetirilir. Bundan sonra Xaqan Ənuşirəvandan bu hərəkətin səböəbini soruşur. Ənuşirəvan özünü bilməzliyə vuraraq dedi:

- Mənim heç xəbərim yoxdur, gərək təhqiq olunsun. Təhqiqdən heç nə həsil olmadı. Xaqanın ordusuna üç dəfə belə basqın edildi. Xaqan qeyzlənərək öz sərgərdələrinə hökm elədi ki, onlar da Ənuşirəvanın ordusuna qarşı həmin rəftarı etsin. Ənuşirəvan bu işdən bərk qəzəbləndi və Xaqanla kəskin danışdı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xaqan dedi:

- Sən mübahisəni böyüdürsən, halbuki əvvəl sənin ordun basqın etmişdir və mənim orduma bir neçə dəfə hücüm olmuşdur. Mən hələ təmkinlik göstərmişəm.

Onda Ənuşirəvan dedi:

- Bu təcəvüzü edənlər bizim həmrə'liyimizi nifaqa çevirmək istəyənlərdir. Mənim sənə bir təklifim vardır. Əgər qəbul etsən, Hər iki tərəf üçün bunun çox gözəl nəticəsi olacaqdır.

Xaqan dedi:

- Bu hansı təklifdir?

Ənuşirəvan dedi:

- Mənə icazə ver, məmləkətimizin sərhəddində sədd kimi bir divar çəkim və möhkəm darvaza düzəldim, ta ki, heç kəs icazəsiz daxil və xaric ola bilməsin. Xaqan bu təklifi bəyəndi və öz torpağına getdi. Amma Ənuşirəvan orada qaldı və dağların daşından və qurğuşundan elə bir divar tikdirir ki, uzunluğu 300 zə'rə bərabər (1 zər' - 107 santimertə bərabərdir - H.T.), hündürlüyü qarşıdakı dağa bərabər idi və ona paralel olub, dənizə qədər uzanırdı.

Deyirlər Ənuşirəvan divarın özülünü, içərisinə hava doldurulmuş tuluqlardan qoydurmuşdur ki, ağır olsun və bunu dənizin dərinliyinə oturtmuşlar. Dənizdə elə bir divar salınmışdır ki, bu quruda, yer kürəsində qapıları dəmirdən olan ən böyük divar idi. Ənuşirəvan əmr etdi ki, yüz nəfər mühafizə tapşırılsın. Halbuki, bu yer divar tikilməmişdən əvvəl yüz min nəfər vasitəsilə qorunurdu.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu iş sona çatan kimi, Ənuşirəvan taxtının dənizə yaxın olan səddin üzərində qurulmasına əmr etdi. O, torpağa diz çöküb, Allaha şükr etdi və dedi:

- İndi məqsədimə çatdım, bundan sonra rahat yaşaya bilərəm.

Bə'zisi deyir ki, qurudan dənizə hər tərəfdən çox yol olduğu üçün Ənuşirəvan bu divarı düzəldəndə göstəriş vermişdi ki, dənizdən keçməyə yer mümkün olmasın. Divar daşdan yonulmuşdur və hər hissə 50 addımdan hündür deyildir, daşları qalay və dəmirin qarışığı ilə hörüb, aralarına qurğuşun doldurulmuşdur. Onun uzunluğu 7 fərsəxdir. Ənuşirəvan yeddi yol saldırmış və hərəsində bir qala bina edib, gözətçi qoymuşdur ki, yolları mühafizə etsin. Gözətçiləri "inşastəkin" adlandırırdılar. Deyirlər ki, "Bab-əl-Cihad" adlanan qapının yuxarısında iki sütun qoyulmuş və onların üstündə bir şir heykəli düzəldilmişdir, onun altında iki parça daş vardır ki, üzərində iki dişi şir nəqş olunmuşdur. Bu iki heykəlin ətrafında bir kişi heykəli vardır ki, onun ayağının altında ağzında bir salxım üzüm tutmuş çaqqal düzəldilmişdir. Şəhərin yaxınlığında su ambarı vardır ki, daşdan yonulmuş pilləkənlə enib, oradan su götürürlər, pillələrin hər iki tərəfindən iki şir heykəli qoyulmuşdur. Deyilənə görə, bu heykəl şəhəri qoruyan tilsimdir.

"İslamın Bab əl-Əbvabı fəthi" fəslində yazılmışdır ki, Salman ibn Rəbiəyi-Bahili II xəlifənin zamanında (Ömər ibn Xəttab - H.T.) ordusunu oraya çəkdi. Bələncərə yetişdi. Orada Xaqanın ordusu ilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üz-üzə gəldi. Salman dörd min ordusu ilə birlikdə qətlə yetirildi. Salman öldürüldükdən sonra döyüş meydanında böyük tonqal qalandı, meyitləri dəfn etdilər. Salmanın cəsədini tabuta qoyub öz mə'bədində saxladılar. Quraqlıq illərində tabutu bayıra çıxarıb açan kimi yağış yağırmış.

Başqa bir yerdə oxumuşam ki, Əbu Musa Əş'əri İsfahanı zəbt etdikdən sonra h.19-cu (640 miladi - H.T.) ildə Səraqət bin Əmronu Bab əl-Əbvab tərəfə göndərdi. Onun qoşununun qabağında gedən sərkərdə Əbdürrəhman bin Rəbiə idi. Çox ciddi-cəhddən sonra şəhər zəbt olundu.

"Asarül-bülad" da deyilir: Bab əl-Əbvab qəribə şəhərdir. Xəzər dənizi kənarında daşdan tikilmiş bu şəhər müəyyən edilmişdir ki, uzunluğu üçdə bir fərsəx, eni bir güllə məsafəsi qədərdir. Dəmir darvazaları və çoxlu bürcləri vardır, hər bürcdə tələbələr və elm təhsil almağa gələnlər üçün məscid vardır. Bu şəhər Ənuşirəvani-Adilin tikintilərindəndir. Onun yanında bir dağ vardır ki, burnu irəli çıxmışdır.

"Asarül-əvvəl"də deyilir: Bab adında bir neçə yer adı mövcuddur. Biri Hələb yaxınlığında kiçik şəhərdir. İkincisi, Buxara kəndlərindən biridir. Üçüncüsü, bir dağ adıdır ki, Bəhreyn torpağında olan Həcr yaxınlığındadır. Dördüncüsü, Xəzər sahilində yerləşən Bab əl-Əbvabdır ki, burada türkləri dəf etmək üçün tilsimli surət düzəldilmişdir.

Bizim zəmanəmizdə Sultan Murad xan ibn Sultan Səlim xan Osmaninin vəziri Osman Paşa ibn



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Özdəmir şəhəri fəth etdi və orada qalalar tikdirdi və bu şəhəri Ənuşirəvan Fəth dağının arasında saldırdı. Bu dağ çox əzəmətli, yuxarısı geniş düzənlikdir. Ona görə də o çox böyük tayfa və ölkələrin ərazisini əhatə edir. Ənuşirəvan şəhərin ətrafına ilk dəfə divar çəkdirdi. Dənizlə onun arası bir mildir. Bu məsafədin də su qalaya dəyir. Divar Fəth dağının yuxarısından aşağıyadək çəkilmiş və dərənin uzunluğu 40 fərsəxdir və hər 3 mildən sonra bir dəmir darvaza düzəldilmiş, həmin tayfadan mühafiz qoyulmuşdur. Fəth dağına iki aydan artıq bir yoldur və onun ətrafında müxtəlif tayfalar yaşayır və onların sayını Allahdan başqa heç kəs bilmir.

"Nüzhətül-qülub" da yazılır ki, moğollar Bab əl-Əbvaba Dəmirqapı deyirlər.

Müəllif deyir: Bab əl-Əbvab Dağıstanda mö'təbər şəhərlərdər biridir. Şəhər söykəndiyi dağ üzərində salınmış bir qaladır. Dəmir qapısı və çoxlu bürcləri olan şəhərdir. Hər bürcü də məsciddir. Bu şəhər Ənuşirəvani-Adilin tikililərindəndir. Deyirlər ki, şəhərin əsasını İsgəndəri-Rum qoymuş, Ənuşirəvani-Adil isə onun ətrafına hasar çəkmişdir. Bu söz boş sözdür və əsası yoxdur. Çənki İsgəndər nəinki özü, heç sərkərdələri heç vaxt Dərbəndə gəlməmişdir. Oranı ərəblər fəth edərək, islamı yaymışlar. Dərbənd ətrafında yaxşı bağlar vardır. Dağlıq olduğu üçün (Qafqaz dağlarının ətəkləri) küçələri çox dərə-təpəlidir.

Haqqında bəhs etdiyimiz divar ki, dəniz kənarınadək uzanır, dəmir qapılıdır və Ənuşirəvan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

onu düşməni dəf' etmək məqsədi ilə tikdirmiş, xəzərlərin tez-tez hücumlarına, İran sərhəddində qarşılığa son qoymuşdu. Deyirlər bu divar Qafqaz dağlarından Qara dənizə qədər uzanıb orada bitirmiş (yə'qin ki, bu bir rəvayətdir). Dərbənd şəhərinə daxil olmaq istəyən müsafir yalnız dənizdən başlanan və dağların başında gizlənən uçmuş daş divardan daxil ola bilərdi. Bu şəhərdə təzə tikilmiş kiçik bir otaq nəzərə çarpır ki, 1722-ci məsihi, 1135 hicri ilində rus imperatoru Böyük Pyotr zahirən səfəvilər səltənətinin himayədarı kimi, əslində isə işğalçılıq məqsədi ilə Qafqaza gələrək orada qalmışdır.

Dərbənd şəhərinin daxilində Avropasayağı tikilmiş binalar az gözə çarpır. Çoxlu bazarları, iki geniş karvansarayı vardır. Rusların dükan və ticarət evləri dəniz kənarındadır.

1832-ci məsihi ilində rus ordusunun Marlinski adlı bir zabiti (Bestujev-Marlinski - H.T.) həmin bu divara əvvəldən axıra qədər tamaşa etdikdən sonra öz rəisinə (knyaz Tarkanova - H.T.) rus dilində bir raport yazmışdır. Həmin məktubu Fransa yazıçısı Aleksandr Düma rus dilindən fransız dilinə tərcümə etmiş və biz də eyni ilə fransız dilindən fars dilinə tərcümə edib dərc edirik:

"Rus zabitinin raportunun tərcüməsi: Qədim dünyanın heç bir səyyah və tarixçisinin görmədiyi, eşitmədiyi, dünyanın bu hissəsində köhnə divarın xarabalıqları diqqəti cəlb edir və məşhürdur. Bu divar ya fars sultanlarından, ya da Midiya padşahlarından yadigardır və onların bu divarı salmaqda məqsədləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

öz məmləkətlərinə vəhşi tayfaların hhücumlarının qarşısını almaq idi. O vaxt vəhşi tayfa adlandırdıqları, əziz polkovnik, bizim əcdadımız idi. Bu ifadəmə görə siz məni bağışlayın. Mən dünyanın inkişaf etmiş mədəni adamlarından olan Sizin əcdadlarınız gürcü knyazlarını demirəm. Məqsədim mənim öz əcdadımdır. Siz ki, tatar dilini yaxşı bilirsiniz, məsləhət görürəm ki, "Dərbəndnamə"ni mütaliə edəsiniz. Həmin kitabda yazılmışdır ki, bu divarı İsfəndiyar, yaxud İsgəndər, yaxud da Ənuşirəvan tikdirmişdir və bu divar Xəzər dənizindən başlayıb Qara dənizdə qurtarırdı. Divarın əzəmətinə şübhə yoxdur. İndi gördüyüm divarın müəyyən hissəsi torpaq altındadır. Bilrsininz ki, Böyük Pyotorun zamanında bu divar daha əzəmətli idi və ruslar onu dünyanın səkkizinci mö'cüzəsi sayırdılar". E'timadüssəltənə Dərbəndin ruslar tərəfindən zəbt edilməsi barədə belə yazır:

"1806-cı ildə I Aleksandrın rus qoşunları Şirvanı fəth etdi. Qoşun komandanı Sisianov S-Peterburqa yazdığı raportda göstərirdi: Yaxın zamanda Şirvandavn Badkubəyə gedirik ki, o şəhəri Hüseyn-qulu xanın əlindən alaq".

Bu mə'lumat qəribəlikdən xali olmadığı üçün deyirik: Həmin komandan Bakının hakimi Hüseynqulu xandan arxayın olduğu üçün belə raport yazmışdır. Hüseynqulu xan ona xəbər vermişdi ki, xəlvəti olaraq qalanın yaxınlığına gəlsin, bütün şəhəri ona təslim edəcək. Sərdar öz ordusundan iki nəfər ayırıb, onlarla birlikdə qalanın yaxınlığına gəldi, adı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çəkilən xan şəhərin açarlarını ona təslim etdi, bu arada İran əhlindən bir nəfər bu hadisədən qəzəblənib, qeyrət göstərərək, güllə ilə rus sərdarını vurdu, o yıxıldı. Onun ayağını iplə bağlayıb şəhərdə gəzdirdilər. Deyirlər ki, Dərbənd valisi Əli xan bu vaxt Bakıda idi və bu işin hərəkətvericisi idi və oradan tələsik Dərbəndə qayıtmışdı ki, Dərbəndi rus qoşununun hücumundan qorusun. Sonra rus qoşunları Dərbəndə tərəf hərəkət etdilər. Əli xan hünərlə rus qoşununun qarşısını kəsdi. Axırda şəhərdəki ermənilər darvazaları açıb şəhəri rus komandanına təslim etdilər və o vaxtdan bu şəhəri ruslar zəbt etmişlər"

E'timadüssəltənə yazır ki, Dərbəndi rus qoşunlarından təmizləyən sərkərdələrdən biri Nadir şah Əfşar olmuşdur. O, 1735-ci ildə osmanlıların ixtiyarında olan Gürcüstanı tutmaq üçün qoşun çəkəndə İrəvan yaxınlığında türk qoşunlarının sərdarı Abdulla Paşanı öldürmüş, osmanlı qoşunlarını dağıtmış, o vaxt Böyük Pyotrun zəbt etdiyi Dərbənd şəhərini azad edib getmişdir.

E'timadüssəltənənin "Mir'atül-buldane Naseri" əsərində Bakı şəhəri tarixi ilə əlaqədar verdiyi mə'lumat maraqlıdır. Yuxarıda qeyd olunduğu kimi müəllif Nəsrəddin şahın Avropaya səyahətindən birində Bakıda olmuş, şəhərdə bir neçə gün qalmış, onun tarixi ilə maraqlanmış, abidələrini görmüşdür. Onun Bakı haqqında verdiyi mə'lumat həm qədim mənbələrə, həm də şəhərdə olarkən yaşlı sakinlərdən öyrəndiklərinə əsaslanır. E'timadüssəltənə yazır:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.150-154) "Badkubə Asiyada Xəzər sahilində ucaldılmış, divarları möhkəm bürclərlə əhatə olunmuş, Şirvan əyaləti olub, Rusiyanın yiyələndiyi qədim şəhərdir. Qədim şəhərin ortasındakı tarixi hündür qala, Şirvan və Bakı hakimlərinin imarət və xəzinələri ilə əhatə olunmuşdur. Vaxtilə dənizdə suyun səviyyəsi yuxarı olan zaman su bu qədim qala divarlarına dəyirmiş. Lakin indi qala divarı təqribən 1000 zər' dəryadan uzaqdadır. Şəhər bir tərəfdən də Qafqaz dağlarının ətəklərinə söykənmşdir.

Bakı dünyanın qədim şəhərlərində biridir. Şəhəri limandan seyr edərkən o, üçbucaq şəklində görünür. Şəhərin divar bürclərinin birində olan lövhədə qalanın tə'miri tarixi yazılmışdır. Buradan mə'lum olur ki, bu tə'mir 600 il bundan əvvəl olmuşdur.

Qədim şəhərin küçələrinə daş döşənmiş, lakin bu daşlar əyri və səliqəsizdir və çay daşlarındandır. Qədim şəhər və İçqala indi abad deyil. Bir sıra binalar istisna olmaqla (imarət, məscid, rus qoşunu qarnizonunun və silah ambarının yerləşdiyi bina qədimdir) bir çox binalar yenidir, Rus dövlətinin zəbtindən sonra qaladan kənarda tikinti işləri aparılmış, yeni məhəllələr, küçələr, Avropa üslübünda tikilmiş binalar salınmışdır. Qədim binalardan bə'zisi hündürdür. Qədim hündür Qız qalası daş və bişmiş kərpicdən tikilmişdir və məşhur limandır. Gecələr sahilə yan almaq istəyən gəmilərə yol göstərən dəniz çırağıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bakı şəhəri Xəzərin ən mühüm limanlarındandır. Onun bir sıra sərvəti vardır ki, bunlardan neft mühüm əhəmiyət kəsb edir, xaricə, İrana və bütün Rusiyaya ixrac olunur. Tiryək və bir də ipək ixrac olunur.

Hindlilər Bakını müqəddəs şəhər kimi ziyarət edirlər. Şəhərdən 15 min zər' aralı Abşeron neft mə'dənləri vardır və orada bir neçə yerdən daima alov çıxır. Mə'lumdur ki, bunlar vulkanların ağzıdır. Bakı yaxınlığında iki istisu bulağı mövcuddur. Şəhərin ətrafında çoxlu gölməçələr vardır. 1725-ci məsihi ilində (h.1138-ci ildə) Rusiya Bakını zəbt etdi, 1735-ci məsihi ilində (h.1148-ci il) İran dövləti oranı rus qoşunlarından təmizlədi (Nadir şah - H.T.) və 1805-ci ildə ruslar yenidən şəhəri zəbt etdilər və oranı hərbi şəhərə və döyüş limanına çevirdilər.

Bakı neft yataqları ilə o qədər zəngindir ki, əgər adam əsanı yerə vursa, kibritlə torpaq od tutub alovlanır.

Bakının ətrafında ot və yaşıllığın olmaması bu torpağın keyfiyyətsiz olması demək deyildir. Bəlkə torpaq altında yer yataqlarının hərarətidir ki, otun göyərməsinə mane olur. Nəsrəddin şah 1873-cü ildə (1290) Avropaya birinci səfərindən qayıdarkən Bakıda olmuş, "Səfərnameye Firəngistan" adlı kitabında şəhər və onun ətrafı barədə bəhs etmişdir". E'timadüssəltənə şahın "Səfərnamə"sindən bir parça verdikdən sonra Bakı haqqında öz təəssüratından bəhs edir. O, Nəsrəddin şahı gəmi ilə yola salmış, özü isə vacib işlərlə əlaqədar Tiflis və Bakıda



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ləngimişdir. O, Bakıda "İtaliya" otelində qalmışdır. Bərk küləklər əsən vaxt o, heç yerə getmirdi. Bakıda olan bir neçə iranlı tacir onun görüşünə gəlirdi. Onlarla birlikdə iki-üç nəfə Bakının mö'təbər adamı da gəlirdi. Söhbət əsnasında E'timadüssəltənə Bakının tarixi ilə maraqlı faktlar eşitmiş və bunları qeydə almışdır. Həmin bakılılar danışırdılar ki, atalarından eşitdiklərinə görə Badkubə ifadəsi bu şəhərdə küləklərin çox əsdiyindən əmələ gəlmişdir. Müəllif yazır: "Badkubə əslində Badqəmedir. Bu da Bakı ətrafında qum, çınqıl olduğundan səhradan əsən külək çınqılları adamın üzünə xəncər kimi vurur (yə'ni xəncər kimi əsən külək - Bade qəme). Külək çınqılları hərəkətə gətirərkən bu çınqıllardan iniltiyə bənzər səslər çıxır. Külək bu çınqılları səsləndirir. Yə'ni Bade qəme - qəmli, hüznlü külək deməkdir.

"...Bakı hakiminin qonağı idim. İmarət Avropa üsulu ilə tikilmişdir. Ərazisi heç 5-6 min zər' olmayan bu kiçik bağda və onun ətrafında bütün ağac növlərindən vardır. Bu bağın ağacları çox böyük zəhmət hesabına suvarılır.

Ayın 16-cı çərşənbə günü şəhər aristokratlarından,hökumət üzvü olan cənab Bəylərov (əvvəllər də onunla tanış idik) məni faytonla şəhəri və onun ətrafını gəzməyə də'vət etdi. Bəylərov bir sıra müəssisələrə, məsələn, gəmiqayırma və neftayırma zavodlarının tikintisinə rəhbərlik etmişdir. Bu zavodlarda indi Bakının qırx min yerli və gəlmə əhalisi çalışır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yeni salınmış məhəllələrdə küçələr hamısı düz, hamar və qaydasındadır. Dənizin kənarında salınmış hökumət evi və böyük yaşayış evləri çox səfalıdır. Əgər bu şəhərdə şirin su bol olsa idi, bunun vasitəsilə Bakı ağaclarla zəngin olardı və şəhərlərin ən gözəli hesab olunardı. Lakin İran sahillərindən fərqli olaraq burada Xəzər sahilləri quru və susuz, meşəsizdir. Bu şəhərdə İranın binalarından da qədim olan bir qala vardır. Şəhərdə müsəlman bazarı vardır. Burada üç məscid vardır. Qız qalası adlanan qalanın hündürlüyü 40 zər'dir. Bu qalanın topun ixtirasından əvvəl, yaxud sonra tikildiyi mə'lum deyil. İndi ruslar dəniz fanarını bu bürcün yuxarısında yandırırlar. Güman etmək olar ki, əvvəllər də orada dəniz çırağı yandırırmışlar.

17 rəcəb, pəncşənbə (1873, 12 oktyabr) neft mə'dəninə getdik. Həqiqətən, Bakı neftinə görə yer üzünün nüfuzlu məmləkətidir. "Balaxanə" adlanan yerdə çoxlu quyular qazılmışdır və bunlar vasitəsilə nefti üzə çıxarırlar. İndi yeni bir quyu qazmışlar ki, neft fontan edir. Belə ki, bu quyunun ətrafında 7 ədəd dəryaça neftlə doludur. 5 batman qara neftin qiyməti keçən il 6 qran idi. İndi bu təzə quyunun hesabına 10 şahı olmuşdur. (qran I riyala bərabərdir).

Balaxanədən Suraxanəya, Mirzəyevin zavoduna getdik. Mirzəyev burada qara nefti saflaşdırmaqla (destilə) ağ neft alır. Bundan böyük kapitalı və gəliri olur.

Suraxanıda hind və fars atəşpərəstlərinin mə'bədi vardır. Bu tikili düzbucaq şəklində,dörd sütundan ibarətdir, onun dörd bir ətrafı açıqdır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

günbəzlə birləşdirilmişdir, ortasından alov qalxır. Suraxanı ətrafı 4000 zər' dördkünc bir sahədə torpaq alovlanır.

Qucaratlı bir hindli bu mə'bəddə idi və atəşpərəstlər kimi namaz qılırdı. Onun namaz qılmaq tərzi belə idi; xüsusi ağ libasda, üzü Şərqə doğru dayanıb, sağ əlində kiçik bir zəng tutaraq, dua oxuyurdu və iki-üç dəfə ruku" (namazda əlləri dizlərə dayayıb əyilmə hərəkəti - H.T.) edirdi və daima namaz vaxtı o kiçik zəngi hərəkətə gətirirdi. Bir neçə dəqiqədən sonra namaz bitdikdə, mə'bədin tavanından asılmış böyük bir zəngi hərəkətə gətirdi. Ondan - bu zəngdən namaz vaxtı istifadə etməkdə məqsədin nədir?- deyə soruşduqda, cavab verdi ki, iblisi uzaqlaşdırırdım. Namazdan sonra nabat olan boşqabı mənim yanıma gətirdi və özü barədə dedi ki, Qucaratdan bir neçə müddətdir ki, gəlib və mə'bədin mütəvəllisidir. Bombeydə də belə bir mə'bədləri vardır.

İranda və Hindistanın bir sıra şəhərlərində islamın qələbəsindən sonra atəşpərəstləri dağıtdılar. Onların ən böyük mə'bədləri həmin bu Badkubədir. Yer kürəsində yaşayan insanlar içərisində daha yaxşı, mülayim, az ziyankar olan bu tayfadır və bunlar heç vaxt bir heyvandan istifadə etmirlər, qan tökmürlər.

Suraxanədan şəhərə olan yol 1,5 fərsəxdir. Bakıda, dənizdə gördüyümüz yanar odlar qurudakından çoxdur. Sahildən bir qədər uzaq, dənizin ortasında neft mə'dəni vardır. Bu mə'dən Suraxanı atəşkədəsinə paralel olub sahildən bir qədər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uzaqdadır. Bu mə'dən suyun altında bayıra çıxır. Suyun üzündə neftin gözəl rəngindən gözoxşayan şəkillər yaranır. Adamlar kiçik gəmi icarə edərək dənizin ortasına gedir, pambığa od vurub, suyun üzünə atırlar. Əgər dəniz sakitdirsə, yanar pambıq atılan dənizin bu parçası alovlanır". E'tiadüssəltənə bu rəvayəti Bakıda eşitmiş, vaxtı olmadığından, bunu görə bilmədiyinə təəssüflənmişdir.

E'timadüssəltənənin tarixi Bibiheybət haqqında verdiyi mə'lumat maraq doğurur. O, 1873-cü il oktyabrın 13-də Bakıdan 6-7 km. aralı cənubda olan Bibiheybət adlanan yeri ziyarət etmişdir. O yazır: "Mütəvəllinin dediyinə görə Mə'mun ar-Raşidin zamanında (786-833, Harun ər-Rəşidin oğlu) 8-ci imam həzrət Rza Əleyhəssalamı Tus şəhərində şəhid etmişlər. Onun ailəsi Ərəbistandan İraqa gələrkən bir-birindən ayrı düşmüş, əsl adı Fatimeyi-Suğra olan Bibiheybət bacısından, əsl adı Fatimeyi-Kübra olan həzrəti-Mə'sumədən ayrı düşüb Rəştə gəlir, amma orada qala bilməyib, Bakıya qaçır və şiələr məskun olan Şeyx kəndinə gəlib, orada da vəfat edir. Burada qədim bir məscidin yanında onun məqbərəsi vardır. Bakının mö'təbər şiələrinin qəbiristanı buradadır. Burada çoxlu köhnə qəbirlər görünür. O cümlədən Bəhai şeyxlərindən bir şeyxin qəbir daşı üzərində 705-ci il tarixi yazılmışdır."

E''timaddüssəltənənin Bibiheybət məscidi ilə əlaqədar verdiyi mə''lumata gəldikdə onu qeyd etmək lazımdır ki, bu mə'lumat tarixi bir həqiqəti aşkar edir. Məqbərədə şiələrin 8-ci imamı həzrət



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rza ibn Musə əleyhissəlamın ( 765-819 ) bacısı Fatimeyi-Suğranın dəfn olunduğu göstərilir.həqiqətən tarixdən mə''lumdur ki, İmam Rzanın ailəsinin başına fəlakət gəlmişdir. Onun Atası Yeddinci imam Museyi-Kazım ibn Cəfər Əleyhissəlamın (745-800) övladları içərisində Əli Rza adlı oğlu, Fatimeyi-Kübra (Mə'sumə) və Fatimeyi-Suğra adlı qızları da olmuşdur. O, əlli beş il ömür sürmüşdür. Abbasi xəlifəsi harun ər-Rəşidin (766-809) hökmranlığı zamanı həccə getdikdə o həzrət üçün iki gəcavə hazırlayır, hər birini bir qatıra yüklətdirir və sonra bu hadisəni Mədinə əhlindən gizlətmək məqsədilə, onu öldürmək üçün gəcavələrin birində oturdub bir vaxtda onları evindən çıxarır və gəcavələrin hərəsinə bir neçə atlı qoşaraq birini Bəsrəyə, digərini Kufəyə tərəf göndərir. O vaxt Məkkə hakimləri ilə Məhəmməd (h) tərəfdarları arasında mübarizə gedirdi. Harun ər-Rəşid Bəsrədəki İsa bir Cəfərə bir fərman yazaraq, Həzrəti-Musanın orada həbs edilməsini əmr etdi. Bəsrədə bir il həbsdə qaldıqdan sonra İsa bin Cəfər onu öldürməkdən imtina etdi. Bu zaman xəlifədən Musanın Bağdada göndərilməsi barədə əmr aldı və Musa Bağdadda Fəzl bin Rəbiənin ixtiyarına verildi. Fəzl bir Rabiə qətldən imtina edərək, Museyi-Kazımı Fəzl bin Yəhyaya təslim etdi. O isə evinin birini Musa üçün ayıraraq, ətrafında mühafizəçilər qoydurdu. Həzrəti-Musa həbsdə ikən gecədən sübhədək ibadət edir, oruc tutaraq, qur'an oxuyurdu. Fəzl bin Yəhya ona sərbəstlik vermişdi. Harun ər-Rəşid bundan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qəzəblənirdi və həzrəti qətlə yetirməyi tələb etdi. Fəzl bin Yəhya da bundan imtina etdikdə ona 100 tiziyanə vurdurdu və Musanı Abbas bin Məhəmmədə təslim etdi. Bu hadisəni eşidən Yəhya ibn Xalid Harun ər-Rəşidin hüzuruna gələrək Musa həzrəti qətlə yetirəcəyinə söz verdi və Bağdada yollandı. Musanın xörəyinin içinə zəhər tökərək qətlə yetirdilər. Bu hadisə miladın 800-cü ilində baş vermişdir. Beləliklə Museyi-Kazımın ailəsi bir-birindən ayrı düşmüş, oğlu Əli Rza Xorasan məmləkətində harun ər-Rəşidin oğlu Mə'mun ər-Rəşid tərəfindən zəhərlənərək şəhid olmuş, Tus şəhərinin Sənəbad kəndində dəfn olunmuş və sonralar bu müqəddəs yer Məşhəd şəhərinə çevrilmişdir. Museyi-Kazımın qızlarından Fatimeyi-Suğra (Heybətin bibisi kimi məşhur olan) Bakı yaxınlığındakı Şıx kəndində, (digər qızı Nardaran kəndində dəfn olunmuşdur).Fatimeyi-Suğranın ayrı düşdüyü Fatimeyi-Kubra isə Qum şəhərində dəfn olunmuş Mə'sumə xanımdır. Bunlar tarixi bir həqiqətdir. XIX əsrdə elə bir səyyah yoxdur ki, Azərbaycana gəlsin, lakin Bibiheybət məscidi ilə maraqlanmasın. Məşhur rus şərqşünası İ.İ.Berezin, akademik B.A.Dorn, fransız səyyahı, yazıçı A.Düma və bir çox məşhur şəxsiyyətlər Bibiheybət məscidindən aldıqları təəssürat barədə yazmışlar. Təəssüf ki, bu qeydlərdə tarixi həqiqəti təhrif edən xətalar da olmuşdur. Məsələn, XIX əsr Azərbaycan tarixçi-alimi Abbasqulu Ağa Bakıxanov Bibiheybət məscidində imam Museyi-Kazımın qızı Həlimə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xatunun dəfn olunduğunu yazır. Halbuki Həzrətin Həlimə adlı qızı olmamışdır. Başqa bir mənbə isə Heybətin bibisinin Hökümə xanım olduğunu göstərmişdir. Tağı Musəvi yazır ki, Museyi-Kazım əleyhissəlamın on səkkiz oğlu, on doqquz qızı olmuşdur. (Əslində isə onun iyirmi oğlu və on doqquz qızı olmuş, o cümlədən Fatimeyi-Kubra və Fatimeyi Suğra. Bax: Hacı Şeyxəli Feyzullazadə "Təzkirətül övliya", Bakı, 1917; s.42). Bu qızlardan birinin adı Hökumə olmuşdur. Deməli, Heybətin bibisinin adı Həlimə yox, Hökümə olmuşdur. Doğrudur, Museyi-Kazımın Hökumə adlı qızı olmuşdur. Lakin Şeyx kəndinə Hökumə yox, Fatimeyi-Kubra bacısından ayrı düşmüş Fatimeyi Suğra gəlib çıxmışdır.

Digər bir mənbədə də tarixi fakt təhrif olunmuşdur. H.Sadiqinin Bakıda 1926-cı ildə Azərbaycan Arxeologiya Komitəsinin xəbərlərində dərc etdirdiyi məqaləsində müəllif bir yerdə Bibiheybət məqbərəsində iki bacının; Hökumə xanım və onun bacısının uyuduğunu göstərir, digərində isə burada imam Rzanın Hökumə adlı qızının və bacısının dəfn olunduğunu yazır. Lakin mə'lumdur ki, imam Rzanın beş oğlu və bir qızı olmuşdur. Qızının da adının Aişə olduğu mə'lumdur. Lakin Sadiqinin verdiyi mə'lumat "Bibiheybət" sözü üzərində düşünməyə vadar edir. Onun yazdığı kimi Şıx kəndinə imam Rzanın qızı və bacısı gəlib çıxmışsa, "bibi" ifadəsi onların münasibətindən yaranmışdır. Heybət adlı nökər də bu ifadəni imam Rza (ə)-nın qızı Aişənin dilindən alaraq işlətmişdir. Yə'ni, Bibi-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

heybət ifadəsi burada uyuyan bibiyə-xanıma (o da yuxarıda göstərildiyi kimi Fatimeyi Suğradır) və çox mö'min və sadiq nökər əlaməti olaraq Heybətə ehtiramdan yaranmışdır. (Heybətin bibisi yox!).

Məşhur fransız səyyahı Aleksandr Düma Bakıda olarkən (1858-ci il) Bibiheybət məscidinə baxmış və "Qafqaz səfəri" xatirələr kitabında bu məscidi səhvən Məhəmməd Peyğəmbərin qızı Fatimə məscidi adlandırmışdır. (Bax: Qafqaz səfəri, B., 1985, s.59). Göründüyü kimi burada Fatimə adı tarixi həqiqəti həm aydınlaşdırır, həm də dolaşıqlıq yaradır və bu fakt Bibiheybət məscidində uyuyan xanımın hökumə deyil, Fatimə olduğuna sübutdur. Lakin bu qadın Məhəmməd Peyğəmbərin yox, 7-ci imam Museyi-Kazımın qızıdır.

(s.154) Bakıda, qədim şəhərdə olan böyük məscidlərdən biri də Şeyx Xəlilullahın məscididir. Binanın üzərində: əl-Sultan bin əl-Sultan Şeyx Xəlilullah, h.780-cı ildə (1378-79) tikilmişdir - sözləri yazılmışdır. Məscidin binası əzəmətli tikinti nümunəsidir. Hər tərəf örtülü hücrələrdir. Dördtağlı binanın bə'zi yerlərdə tavanı yoxdur. Mə'lum olur ki, məscidin qübbəsi məscid binasından qədimdir və qübbəyə nəzər salıb gördüm ki, qübbə Suraxanıdakı Atəşkədənin qübbəsi quruluşundadır. Ehtimal olunur ki, bu yer qədim əyyamda atəşpərəstlərin mə bədi olubmuş. Sonralar islam hökmdar və sultanları məscidi mə'bəddən ayrı tikdirmişlər.

E'timadüssəltənə haşiyədə Yaqut Həməvinin əsərindən Bakı şəhəri haqqında aşağıdakı mə'lumatı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

verir: "Badkubə Dərbənd mahalı Şirvan ərazisində böyük neft çeşməsidir ki, hər gün bu çeşmənin verdiyi neft min dərhəmə bərabərdir. Burada ağ neft çeşməsi vardır. Bu neft qiymətli yağdır, mineraldır. Neft gecə-gündüz çeşmələrdən axır, heç vaxt tükənmir, hasilat əvvəlki çeşmənin neftinə bərabərdir. Bir tacirin dediyinə görə Badkubə yaxınlığında bir yer var ki, o yerdən daima od püskürür, üzvi maddələr məş'əl olub yanır".

Azərbaycanın qədim şəhərlərindən olan Bacrəvan (bə'zi mənbələrdə Bacərvan) Ənuşirəvane Adilin (I Xosrov) fərmanı ilə Dərbənd ətrafında salınmış üç yüz altmış şəhərdən biridir. E'timadüssəltənə yazır:

"Bacrəvan Dərbənd ətrafı və Şirvan yaxınlığında olan şəhərdir. Həzrəti-Xızır peyğəmbərin dirilik suyu çeşməsi oradadır. Bə'ziləri deyirlər ki, Bacrəvan o kənddir ki, həzrəti-Musa və Xızır Əleyhissalam oranın əhalisindən yemək istəmişlər. Bacrəvanı Həmdullah Mustofi Macrəvan (mac - ay deməkdir - H.T.) kimi yazmış, onun dördüncü iqlimə aid olduğunu, indi dağıldığını və bir kənd kimi qaldığını göstərmişdir (H.Qəzvininin 1281-1344-cu illərdə yaşadığını nəzərə alsaq, bu şəhərin artıq XIV əsrdə xarabalığa çevrildiyi mə'lum olar - H.T.). havası istiyə meyl edib və suyu şəhər ətrafında olan dağlardan gəlirmiş. Bu torpaqda taxıldan başqa bir şey yetişmir.

Xəzər sahilində salınmış bu şəhər VIII-IX əsrin birinci yarısında Azərbaycan xəritəsində öz əksini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tapmışdır. Qeyd etmək lazımdır ki, Cənubi Azərbaycanda da Bacrəvan adlı məskən vardır.

E'timadüssəltənənin "Mir'atül-buldani-Naseri" əsərində Bacrəvan kimi tarixdən silinmiş Bərdic və Bərzənc şəhərləri haqqında verilmiş mə'lumat aşağıdakı kimidir:

(S.184) "Bərdic Azərbaycan torpağının hüdudunda Bərdədən on dörd fərsəx aralı şəhərdir. Böyüklükdə Dəclə kimi olan Kür çayı bu şəhəri əhatə edir".

Ə.Dehxuda da Bərdicin Azərbaycanda şəhər olduğu barədə yazmışdır. Akademik Z.M.Bünyadov yazır: "...sonra Salmanın dəstəsi qədim şəhər hesab olunan Şamxoru tutdu, şərq tərəfə dönərək Bərdinc arxasında Arazın qovuşduğu yerə getdi (Azərbaycan VII-IX əsrlərdə, s.82).

(S.198)"Bərzənc - Arranda şəhərdir. Bərdədən on səkkiz fərsəx aralı olub, Bab əl-Əbvaba gedən yolun üstündədir. Bərzəncdə Kür çayının bir körpüsü vardır ki, oradan keçib Şamaxıya gedirlər.

XIV əsrdə Həmdullah Qəzvini Bərzəncin kiçik bir kənd kimi qaldığını yazırdı.

Qeyd etmək lazımdır ki, ərəb coğrafiyaşünas-səyyahı Əbu-l-Qasim Übeydullah ibn Abdullah ibn Xordadbeh /820-912-13/ "Kitab əl-məsalik və-l-məmalik" (Yollar və məmləkətlər haqqında kitab) əsərində, Azərbaycanın, ümumiyyətlə Qafqazın tarixi və tarixi-coğrafiyasından bəhs edirkən Bərdic şəhərinin adını çəkir və göstərir ki, şəhər Bərdədən 18 fərsəx aralıdır. V.F.Minorskinin fikrincə əl-İstəxri,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İbn Hövqəl və əl-Müqəddəsinin işlətdikləri Bərzənc əvəzinə Bərdic işlədilməlidir. Minorski Bərdic ilə Bərdə arasındakı məsafəni 18 fərsəx deyil, yalnız 4-6 fərsəx qəbul edir və şəhərin Kür çayının sağ sahilində Körpükənd yaxınlığında olduğunu göstərir.

Bəlkə də "Mir'atül buldan" əsərində göstərildiyi kimi, Bərzənc ilə Bərdic Bərdədən müxtəlif məsafədə olduğundan başqa-başqa şəhərlərdir və Minorskinin dediyi kimi eyni şəhər olmamışdır.

Ələkbər Dehxuda "Lüğətnamə" də yazır:

"Bərzəngə ərəblər Bərzənc deyirlər. Arran şəhərlərindən olub Bərdənin 18 fərsəxliyindədir. Bab-əl Əbvaba gedən yoldadır. Burda Kürün bir körpüsü vardır ki, oradan keçib Şirvana gedirlər" /s.885, C. 11/.

E'timadüssəltənə Beyləqan haqqında belə yazır:

(S.327) "Beyləqan Şirvana yaxın şəhərdir. Əhalisi Arran tayfalarından hesab olunur. Şəhərin əsasını Qubad Sasaninin qoyduğunu söyləyirlər. Bə'ziləri isə şəhəri Beyləqan bin Urmi bin Lənti bin Yunanın adı ilə bağlayırlar. Əhməd bin Yəhya bin Cabir yazır: Üçüncü xəlifənin (Osman ibn Affan - H.T.) dövründə Salman ibn Rəbiə Bahilinin ordusu Arrana gəlmiş və Beyləqan əhalisi onun sülhlə təslim olmaq təklifinə təmkinlə razı olmuşdular və Salman onlara aman verib, əhalini xərac verməyə razı salmışdı. Oradan Bərdəni istila etmək üçün yola düşmüşdü. Amma Əhməd bu hadisənin neçənci ildə baş verdiyini yazmır. 619-cu ildə (1222-ci il) moğol qoşunları Beyləqana gəlib şəhəri zəbt etdilər, əhalini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qırıb, şəhəri qarət etdikdən sonra od vurub yandırdılar. Əhalinin çoxu bu bədbəxtçilikdən qurtulmaq üçün ətraf yerlərə qaçdı. Moğol qoşunları getdikdən sonra əhali yenidən oraya cəm oldu və indi həmin şəhər əvvəlki vəziyyətindədir, abaddır və əhalisi çoxdur. Həmdullah Müstofi yazır: Beyləqan 5-ci iqlimdəndir. İndi dağılmış, əksər imarətləri bişmiş kərpicdəndir, həvası istidir. məhsulu arpa-buğda, pambıq, çəltik və başqa yaxşı dənli bitkilərdir.

Müəllif yazır: "Həkim Xaqaninin şagirdi, məşhur şairlərdən olan Mücir Beyləqani bu şəhərdəndir."

Qeyd etmək lazımdır ki, Bərdənin cənubunda, 4 fərsəxliyində yerləşmiş bu qədim şəhər əvvəllər Paytakaran adlanmış və Azərbaycanın qədim xətirəsində bu adla görünür, Ə.Dehxuda yazır ki, Arazdan 7 fərsəx şimalda olan bu şəhər Cənubi Azərbaycan şəhəri Bərzənd yolunun üstündədir və IX əsrdə mühüm şəhər hesab olunurdu.

Qeyd etmək lazımdır ki, moğollar Beyləqanı E'timadüssəltənənin göstərdiyi kimi h.q.619-cu ildə deyil, 617-ci ildə (1221) işğal etmişlər.

E'timadüssəltənənin Arran şəhərlərindən biri olan Biləsuvar haqqında verdiyi qısa mə'lumat belədir:

(S.327) "Həmdullah Müstofi deyir: Biləsuvar Arran torpağında şəhərdir, Ali Buveyhi əmirlərindən olan Biləsuvar adlı bir şəxs bu şəhərin əsasını qoymuşdur və indi bir kənd kimi qalıb, suyu kiçik Bacrəvan çayındandır. Məhsulu arpa-buğdadır



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(Biləsuvar, yə'ni suvari-bozorg, böyük atlı deməkdir)".

Bunu da bilmək maraqlıdır ki, Ali Büveyh - İranda sülalədir. Büveyh adlı Deyləmilinin nəslindən olan bu sülalə h.q.320/932-ci ildən 448/1056-57-ciilədək İranın cənubunda və İraqda müstəqil hökmranlıq etmişdir. Ali Büveyh sülaləsi Deyləmidən olduğu üçün Deyaləmə də adlanır. Deyələmə səltənətinin banisi Büveyh Deyləminin oğlanları Əli İmadüddövlə, Həsən Rüknüddövlə və Əhməd Moəz-zəddövlədir. Bu üç oğul ələ keçirdikləri vilayətləri öz aralarında üç yerə bölmüş və onlardan sonra övlad və qohumlarından 14 nəfərinin hər biri öz sələflərindən qalan məmləkəti müstəqil idarə etmişlər. Onların hakimiyyəti dövründə ərazi Fars, İraq, Əhvaz, Kirman, Rey, Həmədan, İsfahan Deyaləməsinə və Kürdüstan Deyaləməsinə bölünmüşdür. Deyaləmə sülaləsinin sonu Ali Kakuyə, qəznəvilər və səlcuqlara təsadüf edir. Onlara Buveyhiyun da deyilir.

Dehxuda yazır ki, Biləsuvar 5-ci iqlimdən olub, Arran və Muğan torpağındadır. Onu Ali Büveyhi əmirlərindən Əmir Biləsuvar adlı bir nəfər bina etmiş, Həmdulla Mustofi zamanında bir kənd kimi qalmışdır (C.13, s.772).

E'timadüssəltənə "Mir'atül-büldane Naseri" əsərində Bərdə şəhərinin tarixindən geniş bəhs etmişdir. O yazır:

(S.194-197)"Bərdə indiki dövrün istilahına görə Şuşa qalası kimi Qarabağın bir qəzasıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Əbu Səhl nəql edir ki, Bərdə Azərbaycan torpağının hüdudunda yerləşən şəhərdir. Həmzə ibn əl-Kəlanisi (XII) deyir: Bərdə ərəblərdə, bərdedar isə fars dilindədir. Yə'ni fars dilində bərdedar sözünün mə'nası kölə, qul saxlanan yer deməkdir. Deyirlər ki, fars hökmdarlarından bə'ziləri Ermənistanın yuxarı vilayətlərini işğal etdikdən sonra oradan gətirdikləri əsirləri burada yerləşdirirlər. Hilal ibn Məhsun deyir ki, Bərdə Azərbaycanda hökumət iqamətgahıdır.

İbn əl-Fəqih deyir: Bərdə Arran şəhəridir və Azərbaycanın hüdudunda yerləşir. Şəhəri ilk abad edən Qubad olunmuşdur (488-531) və bu şəhər düzənlikdə yerləşmişdir. Onun imarətləri bişmiş kərpic və əhənglə (gips) tikilmişdir. İbn Fəqih Bərdəni Arran şəhəri hesab etməkdə yanılmışdır. (Qeyd etmək lazımdır ki, Əbu Bəkr əl-Müqəddəsi (X əsr ərəb coğrafiyaşünas - səyyahların son böyük nümayəndəsi - N.Vəlixanlı, s.126) "Əhsən ət-təqasim fi mə'rifət əl-əqalim" (İqlimlərin öyrənilməsi üçün ən yaxşı bölgü) əsərində Bərdə adı altında Arran, onun şəhərləri - Tiflis, Cənzə, Bərdic, Şəmaxiyyə, Şirvan, Bakuh, Şəbran, Bab əl-Əbvab, Abxaz (Laican) Qəbələ, Şəkki, Təbla, Qal'a, Xunan, Şəmkur şəhərləri qeyd olunmuşdur. Yə'ni, o yazır: Bərdənin şəhərləri: Tiflis... s.129)

"Məlhəmə" kitabının müəllifi deyir: Bərdə şəhəri 79 dərəcə və 30 dəqiqə uzunluq dairəsində və 45 dərəcə en dairəsində və altıncı iqlimdəndir. (Kitabın müəllifi Ptolomey (87-165) "Məlhəmə" (Coğrafi tə'limnamə) adlı əsərinin V kitabının 11-ci



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

fəslində Qafqaz Albaniyasının coğrafi mövqeyi, çayları, yaşayış məntəqələri və s. haqqında mə'lumatlar verir). İbn Əvin öz təqvimində yazır ki, Bərdə beşinci iqlimdəndir və 74 dərəcə uzunluq dairəsində, 43 dərəcə en dairəsindədir.

İstəxri yazır ki, Bərdə çox böyük şəhərdir. Bir fərsəxdən artıq eni, o qədər də uzunluğudur: sağlam iqlimi, münbit, çoxlu əkin sahəsi və meyvəsi olan yerdir. İranla Xorasan arasında Rey vvə İsfahandan sonra Bərdədən daha böyük, əlverişli mövqe tutan bir şəhər yoxdur. Bərdədən I fərsəxdən də az məsafədə, onunla yaxşı münasibətdə olan əl-Əndərab adlanan yer vardır. Bura Kərnə və Ləsub arasında ən gözəl yerdir. Əndərabdan Naxçıvana bir gündən də artıq məsafə vardır ki, bu  yol çoxlu meyvəli ağacları olan bağlarla əhatə olunmuşdur. Fındığı Səmərqənd fındığından, şabalıdı isə Şam şabalıdından daha yaxşıdır. Burada bir (cür) meyvə də yetişir ki, onu əd-Dumi adlandırırlar. Tərkibi xurmaya bənzəyir, kalı çox acı, yetişmişi isə şirindir. (İbn Hövqəldə bu zoğaldır).

Bərdədə bir əncir növü vardır ki, Ləsubdan gətirirlər, bu əncirin ən yaxşı növüdür.

Burada xüsusi mülkiyyət olmayan, hamının istifadə etdiyi tut ağaclarından ipək istehsal olunur və Fars, Xuzistan əyalətlərinə aparılır. Bərdədə çoxlu ipək hasil olunur. Bərdənin üç fərsəxliyində axan Kür çayında Sur mahi (şamayi nəzərdə tutulur) adlanan bir balıq növü vardır ki, onu ovlayıb duzlayırlar və başqa şəhərlərə aparırlar. Kür çayında digər iki növ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

balıq da tutulur ki, biri dəvaqan və o biri işubə adlanır. Bu iki növ balıq bu yerlərdə başqa balıqlardan üstün tutulur.

Bərdədə Bab əl-Əkrad (kürdlər qapısı) adlanan darvazanın yanında 1 kv. fərsəx sahəsi olan "Kurkiy" adlı məşhur bazar var. Bazar günləri camaat buraya yığışır, hər yerdən, hətta İraqdan belə buraya adamlar axışır. Bu bazar Kursurə[30] bazarından daha böyükdür. "Kürkiy" bazarının adı həmin günün adına (bazar günü - H.T.) üstün gəlmiş, hətta bir çoxları istirahət gününə "kurkiy" günü deyirlər. Belə ki, həftənin günlərini sadalayarkən deyirlər, cümə, şənbə, kurkiy, doşənbə, seşənbə, çəharşənbə, pəncşənbə.

Bərdənin xəzinə evi (beyt əl-mal) Şam qaydası ilə Came məscidindədir, Bu xəzinə evinin dəmirdən qapısı, qurğuşun örtülmüş yastı damı və 9 sütunu vardır. Hökmdarın evi Came məscidin yanında, bazarlar isə şəhər daxilindədir.

Yaqut əl-Həməvi (1179-1229) Bərdədə həyatın söndüyünü və kiçik bir kəndə çevrildiyini göstərərək yazır: "İstəxrinin mə'lumatına görə (X əsr) Bərdə çox böyük şəhərdir. Mən belə hesab edirəm ki, bu köhnə mə'lumatdır. Bərdəyə məxsus həmin söylənilən xüsusiyyətlərin heç biri qalmamışdır. Azərbaycanda gördüyüm Bərdə sakinlərindən şəhər haqqında soruşdum, mənə dedilər ki, şəhər tamamilə dağılmış, əhalisi azalmış, kiçik kəndə çevrilmiş, orada vəziyyət dözülməzdir, aclıq və yoxsulluqdur".

Bərdədən Gəncə deyilən Cənzəyə 9 fərsəxdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bərdənin islam ordusu tərəfindən fəthi III xəlifənin (Osman ibn Affan (644-656)) dövründə Salman ibn Rəbiə Bahilinin başçılığı ilə olmuşdur. Bunun təfsilatı belədir ki, Salman Beyləqanı işğal etdikdən sonra ordusunu Bərdəyə çəkdi. Bərdədən bir fərsəxdən də az aralı Sərsur (Tərtər - H.T.) çayının sahilində qoşunlarını yerləşdirdi. Əhali şəhər darvazalarını onun üzünə bağladı. Təsadüfən şəhər ətrafında əhalinin taxıl biçini qurtardığı vaxt idi. Salman hökm elədi və kəndlir, məhsul qarət olunmağa başladı. Salman Bərdə əhalisini Beyləqan əhalisi ilə bağladığı şərtlərə uyğun sülh bağlamağa məcbur etdi. Əhali qorxudan buna razı oldu. Salman şəhərə daxil olub, orada iqamət etdi. Sonra öz əsgərləri ilə başqa şəhərləri fəth etməyə yollandı.

Bərdədə İran məmləkətini canişinliyi yerləşir. İbn Hövqəl (X əsr) yazır: (Bərdə) Arranda bol ne'mətli, ürəkaçan böyük bir şəhərdir. Ərazisi bir fərsəxdən bir qədər azdır. Bərdəni İsgəndəri-Rum tikmişdir və Qubad ibn Firuz Sasani yenidən qurmuşdur. Digər mə'lumatlar eynidir.

Müəllif yazır: Bərdə indiki dövrdə Qarabağın bir qəzası adlanır, Şuşa qalası kimi şəhərdir.

(Bir qədər də Bərdədə olmuş ərəb ordusunun komandanı Salman ibn Rəbiə Bahili haqqında).

"Salman ibn Rəbiə Bahili ilə bağlı və bir çox kitablarda yazılmış qəribə rəvayətlərdən biri budur ki, Beylaqan və Bərdə şəhərlərini fəth etdikdən sonra islam ordusu Salmanın komandanlığı ilə həmin vilayətlərin şəhər və rayonlarını işğal edirdi. Şəhər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hakimlərini və qoşun başçılarını qorxuya və dəhşətə salırdılar. İslam ordusu o qədər məşhur olmuşdu ki, hamı bu ordunun göylərdən enmiş və məğlubedilməz olduğunu zənn edirdi. Heç bir zərbə onlara tə'sir etmir, çünki onlar mis bədənlidirlər. İslam ordusunun müvəffəqiyyət qazanmasına səbəb məhz bu fikir idi və onlar Xəzər şəhərlərindən olan Bələncər şəhərinə çatmışdılar. Xəzər hökmdarı Xaqan da onların qarşısına çıxdı, lakin 300.000 nəfərlik qoşunu ilə davam gətirə bilmədi, darmadağın oldu. Salman qoşunları ilə Bələncər[31] şəhəri yaxınlığında olan çəmənlikdə yerləşdi. Çəmənlik geniş idi və kənarından böyük su arxı keçirdi. Xaqanın ordusundan bir neçə nəfəri həmin çəmənlikdə idi. Onlardan birisi gizlicə gəldi ki, islam qoşunu barədə mə'lumat əldə etsin. Bu vaxt o, müsəlman əsgərlərindən bir kişinin arxda qüsl etdiyini gördü və ona bir ox atdı, təsadüfən ox onun ciyərinə dəydi və o saat canını təslim etdi. Həmin adam onun yanına qaçdı və onun başını kəsdi, libasını çıxartdı, başı ilə bərabər Xaqanının yanına gətirdi və dedi: "Bu baş həmin əsgərlərdən birinindir ki, deyirlər göydən enib və onlara bir silah tə'sir etmir. Xaqan elə ki, bu sözləri eşitdi və o başı gördü, dərhal ürəkləndi və yaxınlıqda olan ordusunu yığdı, digərlərinə məktub göndərdi ki, müsəlmanlarla döyüşə hazır olsunlar, onları hərəkətə gətirdi. Hamı bir yerə, 300.000 nəfər Xaqanın ətrafına yığışdı və islam ordusu ilə müharibəyə başladılar. Qoşunlar üz-üzə gəldikdə hər həmləyə islam ordusundan min əsgər öldürülürdü. Salman ibn Rəbiə Kufədən 10.000



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əsgər gətirmişdi, hamısı məğlub edilərək qətlə yetirildi və bu hadisə Bələncər şəhəri səhrasında h.25-ci ildə (m.646) olmuşdur. Öldürülmüş müsəlmanların cəsədləri həmin yerdə basdırıldığı üçün o səhraya "qüburüş-şühəda" (şəhidlərin qəbirləri) deyirlər. Salmanla bərabər Bələncərə getmiş Qərzət bin Kəəb Ənsari onun ölüm xəbərini Osmana (xəlifə - H.T.) çatdırdı və ibn Cəmaneye Bahili[32] və Qətibə bin Müslüm Salmana mərsiyə yazdılar.

Müəllif deyir ki, "Möcəm əl-büldan" (Ölkələrin əlifba üzrə siyahısı), Bəlazurinin (IX əsr) "Fütuhül-büldan" (Ölkələrin fəthi) və başqa kitablarda Salman bin Rəbiə haqqında yazılmışdır. İbn Ə'səm Kufinin[33] əsərinin tərcüməsində olan Müslüm bin Rəbiə isə səhvdir, ya mütərcimin, ya da katibin səhvi nəticəsində olan dolaşıqlıqdır. Vallah, Salman ibn Rəbiənin Bahili olduğuna şübhə yoxdur.

Mə'lumdur ki, islam qoşunlarının və Salmanın öldürüldüyü yer indiki istilahla Dərvaq çayının sahilidir və şəhidlərin qəbirləri Dərbənd şəhəri ətrafındakı "Qırxlar" adlanan yerdədir. (Mir'atül-büldane Naseri". C.4, s.4.).

(C.1, s.197). Tərtər çayı (Sərsur) Qarabağdan keçir. Bu rayonun ərazisinin uzunluğu 160 min zər', eni 150 min zər'dir. Burada düyü, buğda və kətan yetişdirilir. Əhalisi çox bacarıqlıdır və ipəkqurdu yetişdirməklə məşğul olur.

(C.4, s.2-4) Sarsur (Tərtər) iki çay adıdır ki, kiçik və böyük Sərsur deyirlər. Arran və Ərmənistan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

torpaqlarındadır. Bəlazuri "Fütuhül-büldan" kitabında yazır: "Salman ibn Rəbiəyi-Bahili Osman tərəfindən Arrana göndərildi və Beyləqan şəhərini sülhlə aldı, yə'ni əhalinin canına və malına toxunmayacağına söz verərək, şəhərin divarlarını dağıtmadı, bu şərtlə ki, şəhər əhalisi cizyə verməlidir. Bundan sonra Salman Bərdəyə gəldi və orduya Sərsur sahilində düşərgə saldırdı. Sərsur Bərdə şəhərindən bir fərsəxdən də az aralı axan çaydır.

Bərdə əhalisi şəhərin darvazalarını bağladılar və islam qoşunlarını buraxmadılar. Salman da bir neçə gün burada onlarla vuruşdu, şəhər ətrafındakı kəndləri qarət etdi. Bu, əkinin, yığılan vaxtına təsadüf edirdi. Şəhər əhalisi yorğun olduğundan Salman onları Beyləqan əhalisi ilə bağladığı şərtlərə uyğun sülhə məcbur etdi və darvazaları açdılar".

Müəllif deyir: Sərsur çayı indi Tərtər adlanır və Kürə tökülən çaylardan biridir. Başlanğıcını Dərrequz dağından alır, mənsəbi isə Kür çayıdır və bu ətrafda suyu çoxalır. Onun axması tərzi belədir: əvvəl cənubdan şimala, bir qədər sonra şərqdən qərbə, daha sonra Bərdə ətrafında şimala, sonra yenidən suyu çoxalaraq Qərbdən Şərqə axır və Kür çayına daxil olur.

(C.1, s.196-197). Müəllif deyir: Bərdə indiki dövrün istilahına görə Şuşa qalası kimi Qarabağın bir qəzasıdır.

Şuşa Qafqazın İrəvan, Naxçıvan, Gəncə və başqa şəhərlərindən daha abaddır, daha yaxşıdır. Adları çəkilən şəhərlərin evləri kiçik və bir-birinə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bənzəməyən, küçələri dar və sıxdır. Şuşa şəhərində isə binalar hündür və səfalıdır, əksər evlər daşdan tikilmişdir, küçələri enli daşla döşənmişdir. Evlərin damları taxtadandır. Şuşada yaşayan tatarların və müsəlmanların evləri Avropasayağıdır. Şəhər əhalisinin çoxu erməni və başqa tayfalardan ibarətdir. Erməni uşaqlarından bəlkə on nəfərdən biri rus dilini və yazısını yazıb-oxuya bilmir. Amma başqa tayfalardan olan on nəfərdən bəlkə biri rus dilini və yazısını bilir.

Qarabağın bazarlarında hər cür mətah tapılar, çox yaxşı hamamları vardır. Şəhərdə çoxlu mədrəsələr bina edilmişdir. Tatar (azərbaycanlı - H.T.) uşaqlarının mədrəsələri məscidlərin yaxınlığındadır. Şuşada olan qədim imarətlərdən biri, Gəncəyə gedən yolda şəhər qapısının yaxınlığında olan uçulmuş bina Gəncənin sabiq valisi Mehdiqulu xanın qızlarından birinə məxsus olmuşdur.

Qarabağın yaxşı atları dünyada məşhurdur. Bu ə'la atların cinsi Nadir şahın ilxısındandır. Belə ki, Nadir şah qətlə yetirildikdən sonra Pənah xan Cavanşir Nadir şahın ilxısını ələ keçirmişdir. Xaçmaz adı ilə məşhur olan qırmızı rəngli ipək parçalar Qarabağda toxunur.

Qarabağ əhalisi, xüsusən, ermənilər, İranın bə'zi şəhərləri ilə apardıqları ticarət nəticəsi olaraq, çox varlıdırlar.

İndi tatarlar (azərbaycanlılar- H.T.) və ermənilər yaşayan Qarabağ əyaləti ermənilərin hakimiyyəti altında olarkən (XVIII əsr) Aba Məlik tayfası idarə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

edirdi və İrana xərac verirdi. Bu tayfadan olan üç qardaş ataları öldükdən sonra təxminən 1130 və ya 1140 -cı ildən (1717 və ya 1727-ci illər) Qarabağda hökmranlıq etmişlər. Böyük qardaş vəfat etdikdən sonra iki qardaş arasında çəkişmə və dava düşür. Qarabağ əhalisi hər ikisinə qarşı qalxır. Tatar (azərbaycanlı - H.T.) tayfasından olan Pənah xan Cavanşir Qarabağın ətraf dağlıq yerlərində yaşayırdı, o camaatı yığaraq Qarabağı mühasirəyə aldı və uzun mühasirədən sonra şəhəri aldı və Qarabağın idarəsini ermənilərdən alıb, müsəlmanlara tapşırdı. Pənah xan Nadir şahın müasiri idi və ona xərac verirdi. Şişə və yaxud Şuşa qalası Pənah xanın binalarındandır. Onun vəfatından sonra oğlu İbrahim xan atasının yerinə hakimiyyətə gəldi. 1794-cü məsihi ilində, hicri 1209-cu il İbrahim xan sarayına xərac göndərməkdən boyun qaçırdı. Böyük hökmdar onu cəzalandırmaq üçün Qarabağa qoşun çəkib uzun müddət mühasirədə saxladı. Lakin qarşısına Tiflisi almaq məqsədi qoyulduğundan qoşunları Şuşa ətrafından geri çağıraraq, Tiflisə getdi və şəhəri aldı.

1796-cı il məsihi, 1211-ci hicri ilində yenidən Şuşa qalasına girməyi qərara aldı. İbrahim xan o şahın hücumundan qorxaraq dağlara qaçdı və Şişə qalası İran padşahının əsgərləri tutdular. Tarixə yazılmış bu hadisədən sonra İrana bədbəxtlik üz verdi. Padşah şəhid oldu. O vaxt hakimiyyətdən uzaqlaşmış İbrahim xan yenidən öz iqamətgahına qayıtdı. Lakin dostlara e'tibarı olmadığından Rus dövlətinə yaxınlaşdı. Bir qədər keçdikdən sonra islami qeyrət hissi baş qaldır-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dığından mərhum Xaqanın (Fətəli şahın - H.T.) sarayına hədiyyələr göndərdi və bağışlanmasını xahiş etdi. Onun xahişi qəbul olundu və əfv edildi. Lakin onun nəvəsi Cəfərqulu xan İran şahına itaət etməmək üçün buna mane olmağa çalışdı. Müxtəlif sə'y, hiylə və ciddi-cəhdləri baş tutmadıqda o, ətrafda olan rus qoşunundan kömək istəyərək, İbrahim xanı tutub (ruslara) təslim etdi. Bir çox dövlətlərdən daha ədalətli olan Rus dövləti Cəfərqulu xanın hərəkətlərində şöhrətpərəstlik hissi müşahidə etdiyindən Qarabağda hökmranlıq etməyi ona layiq bilməyib, hakimiyyəti İbrahim xanın oğlu Mehdiqulu xana tapşırdı. Bu hadisə 1806-cı il məsihi, 1221-ci hicri ilində baş vermişdir. Cəfərqulu xan Rus dövlətindən inciyib qısa yolla İrana çıxıb getdi. Onun ağlının naqisliyindən xəbərdar olan İran dövlətinin görkəmli şəxsiyyətləri ona e'tinasızlıq göstərdilər və o, çarəsiz, əliboş Gürcüstana qayıtdı və bir müddət Peterburqda ev dustağı oldu. Sonralar buraxılıb heç bir hüququ olmadan, iqtidarsız, qoca vaxtlarında Şuşada yaşamışdır.

Əmir Teymur Gürgan Qarabağın havasına və təbiətinə mail olmuşdu. Vaxtilə Şah Təhmasib Səfəvinin oğlu İsmayıl Mirzənin məhbus olduğu qəsr-qala xarabalıqlarının yerində Pənah xan indiki Şuşa qalasını abad etmişdir. Əlbəttə, İran tarixini mütaliə edənlər bilirlər ki, İsmayıl Mirzə bu qalada məhbus olarkən Şah Təhmasib vəfat etmiş və Heydər Mirzə onun yerinə taxta əyləşmişdi. İsmayıl Mirzənin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəfdarları olan əfşarlar onu həbsdən azad edib, şahlığa əyləşdirmişdirlər.

İranın fazil, adil, alim və nəcib şəxsiyyətlərindən olan İranın Ədliyyə naziri mərhum Mö'təməddüdövlə Abbasqulu xan Cavanşir Pənah xanın övladlarındandır".

(C.4, s.227-228). Cavad körpüsü (Cesre Cavad). Bu körpüyə Cavad və ya Cavat bərəsi də deyirlər. Bu körpü Kür çayı ilə Araz çayının qovuşduğu yerdədir və Cənub tərəfində Muğan torpağı, şimal səmtində isə Qarabağ torpağıdır. Bu körpüdən məhz Şirvan torpaqlarına keçmək üçün istifadə edilir. Mə'lumdur ki, Keyxosrof səltənətdən əl çəkdikdən sonra Cavad bərəsindən keçərək qeyb olmuşdur, həqiqətdə isə bu iş Allahın əmri idi.

I Şah İsmayıl Səfəvi h.906-cı ildə (m.1501) Şirvan torpaqlarını tutduqdan sonra Kür çayını keçib, Azərbaycana tərəf gəlmək üçün Cavad körpüsündən keçərək, Əlvənd Mirzə Türkmanla (Ağqoyunlu hökmdarı Uzun Həsənin nəvəsi - H.T.) vuruşmuşdur.

Şah İsmayıl 915-ci (1509-1510) yenidən Cavad körpüsünü keçərək, ona itaətsizlik göstərən və özbaşınalıq edən Şeyx Şamanı tənbeh etmək üçün Şirvana gəlmişdir. O, həmin yerləri fəth etdikdən sonra yenidən körpünü keçib, Qarabağa qışlamağa getmişdir. Bu səfər zamanı Şah Heydərin cəsədini Şirvandan Ərdəbilə aparmışdır.

I Şah Abbas h.1015-ci ilin (m.1606-1607) qışında Gəncəvi və Gürcüstanı fəth etdikdən sonra o vaxt osmanlı əsgərlərinin zəbt etdiyi Şirvanı tutmaq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məqsədilə Cavad körpüsü dağıldığından və zədələndiyindən ordusunu on gün müddətinə qayıqlarla keçirmiş, bu zaman xeyli araba və mal tələf olmuşdu. O, Dağıstan və Şirvanı zəbt etdikdən sonra qayıdanda Əli bəy Cavanşir adlı bir nəfərə körpünü düzəltməyi tapşırmış və sonra ordusu ilə körpünü keçib Ərdəbilə gəlmişdi.

Nadir şah Əfşar 1148-ci ilin şubat ayında (1736-ci il fevral) hökm verdi ki, həmin Cavad körpüsü ətrafında, Muğanda tə'cili olaraq ağacdan və gildən on iki min ev, məscid, karvansara və hamam tikilsin ki, tacqoyma mərasimi keçirsin. Həmin ilin 26 şubat ayında bu hadisə, yə'ni Nadir şahın tacqoyma mərasimi baş verdi.

(S.119) Cameyi-Gəncə. Bu məscid I Şah Abbasın binalarındandır ki, 1015-ci ildə tikilmişdir (1606-cı il). Onun tarixi Gəncənin fəthi tarixinə uyğundur. Belə ki, şairlərdən biri demişdir ki, "Gəncənin fəthi tarixi Şamaxıya açardır"). Bu məscidin me'marı rəhmətlik Şeyx Bəhaidir və bu məscidin həyət və divarını elə ustalıqla,fəhmlə tikmişlər ki, günorta vaxtı divardan yerə gölgə həmişə bir qaydada düşdüyündən günortanı dəqiq tə'yin etmək olur. Deyirlər ki, ruslar qol saatlarını qurmaq üçün günorta məscidə gəlib, divarın düşən gölgəsinə görə, öz saatlarını qururlar və onun dəqiqliyinə inanırlar. Bir sözlə belə məsələdə şübhə olsa da, bu məscidi bina edənin Şeyx Bəhai rəhmətlik olduğuna şübhə etmək olmaz, çünki rəhmətlik özü məscidin tikilməsi barədə daş üzərində qeyd etmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sonralar qarabağlılar onun xarici görünüşünü korlamışlar. Çünki müəyyən olunub ki, məscid və minbəri Qarabağ qoşunu dağıtmış və bir müddət dağıdılmış vəziyyətdə qalmışdır. 1209-cu ildə (1794) mübarək şəhid şah Ağa Məhəmməd şah Qacarın hakimiyyəti zamanı Cavad xan Ziyad oğlu Qacar, Qarabağ və Gəncənin bəylərbəyisi və sahibi-ixtiyarı məscid və minbəri tə'mir etdirmişdi. Bu tə'mirin tarixi və tə'mir edənin adı məscidin taxtadan və bəzəkli olan minbərində qeyd olunmuşdur. Məscidin ətrafı mədrəsədir. İmamzadələrin qəbirləri məscidin geniş həyətində yerləşir. Həyətin kənarındakı hücrələrdə tələbələr elm təhsil alırlar. Namaz vaxtlarından başqa məscid daim bağlı olur. Mehrab güzgü kimidir. Məscidə həsir döşənmişdir, lakin pak və təmizdir. Qədim əyyamlarda tikilmiş hündür və qoca çinarlar məscid ətrafında, yə'ni günbəz və mehrab arasında görünür. Mədrəsənin dörd ətrafında hovuz düzəldilmişdir ki, su ilə doludur.

Məscidin yanındakı köşkdə h.1056-cı ildə vəfat etmiş Həsənəli xan ibn Kəlbəli xan Qacarın, Gəncə və Qarabağ bəylərbəyisinin mərmər daşından məqbərəsi vardır. Məscidin fasadında iki daş gül dəstəsi ucalır ki, sanki qoşa minarədir. Məscidin qarşısındakı xiyaban çox geniş və uzundur, Qəzvin xiyabanına bənzəyir, orada da qədim zamanlarda ətrafında çinarlar əkilmişdir və qərinələrdən mə'lumdur ki, əsası Səfəviyyə zamanındandır. Ətrafda olan mağazalar mədrəsəyə məxsus vəqf mülkləridir, mütəvəllinin bəyan etdiyinə görə mədrəsəyə hər il



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dörd min manat mənfəət verir. (I manat təqribən 3010 şahıdır).

(S.106) Cameyi-Şamaxı. Deyirlər ki, Əbu Müslüm Müruzinin binalarındandır. Tarixi yoxdur. Lakin görünüşündən çox köhnə və qədim olduğu bilinir. Bütün binanın özül və tavanı daşdan yonulub düzəldilmiş və fasiləsiz olan Şamaxı zəlzələləri onu uçura bilməmişdir.

(C.1, s.29) "Təqvimül-buldan" göstərir: "Araz bir çay adıdır ki, suyunu Qalıqla dağlarından alır. Cənubdan Şimala axan Araz çayının suyu bu dağdan və Ərzənərrumdandır. Aranda olan Kür də suyunu Qalıqla dağlarından alır və Gürcüstan vilayətində Tiflis şəhərinin ortasından keçərək Arrana yetişir. Qalıqladan Tiflisədək otuz fərsəx məsafə vardır.

Araz çayı 67 uzunluq və 41 en dairəsində yerləşir. Hökumət iqamətgahı olan Ərdəbildən keçir, Varsan ərazisindən də keçir. Varsan Azərbaycan hüdudunda bir şəhərdir, Arazın iki fərsəxliyində, Beyləqanın yeddi fərsəxliyindədir və Xəzər dənizinə yaxınlaşdıqda Kür çayı ilə birlikdə Xəzər dənizinə tökülür. İbn Hövqəl yazır: Araz çayı Ərminiyyədən çıxıb Bursandan keçərək Muğana, Kür çayına tökülür, oradan Təbəristan dənizinə. Araz cənubdan Şimala doğru axır və Qalıqla dağları və Ərzənərrumdan axır, Ərmən və Azərbaycan və Arrandan keçir, Kürün suyuna qarışaraq Geştasəfi vilayətində Xəzərə tökülür. Onun axdığı ərazilərdə əkinçiliklə məşğul olurlar. Bu çayın uzunluğu 150 fərsəxdir. ("Asarül



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əvvəl"). Onun haqqında "Azərbaycan" sözündə bəhs olunmuşdur".

Müəllif deyir: "Yunanların Araks adlandırdıqları Araz Asiyanın böyük çaylarındandır. Bu çay mənbəyini böyük Ermənistanın dağlarından alır, qərbdən Şərqə axır və Arpaçay, Ağçay və Qarasu çayları bu çaya daxil olur. Bədkubənin cənubunda Xəzər dənizinə tökülür. Bu böyük çay iti axır, lakin çox da dərin deyildir. Keçmişdə bu çayın üzərində körpü salmağa cəhd etsələr də, bu mümkün olmamışdır, yə'ni nə qədər tiksələr də, yaz fəsli tüğyan edən çayın suyu onu dağıtmışdır. İndi həmin dağılmış körpülərdən əlamətlər qalmışdır. Mən özüm 1280-cı il şaban ayında (1864-yanvar) Parisə işə tə'yin olunduğum zaman Culfadan, Araz üzərindən keçmişəm. Qışın əvvəlləri olduğundan çay suyunun bir hissəsi donmuşdu və mən buzun üzərindən keçdim. Qayıdan zaman, yə'ni 1283-cü il şaban ayında (1866, dekabr) payızın axırları olduğundan su donmamışdı, qayıqla keçdim".

(S.28) Ordubad: Azərbaycanda böyük kənddir və çoxlu bağları olan yerdir, taxıl və üzüm və digər yaxşı meyvəsi vardır. Suyu Kəyanqubad dağlarından tökülür və bu suyun çoxu Araz çayına axır. Bu barədə "Ziynətül-məcalis" və "Nüzhətül-qülub" kitablarında eyni mə'lumat verilir.

(C.4, s.255) Culfa. İki Culfa mövcuddur. Biri Araz çayı sahilində yerləşən məkandır ki, Naxçıvana aiddir. Əsl Culfa odur. Və indi də həmin adla adlanır. O yeri görmüş mö'təbər şəxslər belə söyləyirlər ki, o



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məkanda köhnə qəbiristanlıq və uçulmuş qədim tarixi abidələr çoxdur. Mərənddən, Dərədüzündən və Gərgər qəzasından keçərək Araz çayındın Naxçıvana gələn yer Culfa keçidi adlanır. Bu Culfaya əski Culfa deyirlər, yə'ni köhnə Culfa və o, qədim şəhərlərdən olub, keçmiş zamanlardan Ariamen (Ariyələrin yeri) adlanırdı. Bətul dağının ətəyində, Araz çayına yaxın yerləşir. Bu şəhərin ətrafında mühafizə üçün daha çox bürcə oxşayan bir neçə kiçik qala tikilmişdir. Bə'zi erməni tarixçilərinin fikrincə bu şəhər abad olarkən dörd min evdən ibarət imiş və aşkar edilmiş qədim binaların, xarabalıqları bu şəhərə xeyli qədim və mö'təbər olduğunu söyləməyə əsas verir. Amma qəribə budur ki, çayın yaxınlığında bağ və ağaclar heç yoxdur. Culfa keçidində Araz çayı üzərində dəfələrlə körpü düzəldilmiş, lakin dağılmışdır. Belə ki, Fransız səyyahı Şardən 1673-cü məsihi ilində yə'ni 207 il bundan əvvəl Araz çayından Culfa keçidindən keçərkən körpü sınıq imiş. O yazır ki, Taverniye, digər fransız səyyahı da, iyirmi il bundan əvvəl oradan keçmiş, o da heç bir körpü görməmişdir. Əmir Teymur Gürganinin əsgərləri Culfa körpüsündən keçən zaman banisi Ziyaülmülk olan körpü var idi və onlar buradan keçmişdilər. Əmir Teymurun əsgərlərinin Culfa körpüsündən, Ziyaülmülk körpüsü adı ilə məşhur olan həmin körpüdən keçməsi 788-ci hicri ilinə (m.1386) təsadüf edir.

Şərəfəddin Yəzdinin "Zəfərnameye-Teymuri" əsərində bu barədə təfsilatı ilə geniş yazılmışdır və biz aşağıda onu olduğu kimi söyləyirik. Şərəfəddin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Culfanı Culahe kimi yazmışdır. O deyir ki, Ziyaülmülk körpüsü tağlıdır və tağın altını su dağıtdığından tağ düşmüş, bir müddət baxımsız qalmış, sonra Naxçıvan vilayətinin qərbində yerləşən Culahədə Araz çayı dağın ətəyindən keçdiyi üçün su, daşı hamarlayaraq yonmuş, çox möhkəm daş körpü yaratmışdır, elə hamar və gözəl, səliqəli cilalamışdır ki, ağıllı, dərrakəli mühəndis onu müşahidə edəndə heyran qalır. Körpünün xüsusən iki tağı elə yüksək və genişdir ki, hər birinin sahəsi təxminən altmış gəz olar (I gəz 94 santimetrdir). Əlli beş gəz enində olan digər bir tağı su tüğyan edərkən sel onun bir hissəsini zədələmiş və tağ dağa bitişik olduğundan altı boş qaldığı üçün elə bir şəkil almışdır ki, orada karvansara düzəltmişlər və körpünün hər tərəfindən daş darvaza qoymuşlar və yaxşı işıqlandırılmışdır. İndi Rusiya torpağında olan Culfanın ətrafında, poçt, teleqrafxana və sərhədçilər üçün yaşayış məhəlləsi düzəldilmiş və o cümlədən İran tərəfdə Gərgər torpağında da həmin cürdür.

İran şahı Ə'lahəzrət Nəsrəddin şah Culfa körpüsündən iki dəfə keçmişdir. Birinci dəfə kiçik uşaq və vəliəhd zamanında İrəvana gələn mərhum İmperator Nikolayı görmək üçün təşrif buyurmuşdur. Bu səfərdə Culfa körpüsünün 1252-ci ilin rəcəb ayında (1836, oktyabr) keçmişlər. Ə'lahəzrəti padşahın dayısı uca İsa xan Qacar və Əmir Nizam Məhəmməd xan Zənginə və şəxsi mürəbbisi Hacı Molla Mahmud, Mirzə Məhəmməd Tağı Fərəhani (Əmir Atabəy mərhur) və vəkil Məhəmməd Tahir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xan Qəzvini və Mirzə Məhəmməd həkimbaşı müşayiət edirdilər.

İkinci dəfə Culfa körpüsünü padşahın məiyyəti onun seşənbə günü cumadələvvəlin 4-də 1295-ci ildə (1878 - may) Avropaya ikinci səfəri zamanı keçmişlər və bü səfərdə şahın müşayiətçiləri aşağıdakılar idilər: Məşhur, çox hörmətli cənab Hacı Mirzə Hüseyn xan Müşirüddövlə Sepəhsalari - Ə'zəm, cənab Əlirza xan Əzədülmülk və cənab Mahmud xan Nasirülmülk və cənab Əminüssultan, əlahəzrətin şəxsi həkimi cənab doktor Tolozon həkimbaşı və Mehdiqulu xan Əmiri-axur və həkimülməmalik Mirzə Əlinəqi və şəxsi adyutant Ağa Rza xan və Əminüssəltənə Məhəmmədəli xan və Məhəmmədhüseyn xan və mərhum Fərrux xan Əminüddövlənin oğlu Fərrux xan, Nazimi-Xəlvət Ağa Rza və Ağa Məhəmmədəli Abdarbaşı və Ağa Mirzə Məhəmməd və Hacı Həsən Abdar və Hacı Heydər. Kitabın müəllifi də bu şərəfə nail olmuşdur.

Amma o biri Culfa İsfahan şəhərinin xaricində olan yaşayış məntəqələrindən biridir.

Fransız səyyahı Şardən Süleyman şah Səfəvinin hakimiyyəti zamanında, 1077-ci hicri ilində (m.1666-1667) İranda olarkən yazmışdır: "İsfəhan Culfası dünyada olan ən böyük şəhərkənarı yaşayış məntəqələrindən biridir ki, uzunluğu bir fərsəx, eni də bir fərsəx abad ərazidən ibarətdir. O, iki məkandan ibarətdir, qədim və yeni Culfa, Qədim Culfa, böyük şah Abbasın bina etdiyi Culfadır, yeni Culfa isə II Şah Abbas tərəfindən salınmışdır. Yeni



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Culfa hər cəhətdən qədim Culfadan üstündür. Küçələri geniş və düzdür, əksəriyyətində cavan ağaclar əkilmişdir. Amma qədim Culfanın evlərinin daxili zənginliyi yaşayış üçün çox əlverişlidir. Qış fəslində Culfanın bütün məhəllələrində su olur, amma yayda növbə ilə və həftə ilə olur. Məğribdən Məşriqə uzanan beş əsas küçəsi vardır, yə'ni çayın kənarından dağa tərəf. Bunlardan əlavə kiçik küçələr vardır ki, cənubdan şimala doğru uzanır və həmin o beş küçə ilə kəsişir. Bir yaxşı bazar, bir neçə hamam və iki karvansara, bir meydan, on bir kilsə və oğlan uşaqları üçün bir məktəb, qızlar üçün Kuzə adlı bir məktəb-mədrəsə də vardır. Culfada İsəvi-xristian dini hakim olmuşdur. Culfanın kilsələri əvvəllər erməni mə'bədləri üslubunda, sadə, rəsmsiz və bəzəksiz idi. Culfadan İtaliyaya səfər etmiş erməni tacirlərindən biri orada olan kilsələri görərək qayıtdıqdan sonra keşişi Culfa kilsələrində də katolik mə'bədlərində olduğu kimi rəsmlər çəkdirmək üçün hökm verməyə məcbur etdi ki, onlar da divar və tavanı öz imam və peyğəmbərlərinin rəsmləri ilə bəzəsinlər. Bu cəhət xeyli süstlüyə səbəb oldu, o mə'nada ki, müsəlmanlar rəsmlərə tamaşa etmək üçün mə'bədə daxil olanda, qapını onların üzərinə bağlamaq mümkün deyildi və bu təsvirləri görəndə isəviləri lə'nətləyirdilər ki, onlar surət və heykəllərə səcdə edirlər, şəkillərə pərəstiş edirlər.

Mən Culfada olarkən ermənilər iki-üç dəfə öz aralarında qərara gəldilər ki, rəsmləri məhv etsinlər. Amma müsəlmanların tamaşa edib, zövq aldıqları



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

rəsmlərdən məhrum olduqları təqdirdə onlara qarşı qəzəblənəcəklərindən qorxaraq, bu işi görməyə cür'ət etmədilər.

Culfada üç min dörd yüz və yaxud üç min beş yüz ev vardır və çayın kənarında olan evlər çox uca və bəzəklidir və dövlət imarətlərinə bənzəyir. I Şah Abbas və I Şah Səfi ermənilərə çox, yaxın idilər və onların evlərinə qonaq gedirdilər. İndi də orada əvvəllərdə olduğu kimi iki yüz min - üç yüz min tümən dövləti olan erməni tacirləri çoxdur".

Müəllif deyir: Culfanın (İsfahan Culfasının - H.T.) binasını böyük Şah Abbas Səfəvi qoymuş və ağıllı, uzaqgörən padşah olan Şah Abbasın məqsədi bu olmuşdur ki, İrəvan, Naxçıvan və haqqında əvvəl bəhs olunan köhnə Culfadan erməni tayfasını uzaqlaşdırsın. Çünki o vaxt Azərbaycana və Təbrizə gəlib-gedən Osmanlı əsgərləri ilə ermənilər arasında hər ikisi sünniməzhəb olduqlarından bir-birinə rəğbət və yaxınlıq var idi, nəinki şiəməzhəb müsəlmanlarla. Şiə Abbas tədbir gördü ki, əhalinin çoxunu təşkil edən ermənilər həmin yerlərdən köçsünlər və İran torpağı içərilərində dağınıq halda yaşasınlar. Belə ki, onlardan ticarətin inkişafına meyli olan əsas bir qisminə öz paytaxtının (İsfəhanın - H.T.) ətrafında yer verdi və onlara hər cür şərait yaratdı. Tacir ermənilər Hindistana, Avropaya, Osmanlı məmləkətlərinə gedib-gələrək, ticarətlə məşğul olurdular. Şah Abbas vəfat etdikdən sonra artıq erməni tacirləri arasında bir kürur (yarım milyon) dövləti olanları var idi. Xülasə, nəzər-diqqətə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çatdırılan budur ki, 1604-cü ilin iyün ayında, hicri tarix ilə 1013-cü ildə erməniləri Araz kənarında yerləşən Köhnə Culfadan Böyük Şah Abbas köçürərək İsfahana gətirdi və onlar Culfada sakin oldular. Həqiqətən indi görək İsfəhan Culfası mahal yox, şəhərlər sırasında hesab edilsin. Baxmayaraq ki, İsfəhanın kənarında, ona bitişikdir, mö'təbər və abad şəhər kimi nəzərə çarpır, hündür binaları, səfalı bağları ilə dünyanın yaxşı yerlərindən biri hesab olunur.

(C.1, s.16) Əbrəştəvim Azərbaycanda, Muğan torpağında Bəzz yaxınlığında bir dağdır ki, Babək Xürrəmi də Mö'təsim zamanı üsyan edərək, oradan baş qaldırmışdı. Əbu Təmmam Əbu Səid Məhəmməd bin Yusif əl-Səğrinin tə'rifinə belə demişdir: Əbrəştəvimin təpələrindən Xilafətə qarşı müvəffəqiyyətlə qalxmışlar.

(S.17) Əbhər Qəzvin, Zəncan və Həmədan arasında yerləşən məşhur şəhərdir. Ə'cəm ona Ohər deyir, "Ab-su" və "hər" mürəkkəb sözündən əmələ gəlib, "su var" deməkdir. Hicri 24-cü ildə (644-645 miladi) Osman ibn Affan zamanında, o vaxt ki, Məğirət ibn Şüeyb Kufə valisi, Cərir ibn Abdulla Bəcli Həmədan hakimi və Əlbəra ibn Azəb Rey hakimi idilər, Əlbəra Cərirlə birləşərək bu şəhəri zəbt etdi. Şəhər əhalisi əvvəlcə müqavimət göstərdi, islam ordusu Əbhər qalasını mühasirəyə aldı, sonra əhali aman istədi və Əlbəra onlara aman verdi və tələsik buradan çıxıb Qəzvinə getdi. Qəzvini qələbə ilə istila edərək əsarət altına aldı. Əbhər çox möhkəm



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bir qaladır. Deyirlər Şapur Züləktaf bina etmişdir və Qəzvinin on iki, Zəncanın isə on beş fərsəxliyindədir. Bə'ziləri də Əbhərin Keyxosrov ibn Səyavuş tərəfindən bina edildiyini söyləyirlər və deyirlər ki qalanı Dara tikdirmiş, sonralar dağılmış və İsgəndər onun xarabalıqları üzərində yenidən qala tikdirmişdir. Çoxsaylı alimlər bu şəhərə mənsubdurlar. "Təqvimül-buldan"da göstərilir: Müştərək adlı müəllifin yazdığına görə iki Əbhər vardır. Biri haqqında bəhs olunandır, digəri İsfahan nahifəsində qəsəbədir.

"Nüzhətül - qülub"da yazılır ki, Əbhər dördüncü iqlimə aiddir. Bütünlüklə qaladır ki, əvvəl Dara ibn Darayi-Kiyani əsasını qoyub, sonra qardaşı İsgəndəri-Rum onu tikib qurtarmışdır. O biri qalanı Bəhaəddin Heydər ki, Atabəy Nuştəkin Şirkiri-Səlcuqi nəslindəndir, tikmiş və Heydəriyyə adlandırmışdır. Qala divarının sahəsi beş min beş yüz addımdır. Havası soyuq, suyu Qəzvin vilayətindən gələrək Sultaniyyənin yaxınlığından keçən və şəhərə axan çaydandır. Burada dənli bitkilər və meyvə boldur, yaxşıdır, lakin çörəyi o qədər də yaxşı deyil. Pambıq az becərilir. Burada ə'la alu və gilas bitir. Adamları ağüzlü, xoşgəlimlidir, şafei təriqətlidir. Bu vilayət iyirmi beş kənddən ibarətdir. Dövlət vergisi bir tümən dörd min dinardır.

Müəllif deyir: "Əbhər 60 min zər' Qəzvindən qərbdə, 40 min zər' Sultaniyyədən Şərq tərəfdə yerləşir. Şəhərin dörd fərsəxliyində Dara qalası adlanan qala dağılmış vəziyyətdədir. Deyirlər ki, Daranı məğlub edən İsgəndər qalanı tikmişdir.Bir sıra



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kitablarda bu barədə yazılmışdır. Əbhərdə evlər əksər şəhərlərin evvlərinin çoxundan yaxşı tikilmişdir. Burada çoxlu səfalı bağlar vardır. Əbhərrud şəhərin ortasından keçir. Əbhərdə qədim binalardan bir məscid qalmışdır ki, 36 dərəcə 20 dəqiqə Şimal en dairəsində, 45 dərəcə 42 dəqiqə Şərq uzunluq dairəsində yerləşir. Fransanın coğrafiya kitablarından birində yazılır ki, Əbhərdə min yüzdən artıq ev yoxdur, "Asarül-əvvəl" yazır: Əbhər üç mövzudur: ikisi zikr olundu, üçüncüsü bir dağ adıdır Hicazda. "Zinətül-məcalis" və "Nüzhətül-qülub"da belə yazır".

(S.18-19) Ocan. "Mö'cəmül-buldan"ın müəllifi iki cür Ocan ifadəsini göstərmişdir. Birincisi "əlif" və "cim" hərfi ilə, ikincisi "əlif" və "vav" hərfilə. "Əlif" və "cim" Ocan barədə deyir ki, Ocan Azərbaycanda, Rey yolunda, Təbrizin iki fərsəxliyində kiçik bir şəhərdir, indi uçulmuş vəziyyətdədir və mən bu şəhəri görmüşəm. "Əlif" və "vav" Ocan haqqında deyir ki, Azərbaycanda şəhərdir, dördüncü iqlimə aiddir. Qədim fərmanlarda onun Mehranrud mahalına aid olunduğu göstərilir, lakin bu səhvdir. Ocanın binasını Kudərzin nəvəsi Bijən qoymuş və Qazan xan onu yenidən qurmuşdur və şəhri-İslam adlandırmışdır. Divarını çəkərək üç min qədəm uzatmışdı. Havası o qədər də yaxşı deyil. Suyu Səhənd dağındadır. Məhsulu buğda və tərəvəzdir. Şafeiməzhəb əhalisi ağ geyinir, bir neçə də isəvi vardır. Xəzinəyə 110 min dinar verirlər. Şəhərin əsas əhalisi Sərizan hissəsində yaşayır. "Təqvimül-buldan"da göstərilir ki, Ocan Azərbaycanda kiçik bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəhərdir. Su çeşmələri çox, ağacları isə azdır. Ocanın Xürrəm mahalında yerləşmiş bazarları mənfəətlidir. Bu mahal yaşıllıq olsa da şəhərdən kənardır. "Zinətül-məcalis"də yazılır ki, Ocanın əsasını Bijən ibn Kiv qoymuşdur, Qazan xan yenidən binaların daşdan və əhəngdən hasar çəkmişdir ki, uzunluğu 3000 qədəm olar. Suyu Səhənd dağındadır. Burada meyvə yoxdur.

Müəllif deyir: "Ocan indi çəmən adlandırılır ki, bura hərbi düşərgədir və Azərbaycanın könüllü toplanmış ordusunun məşq yeridir. Bu çəmən çox xoş, sulu və havalıdır. Havası soyuq və çox yaşıllıqdır. Mərhum xaqan Fətəli şah orada bir imarət tikmişdir ki, indi lə qalır və bu çəmən indi də çox abaddır".

(S.19-21) Azərbaycan lüğətlərdə bir neçə cürə izah edilir ki, bunu zikr etməyə ehtiyac yoxdur. Əbu İshaq ibn Əli özünün "Zic'in"də demişdir: "Azərbaycan 5-ci iqlimdədir. 73 dərəcə uzunluq dairəsində və 40 dərəcə en dairəsində yerləşir. İbn Mühənna deyir: "Azərbaycan sözü Azərbad ibn İran ibn Əsud ibn Sam ibn Nuh adından götürülmüşdür. Digərinin əqidəsinə görə Azərbad ibn Biyurasb adlandırılmışdır. Bə'ziləri deyirlər ki, Azər Pəhləvi lüğətində od, atəşdir və Baykan Hafiz, xazin-qoruyucudur. Deməli, bu mə'nada Atəşkədə və atəşi qoruyan deməkdir. Bu həqiqətə daha yaxındır. Çünki Azərbaycan nahiyəsində çoxlu atəşkədələr mövcuddur və Azərbaycanın sərhəddi Şərqdə Bərdə, Qərbdə Zəncandır. Şimaldan Deyləm, Cəbəl və Taram



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəhərləridir. Azərbaycan ərazisi geniş məmləkətdir. Onun məşhur şəhərlərindən olan Təbrizindi hökumət iqamətgahıdır və mələkətin böyük şəhərlərindəndir. Keçmişdə Azərbaycanın Darülhöküməti Marağa idi, Xoy, Səlmas, Urmiya, Ərdəbil, Mərənd və başqaları da Azərbaycan şəhərlərindəndir'. Yer kürəsinin böyük hissəsi olan bu əzəmətli məmləkətin əksəri dağlıqdır və bu məmləkətdə qalalar çoxdur. Onların fayda və mənfəəti çoxdur. Azərbaycanda meyvə həddindən artıq çoxdur və mən bu yerlər qədər çox bağ-bağatı, meyvəsi, bulaqları olan bir ölkə görməmişəm və bu yerlərdə müsafir özü ilə su gəzdirməyə bilər, çünki o hara ayaq qoysa, o yerdə çox dadlı, soyuq su vardır. Bu məmləkətin adamları gözəldir və incə dərilidir və özlərinə məxsus dilləri vardır ki, "azəriyyə" deyirlər, özlərindən başqa bir kimsə başa düşmür. İnsanları yumşaq xasiyyətə, xoş rəftara malikdirlər. Bu eybləri budur ki, bir qədər simicdir və bu da, bu məmləkətin xüsusiyyətlərindəndir, Düşmənçiliyin və müharibə alovunun həmişə ölkənin müəyyən hissəsində olmasıdır və heç bir vaxt ölkə belə hadisələrdən azad deyildir. Ona görə də onun şəhərləri həmişə dağıntılı və gəndləri boşdur. İndi, hazırki dövrdə Sultan Cəlaləddin ibn Sultan Məhəmməd Xarəzmşah zəbt etmişdir. İkinci xəlifə Ömər ibn Xəttağ dövründə islam ordusu bu məmləkəti istila etdi. Bu xəlifə Muqirə ibn Şubəni Kufə valisi tə'yin edərkən, onunla Hüzayfa ibn Yəmənə bir fərman göndərmişdi ki, Azərbaycanı zəbt və istila etsin Kağız Nəhavəndə Huzayfaya



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yetişdikdə o, çox böyük ordu ilə Azərbaycana üz tutdu. İndi Azərbaycanın şəhərlərindən biri olan Ərdəbilə yetişdikdə Azərbaycanın mərzbanları: Bacrəvan, Miməd və Bəzz, Sərab, Şiz, Miyanəc və başqa yerlərin mərzbanları yığışaraq, bir neçə gün islam ordusu ilə vuruşdular və nəhayət sülh danışığına gəldilər və Huzayfaya 800 min dirhəm və yaxud təxminən 800 min tümən verdilər ki, islam ordusu qətl və qarətdən və əsir tutmaqdan əl çəksin, atəşkədələri dağıtmasın, Şiz əhlinə öz məzhəblərinin adətlərini gözləməkdə mane olmasınlar. Xüsusən bayramda onlara məxsus adətlərə açıq-aşkar əməl etmək üçün mane olmasınlar, açıqda rəqs və şadlıq edə bilsinlər. Bu sülh müəyyənləşdikdən sonra Huzayfa ordusunu Muğana və Cilana çəkdi və o iki yeri də zəbt etdikdən sonra onlar üçün xərac müəyyənləşdirərək sülh bağladı. Sonra Ömər Huzayfanı vəzifədən çıxarıb onun yerinə Ətəbət ibn Fərqədi tə'yin etdi. Ətəbət Mosuldan Şəhruzla Azərbaycana gəldi. O, Ərdəbil əhalisini əvvəl olduğu kimi müt'i və bə'zi başqa nahiyələrin əhalisini üsyankar görüb, yenidən onlarla döyüşərək qalib gəldi və çoxlu qənimət əldə etdi. (Ətəbətin oğlu Əmro da bu səfərlərdə atası ilə birlikdə idi). Vaqidi[34] yazır ki, Muğirə ibn Şubə Azərbaycanı h.22-ci ildə (m.642-643) zəbt edərək vergi qoymuşdur. (Əbu Münzir ibn Məhəmməd, Əbu Mixnəfə[35] istinadən rəvayət edərək yazır ki, Muğirə Azərbaycanı h.20-ci ildə fəth etmişdir və az keçmiş üsyan başlamışdı. Əş'əs ibn Kindi yenidən Azərbaycana Hücum edərək.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəcrəvan qalasını işğal etdi və Müğirə onlarla neçə sülh bağlamışdırsa, o da həmin qayda ilə sülh bağladı. (Həmin sülh indi də qalır) Məbaini deyib ki, bütpərəstlər Nəhavənddən qaçmağa üz tutduqları zaman islam ordusu onları vətənlərinə qaytardı. Sonra Huzayfaya Məkr həmin ordu ilə və Kufə ordusu ilə birlikdə Azərbaycanı tutdu, 800 min dirhəm əhalidən yığdıqdan sonra sülh bağladı. Üçüncü xəlifə Osman ibn Əffan əl-Vəlid ibn Ukbanı tə'yin etdikdə Utba ibn Farkadı Azərbaycan vilayətindən vəzifədən uzaqlaşdırdı və Azərbaycan əhalisi üsyan etdi. Vəlid h.25-ci ildə yenə onları məğlub edərək özünə tabe etdi. Bu zəfərdə Vəlidin ordusuna Abdulla ibn Əhməsi başçılıq etmişdir. O, Muğanda və Tilistanda[36] qarətə başladı, əsir və xeyli qənimət əldə etdikdən sonra Huzayfanın qoyduğu sülh şərtlərinə əsasən onlarla sülh bağladı. ("Nüzhət ül-qülüb"da yazılır): Azərbaycan vilayəti 9 tüməndən ibarətdir[37], 27 şəhəri vardır. Əksər yerlərinin havası soyuqdur və bə'zi yerlərdə mülayimdir. Sərhəddi İraqi-ə'cəm və Muğan və Gürcüstan və Ərmənistan və Kürdüstanladır. Azərbaycanın dövlət vergisi Səlcuqlar hakimiyyəti zamanı 2000 tümən idi. ("Zinətül-məcalisdə"də "Nüzhətül-qulub"da olduğu kimi yazılmışdır). Bu məmləkətin dövlət vergisi Səlcquilər zamanı indiki pulla 650 min tümənə bərabər olmuşdur. "Asarül-əvvəl" yalnız bunu əlavə edir ki, bu diyarın çaylarından ən məşhuru Rəsdir (həmin Araz çayı nəzərdə tutur). Çay böyük sür'ətlə axdığından və çayın yatağında daş çox olduğundan oraya gəmilər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

daxil ola bilmirlər və o yerlərin hər iki tərəfin torpağını sel yuyub aparmışdır, ətraflar qorxulu olmuşdur və oralarda qarğa yuvaları çoxdur.

Azərbaycanda bir çeşmə vardır ki, oradan çıxan su donaraq, bərk daş kimi olur və əhali çay kərpicini götürüb sudan ora doldurur. Çox keçməmiş həmin su bağlanaraq kərpic formasında daş olur".

Müəllif deyir: "Maqların məkanı Ərdəbil yaxınlığındakı Savalan dağı olmuşdur. Aətşpərəstlər onu Mi adlandırırdılar ki, mə'nası "Məkani-şərif"dir. Qədim tarixçilərdən bə'ziləri deyirlər ki, Firidun İran taxtına sahib olanda bu dağın ətəklərindən birində ibadətlə məşğul olmuşdur. Lakin bu ağlabatmayan sözdür ki, Savalan dağının ətəyində ibadət etmişlər. Bə'ziləri deyirlər ki, Azərbaycan Zərdüştün doğulduğu yerdir və ona görə belə adlandırmışlar. Şərdən öz "Səfərnamə"sində yazır: "Azərbaycan 3 tümandan və bir neçə şəhərdən ibarətdir. Badkubədən Xalxaladək 95 fərsəx uzunluq, 55 fərsəx en dairəsində yerləşir. itkilər və mn əhalisi sıxdır və məhsuldar ərazisi hər növ ə'la meyvə hədsizdir. Dağları hər cür qiymətli yeraltı sərvətlərlə zəngindir. Çayları çoxdur. Urmiya yaxınlığında kiçik bir dənizi də vardır ki, sahəsi 200 fərsəxdir. Şimal tərəfdən rus torpağı ilə, Qərb tərəfdən Osmanlı torpağı ilə və Cənubdan İraqla, şimali-şərqdən Gilanla həmsərhəddir. Bu ölkənin əhalisi 200 milyon və bəlkə də artıqdır, döyüşkəndir. Əhalisi iri buynuzlu mal-qara, qoyun və sairə təsərüfatında çox mənfəət götürür. Xalq çəmənlərdə ilxı da saxlayır. Bu ərazidə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müxtəlif növlü dənli bitkilər yetişdirilir. İki hündür dağı vardır. Savalan və Səhənd. Savalan Ərdəbilin qərbində və Səhənd Təbriz yaxınlığındadır. Bu ölkənin dağlıq yerlərinin əksəriyyəti qarla örtülü olur. Bu əyalətdə olan mə'dən suları fransız həkimlərinin diqqətini cəlb etmişdir və bunlarda çox fayda olduğunu söyləyirlər. Azərbaycanın qədim əhalisi haqqında yunan, rum tarix kitablarında yazılmışdır. Bu məmləkətin əsas məhsulu buğda, arpa, tunc, qarğıdalı, zə'fəran, xaş-xaş, tütün, kətan pambıqdır. Azərbaycanın qədim şəhərlərindən indi də mövcud olanları bunlardır: Təbriz, Ərdəbil, Marağa, Urmiya, Xoy, Səlmas, Savucbulaq, Qaracadağ, Xalxal, Əşnuyə, Əhər, Dehxarqan, Mərənd, Ocan, Miyanəc, Gərmrud və qeyri. Bu şəhərlərin hər biri haqqında bu əsərdə bəhs olunacaq.

(S.21) Arran böyük əyalətdir və onun bir çox şəhərləri vardır. O cümlədən geniş xalq kütləsi tərəfindən Gəncə adlandırılan Cənzə, Bərdə, Şəmkur və Beyləqan. Azərbaycan və Arran arasında Rəs adlanın Araz çayıdır ki, bu çay Qərbdən və Şimal tərəfdən Arranla, Şərq tərəfdən Azərbaycanla həmsərhəddir. Bu adla Qəzvində mə'lum bir bir qala vardır. "Təqvimül-buldan"da göstərilir ki, Kür çayı Arranla Azərbaycan arasında yerləşir, bu iki məmləkət arasında sərhəd kimidir. "Asarül əvvəl"də yazılır ki, Arran 3 mövzudur, əvvələn, Azərbaycan və Ərminiyyə [Yeni ərəb inzibati-bölgü sisteminə görə Cənubi Qafqazda ərəb işğal dairəsinə daxil edilmiş bütün torpaqları özündə birləşdirən "Ərminiyyə"



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ərazisi vaxtilə Bizans imperatoru Yustinianın (527-565) Qərbi Ermənistanda həyata keçirdiyi inzibati islahata uyğun olaraq ən'ənəvi şəkildə I-IV Ərminiyyə adı ilə dörd hissəyə bölünmüşdür. I və II Ərminiyə şimalda Tiflis və Dərbənddən cənubda Araz çayınadək, qərbdə Kiçik Qafqaz dağlarından şərqdə Xəzər dənizinədək olan sahəni əhatə edir və əsasən ərəblərin Arran adlandırdığı qədim Albaniya torpaqlarını özündə birləşdirirdi. Ərəb Arran vilayətinin tərkibində Albaniyanın özündən başqa 644-cü ildən müsəlmanların tabeliyində olan Tiflis və onun civarları, eləcə də dağlıların yaşadıqları ərazi də daxil edilmişdi. Ermənistanın özü isə III-IV Ərminiyə bölgüsünə aid idi (Azərbaycan tarixi, B, Elm, 1993. S.126)] arasında olan ərazi çoxlu şəhər, qəsəbə və kəndləri vardır və Şirvana yaxındır. İkinci və üçüncü də zikr olundu. "Nüzhətül-qülub"da deyilir ki, Araz sularının kənarından ta Kürə qədər bu iki çayın arası Arrandır. "Zinətül-məcalis" də "Nüzhətül qülub"da olan fikri təkrar edir. Müəllif deyir: bə'zilərinin əqidəsinə görə Arran Kiçik "Ərminiyyənin" şəhərlərindəndir ki, bu da Tiflis və ətraf rayonlarından ibarətdir.

(S.24-27) Ərdəbil Azərbaycanın ən məşhur şəhərlərindəndir və islamın fəthindən əvvəl Azərbaycan valisinin iqamətgahı, mərzbanlıq mərkəzi idi. 80 dərəcə uzunluq, 36 dərəcə 33 dəqiqə en dairəsində yerləşir və IV iqlimdəndir. Əbu Oun özünün "Zic"ində demişdir: "(Ərdəbil) 73 dərəcə yarım uzunluq və 38 dərəcə en dairəsində yerləşən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

böyük bir şəhərdir. Bu şəhəri hicri 670-ci ildə gördüm (1271-72). Bu şəhərin ərazisi çox böyükdür və həm daxilindən, həm də xaricindən çoxlu çaylar axır. Bununla belə nə şəhərin daxilində, nə də xaricində bir meyvə ağacı belə yoxdur. Bunun səbəbi mə 'lum deyil və mən havası, suyu bol olan yerdə bu qəribəliyə çox təəccüb edirəm. Bu şəhərə meyvəni dağın arxasında yerləşən, oradan bir günlük yolu olan yerdən gətirirlər. Buradan Xəzər dənizinə qədər iki günlük yoldur. Bu yol meşə və ağaclıqdan ibarətdir, batalıqdan keçmək mümkün deyildir. Əgər düşmən şəhərin əhalisinə qəsd etmək istəsə, onlar bu meşələrə çəkilir və düşmən meşələrdən keçməyə bələd olmadığı üçün batalıqlarda məhv olur. Ona görə də meşələr Ərdəbil əhalisinin pənahı və sığınacağıdır. Bu meşələrdən qırıb apardıqları ağ qovaq ağaclarından boşqablar hazırlayırlar. Bu şəhərdə sənətkarlar çoxdur, onların da gördükləri işlər adətən nöqsansız və yaxşıdır. Lakin xaricdə satılmaq üçün hazırladıqları parçaların ən yaxşısı eybdən xali deyildir. Bir gün bu şəhərin kargərlərinin birindən xahiş etdim ki, mənə qüsursuz parça göstərsin. O dedi ki, bu şəhərdə belə bir şey olmadığından, o cümlədən qüsursuz ə'la parça Reydən gətirilir. Mən bu şəhərdən getdikdən sonra moğol qoşunları bu şəhəri istila etməyə gəldilər. Əhali ilə onlar arasında döyüşlər oldu və əhali müdafiəni yaxşı təşkil etdilər. İki dəfə Moğol ordusu məğlubiyyətə uğradıldı. Lakin həmin ordu 3-cü dəfə şəhəri işğal etmək üçün gəldi və əhaliyə qalib



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gələrək şəhəri istila, pis vəziyyətdə dağıdaraq yerlə yeksan etdi. Çoxlu müsəlman öldürüldü, canlarını onların əlindən qurtaranlar gizləndilər, yalnız onda moğollar çıxıb getdilər. Bu xaraba şəhərdə az əhali qalmışdı. Amma indi əvvəlkindən daha abaddır. Deyirlər Ərdəbili Firuz bina etmişdir. (Firuz-Sasani hökmdarı I-Qubadın (488-531) oğludur) və Bazan-i Piruz adlandırılırdı". Əbu Səid deyir: "ehtimal olunur ki, bu şəhər Ərdəbild ibn Ərmini ibn Ləfti ibn Yunana mənsub olmuşdur. Ərdəbilin vəznəsi böyükdür və 1400 dirhəmdən ibarətdir. Ərdəbildən Səraba iki mənzil, Təbrizədək 7 günlük yoldur və Xalxaladək 2 gündür. Bu şəhərdə bütün elm sahələrinə aid alimlər yetişmişdir".

"Nüzhətül-qülub" yazır: "Ərdəbilin təməlini Keyxosrov ibn Səyavuş Kəyani qoymuşdur. Səbəlan dağının ətəyində, havası son dərəcə soyuqdur, bu cəhətdən taxıl pis alındığından həmin il tamam ovub tökmək mümkün olmur və bir hissəsi gələn ilə qalır. Taxıldan başqa məhsulu yoxdur. Suyu Savalan dağından gəlir, yeməyi tez həll etdiyindən əhalisi çoxyeyəndir. Əhalinin əksəriyyəti şafeyi və bə'zisi Şeyx Səfiəddinin müridləridir. Bu vilayət yüz kənddən ibarətdir. Hər biri də çox soyuq təbiətə malikdir. Savalan dağının başında bir qala var imiş. Çox möhkəm qala olduğundan ona qəzəbli və ya tunc Bəhmən (Firdovsi "Şahnamə"sinin qəhrəmanlarından İsfəndiyarın oğlu) deyirlər. Keyxosrov Fəribürz ibn Kavus ilə padşahlıq üstündə müharibə edən vaxt belə qərara gəldilər ki, hər kəs Bəhmən qalasını tutsa,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hakimiyyət onun olacaq. Keyxosrov qalanı tutdu və padşah oldu. İndi bu qala dağılmışdır. Babək Xürrəminin e'dam olunduğu zindan Gilan tərəfdən Ərdəbil dağındadır. Dövlət vergisi 85 min dinardır, balansın üçdə biridir. "Zinətül-məcalis"də "Nüzhətül qülub"a əsaslanır. "Təqvimül-buldan" İbn Hövqələ isnadən yazır ki, Ərdəbildən Zəncana beş mənzil Azərbaycanın axırıncı şəhəri olan Xoyadək 27 fərsəxdir, Savalan dağının 2 fərsəxliyindədir. Məhəlli deyir: "Bu şəhər Azərbaycanın şimalındadır. Onun qərbində bir dağ vardır ki, həmişə qarla örtülü olur və buradan Təbrizədək 15 fərsəxdir. İnsanları inadkar təbiətlidir. ("Asarül əvvəl"). Əbu Hamid Əndəlusi deyir ki, Ərdəbil şəhərinin xaricində meydanda çoxlu böyük daşlar vardır ki, əhalinin gur yağışa ehtiyacı olan vaxt bunlardan arabalara yığıb şəhərə gətirirlər, nə qədər daş şəhərdədir, yağış yağır. Daşı şəhərdən çıxaran kimi yağış kəsir. Bu şəhərdə siçan həddindən artıqdır. Ona görə də pişik burada əhali üçün başqa şəhərlərə nisbətən çox əzizdir, ona ehtiram bəsləyirlər. Hətta xüsusi pişik dəllalları vardır ki, müəyyən olunmuş qismətə bazarda uca səslə "ovçu, ağıllı pişik, oğru, tükü tökülən olmayan pişik" satıldığını e'lan edirdilər".

Müəllif deyir: "Bu şəhər Azərbaycanın böyük şəhərlərindən biridir və Bölükçayın sağ tərəfində, 140 min zər' Təbrizdən şərqdədir. Şeyx Səfiəddin rəhmətullahın məqbərəsi və onun bə'zi övladlarının məqbərələri bu şəhərdədir. Əlverişli hava şəraiti və suyu bu torpaqda hər cür kənd təsərrüfatı məhsulları



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əkib becərməyə imkan verir. İndi burada bir qala vardır ki, Rəhmətlik Xaqanın (Fətəli şah) və İran dövlətinin vəliəhdi rəhmətlik Naibüssəltənənin Abbas Mirzə hakimiyyəti dövründə də mövcud idi və bu qalanı Fransanın nüfuzlu generalı Qardan ki, Fransanın səfiri idi, I Napoleon tərəfindən göndərilərək bina etmişdir. Bu şəhər bütünlüklə Səfəvilər zamanı əhalisi çox olan, abad şəhər olmuşdur. Tələbələr və təhsil alanlar üçün çoxlu vəqf əmlakı var idi. Ərdəbil kitabxanası dünyada məşhur olmuşdur, kitablarının əksəriyyəti ərəb dilində, bir qədər də fars və türk dillərində və çoxusununun cildləri qızıl və gümüşdən idi. Amma indi onlardan heç bir şey qalmamışdır. 1746-cı məsihi ilində (1159 h.q.) Nadir şah Əfşar Ərdəbil yaxınlığında olan Muğan çölündə öz qılıncını qınından çıxardıb İran məmləkətinə etdiyi xidmətləri söylədikdən sonra qılıncını qınına qoyub dedi: "İndiyədək nə bacardım etdim, bundan sonra özünüzə bir padşah seçin. İranın ordu başçıları və yüksək mövqedə olanları yekdilliklə onu səltənətə padşah seçdilər. Deyirlər Nadir şah tac qoyma mərasimini Ərdəbildə keçirmişdi.

Ərdəbil elə mövqedə yerləşir ki, Tiflis, Tehran, Təbriz və Badkubə, Gilan və Dərbəndə gedən yol buradan keçdiyindən şəhər ticarət mərkəzi hesab olunur. (Fransalı tacir Tavernye II Şah Abbas zamanı İranda olarkən yazmışdır ki, Ərdəbildə ipək ticarəti geniş vüs'ət almışdır. Bu əsrdə şəhər əhalisi o qədər pakdır ki, burada içki, şərab işlənmir, hətta burada



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yaşayan və şərabdan istifadə edən erməni əhalisi də sərxoş olmurlar. Ərdəbil dini mərkəz idi.

İran xalqı da dini e'tiqaddan və yaxud sitayiş üzündən bayram günlərində Şeyx Səfiəddin məqbərəsinə ziyarətə gəlir. Bu məqbərənin ətrafında bir neçə məscid və mədrəsə mövcuddur. Bu mədrəsələrin qapıları gümüşdəndir. Şeyx Səfinin qəbiri son dərəcə gözəldir. Dörd guşəsində, qızıl günbəzin səqfində qızıl və gümüşdən qəndillər asılmışdır. Nəhayət, məsihi 1637-ci ildə (1047 h.q.) I Şah Abbasın hüzuruna göndərilmiş Holsten vilayətinin səfiri Oularyus adlı birisi Ərdəbilə yetişmiş və o yazırdı: "Ərdəbil Aəzrbaycanın qədim şəhərlərindəndir və böyük İran səltənəti sultanlarının iqamətgahıdır və indi burada dəfn olunmuş Şeyx Səfi İran padşahının ulu babasıdır. Ərdəbilin qədim adı Ərbəladır, əhalisi türkcə danışır və şəhər, ətrafı dağ olan bir səhranın ortasında yerləşir. Payız fəslində Ərdəbildə xroniki xəstəliklər həddindən çox olur, xüsusən malyariya xəstəliyidir ki, Gilandan buraya sirayət edir. Bu fəsildə şəhərdə günün ortasında bərk küləklər əsir və əhali bu sözləri zərbülməsəl kimi işlədir. "Səbaye Ərdəbil, nim ruz kərdi-bil") (Yarım gün əsən Ərdəbil küləyi torpağı belləyir). Yenə Oularyus yazır: "İran şahı Ərdəbildən çox mənfəətlər götürür və əsas mənfəət köçəri tayfalarındadır ki, bahar fəsli Ərdəbilin ətrafında olan otlaqlarda olan öz iri buynuzlu mal-qaralarını otarmağa gəlirlər. Bu otlaqlara daxil olan hər bir qoyun üçün divana iki şahı verilməli idi. Hazırda Ərdəbildə qala divarı və qala yoxdur və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hər evin öz bağı vardır. Xaricdən şəhərə girən müsafirlər bağların çoxluğundan meşəyə daxil olduqlarını zənn edirlər. Əvvəllər Ərdəbil kitabxanasının tavanı günbəz şəklində olmuşdur. Yuxarıda adı çəkilən Şeyx Səfi məqbərəsinin mətbəxi bir gündə xidmətçilərdən əlavə min nəfər adama yemək verir və gündə üç dəfə yemək verilir. Yeməklər duru xörək və plovdan ibarətdir. Dövlət bu xərcə görə mətbəxə gündə 50 tümən pul verir. Bu da gələn əhalinin gətirdikləri nəzirlərinin hesabına edilir. Nahar vaxtı xəbərdarlıq üçün təbil çalınır. (Ərdəbildə olan məzarlar: Şeyx Səfinin məzarı, Şeyx Səfinin oğlu Şeyx Sədrəddinin məzarı, Şeyx Sədrəddinin oğlu Şeyx Zeynəddinin məzarı, Şeyx Zeynəddinin oğlu şəhid Sultan Heydərin məzarı, Sultan Heydərin oğlu Şeyx Heydərin məzarı, Şeyx Heydərin oğlu Şah İsmayılın məzarı, Şah İsmayılın oğlu Şah Təhmasibin məzarı, Şah Təhmasibin oğlu II Şah İsmayılın məzarı, II Şah İsmayılın oğlu Məhəmməd Xudabəndinin məzarı, şah Məhəmməd Xudabəndinin qardaşı və oğlanları İsmayıl Mirzə və Həmzə Mirzə və I Şah Abbasın qəbirləri).

Ərdəbilin qədim adı Azərbəhmən olmuşdur. Bu şəhərin yaxşı cəhətlərindən biri budur ki, cənub tərəfdə olan bir dağın ətəyində yerləşir və bu dağ Xəzər dənizindən şəhərə əsən zəhərlə dolu isti küləklərin qarşısını kəsir. Bu şəhər Səfəvi sultanlarının zamanında İran məmləkətində müqəssir xalq kütləsinin sığıncağı və pənahı idi. Belə ki, hər kəsin böyük təqsiri olsa, canının qorxusundan bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şəhərə qaçıb, şeyx Səfi məqbərəsində əyləşirdi və bu zaman ona aman verilirdi. Şeyx Səfi məqbərəsinin ziynətlərindən biri Həzrət peyğəmbər (s)in atının bir ayağının nalıdır. Bə'zi alimlər bu şəhərdəndirlər. O cümlədən mərhum Molla Əhməd Ərdəbilidir ki, böyük ali, zahid və mö'min şəxsiyyətdir.

(S.30) Ərşəq - Azərbaycanın Muğan torpağında Babək Xürrəminin Bəza şəhəri yaxınlığında bir dağdır.

(S.30-31) ("Mö'cəmül-buldan") Urmiya Azərbaycanın böyük və qədim bir şəhəridir. Urmiya gölündən 3-4 mil aralıdır. Bə'zilərinin əqidə və fikrinə görə Zərdüştün şəhəridir və şəhəri onun kahinləri tikmişlər. 617-ci ildə (1220-21) şəhər çox yaxşı mənfəət dolu, çox meyvəlidir və onun bağları çoxdur. Sağlam suyu, bol havası vardır. Bir nöqsanı odur ki, Özbək ibn Pəhlivan ibn Eldəgəz bu şəhərin hakimidir və idarəetmə qabiliyyəti yoxdur, bu şəhərə o qədər də fikir vermir. Buradan Təbrizədək 3 günlük yoldur. Ərdəbilədək isə 7 mənzildir. Onun gölü barədə ayrıca bəhs edəcəyəm. Bu ölkəyə mənsub olanlara Ürməvi və Ürməçi deyirlər. ("Təqvimül-buldan"da yazılır): "Urmiya Təla gölünün qərbindədir və həmin göldə olan bir adadakı bir dağın üstündə qala vardır. Hülakü xan bu qalanın əlçatmaz olduğunu nəzərə alaraq öz əmlakını buraya qoymuşdu. Məhləbi deyib: Urmiya Qərbdən Azərbaycan hüdüdünda yerləşir və Səlmasın qərbində, onun 16 fərsəxliyindədir. Bə'zi alimlər deyirlər ki, Urmiya qala divarları olan şəhərdir, əcəm dağlarının



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

arxasında, şimaldan və qərbdən Təla gölünün şimal və qərbində, onun bir mənzilliyindədir".

("Asarül-əvvəl"də verilən mə'lumat digərlərinə uyğundur. Burada deyilir: "Urmiya gölündə bitki və balıq yoxdur".

("Nüzhətül-qürub" yazır: Urmiya 4-cü iqlimdəndir və böyük bir şəhərdir. Çiçəst[38] gölünün kənarından 12-min qədəm uzaqdadır. Havası isti, suyunun mənbəyi dağlardan gələrək kiçik olan Çiçəst axır. Çox zəngin bağları vardır. Bu bağlarda üzüm, armud, alu, peyğəmbəri, sarı alça çoxdur. Əhalinin əksəriyyəti sünnidir. 120 kənd onun tabeliyindədir, mülkləri çox tərəqqi etmişdir. Dövlətə rüsumu 74 min dinardır. "Zinətül-məclis"də "Nüzhətül qüluba" əsaslanaraq belə yazır.

Müəllif deyir: "Qədim zamanlarda Urmiya şəhərindən Təbrizədək 32 fərsəxdir. Qədimdə bu şəhəri Tabar adlandırırdılar. Təbrizin qərbində yerləşir. Gölü 4 zər'dən artıq dərin deyildir, suyu həddən artıq şordur, pis dadı vardı, neft və qır qoxuyur. Bu göldə bir neçə ada vardır ki, ən böyüyü Şah adasıdır ki, şirin suyu vardır. Bu göldə heyvanlar və bitki aləmi çox zəngindir. Urmiyada mədrəsə çoxdur. Onun tütünü İranda ən keyfiyyətli tütün sayılır. Rəhmətlik Ağa Məhəmməd Qacar 1210-cü (1795/96) ildə Urmiyada şahlıq tacını qoyanda belə nitq söyləmişdir: "İndi ki, mənim tac qoymaq arzum güclüdür, bilin ki, sizin əziyyətiniz bundan sonra daha da artacaq, nə üçün ki, İran səltənətinin tacını başıma qoyduqdan sonra mən o qədər çalışacağam ki, İranın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bütün keçmiş hökmdarlarından da artıq bacarıq, nüfuz və üstünlük və şöhrət qazanım". Sonralar Ərdəbilə gəlib, Şeyx Səfi rəhmətullahın məqbərəsinin yuxarısında olan qılıncı götürüb kəmərinə bağladı. Bu qılıncı götürməkdə məqsədi bu idi ki, din yolunda və şiə məzhəbinin rəvacı üçün bu qılıncı işlədək. Şəhid olmuş şahın bu əməlini I Napoleon bir neçə ildən sonra təkrar etdi. O, Berlini fəth etdikdən sonra Böyük Fridrixin qılıncını onun məqbərəsinin başından götürüb öz kəmərinə bağladı.

(S.31-34) Ərvən (Əlvənd) Mənzərəli biri dağ adıdır ki, Həmədan şəhəri bu dağın kölgəsindədir və Həmədan əhli bu dağı şe'r və nəsrlə təsvir və tə'rif etmişlər, onu öz şəhərləri üçün böyük fəxr hesab edirlər. Qürbətdə olanlar bu dağı şövq və zövqlə seyr edir, onda əylənirlər. Həmədan şəhərinin başqa şəhərlərdən üstün olduğunu deyirlər. Eynülqüzzaq Abdulla ibn Məhəmməd Miyanəci[39] məhbus olarkən Həmədan əhalisinə məktub yazmış və bu iki misra ərəbcə şe'ri burada vermişdir. Şe'rin sətri tərcüməsi belədir:

Kaş ki, gözüm bir daha Həmədandakı Ərvəndin
zirvəsin görəydi,
Ordakı evlər mənim boynumdan asılan həmayildir,
onun sakinlərinin sinəsindən süd əmmişəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mə'lumdur ki, dağların suyu dağların altından çıxır. Ərbənd suyu isə dağın zirvəsindədir. Başqa şairlər də Bağdadın gözəllərinə xitabla Həmədan və Ərvənd haqqında yazmışlar.

Həmədan əhlindən olan bir şair rəvayət edərək deyir ki, Həzrət Əbi Abdulla Cəfər ibn Məhəmməd əl-Sadiq əleyhissəlamın hüzuruna getmişdim. Həzrət buyurdu ki, haralısan? Ərz elədim ki, dağlardan. Buyurdu hansı şəhərdənsən? Dedim Həmədandan. Buyurdu, Ərvənd deyilən Həmədan dağında behiştdən axan çeşmələrdən biri vardır. Həmədan əhalisi Həzrətin buyurduğu çeşmənin həmin bu Ərvəndin qülləsində olan çeşmə olduğunu söyləyirlər. İlin müəyyən vaxtlarında daş ovuqdan su xaricə çıxır və bu su çox yüngül, tez həzm olunan və soyuqdur. Əgər bir adam bir gecə və bir gündüz tezdən bu sudan çox içsə, bundan ona ağırlıq və ziyan olmaz, əksinə onun sağlamlığı üçün fayda verər. Digər rəvayətə görə əgər bir adam bu sudan azca içsə, yenə içmək istəyəcək. Müəyyən vaxtlar bu çeşmənin suyu quruyur və ondan əsər-əlamət qalmır, ta gələn ilin müəyyən vaxtınadık eyni gündə, nə əvvəl, nə də sonra, su yenidən görünür. Bu su bir çox xəstəliklər üçün faydalıdır. Bu su üçün ətraf yerlərdən xəstələr gəlirlər. Deyirlər bu çeşmənin başında adam çox olanda su da çox olur, az adam olduqda az su olur. Məhəmməd ibn Bəşşar Həmədani bunun mədhinə qəsidə demişdir: "Nüzhətül-qülub"da dağlardan danışarkən haqqında bəhs olunan dağ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həmədanın cənubunda olan həmin bu dağdır, sahəsi təxminən 30 fərsəxdir və zirvəsində daima qar olur. O dağı 20 fərsəxlikdən, bəlkə ondan da artıq məsafədən görmək olur. Dağın zirvəsində bərk süxurun üstündə bir çeşmə vardır, o daşdan bir qədər su sızır və bunu yayda görmək olar və qışda qar onu gizlədir. Cümə günü axşam mən ora yetişdim. Dedilər hər həftə bir gecə-gündüz bu su torpaqdan çıxır və axır. Başqa günlər axa bilmir. "Əcaibül-məxluqat və Təbəqati-nasiri" göstərir ki, Əlvənd dağından su 42 çaya enir, gözləri kifayət qədərdir. "Zinətül-məcalis"in əlavəsində Həmədan haqqında bəhs olunarkən bu dağ haqında "Nüzhətül-qülub"da olan mə'lumat eynilə verilmişdir. Orada deyilən məşhur fikir budur ki, bu dağda 4 min bulaq vardır və 42 çay bu dağdan başı aşağı axır.

Müəllif deyir: "İndi bu dağı Əlvənd adlandırırlar. "Re" hərfi "dam" ilə əvəz olunmuşdur. Mən özüm bunu iki dəfə səyahət etmişəm, birinci dəfə 1276-cı (1859-60) ildə ki, atam Ərəbistan və Luristan qubernatorluğuna xidmətə göndərildikdə Əlvəndin ən böyük və ən yaxşı vadilərindən olan Abbasabad vadisinə keçib Tuysərqana getmişəm, bu, yayın ortalarında olmuşdur.

İkinci dəfə bu vadidən 1288-ci ildə (1871/72) qalib mübarək padşahın atlı dəstəsinin tərkibində İraqi-Ərəbə və Şərqin müqəddəs yerlərini ziyarətə gedən vaxt rəcəbin 16 şənbə günü keçmişəm. Bu vade haqqında geniş surətdə Humayun özü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Ruznameyi-Səfəri-Ətabat" əsərində qələmə almışdır ki, həmin hissəni aşağıda veririk:

Əhvale-Əlvənd, nəql əz ketabe-səfərnameye-Humayun

(S.33) 16 rəcəb çərşənbə günü səhər durub atlandıq. Sultan Səlim Mirzənin məsləhəti və bələdçiliyi ilə Abassabad vadisinə getdik. Bir qədər yol gedərək vadiyə çatdıq. Bura ortasından çox, saf su axan işıqlı geniş bir vadidir. Vadinin iki tərəfi ağaclardır. İndi payız fəsli quraqlıq olduğuna baxmayaraq bura yenə də xeyli səfalı idi. Bu vadinin bol suyu və təravətli görünüşü onu bahar çağlarına bənzədirdi. Xülasə atları sürdük, mənimlə Əminhüzur, Mö'təmədülmülk, Mehdiqulu xan, Moqul xan Mühəqqiq və başqaları idilər. Mö'təmədülmülk qayıdıb, teleqrafxanaya getdi. Biz hər yeri gəzdik, elə ki, meşə və ağaclıqlar qurtardı, çayın axırında su iki qola ayrılır. Bir qolu vadinin Tuysərqan yoluna axır, digəri isə başqa vadiyə gəlir. Bu vadinin yuxarısında böyük bir daşın üzərində mixi xətti ilə yazılmış bir lövhə vardır. Gedib müşahidə etdim, bütöv idi. Dağılmış bir qalanın izi olan bu keşikçi dağın üstündə bu xətt kimi yazılar gördük həddindən artıq yorğun və kədərli oldum ki, bu xəttləri oxumağı bacarmadım. Bir qədər aşağı endim, axan saf suyun yanında çadır quruldu və nahar etdim. Mirzə Əli xan və Məhəmmədhəsən xan da gəldilər. Nahardan sonra atlanaraq, əkinlərin kənarları ilə Tuysərqana gedən yola sürdük. Yol hər yerdə eniş və sərt yoxuş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyildir. Güllənin yaxınlığında bir az yoxuş idi, lakin yolu rahatdı. Əkindən yüksəkdə əyləşib, durbinlə seyr etdim. Sultan Səlim Tuysərqan kəndlərini düzənlikləri ilə tanış etdi. Tuysərqan düzənlikləri çox qəşəng, yaşıl, səfalı və yaylaqdır, çoxlu böyük kəndləri vardır. Qarşıdakı bir dağ Tuysərqan şəhərini görməyə mane olurdu. Bir qədər qəsəbənin ağacları görünürdü. Bir dağ ki, görünürdü, deyilənə görə bu səhranın ortasında çılpaq Xangörməz dağıdır. Dağın üstü düz, ətrafı eniş və daşlıqdır. Deyirlər burada təkə və keçi olur. Bisütun dağı göründü, Nəhavənd və Luristan dağları görünməyə başladı. Səhra və Kəngavər[40] şəhəri zahirə çıxdı. Bir qədər oturub tamaşa etdim. Nar yedim çay içdim, namaz qıldım. Tuysərqan əhalisindən olan adyutant Murad xan bizim üçün tüfəngli qoruyucu tə'yin etmişdir ki, gediş-gəliş zamanı oğurluq hadisəsi olmasın. Tuysərqan Həmədanla müqayisədə xeyli yüksəkdədir. Bu tərəfi Həmədana nisbətən təxminən 1000 zər' yüksəkdədir. Bu kün öküzə kömür yükləyib aparan xeyli luristanlı göründü. Onlar Həmədana gedirdilər. Tuysərqan düzənliyində Əlvəndin ətəklərinə yaxın yerləşən bə'zi kəndlər ki, görünürdü, onların adlarını soruşdum. Onların adları belədir:

1. Şəhristanə, vəqfdir.
2. Timiyan.Murad xan Yavər və başqalarının mülkü.
3. Sistanə. Kərim xan və qeyrilərin mülkü.
4. Əştəran. Murad xan və qeyrilərin mülkü.
5. Kərzan. Hacı Səyidüddövlənin mülkü.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

6. Vərdotin. Hacı Hüseyn Mirzə və Sultan Səlim Mirzənin mülkləri.

Hacı Mirzə Əli Meşkatülmülk də gəldi, Namazdan sonra atlara minib qayıtdıq, yol uzaq idi, yoruldum. yol daşlıq idi. Ta Abbasabad vadisinə çatdıq. Müəyyirülməmalikin mənzilinə, yaxınlığına gəldik. Torpaqdan qızıl axtaranları gətirmişdilər. Gəlib atdan düşdüm. Torpaqdan çıxarılan şeyləri gördüm. Burada hər cürə şey var idi: xırda qızıl, qırıq gümüş, zərb olunmuş pul, qızıl və gümüşdən hazırlanmış qədimi şeylər, qızıl tellər (zəncir), qurğuşun və misdən düzəldilmiş alətlər, qara pullar, xeyli böyük oxlar. Biz burada çox qaldıq. Hacı Mirzə Əli Münkir[41] kimidir qızıl axtarmaqda.

Elə bunu demək olar ki, həmədanlılar mixi əlifbası ilə yazılmış bu lövhəni gəncnamə adlandırırlar. Lakin müəllifin fikrincə Midiya padşahlarından birinin fəth etdiyi ölkənin aşkar tarixidir ki, paytaxtları indiki Həmədan adı ilə məşhur olan Ekbatan olmuşdur və yaxud Abbasabadın su dərəsinin təqsimnaməsidir.

(S.36) Azad Azərbaycanda kiçik bir şəhərdir. Məhsulu taxıl və pambıqdır. Bol üzümü olduğundan şərab çox hasil olur. Suyu Qaban dağlarından axır, suyun artığı Araz çayına tökülür. Adamları ağçöhrə, amma təbiətən hökmlü (yə'ni zülmkar) olur. Hökumət vergisi 18 300 dinardır ("Nüzhətül qülub"dan).

(S.37) Əsbidrud. Bu Azərbaycanda məşhur çaydan biri olan Sefidruddur. Çayın mənbəyi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Badsisdən başlayır və Xəzər dənizinə tökülür. İstəxri yazır ki, Sefidrud Ərdəbil və Zəncanın ortasındadır. O qədər kiçikdir ki, orada gəmi işləmir və axırı Deyləm şəhərindən və Salar adı ilə məşhur olan Səmiran qalasının altından keçir.

Müəllif deyir: "Yaqutun əqidəsinə uyğun olaraq Səmiran çayın yuxarısında Tarım dağları arasında möhkəm bir qaladır, lakin qartalların burada hökmranlığı o qalanı dağıtmışdır.

(S.37) "Möcəmül buldan"dan: "Əsədəbad Həmədanın bir mənzilliyində şəhərdir. İraq və Miyanə və Mətanici-Kosradan 3 fərsəx, Qəsri-Ləsusdan (Kəngavər) 4 fərsəx aralıdır. Bu şəhər Əsəd ibn Qiba Zissərdin bina etdiyidir ki, buradan qılıncla köçərkən bu yeri qazanmışdır. Bu şəhərdən xeyli elm əhli çıxmışdır ("Nüzhətül-qülub"da yazılmışdır: "Əsədəbad 4-cü iqlimdən olan kiçik bir şəhərdir, havası mülayimdir, suyu Əlvənd dağından gəlir və yeraltı suları vardır. Məhsulu pambıq, taxıl, meyvə və üzüm çox yaxşıdır. Əhalisi ağüzlüdür. Dövlətə 1 tümən 5500 dinar vergi verir. Bu vilayətdə 35 kənd vardır).

("Təqvimül-buldan" Yaqut Həməvinin göstərdiyi kimi yazır: "Əsədəbaddan Həmədanadək 9 fərsəxdir, Dinəvərədək 17 fərsəxdir və yenə Əsədabad bir kənddir ki, Bihəq torpağında Nişabur və Xorasanda Hüşam ibn Əbdülmülk bin Abdulla əl-Qəsrinin dövründə bina edilmişdir. Bu, onun h.120-ci ildə (m.737/38) qardaşı tərəfindən Xorasan hakimi təyin olunan vaxt idi).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Müəllif deyir: "Əsədabad hal-hazırda şəhər deyildir, bəlkə bir qəsəbədir. Burada yaşayan əhali əfşarlardır. Sahəsi məhsuldar bağlardır. Onunla Həmədan arasında hündür, əzəmətli dağda olan aşırıma həmədanlılar Əsədabad aşırımı deyirlər. Bu dağdan Həmədana və Əsədabada iki yol vardır. Yolun biri daha çətin və daha qısadır ki, bu yoldan top və kolyaska belə keçə bilməz. Digəri bir qədər uzaq, lakin asandır və araba yoludur. Qar fəsli bu yollardan keçmək çox təhlükəlidir.

(S.39-40) Əsfizar. Deyləm dənizi kənarında vilayət adıdır ki, geniş kəndlərə və böyük nüfuza malik hakimləri vardır.

Bu vilayətin hökmdarları heç kəsə itayət etmirlər və vüqarlıdırlar, çünki Şamaxı dablarının çətin keçidləri və dar yolları vasitəsilə qorunurlar.

(S.41) Əştər. "Möcəmül-buldan" yazır: Nəhavənd və Həmədan arasında olan mahaldır. İbn Fəqih deyir: "Nəhavənd dağında qardan iki heykəl vardır. Biri öküz, digəri balıq şəklindədir, bu, iki tilsimdir. Həm yay rəsmində və həm də qışda bu heykəllər qar şəklində qalır, heç vaxt əriyib suya dönmür. Deyirlər bu iki heykəl Nəhavənd suyunu qoruyandır ki, su heç vaxt tükənmir və həmin dağdan su iki yerə ayrılır. Suyun bir hissəsi qərb tərəfə axır və Əştər ilə tanınan kənd bu su ilə suvarılır və bu kəndi əhali Liştər kəndi adlandırırlar. Rustaqi-Liştər və Əştərlə Nəhavənd arasında məsafə iki fərsəxdir. Şapura qədər isə on iki fərsəxdir. Əştərə mənsub əhali vardır. O cümlədən Əbu Məhəmməd Mehran



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bin Məhəmməd Əştəri Bəsridir və mənim tərəfimdən təhqiq olunmamışdır ki, bu adam bu Əştə-rə mənsubdur, ya onun əcdadlarından biri Əştər adlı olmuşdur, əslində Luristandandır.

Müəllif deyir: "Haqqında yazılmış Nəhavənd dağında qardan olan öküz və balıq şəkilli heykəllər indi də mövcuddur. Əhali ona Gavmasa deyir ki, bu da qədim fars dilində Gavmahi deməkdir (Guya yeri buynuzlarında saxlayan əfsanəvi öküz - H.T). Onun altından, daşın içərisindən böyük həcmdə çoxlu su çıxaraq Girmanşahda olan Bisütuna tərəf axır. Suyun mənbəyinə Sərabi-Gavmasa deyirlər. Bu su ilə böyük bir ərazi suvarılır. Əştər adlı mahal və kənd yoxdur. Kəndin Əştəran adlanan bir hissəsi qalmışdır ki, bu da Tuysərqan və Həmədan arasında olan Xürrəmrud dərəsində vaqedir. Oradan Nəhavəndə 8-9 fərsəx məsafə vardır. Bu kəndin sahibi, Əştəran xanlarıdır ki, həmin kənddə yaşayırlar. Onlar sərvətsiz, kasıb deyillər. Əştəran məhsuldar və yaxşı yerdir. Həmədanla Nəhavənd arasında Əştər yoxdur.

(S.43) "Möcəmül-buldan" yazır: (Uşnə). Bu şəhər Azərbaycan hüdudlarından birində, Ərdəbil tərəfdədir. Buradan Urmiyayadək iki günlük yoldur. Ərdəbilədək 5 fərsəxdir və Anisinin arasında yerləşir. Çoxlu bağları vardır, burada olan itlər seçilir. Bütün rayonlara yol onun yaxınlığından keçir. Bu şəhərin bir nöqsanı vardır ki, o da dağılmış vəziyyətdə olmasıdır. Təbrizə səfər zamanı bu şəhərdən keçdim və ona tamaşa etdim. Bir sıra alimlər bu şəhərdəndir. Lakin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bu şəhərə mənsubiyyət üç cürdür. Uşnani, Uşnəhi və Uşnai.

"Nüzhətül-qülub"da bu şəhərin adı Uşnəviyyə yazılmışdır. Orada göstərilir ki, şəhər dördüncü iqlimdən olub, Savalan dağının şərqindədir və cənuba meyl edir. Havası soyuqdur. Suyunu Savalan dağından alan bir çay bu şəhəri təchiz edir. Məhsulu taxıl və çoxlu başqa dənli bitkilərdir, üzüm, meyvəsi isə azdır. Əhalisi ağ dərilidir və sünniməzhəbdir, çox yeyəndirlər. Bu vilayət 100-ə yaxın kənddən ibarətdir və dörd rayondan ibarətdir. Dövlətə 81 min dinar vergi verir.

(S.468) (Nizami haqqında). Nəsrəddin şah Qacarı Avropaya səfər zamanı müşaiət edən müəllif (1290, 14 rəcəb/1873, oktyabr) qayıdarkən bə'zi işlərlə əlaqədar olaraq yolda ləngimiş, şahı Bakı limanından İrana yola saldıqdan sonra bir neçə gün şəhərdə qalmış, onun tarixi abidələrini ziyarət etmişdir. O, Tiflisdən Bakıya gələrkən yolda Gəncə şəhərinin bir fərsəxliyində bir yer görmüşdür. O yeri Rusiya indi çaparxana adlandırır və orada mühafizə dəstələri yerləşdirilmişdir. Bu yerdə bir müqəddəs məzar görünür. Mərifətli görünən çaparlardan birinə yaxınlaşıb soruşduqda ki, bu məqbərə kimindir? - dedilər xacə Nizaməddin rəhmətliyindir. Necə təəssüfləndiyimi sözlə ifadə edə bilmirəm. İsgəndər, Bəhram Gur, Xosrov və Qeys Amirinin ziyarətgahı olmalı bu yer tövlə və çaparxanadır. Bu büzürgvar Azərbaycan Atabəylərinin müasiri olub və Qızıl Arslanın Şeyxə böyük e'tiqadı var idi. Qızıl Arslan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

onun hücrəsinə gələrək görüşmüş və ona hörmət etmişdir. (Həmdünyan kəndi Nizamiyə yə'qin ki, bu görüşdən sonra bağışlanmışdır - H.T.)

(S.93-95) Ələmut suyu bol olan yerdə, Qəzvinlə Xəzər dənizi arasında yerləşən möhkəm bir qaladır. Bu qala İsmail hökmranlarının məskəni olmuşdur. Deyilənə görə Deyaləmə sultanlarından biri burada ov etmək üçün götürdüyü qartalı buraxmış və qartalı təqib edərək bu yerə gəlib çıxmışdır. Buraların əlçatmaz yerlər olduğunu görüb, burada qala tikdirmişdir. Adını "ələ əmut" qoymuş ki, bu ifadənin tərcüməsi deyləm lüğətində qartal təlimi deməkdir. Qalanın adında olan "mim" "vav" və "ta" hərfləri əbcəd hesabı qalanın inşa tarixinin hicri 446-cı il, miladi 1054-cü il olduğunu göstərir. Həsən Səbbah (1090-1124) bu məkandandır və Həsən həkim, münəccim mühəndis idi. Deyirlər ki, sehrbazlıq elmlərindən də xəbərdar idi. Xacə Nizamülmülk Tusi ona fəzilətinə görə ehtiram bəsləyirdi və Həsən Səbbah Misrə getdikdə özünü Məhəmməd bin İsmayıl bin Cəfəri-Sadiq əleyhissəlamın övladı adlandıraraq Misir xəlifələrindən biri olan Montəserin hüzuruna varid oldu və onun icazəsi ilə yanında qalıb xidmət etmişdir. Sonralar İrana qayıtdıqda Rudbar deyilən bu yerdə yaşamışdır...

Bu (ismaililər) tayfası moğollara qədər yaşamışdır, onlar moqol böyüklərindən birini qətlə yetirdikləri üçün moğol ordusu onların hamısını məhv etmişdir. Müəllif deyir; haqqında bəhs olunan bu tayfa kafirlər kimi tanınmış və onları ismaililər[42]



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(ismailiyyəyi-Qehistan) də adlandırırdılar. Onlardan səkkiz nəfər Rudbarda hökmranlıq etmişdir.

I-ci Həsən Səbbah olmuşdur, 2-ci Kiya Bozorg Ümid Rudbari, 3-cü Məhəmməd bin Kiya-bozorg, 4-cü Həsən bin Məhəmməd, 5-ci Məhəmməd bin Həsən, 6-cı Cəlaləddin Həsən bin Məhəmməd, 7-ci Əlaəddin Məhəmməd bin Cəlaləddin, 8-ci Ruknəddin Xor şah ibn Əlaəddin.

Ruknəddinin hakimiyyəti zamanı Hülakü xan öz qardaşı Menqu xanın əmri ilə yürüş edərək, kafirlərin hakimiyyətinə (ismaililər dövlətinə) son qoydu.

Xacə Nizamülmülkün dediyinə görə Səbbahın oğlu və atası əqidələri uğrunda çalışan olmuşlar. Onlar Reydə dünyaya gəlmiş və İmam Müvəffəq Nişaburinin tələbəsi olmağın şərəfli olduğunu bildiklərindən Həsənin atası onu Nişabura gətirmiş, imam Müvəffəqin yanında Xacə Nizamülmülk Tusi və həkim Ömər Xəyyam Nişaburi ilə bir yerdə təhsil almışdır.

Onların hər ikisi ali məqama yetişdilər. Belə ki, Xacə Alp Arslanın vəziri oldu. Ömər onun yanına gəldikdə Xacə onun xahişi ilə 1200 misqal qızıl ayırdı ki, o, Nişapurda elmlər tə'lim etmək üçün qalsın, xüsusən heyət elmində kamilləşsin. Amma Həsən Məlik şah Nişaburun hakimiyyətinə qədər az tanınırdı. Bu zaman o, Xacənin yanına gəldi, Xacə ona ehtiram göstərib Məlik şahın yanına apardı. O burada qaldı, ondan mərhəmət və diqqət gördü. Çox keçmədi ki, Xacənin işlərində qarışıqlıq yarandı. Məlik şah ondan ölkənin xərclərinin nəticəsini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

istədikdə o dedi ki, Xacə iki ilə nəticəsini söyləyər. Həsən hesabda məharətli olduğundan dedi ki, əgər bütün vergi yazanlar mənimlə birlikdə işləsələr, bu işi qırx günə tamamlayaram. Həqiqətən də hazırladı, lakin deyilənlərə görə bu zaman bəzi cəhətləri Xacənin göstərişi ilə kənara atmışdılar. Məlik şah bu iş barədə hər nə sual etdisə, Həsən aciz qalaraq cavab verə bilməyib, xəcalət çəkdi. O artıq Məlik şahın sarayında qala bilməyib gəlib Əbdül-Məlik ibn Əttaş Dai İsmaili ilə görüşdü və şiə məzhəbini ataraq ismaili oldu. O vaxt İsfahana getdi, bir müddət orada gizləndi, sonra Azərbaycana yola düşdü. Azərbaycandan Misrə tələsdi və Müstənsir Ələvinin lütfünü gördü. Bir ildən sonra Müstənsir vəliəhd oğlunu Nisarda kənarlaşdırıb, digər oğlunu, Məstəlini vəliəhd təyin etdi. Həsən camaatı Nisara dəvət etdi. Həmin bu satqınlıq və ziddiyyətə görə o, Misirdə yaşaya bilməyib, çarəsiz İrana qayıtdı, Rudbara gəldi və Ələmut hakimi Ələvi Mehdini hiylə ilə uzaqlaşdırıb, burada hökmran oldu.

(S.95) Əlincəq Azərbaycanda qaladır.

(S.95) Unar Azərbaycanda kiçik bir şəhərdir. Çoxlu bağları, bol suyu vardır. Ərdəbilə qədər 7 fərsəx məsafədə, dağlar arasında yerləşir. Meyvəsinin çoxu Ərdəbilə gətirilir. Pişkin vilayətindən hesab olunur.

(S.97) Əhər Azərbaycanda şəhərdir. Ərdəbil və Təbriz arasında yerləşən kiçik, çox mənfəətli şəhərdir. Bu şəhərin hakiminə ibn Bişkin deyirlər. Bu şəhərin əhalisi içərisindən xeyli fəqih və mühəddislər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çıxmışdır. Bu şəhərlə Ravi adlı şəhər arasında iki günlük yoldur. "Nüzhətül-qülub" yazır ki, Əhər kiçik şəhərdir. Havası soyuq və suyu Əhər çayındandır. Bu çay öz suyunu Əşkənbərə dağından, çeşmə və yeraltı sulardan alır. Məhsulu dənli bitkilər və bir qədər də meyvədir. Əhalisi şafeiməzhəbdir. İyirmi kəndi vardır. Şəhərin və kəndlərin dövlət vergisi 15 min dinar möhürlə təsdiq edilmiş dəftərdədir.

(S.1920 Bəzzaz Azərbaycan və Arran arasında şəhərdir. Mütəsimin zamanında üsyan etmiş Babəkin fəaliyyət mərkəzi Bəzz olmuşdur.

Müəllif deyir ki, Babək Xürrəmi ikinci yəzilliyin sonunda, h.200-cü (m.816) ildə üsyan etmiş və o əsasını şadlıq, əyləncə olan bir dini təriqət yaratmış, xalqı bu dinə dəvət etmişdir.

O, təxminən iyirmi il Abbasi xilafətinə qarşı mübarizə aparmış, müqavimət göstərmişdir. Nəticədə Mütəsimin qoşunları tərəfindən tutulmuş, Mütəsim onu öldürmüş, əl-ayağını kəsib, cəsədini Bağdadın küçələrində torpaq üzərində sürütdürmüşdür.

Şair Müsəər deyir: Bəzz elə bir yerdir ki, orada müəyyən bir yerdə hər kəs dua etsə, onun istəyi yə'qin ki, yerinə yetər və burada bir tayfa yaşayır, adına xürrəmiyyə deyilir. Onlar Babəkə itaətkarlıq edirlər. Babək burada qiyam etmişdir və burada həzrət Sahibüəmr Əcəlullanın zühur edəcəyi gözlənilir. Yəni, deyirlər o büzürgvar bu mahalda zühur edəcək. Bu yerin sağ tərəfində böyük bir çay vardır ki, xroniki qızdırması olan adam əyər bu çayda yuyunarsa, onun hərarəti düşər. Araz çay onun bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəfindən keçir. Burada dünyada tayı-bərabəri olmayan çox yaxşı nar yetişir. Bəzzdə yaxşı əncir-üzüm olur və üzümdən mövüc, kişmiş hazırlayarlar, bunun üçün üzümü təndirdə qurudurdular, çünki günəşin istisi buraya nadir hallarda düşür, çox vaxt havada bulud olur. Bəzz əhli suda çaxmaq daşından od alır. (Zərbülməsəl kimi işlənir - H.T.)

(S.193) Bərcud kiçik Lurda böyük şəhərdir. Mülayim havası vardır, suyu safdır. Burada yaxşı xurma və zəfəran yetişir. Əvvəllər xeyli böyük olub. Müəllif deyir: "Bərcud həmin indiki Bürücerddir.

"Möcəmül-buldan" müəllifi Bürucerd haqqında yazır ki, bu şəhər Həmədan və Kərəcin arasında yerləşmişdir. Həmədandan 18 fərsəx, Kərəcdən isə on fərsəx aralıdır. Bürucerd əvvəllər kənd qismində idi. Elə ki, əbu Duləfin vəziri Həmulə hökumətdə qələbə qazandı və orada minbərə çıxıb xütbə oxudu və özünə mənzil seçdi, sonra bu yeri, məntəqəni abadlaşdırıb, böyük şəhərə çevirdi. Bürucerdin müdafiəsi, neməti həddən artıqdır. Buradan meyvəcat Kərəcə və başqa yerlərə daşınır. Şəhərin uzunluğu yarım fərsəxdir, eni isə azdır. Orada zəfəran yetişdirilir. Bir çox şerlərdə Bürucerdin adamları həcv olunurlar. O cümlədən Əbu Müzəffər Əməvi bu məzmunda şe'r yazmışdır.

Müəllifə Bürucerd haqqında bu məlumdur ki, Börküyarıq 493-cü (1099) ildə İsfahandan Bağdada gedərkən bu şəhərdə vəfat etmişdir. Bu hadisə baş verməmişdən qabaq o, öz qoşununu yığıb, onlara oğlu Məlik şaha itaət etməyi tapşırdı. Müəllif (E'timadüs-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

səltənə - H.T.) 1276-cı (1860) ildə atası ilə birlikdə Ərəbistan və Luristan hökuməti ordusuna təyin olunan zaman Bürucerd şəhərini bu vəziyyətdə gördü: Bürucerd şəhərinin bir fərsəxliyində hər yerdə tam təravət var və yaxşıdır, lakin şəhərə daxil olanda adamın xaricdə gördüyündən əsər-əlamət qalmır. Əksər evlər və binalar uçulmuş və sakinsizdir.

Bu şəhərdə çox ali məscid bina edilmişdir. Şəhərin ətrafında hasar və xəndək çəkilmişdir. Bu şəhərə müsafirlər beş qapıdan daxil olurlar. Şəhərin hakiminin imarəti Məhəmməd Tağı Mirzayi Humayunüssəltənənin hakimiyyəti zamanı onun tikdirdiyi həmin binadır. Şəhərin yarım fərsəxliyində Şah bağı vardır ki, təpə ətəyində salındığı üçün bir neçə mərtəbəlidir, xüsusi su çeşməsi vardır. Bu bağda göllər salınmışdır. Bu bağ də Məhəmmədtağı Mirzəyi Hüsamüssəltənə zamanında salınmışdır. Şəhərin ətrafında çoxlu bağ-bağat vardır. Hər bağda da tək bir imarət vardır ki, şəhər əhli bunu təkyə adlandırırdılar. Bahar fəsli bu şəhər İranın ən səfalı şəhərlərindən biri hesab olunur. Onu Darülssərvər adlandırırlar. Bürucerd əhalisi şəhərin Mənuçöhr (? - 1034) tərəfindən salındığını zənn edirlər.

(S.200) Bəst Azərbaycan vilayətinin Ərbil diyarında bir çaydır.

(S.-199) Bərəndəq Azərbaycan əyalətində böyük kənddir. Qəzvin və Xalxal arasındakı bir vadidə yerləşir.

(S.212) Bəsva Azərbaycanın başlanğıcında, Uşnu ilə Marağa arasında kiçik bir şəhərdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xanxasbəkin yaxınlığındadır. Mən oradan keçmişəm. Orada yaşayan əhalinin əksəriyyəti xürrümiyyə tayfasıdır, yə ni Babək Xürrəmiyə etiqad edənlərdir.

(S.257) Buqullar Azərbaycan sərhəddində yerdir (Əbu Təmmam deyir: şer:

Buqullar torpağında quş qalmadı,
Yemək-içmək məclisi olmadan doymadı (sətri tərcümə)

(S.296) Bəndsiyan Bəndesyan Nəhavəndin kəndlərindəndir. İslam qoşunun sərkərdəsi, Nəhavəndin fəthi zamanı döyüşdə öldürülmüş Neman bin Müqərrənin qəbri bu kənddədir və Rey yaxınlığında vəfat etmiş Əmro bin Mədikərbin qəbri də burdadır.

(S.297) Buzəncird Həmədanın kəndlərindəndir, Həmədandan Savəyə gedən yolun bir mənzilliyindədir. Əbu Yəqub Yusif bin Eyyub bin əl-Həsən bin Zəhra əl-Həmədani əl-Buzəncirdi bu kənddəndir və alimi-fazil, sahibi-kəramət və xariquladat bir adam olmuşdur.

(S.308) Bihistan Qəzvin yaxınlığında məşhur bir qaladır.

(S.325) Bəhməndəş Ərdəbildə bir qalanın adıdır.

(S.326) Bicanin Nəhavənd kəndlərindəndir.

(S.337-385) Təbriz. "Möcəm ül-buldan" müəllifi yazır: Təbriz Azərbaycanın ən məşhur şəhərlərindən biridir və abad, gözəl şəhərdir. Möhkəm qaladır ki, kips və bişmiş kərpicdən tikilmişdir. Çaylar bu şəhərin ortasından keçir və şəhərin ətrafında çoxlu bağlar vardır. Onun meyvələri ucuzdur, bunlardan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qaysı mousul adlanır. Bu cürəsini heç vaxt görməmişəm və yeməmişəm (616-cı/1219 ildə Təbrizdə olarkən). Hökumətin imarətləri Təbrizdə qırmızı bişmiş kərpicdən tikilmiş, bəzəklidir və möhkəm binalardır. Bu şəhər 73 dərəcə uzunluq 37,5 dərəcə en dairəsində yerləşir. Mütəvəkkil Rəvvad Əzdinin[43] zamanında o, Azərbaycanı alandan sonra Təbrizdə qərar tutdu. O zaman Təbriz yalnız bir kənd idi. Rəvvadın oğlu Vəcna və digər oğulları orada imarət tikdilər və ətrafına divar çəkdilər. Şəhərdə əhali artdı və o vaxtdan abad olmağa başladı. Bu şəhərdə bir neçə cürə ipək parça toxunurdu ki, bunlara Əttabi, Səqlatun və Xəttabi deyirdilər. (Zolaqlı xarayaya Əttabi deyirdilər. Əttab bu xaranı hazırlayanın adıdır) Bu şəhərdə atlas və başqa parçalar hasil olur ki, Şərqin  və Qərbin bir sıra şəhərlərinə ixrac olunur. Hicri 617-ci/1221, yanvar) ildə moğol ordusu Azərbaycana hücum edərək, Təbriz əhalisini qarət etdi, iş sülhlə həll olunduqdan sonra əhali xilas oldu. Bu şəhərdən elm əhli çoxdur.

Həmdullah Mustofi yazır: Təbriz dördüncü iqlimdəndir. İslam dininə riayət edən şəhərdir. İslamın qübbəsi adlandırılır.

Təbriz şəhəri Harun ər-Rəşidin zövcəsi Zibeydə xatunun binalarındandır ki, əsası 175-ci (791-792) ildə qoyulmuşdur. 69 ildən sonra 244-cü (858-859-cu) ildə Abbasilər hakimiyyəti zamanı baş vermiş zəlzələ şəhəri dağıtdı və Xəlifə onu yenidən abad etdi, 190 ildən sonra 14 səfər 434-cü ildə şəhər yenə xarabalığa çevrildi. Qazi Rüknəddin Cuini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Məcməül-məmalik"də yazır ki, o vaxt Əbu Tahir Münəccim Şirazi orada idi və hökm etdi ki, o axşam şəhər zəlzələdən dağılacaq və əhali şəhərdən çıxarılsın ki, torpaq altında tələf olmasın. Bu hökm düz çıxdı. Həmin gecə şəhər büsbütün dağıldı və təxminən 40 min adam bu vaqiədə həlak oldu. Rəvvad Əzdinin oğlu İbn Məhəmməd o diyarın xəlifə tərəfindən göndərilmiş hakimi idi.

435-ci (1043-44) ildə, həmin münəccimin məsləhəti ilə, əqrəb bürcü altında Təbriz imarətinin özülü qoyuldu və həmin münəccim bunu deməkdə mübaliğə edirdi ki, guya bundan sonra Təbriz zəlzələdən dağılmayacaq, lakin sel təhlükəsi vardır. İndiyədək, yəni 300 il keçdikdən sonra onun hökmü özünü doğrultmuşdur. Təbrizi zəlzələlər dağıtmadı, baxmayaraq ki, bir neçə dəfə baş verdi, böyük ziyan dəymədi. Bunun səbəbi odur ki, bu torpaqda çoxlu yeraltı kanallar düzəldilmişdir. Şübhəsiz ki, torpaqda məsafələrin olması nəticəsində qüvvətli buxarlanma baş vermir və zəlzələnin gücü də çox olmur.

Təbrizin ətrafında olan divar 600 addım olmuşdur və 10 darvazası vardır. Moğolların zamanında Təbriz paytaxt olduğu üçün əhalisi çox idi və şəhərdən kənarda da evlər tikilirdi. Şəhər abadlaşdı, darvazaların sayı artdı. Qazan xan şəhərə hasar çəkdirdi, şəhərin ətrafında olan bağlar, imarətlər bu hasarın içərisində qaldı, ətrafda kəndlər yarandı.

Qazan xan bu qala divarı, tikilib-qurtarmamış vəfat etdi. Qazan xanın çəkdirdiyi divar 5000 addımdır və altı darvazası vardır. Qazan xan divarın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

xaricində Şam adlanan bir yerdə özü üçün məqbərə, xabgah, Ali imarət tikdirmişdir ki, bütün İranda onun misli-bərabəri yoxdur. Şəhərin yuxarı hissəsində vəzir Səid Xacə Rəşidəddin Qazan xanın tikdirdiyi şəhər divarının daxilində Vəlyənkuh adlanan yerdə şəhərcik saldırmış və adını Rob Rəşidi qoymuş, burada geniş binalar tikdirmişdir. Onun oğlu vəzir Qiyasəddin Məhəmməd Rəşidi də burada çoxlu binalar tikdirmişdir. Vəzir Xacə Tacəddin Əlişah Cilani-Təbrizi Narmiyan məhəlləsinin (Sarməsan) xaricində böyük Came məscidi tikdirmişdir ki, meydanı 215 gəzdir, (I gəz 3 futa bərabər uzunluq ölçüsüdür - H.T.), yəni Mədaində olan Eyvani-Kəsradan böyükdür. Lakin bu binanı tələsik qurduqlarından istehkamı olmamış, xarab olub dağılmışdı. O məsciddə müxtəlif işlər görünmüşdü, çoxlu mərmər daşı işlənmişdi ki, bu uzun söhbətdir. İndi Təbrizdə bir neçə ali gözəl bina qalmışdır ki, bütün İranda bərabəri yoxdur.

Təbriz şəhərində çoxlu bağlar vardır. Bu bağlar başlanğıcını Səhənd dağından alan Mehranrud vasitəsilə və sayı doqquz yüzdə artıq olan kəhrizlərlə suvarılır. Lakin indi bunlar azlıq edir. Təbrizin havası soyuğa meyllidir. Suyu şəfavericdir, çayın suyu kəhrizlərdən, kəhrizlərin suyu isə quyuların suyundan çoxdur, taxıl və başqa dənli bitkiləri məhsuldardır. Meyvələri həddindən artıq yaxşıdır, çoxdur, ona görə də ucuzdur.

Təbrizin əhalisi ağçöhrəli, gözəl surətli, təkəbbürlü və qorxmazdır, əksəriyyəti



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

şafeiməzhəbdir. Digər məzhəb və dinlərə sitayiş edənlər də çoxdur. Onlar son dərəcə dostla mülayim rəftarlı, şirindil və gözəldirlər. Təbrizdə varlı da, kasıb da sənətkardır və o diyarda varlı adamlar çoxdur. Onlar dostluqda və sözlərində möhkəm deyillər. Bu barədə şerlərdə söylənilmişdir. Orada əhli-keflər qatı zülmkardır və bu qeyri-sağlam cəhətlə bərabər şəhərdə xoşagələn cəhətlər də vardır. Şəhərin müxtəlif yerlərində məqbərələr var. Surxab, Çərəndab, Gəcil, Şam, Vəlyankuh, Siyaran, Qirzələkdə olan məqbərələr kimi çoxlu müqəddəs məzarlar vardır. Məsələn, fəqih Zahid Vəcədə və İbrahim Küvamən, Babahəsən, Xacə Zainəddin, Kəmaleyni və Maliyni Təbrizi, Həsən Bolqari, Şeyx Nurəddin Simaristani məqbərələri və Surxabdakı məqbərələrdən şair Ənvəri, Xaqani, Zəhir Faryabi, Şəmsəddin Səcasi, Fələki Şirvaninin və başqa şairlərin məqbərələri, Kəcucan kəndində Xacə Məhəmməd Kəcucaninin, Şadabad kəndində Piri-Şirvan, Səhənd dağında peyğəmbər Rəsulullahın səhabəsi (tərəfdarı), Əsamə İbn Şərənk (Səsrik) və Sərarut kənarında Əbül Məhcən Kürdün məzarı, Sərdəhrud kəndində Qeysin məzarı, Dərmavilrudda Əcl bərabəri-Həmzənin məzarı və Surxab məqbərəsində Üməyyə bin Ömər bin Üməyyənin məzarı və şəhərdə və vilayyətdə başqa böyüklərin məzarları çoxdur.

Təbrizin valisinin rəsmi möhürü vardır. Dövlət vergisi Xani ilinin qırxıncı ilində qeydiyyat dəftərində 770 tümən, 5000 dinar qeyd olunmuşdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbriz yeddi mahaldan ibarətdir. Şəhərin şərqində yerləşən Mehranrud mahalı şəhər qapısının 5 fərsəxliyindədir. Sərdosəhra mahalı cənub-qərb tərəfdə, şəhərin bir fərsəxliyiidədir. Onun kəndləri bağlar vasitəsilə şəhərə birləşmişdir. Bu kəndlərin bağları bir-birinə çox qarışmışdır, ona görə bunların hansı kəndə tabe olduğu bilinmir. Yaxşı meyvələri vardır.

Savilrud mahalı şəhərin dörd fərsəxliyində, cənub-qərbdə yerləşir, çox mənzərəli vilayətdir.

Ürunəq mahalı şəhərin qərbindədir. Başlanğıcı şəhərin üç fərsəxliyindədir, on beş fərsəxliyində qurtarır. Sahəsi beş fərsəxdir. Məhsuldar mahaldır. Təbrizdə olan dənli bitkilər, üzüm, meyvələrin ən məhsuldar yeri buradır. Otuz kəndi vardır və bunların əksəriyyəti böyük qəsəbəyə bənzəyir. Sis, Nist, Şəbüstər, Kuzəkonan və Dayğan, Sufiyan və qeyri.

Rudqat mahalı surxab dağının arxasında, şimalda, şəhərdən 1-4 fərsəx aralı məsafədə yerləşir. Burada dənli bitki boldur. On batman (1 batman 2,944 kq - H.T.) undan 16 batman çörək bişirilir. Qırxa yaxın kəndi vardır.

Xatəmrud və Bədustan mahalları şəhərin şimalındadır. Rudqatın arxasında otuz kənd vardır. Bu mahalların hökumət vergisi 185 min dinar müəyyən edilmişdir, bütün vilayətin vergisi isə 27 tümən yarımdır, şəhərin möhürü isə 115 tüməndir.

Təbrizdən Azərbaycanın başqa vilayətlərinə məsafə belədir: Ucana qədər 8 fərsəx, Ərdəbilədək 30 fərsəx, Uşnuyadək 20 fərsəx, Urmiyayadək 24



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

fərsəx, Əhərədək 14 fərsəx, Pişkənədək 18 fərsəx, Xoyadək 20 fərsəx, Səlmasadək 18 fərsəx, Sərabadək 20 fərsəx, Marağayadək 20 fərsəx, Dehxarqanadək Marağa yolu ilə 8 fərsəx, Mərəndədək 11 fərsəx, Naxçıvanadək 24 fərsəxdir.

Həmdullah Mustofi dağlardan bəhs edərkən yazır ki, Səhənd dağı Azərbaycandadır və Təbriz, Marağa, Dehxarqan və Ocan onun ətrafındadır, iyirmi beş fərsəx uzaqlıqdadır. Zirvəsində hərdən qar olmur. "Asarül-əvvəl"in müəllifi deyir: "Təbriz Azərbaycanın böyük şəhərlərində biridir və hökumət iqamətgahı buradadır. Azərbaycanın heç bir şəhəri moğol istilasından qurtula bilməmişdir, o cümlədən Təbriz. Bu şəhərin sərvəti, sənayesi zəngindir. Lakin indi bu şəhərin rövnəqi getmişdir. Çünki onda ki, Osman Paşa Təbrizə gəldi, osmanlılarla şiələr arasında müharibədə çoxlu adam öldü və şəhərdə çoxlu dağıntı oldu.

"Zinətül-məcalis" müəllifi Həmdulla Qəzviniyə əsaslanaraq göstərir ki, Təbriz şəhərində Şeyx Həsən Çuyani bu şəhərdə bir ali imarət tikdirmişdir. Bunda əvvəl heç vaxt Təbrizdə belə bir ziynətli imarət və istehkam olmamışdır. İndi də durur.

Cahanşah ibn Qara Yusif Türkman Təbrizdə bir Came məscidi tikdirmişdir ki, bunun tayı-bərabəri dünyanın heç bir yerində yoxdur. Həmçinin Həsən bəy bin Əli bin Qara Osman Türkman çox təntənəli bir məscid tikdirmişdir. Rəhmətlik Həzrəti-Xaqan (Səfəviyyə padşahlarından biri nəzərdə tutulur) da xeyirxahlıqla gözəl bir məscid bina etmişdir, lakin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

rumlular bu sülalə ilə düşmənçilik etdikləri üçün məscidi tamamilə dağıtmışlar, indi burada bir yaşıl ağac belə qalmamışdır. Cənnətməkan Xaqanın dövründə burada əsasən şiəməzhəb əhali yaşayırdı. Bir az sünniməzhəb də var idi. Təbriz əhalisinin əksəriyyəti tiryəkdən istifadə edir. Hər kəs səhər o adamdan bir söz soruşsa, o adam kobud cavab verərək qışqıracaq, bir qədər sonra onların əhvalı sakitləşir və bu vaxt onlarla hirsli danışsalar belə onlar dinməzlər,sakit cavab verərlər.

"Təqvimül-buldan"ın müəllifi deyir:

- "Lübab"da yazılmışdır ki, Təbriz Azərbaycan diyarının şəhəridir. Xalq arasında onu Toriz adlandırırlar.

İbn Hövqəl deyir:

- Hülakü xan zamanında moğol sultanlarının paytaxtı olmuşdur. Xoya yaxın görkəmli şəhərdir. O vaxt ki, Xərbəndə[44] başqa bir yerdə şəhər saldırdı, ora paytaxt olub[45]. Darülmülk Təbrizdən oraya köçdü. İbn Səid deyir ki, bizim dövrdə Təbriz Azərbaycan valisinin əyləşdiyi şəhərdir, suları bir qədər şorməzədir. Yaxşı mədrəsələri vardır.

Müəllif deyir:

- Təbriz Azərbaycan məmləkətinin paytaxt şəhəridir və İranın əzəmətli və məşhur şəhərlərindəndir. Bəzi qədim tarixçilər Azərbaycanın paytaxtının adını Kaza, bəziləri onu Kanzak adlandırmış və Şahistan ləqəbi vermişlər və hər iki ad ibri dilində möhkəm deməkdir, erməni lüğətində xəzinə. Qədim İranın padşahları səltənətin ehtiyat



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sərvətlərini ki, bunlar qızıl-cəvahir və hərbi silahlardan ibarət olmuşdur, həmin adla adlanan Azərbaycanın paytaxtında mühafizə edirdilər. Lakin bu həmin o Kaza deyil ki, Tövratda zikr olunmuşdur. Bu şəhər Beytülmüqəddəs şəhərlərindəndir ki, dünyada birinci pəhlivan Səmsam onu xarabalığa çevirmişdi və bu bizim söhbətimizin mövzusu deyildir. Bir müddətdən sonra Azərbaycanın paytaxtı Davrij adlandırılmışdır, bu da erməni lüğətində intiqam mə'namını verir. Mə'nası da odur ki, əşkanilər, yəni Arşaki sülaləsindən olan İran padşahları Ərdəvan Ərminiyyə padşahlarından və həmin şəcərədən olan Böyük Xosrovla kamali-dost və ittifaqda idilər. Vaxtilə Ərdəvanın vəziri olmuş sasanilər palşahı I Ərdəşir digər vəzirlərlə müttəfiq olub, çoxlu ordu toplayıb Ərdəvana hücum edərək nəhayət onu qətlə yetirdi və özü hakimiyyətə yiyələndi. Böyük Xosrov bu xəbəri eşitdikdən sonra Ərdəvanla dostluğu naminə onun intiqamını almaq üçün Ərdəşiri qətlə yetirmək qərarına gəldi və on il onların arasında müharibə oldu. Bu döyüşdə çox zaman Ərdəşirin qalib çıxmasına baxmayaraq, o, axırda Xosrovun ordusu qarşısında tab gətirə bilməyib qaçdı. Xosrov onu hind torpağınadək təqib etdi və Azərbaycana qayıdıb bu məmləkətin və Ərminiyyə torpağının hüdudunda 253-ci miladi ilində bir şəhər bina edərək ona Davrij adını verdi ki, bu "Təqvimül-büldan"ın yazdığı kimi intiqam deməkdir. Təbrizə hamı Toriz deyir. Zaman keçdikcə "d" və "t" hərfləri əvəz olunaraq, şəhərin adı Tavrij, sonra Torij və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nəhayət Toriz kimi tələffüz olunmuşdur, indi mə'lum olduğu kimi Təbriz adlanır. Yaqut Həməvi və Həmdulla Mustori və bə'zi başqalarının əqidəsinə görə Təbriz Harunun zövcəsi Zibeydənin binalarındandır. Qeyri-dəqiq olan belə bir fərziyyə də vardır ki, Zibeydə onu yenidən tikdirmişdir və bə'zi tədqiqatçılar deyirlər ki, Zibeydə onu bina etmişdir, belə ki, Zibeydə qızdırma xəstəliyinə tutulmuş və havasını dəyişmək üçün bir məkan axtarmış və Azərbaycana yetişib bir mahalda sağalmışdır. Buna görə də 175-ci hicri ilində burada bir şəhər tikdirmişdir və demişdir: mənim qızdırmam bu yerdə düşdüyü üçün qoy bu şəhərin adı Təbriz olsun.

Lakin doğrusu budur ki, Zibeydə burada yeni imarətlər, yeraltı kəhrizlər tikdirmiş və şəhər yeniləşdiyi üçün onu Təbriz adlandırmışlar. Hər halda şəhərin bir fərsəxliyində, şərqdə inşa edilmiş yeraltı kəhriz Zibeydənin adı ilə bağlıdır və indi də Zibeydə kəhrizi kimi məşhurdur.

Digər tarixçilər Təbriz şəhərinin Əcəm padşahlarının biri tərəfindən bina edildiyini söyləyirlər və yenə əksəriyyət Təbrizin ərəb sözü olduğunu göstərir. Bu halda o, "başlıca vacib qapı, çıxış və fəzl və hünər yarışında irəli çıxmaq" mə'nasındadır. Bunların qətiyyən şəhərin adı ilə əlaqəsi və münasibəti yoxdur. Təbriz qövmini qədim həmədanlılarla əlaqələndirirlər, yə'ni Həmədan Təbrizin qədim adıdır deyirlər ki, bunun da heç bir əsası yoxdur, yə'ni bu fikri sübuta yetirən bir sənəd, yaxud mənbə yoxdur.Bir başqaları "Tövrat"da Esterin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kitabının 1-ci fəslinin 2-ci ayəsində və digər kitablarda təkrar olunan Suzanın Təbriz olduğunu fərz edirlər ki, bu fikir də doğru deyildir. Bu adlarla zikr olunan yer Təbriz yox, Şüştərdir. Təbriz Urmiya dəryaçasından yeddi fərsəx aralı yerləşir və Şərqlə Şimal arasında 37 dərəcə 5 dəqiqə və 10 saniyə Şimal en dairəsində, 44 dərəcə 12 dəqiqə və 30 saniyə Şərq uzunluq dairəsində yerləşir. Bu şəhərin ərazisi düzənlikdir, çox səfalıdır, havası faydalı və mülayimdir. Təbrizə 82 dərəcədən çox istilik 30-40 gündə artıq davam etmir. Havada soyuqluq isə mənfi 28 dərəcədən artıq olmur. Bu da iki ay davam edir. Şəhərin binaları şərqdən Surxab dağlarının ətəyinədək davam edir, qərb tərəfdən Yanıq, cənubdan Səhənd dağının ətrafına qədər uzanır. Şimal tərəfi açıqdır. Bu şəhərin qala divarları təqribən 70 il bundan əvvəl Nəcəfqulu xan Dünbüli tərəfində tikilmişdir və çox möhkəm bir divar idi, onun ətrafında xəndək isə h.1241-ci ildə mərhum Naibüssəltənə (Abbas Mirzə - H.T.) zamanında düzəldilmişdi. Lakin qalanın divarları bəzi yerdə dağıldığından Hümayunun hökmü ilə oradan götürülərək yerində bina tikilmiş və abadlıq işləri görülmüşdür. Şəhərin daxilində bir-birinə yaxın imarətlər və hökumət binaları tikilmişdir.

Lakin qədim darvazalar indi də qalır və səkkiz məşhur darvaza vardır ki, adları belədir: Xiyaban, Bağ-Meşə, Surxab, Şotorban, İslambul, Keçsəl, Məhadi-Məhin, Noubər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Amma Qazan xanın h.702-ci ildə (m.1302) Təbrizdə tikdiyi qala 5 böyük darvazalıdır və hər bir darvaza şəhərin bir baş küçəsinə açılır. O cümlədən birisi Bağdad küçəsinə açılır, digəri İraq küçəsinə, biri də Xorasan, biri Arran küçəsinə açılır və bu beş davaza arasında 8 kiçik darvaza da qədimdən qalır. Bu qalanın divarının eni 10 zər, onun uzunluğu isə 54 min addımdır. Çərəndab, Surxab və Bilankuhun ətrafı bağların əhatəsindədir. Təbriz şəhərinin əhalisi qədim coğrafiyaşünas alimlərin yazdıqlarına görə qədim zamanlarda beş yüz min nəfər olmuşdur. Fransalı səyyah Şardən Təbrizə səfər edərkən onun dediyinə görə, bu vaxt şəhərdə 550 min nəfər yaşayırdı. Bir qədər ondan sonra şəhərdə 350 min əhali var idi və 60 il bundan əvvəl əhalinin sayı 50 min nəfər idi, indi yenə əhalinin sayı artmağa başlamışdır və təxminən 200 min nəfərə çatmışdır. Təbriz məhəllələrinin adları belədir: Novbər, Xiyaban, Surxab, Dəvəçi, Vicuyə, Məhadi, Məhin, Hərxiz, Tağmeşə və adları çəkilən yerlərin də kiçik məhəllələrinin adları belədir: Şeşkilan, Polisəngi, Çərəndab, Məqsudiyyə, Əhrab, Miralan, Seylab, Axuni, Leylabad, Qaraağac, Custduzlu, Rastaküçə, Sənclan, Çəhar, Minar.

Şəhərə bitişik əkin yerləri bunlardır: Qara Məlik, Lakədizəc, Xətib, Hökmabad, Yarıq, Bilankuh, Küçəbağ, Şənəb Qazan. Təbriz şəhərinin təqribən 6 fərsəx ətrafı abaddır və şəhərin ətrafında çox yaxşı, geniş, səfalı bağ-bağat salınmışdır və o qədər yaxşı yeraltı suvarma kanalları vardır ki, hər bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

kəhrizin ətrafı gəzinti yerləridir. Təbriz şəhərində çoxlu xoş görünüşlü imarətlər, ali məscidlər və yüksək mədrəsələr, müqəddəs yerlər, pakizə hamamlar, bazar və tükanlar, iki təbəqə, yə'ni aşağı və yuxarı təbəqəyə görə geniş kavansaralar, cəbbəxanalar və silah anbarı, qarovulxana və hökumət iqamətgahına yaxın iki teleqrafxana vardır. Şəhərin uzaqdan görünüşü elədir ki, sanki çox gözəl bir libas geymişdir və bu da ürəkaçan və son dərəcə abad körpü düzəldilmişdir. Bu körpü çox əzəməğli olub 17 gözdə ibarətidir. Adına Meydançayı da deyilən Mehranrud çayı şəhərin ortasından keçir. Adamların keçməsi üçün bu çayın üzərində iki gözlü körpü düzəldilmişdir. Qədim coğrafiyaşünasların belə bir fikri vardır ki, iki yüz il bundan əvvəl bu şəhrdə iki böyük xəstəxana olmuşdur. Xülasə, Təbrizdə iki hərbi zavod düzəltmişlər ki, biri şəhərdənkənar, Yanıq Dağın yaxınlığındadır və çox yaxşı barıt istehsal olunur, onun işçisi və keşikçiləri vardır. Digəri isə şəhərlə bürc arasında vaqedir ki, orada fişəng, güllə, qırma, top arabası və örtüyü və s. topxana üçün zəruri olan şeylər hazırlanır.

Bu şəhərə bitişik cəbbəxana da vardır. Hər cürə sənətkarın, qabiliyyətli ustaların yığışdığı bazarda orduya lazım olan bütün silah, alət və cihazlar düzəldirlər. Bu cəbbəxanaya bir qapı açılır, topxananı divanxanaya bitişik tikmişlər. Şəhərin giriş və çıxışında otuzdan artıq qarovulxana düzəldilmişdir.

Qarnizon qoşunları Təbrizdə həmişə şəhər meydanında məşq etməyə hazırdırlar. Əhali bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoşunların hazırlığına görə şəhərdə hər cür oğurluq, şər işlər törənməsi kimi fitnəkar işlərdən asudə yaşayır.

Təbriz bazarının tavanı bir neçə il bundan əvvələdək əsasən, yaxud tamamilə taxta ilə örtülmüşdü, Ona görə də bə'zən tükanların sahiblərinin ehtiyatsızlıqları üzündən burada yanğın hadisəsi olurdu, od tuturdu və hər il buraya xərc qoyulurdu. 5-4 il bundan əvvəl şahzadə Müəyyidüddövlənin hökmü ilə taxta səqflər tağla əvəz olunmuşdur, az bir hissəsi əvvəlki kimi qalmışdır və nəticədə tam asudəlik yaranmışdır. Həm böyük karvansaralar, həm də kiçik karvansaralar və dalanlar hamısı ticarət malları ilə doludur. Bazarda 5000-ə yaxın dükan, məhəllə keçidlərində 1500-ə yaxın dükan vardır. Şardənin yazdığına görə bu şəhərdə 15 min dükan olmuşdur. Şəhərdən kənarda olan karvansaraların sayı isə 300 idi. Lakin indi qalanın ətrafında 100 karvansara mövcuddur.

## Təbrizin məşhur binaları

Təbrizdə beş konsulluq vardır: Rus, İngilis, Fransa, Osmanlı, Belçika. Azərbaycanın digər şəhərləri kimi Təbrizin də dünyanı fəth etmiş qüdrətli Qacarlar səltənətində yüksələnə qədər bir çox çətinliklərlə üzləşdiyi vaxtlar, o cümlədən şiddətli zəlzələlər və İran, Osmanlı, tatar və başqa dövlətləri arasında gedən müharibələr nəticəsində tamam dağılmış və zəifləmiş olduğu tarixdə öz geniş əksini



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tapmışdır. Çox zaman bu məmləkətin əhalisi dəfələrlə zərər çəkmiş və əraziləri dağıntılara məruz qalmışdır. Bəlkə buna görə də Azərbaycanda hökmranlıq etmiş qədim sultanların dövründən ali binaları, abidələri, asari-ətiqələri bu günlərə qalmamışdır və Moğol xanlarının və Səfəviyyə padşahlarının zamanından da az bir miqdarda qalmışdır ki, onlar haqda sonra bəhs olunacaq. Lakin qacarlar hakimiyyət başına gəldikdən sonra bu dövləti bəzədilər, xüsusən Azərbaycan Naibüssəltənənin əyləşdiyi iqamətgah oldu, bu dövrdən e'tibarən bu məmləkət abad və gözəl ölkəyə çevrilməyə başladı. Xüsusilə bu şəhərin Sultaniyyə imarəti mərhum Naibüssəltənənin imarətlərindən biridir ki, indi bu əbədi dövlətin əşrəfi olan vəliəhdin qaldığı binadır. Bina çox abaddır. Bəzi yerləri korlanmaq təhlükəsində olduqda Hümayunun əmri ilə təmir olundu və indi də mahir usta və memarlar onunla məşquldur, onu təmir edir və bəzəyirlər. Naibüssəltənə tərəfindən inşa etdirilən digər bir imarət şimal tərəfdə olan bağdadır ki, bağın özü o qədər geniş və böyükdür ki, 50 xərvar (1 xərvar 25 pud - H.T.) əkin sahəsi vardır. Burada dörd hissə bağ və bir hissə çəmənlik düzəldilmişdir. Həmin qədim imarətin qarşısında vəliəhdin göstərişi ilə çox əla görkəmli bir bina tikilmiş və bu iş tamamlanmaq üzrədir. Bu imarət elə yerdə tikilmişdir ki, həmin çəmənlik bu iki imarətin ortasına düşmüşdür. Çəmənliyin ortasınla vəhşi quşlar üçün ev tikilmişdir və cürbəcür əcaib və qəraib quşlar bu yerə toplaşırlar.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xiyabanın kənarına əvvəldən axıradək hasar çəkilmişdir.

Başqa bir imarət Surxab dağının ətəyinədə olan Səfa bağındadır ki, bu da Naibüssəltənənin tikililərindədir, onun dağıntıları vardır. Digər bir imarət də şəhərin bir fərsəxliyində şərq hissəsində böyük gölün səmtində Şahzadə Qəhrəman Mirzənin tikdirdiyi Şahgüllü adlanan imarətidir. Bu binanın özülü dəryaçanın ortasında qoyulmuşdur və pavilyondur. Son dərəcə ruh oxşayan və səfalı olan ikimərtəbəli bina çox abaddır. Gölün ortasında bu pavilyona getmək üçün xiyaban düzəldilmişdir. Bu imarətin yaxınlığında olan hündür dağı pillə-pillə edərək, nəticədə burada gülüstan yaratmışlar və bu göl o qədər böyükdür ki, onun iki dəyirman daşı suyu vardır və heç olmasa 6 ay su ilə dolu olur. Başqa bir bina Xələtpuşan adlı yerdədir ki, şəhərdən bir fərsəx yarım məsafədədir. Bu imarət də böyük bir gölün ortasında tikilmişdir və Xələtpuşanın özü çox səfalı və gəzməli yerlərdən biridir. Burada çoxlu ağac əkilmişdir və suyun çoxluğundan, bolluğundan qışda cüzi bir müddət istisna olmaqla, burada bütün fəsillərdə həmişə torpaq və ağaclar yamyaşıl olur.

Sultan imarətlərindən başqa Təbrizdə ali baş komandan, qoşun böyüyü Əziz xanın da tikdirdiyi bir bina vardır ki, Şeşkilan məhəlləsində vaqedir və həqiqətən bu şəhərin ən gözəl binalarından biridir. Bundan sonra mərhum Mirzə Əhməd xan Saedülmülkün, Əmini-ləşkərin, Mirzə Əbdülvahab xan Nəsirüddövlənin də binaları vardır. Axırıncı şəxs



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əvvəllər şəhərin naibül-vüzərası vəzifəsində olmuşdur. Hazırda Dövlət Şurasının üzvü olub, Ticarət və Ziraət naziridir. Mərhum Qasım Mirzənin imarəti Yanıqda vaqedir.

Bu qəbildən şəhərin daxilində və xaricində şahzadə və xanların və bə'zi tacirlərin, xarici dövlətlərin konsullarının binaları çoxdur. O cümlədən bir imarət və şəhərin xaricində olan bağlardan biri mərhum Saedülmülkündür ki, Vəzirabadda yerləşir. Mərhum Vəziri-Nizamın bağı Xiyabanda, həkim Kramikin bağı Yanıqdadır, bu bağ Hacı Cəfər Dəllal ki, Dani kimi məşhurdur, onun mülküdür. Mərhur Böyük xanın bağı Şimal bağının yanındadır və Hacı Rza Moəyyerin bağı Miralandadır ki, hamısı ardıcıl olaraq uzanıb gedir.

## Təbrizin məscid və mədrəsələri, müqəddəs məzarları

Təbrizin məşhur məscidlərindən biri cənab şəriətmədar Hüccətülislamın qırx sütunlu məscididir və çox hündür binadır. Onun sütunlarında mübarək ayələr, aydın xətlə yazılmış hədislər həkk olunmuşdur. Müizziileyh səlamullahtəalanın şəxsən özü həftədə bir dəfə bu məsciddə minbərə çıxıb moizə oxuyur.

Başqa bir məscid Sahibüləmr adı ilə məşhur olan məsciddir. Bu məscid cənab Hacı Mirzə Şəfiyə məxsusdur ki, bə'zən müizziileyh özü, bə'zən də oğlu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

orada və'z buyururlar. Lakin məscid bir o qədər də böyük deyildir.

Məscidlərdən biri Hacı Mirzə Bağır müctəhid səlamullahındır ki, yay və qüş məscidlərindən ibarətidir. Qış məscidi yayınkinə nisbətən bir qədər böyükdür. Məscidin yanında cənab Mirzə Hüseyn Ağayi Hüccətülislamın məscididir.

Məscidlərdən biri də Şahzadə məscididir ki, burada onun banisi Şahzadə Mehdiqulu Mirzə mərhumun qəbiri yerləşir və Sultani imarətinin yaxınlığındadır.

Məscidlərdən bir başqası cənab Hacı Molla Əlinindir ki, imtiyazlı məsciddir. Cənab müizziileyhin özü keçmişdə orada şafei təriqətinə aid moizələr oxuyurdu.

Bu məscidlərdən başqa hər məhəllədə məscidlər vardır. O cümlədən məşhur Ustad-Şagird məscididir ki, indi dağılmışdır. Qaani məscidi və digər bir məscidin də adı Şagird-Ustad idi ki, qədim tarixdən onun 520 il bundan əvvəl Əmir Şeyx Çobani tərəfindən tikildiyi məlumdur. İndi ondan da əsər-əlamət qalmamışdır. Deyilənlərə görə sonuncu məscid əvvəlkinin əvəzinə tikilibmiş.

## Mədrəsələr

Təbrizin bir çox məşhur mədrəsələri vardır. Bu mədərəmələrdən biri Talebiyyə və digəri Sadidiyyə mədərəsəsidir. Hacı Səfərəli, Həsən Padşah və Xacə Əli Əsgər adı ilə tanınan mədrəsələr də məşhurdur.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Pirlər və məzarlar

Təbrizdə Pirlər və məzarlar ehtiramla qorunub saxlanır. Belə pirlərdən biri Həzrət Sahibül-əmrə məxsusdur ki, orada xidmətçilər, mütəvəlli və ayaqqabı verənlər qulluq edirlər. Büzürgvar Seyid Həmzə imamzadənin məqbərəsi isə Surxab məhəlləsində vaqedir və bu imamzadəni Əmir Ləşkər tə'mir etdirmişdir, hər tərəf genişlənmiş, hündür eyvanlar inşa edilmiş, amma iş hələ tamamlanmayıbdır.

Şəhərin şərq istiqamətində olan Surxab dağında məqbərə vardır ki, bu Oun bin Əli və Zeyd bin Əlinindir. Həmin dağ həmin imamzadənin adı ilə məşhurdur. Çəharminar məhəlləsində də iki başqa imamzadə vaqedir. Lakin o qədər də məşhur deyildir. Məhadi-Mehin məhəlləsində bir imamzadə vardır ki, Dal və Zal məscidi adı ilə məşhurdur. Bunlardan başqa Təbrizdə bir çox müqəddəs məzarlar olmuşdur ki, onların adlarına yalnız imamlardan bəhs edən təzkirələrdə rast gəlirik və indi onlardan əsər-əlamət qalmamışdır.

## Təbrizdə ticarət və alış-veriş. Əmtəə ixracı və idxalı

Bu şəhər əhalisinin ticarəti hər il təqribən 20 kürur tüməndən ibarətdir (1 kürur - 500 minə, yarım milyona bərabərdir - H.T.) çünki bura bir çox



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dövlətlərdən məta (mal) gətirilir: Rusiyadan, Gürcüstandan, Moskvadan, Badkubədən, Hacı Tərxandan, Ərzənərrumdan, Trabzondan, İstanbuldan, Londondan, Mançestrdən, Marseldən, İtaliyadan və Avropanın başqa yerlərindən Təbrizə hər cür ticarət malları gətirilir. Altı-yeddi il bundan əvvəl bu şəhərin gömrükdən qazancı 12.000 tümən idi. İndi isə ticarət artdığından və əmtəə bolluğundan 300.000 tüməndən çoxdur. Bundan başqa 40.000 tümən də bazardan və şəhərin özündən hasil olur. Qədim kömrükxana dağıldığından Sultani imarəti yaxınlığında çox böyük bir kömrük binası tikilmişdir ki, bu da ətraf ölkələrin bütün kömrük binalarından yaxşıdır. Kömrükün qaydası belədir ki, yerli əhali üçün bu haqq yüzdə iki, xaricilər üçün, məsələn osmanlılar üçün yüzdə dörd və ya yüzdə beş, o cümlədən Avropa, yəni rus, ingilis və fransız və başqaları üçün 100-də dörd faizdir. Onlardan yol pulu (rahdari) tələb olunur. Ticarət malları Trabzon yolu ilə nəql olunur. Çox zaman qatır vasitəsilə, Tiflis tərəfdən isə dəvə və bə'zən lafetlərlə gətirilir. İraq tərəfdən dəvə və qatırlar və ya ulaq vasitəsilə, yarmarkaya isə Ərdəbil yolu ilə dəvə vasitəsilə gətirilir. Trabzondan Təbrizədək kirayə qiymət hər bir 45 batman üçün təxminən 1000 misqal - 12 tümən 6 tümənədəkdir. Təbrizdən Trabzonadək hər bir yük ki, 30 batmandır (1 batman - 5,888 kq - H.T.), kirayə qiyməti 4 tümən 18.000 dinaradəkdir və Təbrizdən Tiflisədək 4 tüməndən 6 tümənədəkdir, Tiflisdən Təbrizdək 25-30 dinardır. Şübhəsiz ki, bu kirayə qiymətləri artıb-azala bilir. Xarici dövlətlərdən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbrizə daxil olan  və Təbrizdən xaricə göndərilən ticarət malları hər il təqribən aşağıdakı qıydada olur:

**Təbrizə xaricdən gətirilən ticarət malları**

Çit və ağ parça. Tiflis yolundan 9 min tay. Trabzon yolu ilə 37.260 tay.

Hər cür mahud. Tiflis yolu ilə 40 tay, Trabzon yolu ilə 102 tay, Ərdəbil yolu ilə 30 tay.

İpək parça. Tiflis yolu ilə 48 tay, Trabzon yolu ilə 58 tay.

Kətan üzlü döşənəcək. Ərdəbil yolu ilə 244 tay.

Qənd. Tiflis yolu ilə 12.000 tay. Trabzon yolu ilə 8456 tay.

Çay. Tiflis yolu ilə 500 tay. Trabzon yolu ilə 132 tay.

Xırdavat alətləri Trabzon yolu ilə 59 tay.

Xırda alətlər. Tiflis yolu ilə 50 tay, Trabzon yolu ilə 280 tay. Ərdəbil yolu ilə 10 tay.

Çini qablar. Trabzon yolu ilə 94 tay. Ərdəbil yolu ilə 100 tay.

Düst və müxtəlif dərmanlar. Trabzon yolu ilə 96 tay. Ərdəbil yolu ilə 4 tay.

İçkilər. Tiflis yolu ilə 400 tay, Trabzon yolu ilə 150 tay.

Tüfəng və tapança alətləri, Trabzon yolu ilə 14 tay.

Billur məmulatlar. Trabzon yolu ilə 306 tay, Ərdəbil yolu ilə 250 tay.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bədənnüma və nazik güzgülər. Trabzon yolu ilə 218 tay.

Cam, kasa və hacıtərxani. Trabzon yolu ilə 120 tay, Ərdəbil yolu ilə 300 tay.

Yazı üçün kağız. Trabzon yolu ilə 100 tay, ərdəbil yolu ilə 80 tay.

Dərman maddələri, ədviyyat və s. üçün kağız. Ərdəbil yolu ilə 90 tay.

Papiros kağızı. Trabzon yolu ilə 10 tay.

Papiros. Trabzon yolu ilə 10 tay.

Papiros tütünü. Tiflis yolu ilə 30. Trabzon yolu ilə 50 tay.

Əsl bafta. Trabzon yolu ilə 2 tay.

Bafta əvəzi. Ərdəbil yolu ilə 40 tay.

Qırmızı dəri. Ərdəbil yolu ilə 30 tay.

Tumac dəri. Ərdəbil yolu ilə 16 tay.

Təzə dəmir. Ərdəbil yolu ilə 1500 tay.

Dəmir təbəqə. Ərdəbil yolu ilə 20 tay.

Köhnə dəmir və köhnə mıx. Ərdəbil yolu ilə 250 tay.

Məftil. Ərdəbil yolu ilə 10 tay.

Təzə dəmir mıx. Ərdəbil yolu ilə 100 tay.

Çuğun alətlər. Ərdəbil yolu ilə 200 tay.

Ağ dəmir. Trabzon yolu ilə 50 tay.

Mis. Tiflis yolu ilə 500 tay.

Qalay. Trabzon ylu ilə 4 tay.

Bürünc alətlər. Ərdəbil yolu ilə 10 tay.

Samovar. Ərdəbil yolu ilə 50 tay.

Kənaf ipi. Ərdəbil yolu ilə 10 tay.

Kəndir. Ərdəbil yolu ilə 400 tay.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Stearin şamlar. Ərdəbil yolu ilə 150 tay.

Duzlar küporos (Ağır metalların sulfat duzu). Ərdəbil yolu ilə 200 tay.

Qəhvə. Trabzon yolu ilə 100 tay.

Adları çəkilən malların 2/3 hissəsi İraqa aparılır. 1/3 hissəsi isə Azərbaycana səof olunur.

**Azərbaycandan və İranın başqa vilayətlərindən**

**Təbriz vasitəsilə xaricə aparılan mallar barədə**

İpək. Azərbaycandan və İranın sair vilayətlərindən, Trabzon yolu ilə 600 tay.

Barama. İranın sair vilayətlərindən, Tiflis ylu ilə 220 tay, Trabzon yolu ilə 256 tay.

Azərbaycan pambığı. Tiflis yolu ilə 226 tay, Trabzon yolu ilə 7800 tay, Ərdəbil yolu ilə 2500 tay.

Azərbaycan və İranın sair məmləkətlərinin yunu. Tiflis yolu ilə 420 tay, Trabzon yolu ilə 600 tay.

Kirman şalı. Trabzon yolu ilə 60 tay.

Kəşmir şalı. Trabzon yolu ilə 12 boxça.

Xalça və köçə. İranın başqa vilayətlərindən, Tiflis yolu ilə 260 tay, Trabzon yolu ilə 20 tay.

İpək tullantısı. İranın digər vilayətlərindən, Tiflis yolu ilə 60 tay. Trabzon yolu ilə 620 tay.

Qummi (bə'zi bitkilərin zədələnmiş yerindən axan kütlə, bu bəzən kitrə də adlanır). İranın digər vilayətlərindən, Tiflis yolu ilə 100 tay. Trabzon yolu ilə 200 tay.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Buxara, Şiraz və Qum dərisi. Tiflis yolu ilə 150 tay. Trabzon yolu ilə 300 tay.

Mum. Azərbaycanın və sair İran vilayətlərindən, Tiflis yolu ilə 200 tay. Trabzon yolu ilə 300 tay.

Piy. Azərbaycandan. Trabzon yolu ilə 580 tay.

Azərbaycan yağı. Trabzon yolu ilə 360 tay.

Azərbaycan heyvanları. Trabzon yolu ilə aparılır və qeyri-müəyyəndir.

Azərbaycan şirniyyatı. Tiflis yolu ilə 1100 tay. Trabzon yolu ilə 1800 tay, Ərdəbil yolu ilə 12000 tay.

Tülkü, vaşaq, qurd və başqa heyvan dəriləri. Azərbaycandan və İranın başqa vilayətlərindən, Tiflis yolu ilə 2 tay. Trabzon yolu ilə 4 tay, Ərdəbil yolu ilə 60 tay.

Aşılanmış dəri. Azərbaycandan, Tiflis yolu ilə 100 tay. Trabzon yolu ilə 400 tay.

Qələm. İranın digər vilayətlərindən, Trabzon yolu ilə 10 tay.

Kəndir. Azərbaycanın və İranın digər vilayətlərindən, Tiflis yolu ilə 200 ta y. Trabzon yolu ilə 150 tay, Ərdəbil yolu ilə 400 tay.

Köhnə silahlar və alətlər. İranın digər vilayətlərindən, Tiflis yolu ilə 4 tay. Trabzon yolu ilə 12 tay, göy rəng İranın digər vilayətlərindən, Trabzon yolu ilə 10 tay.

Qılınc. İranın digər vilayətlərindən, Trabzon yolu ilə 10 tay.

Tütün. İranın digər vilayətlərindən 24.00 tay.

Yun corab. Azərbaycandan. Trabzon yolu ilə 10 tay.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Taxıl. Azərbaycandan, Trabzon yolu ilə 48 tay.

Qoyun dərisi. Azərbaycandan Trabzon yolu ilə 200 tay.

İraq tərəfindən Azərbaycana Hindistan malları, o cümlədən şal, göy rəng, ədviyyəcat və başqaları gətirilir, 300 tay və bunların qiyməti təxminən 100 min tüməndir.

Təbrizə İranın özündən, yəni İraq və fars əyalətlərindən bir kürur tümən dəyəri olan yeyinti və əmtəə varid olur. Bunların bəzisi xaricə göndərilir. Bunlar həna və rəng, şal və dəri, basma naxışlı çit parça, ipək parça, tənbəkidir, bəzisi ölkənin özünə sərf olunur. Bütün bu mallardan alınan müamilə 20 kürur tüməndir.

1/3-i daxildə qalanı isə xaricdə məsrəf olunur.

Bu şəhərin mötəbər tacirlərinin adları belədir: Hacı Mir Məhəmmədhüseyn Nazimüttücar, Hacı Məhəmməd İbrahim Qəzvini, Hacı Məhəmməd Sadıq Kəsmai, Hacı Kazım Məliküttüccar, Hacı Əli Əkbər Toxməfürüş, Hacı Məhəmmədhəsən taciri-İsfahani, Hacı Rəhim Topçi, Hacı Abdulla Xoi və başqaları.

Xarici dövlətlərin məşhur tacirlərinin adları: Rali, Yunan taciri, Yunan taciri Suvac Ağlu, Süveyş taciri Temisci, Yunan taciri Çələpi, Ermənistan və İstanbul taciri Qaragözlyan.

## Dünya səyyahlarının səyahətnamələrində Təbriz haqqında məlumatlar



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Jan Battisti Tavernyenin səfərnaməsindən**

Fransız səyyahı Tavernye hicri 1046-cı, məsihi 1636-cı ildə İrana səfər etmiş, Təbrizdən keçərkən şəhərə daxil olmuşdur. O yazır: "Təbriz 83 dərəcə uzunluq və 40 dərəcə en dairəsində, geniş bir səhrada yerləşir, heç bir ağac gözə dəymir, Ətraf düzənlikdir. Təbriz şəhərini yalnız bir qədər Qərb tərəfdən hündür dağlar əhatə etmiş. Hamı belə əqidədədir ki, Midiya dövlətinin paytaxtı Ekbatan (Həmədan - H.T.) elə həmin bu Təbriz şəhəridir. Hər halda indi böyük və əhalisi çox olan bir şəhərdir. Binaların əksəriyyəti çiy kərpicdən tikilmişdir, evlərin damı da çiy kərpicdən örtülmüşdür. Təbriz şəhərində çoxlu qərib və yerli sənətkarlar yaşayırlar. Burada dəri ustası, xüsusən şaqren dəri ustaları rəvac tapmışdır. Şaqren sapoq və ayaqqabılar eşşək və qatır dərisindən tikilir və ətrafa aparılır.

Təbrizdə bir məscid gördüm, son dərəcə ali məscid idi, lakin onu bina edən sünni olduğu üçün İran əhalisi ona yaxşı baxmır və orada namaz qılmır. Bu məscidin günbəzi xaricdən əlvan kaşılarla bəzənmişdir, daxildən günbəzdə qızıl və lacivərdlə (tünd göy -H.T.) quran ayələri yazılmışdır, cürbəcür gül və buta çəkilmişdir. Məscidin girəcəyinin hər iki tərəfində iki minarə ucaldılmışdır. Hicri 1190-cı, məsihi 1780-cı ildə Təbrizdə möhkəm zəlzələ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmuşdur, yəqin ki, bu minarələr bu zəlzələ zamanı dağılmışdır.

İranın bəylərbəyisi əyləşən Təbrizin böyük meydanında ikimərtəbəli nağaraxana vardır. Təbriz şəhərinin civarında İsfahan yolunun üstündəki bir dağın ətəyində uzunluğu 50 zər və tağları çox hündür və əla, lakin uçulmaq üzrə olan bir körpü vardır. Belə bir məşhur rəvayət söyləyirlər ki, Təbrizin mollalarından biri Böyük Şah Abbasın bu şəhərə gələcəyini eşidib, bu körpünü tikdirmişdir. Şah Abbas buradan keçərkən sual edir ki, bu cürə ali bir körpünü heç ehtiyac olmayan bir yerdə kim bina etmişdir? Burada çay ki, yoxdur, nə üçün bu körpünü tikmişlər? Şahın hüzurunda buyurdular ki, bu körpünü filan molla tikdirib. Şah Abbas həmin mollanı çağırtdırıb soruşdu ki, bu lazımsız tikilidən məqsədin nə olmuşdur?

Molla cavab verdi:

- Padşahın bu şəhərə gələcəyini eşitmişdim, istədim adətə zidd bir iş tutum ki, padşahın heyrətinə səbəb olsun və o, məni hüzuruna çağırsın, bununla da bəlkə şah həzrətləri məni tanısın.

## Şardənin səyahətnaməsindən

Fransız səyyahı Şardən hicri 1084-cü ildə, miladi 1673-cü ildə Təbrizə səfər etmişdir. O yazır: "Təbriz İranın ən böyük şəhərlərindəndir və İsfahandan sonra istər böyüklüyünə və zənginliyinə, əhalisinə görə, istərsə də dövlətinə və ticarətinə görə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bu məmləkətin birinci şəhəridir. Bu şəhər böyük düzənliyin hüdudunda bir dağın ətəyində vaqedir ki, bu dağın qədim tarixçilərdən Polibi, Diodor və Ptolomey Oront və Baront adlandırmışlar (Səhənd və Surxab dağları - H.T.). Təbriz şəhərində divar və müdafiə istehkamları yoxdur. Spinq adlı kiçik bir çay şəhərin ortasından keçir və bahar fəslində bu çayda tez-tez böyük sel olur və onun hər iki tərəfində yerləşən evləri apararaq böyük dağıntılar törədir. Təbrizin o biri tərəfindən keçən çay şimaldan şəhərə bitişir. Yazdan payıza qədər, qış boyu onun eni Paris şəhərinin ortasından keçən Sena çayının eni qədər olur. Suyu acı olduğundan əhali bu çayı Acıçay adlandırır. Bu çayda çoxlu balıq ovlanır. Təbriz şəhəri 9 məhəlləyə bölünür. Bütün məhəllələrdə əhali İranın başqa şəhərlərində olduğu kimi iki firqəyə bölünmüşdür. Heydəri və Ne'məti fraksiyası. Bu şəhərdə 15 min ev və 15 min dükan vardır. Hərçənd Təbrizdə yüksək saraylar görmədim, lakin Təbrizin bazarları digər Asiya şəhərlərinin bazarlarından yaxşı və abaddır. Bazarların nəhəng uzunluğu və hündür gözəl günbəzləri vardır. Bu bazarlarda həmişə adam çoxdur, ticarət malları ilə dolu olan dükanlar şəhərin abad binalarındandır. Yaxşı bazarlardan biri gözəl, 8 guşəli geniş bazardır ki, Qeysəriyyə adlanır, orada cəvahirat satılır. Bu bazarı hicri tarixi ilə 850-ci ildə Azərbaycanın Həsən adlı hökmdarı tikdirmişdir (Bu Həsən gərək ki, Cahangirin qardaşı Ağqoyunlu Həsəndir (1423-1478) ki, hicri 872-ci ildə qardaşından sonra taxta əyləşmiş və 882-ci ildə Təbrizdə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəfat etmişdir). Şardən karvansaranın 850-ci ildə tikildiyini göstərməkdə səhv edir. Şəhərdə 300 karvansara olduğunu hesablamışlar. Kiçikləri ilə yanaşı elə geniş karvansaralar var ki, hər birində 300 müsafir yerləşə bilər. Şəhərin əksər küçələrində çoxlu qəhvəxanalar görünür. Qəlyanxana və tiryəkxanalarda meyli çəkənlərə xaşxaş şirəsi düzəldilmiş içkilər də verirlər.

Təbrizdə iki yüz əlli əzəmətli görkəmi olan məscid vardır. O cümlədən, Əlişah məscidi adlanan məsciddir ki, hal-hazırda dağılmış vəziyyətdədir. Bir neçə il bundan əvvəl aşağı mərtəbəsini tə'mir etmişlər, onun Təbrizdə ən uca minarələrdən hesab olunan minarəsini də təmir etmişlər. Minarə çox hündür olduğundan İrəvandan Təbrizə gələn şəxs birinci bu məscidin minarəsini görür. Bu məscid Təbrizi özünə iqamətgah seçən və orada dəfn edilən Qazan xanın vəziri Əli şah tərəfindən 400 il bundan əvvəl tikilmişdir. Qazan xan Təbrizi paytaxt seçmişdi. Rəşidəddin "Camiət-təvarix"də yazır: "İslam dinini qəbul etmiş ilk moğol şahlarından Qazan xan olmuşdur, lakin onun hakimiyyəti çox çəkmədi. O, 694-cü ilin (1295) zilhiccə ayında taxta əyləşmişdi, 703-cü il şəvvalın 11-də (1304) vəfat etdi". (Müəllif deyir: Bu məsələ əksər tarixçilərin əqidəsinə müxalifdir, çünki onlara görə islamı qəbul etmiş ilk moğol padşahı Nikudar Oğul olmuşdu, o, sultan Əhməd ləqəbli idi). Qazan xanın məqbərəsi indi Təbrizdədir, lakin dağılmışdır. Məqbərənin başında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olan minarə qalmışdır. Bu minarə Qazan xan minarəsi adlanır.

Məscidlərdən biri də Təbriz hökmdarlarından biri olan Cahanşahındır. O, 878-ci ildə (1473) tikilmişdir. Şəhərdə üç xəstəxana mövcuddur ki, hər üçü tibb ləvazimatı və tibb işçiləri ilə tə'min olunmuş, xəstələri müalicə etməklə onlara yaxşı qayğı göstərilir. Lakin xəstələr burada gecə qalmırlar, onlara gündə iki dəfə yemək verilir və evlərində gecələyirlər.

Şəhərin qərb qurtaracağında kiçik bir dağ üzərində Eyni-Əli, yə'ni "Əlinin gözləri" adlı ermitaj vardır. Bu məbəd Təbriz əhalisinin ibadət və gəzinti yeridir. Şəhərin xaricində Şərq tərəfdə bir qalanın əlamətləri görünür ki, indi xarabalıqları qalmışdır. Bu qala "Rəşidiyyə" adlanır və Qazan xanın vəziri, moğol tarixindən bəhs edən "Tarixi-Rəşidi"nin sahibi Xacə Rəşidəddin Fəzlullahın binalarındandır ki, 400 il bundan əvvəl tikilmişdir. Tarix belə məlumat verir ki, onun malik olduğu belə böyük şahlığın bütün işlərini idarə etmək üçün bir vəzirin kifayət etməyəcəyindən xəbərdar etmişdilər. Əlli il bundan əvvəl (yəni 1623-cü ildə) I Şah Abbas qalanın xarab olduğunu və şəhərin müdafiəsi üçün çox əlverişli mövqedə yerləşdiyini, buradan bütün qalaları bütövlükdə birlikdə idarə etməyin mümkün olduğunu nəzənə alıb onu yenidən tikdirdi. Onun varisləri başqa cür düşünüb, onu gözdən saldılar, bu qalanın təmirini məsləhət bilməyib, başlı-başına buraxıb, xaraba qoydular.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yenə şəhərin ortasında indi mərmər parçası qalmış vaxtilə böyük bir məscid olmuş binanın xarabalıqları vardır. Məscidin binasını osmanlılar tikdiyi üçün İran əhalisi bu məscidin saxlanmasından narazı qalır və onu natəmiz saxlayırlar.

Şəhərin kənarında, cənub tərəfdə bir xarabalıq vardır ki, burada qədim İranın sultanları Təbrizi öz paytaxtları edərkən vaxtilə tikilmiş bu böyük binalarda yaşamışlar. Şərqdə yerləşən və Təbrizdə yaşayan ermənilərin dediyinə görə Xosrov Pərvizin yaşadığı qala diqqətəlayiqdir. Xosrovun qalasında, onun Beytülmüqəddəsi fəth etdikdən sonra oradan özü ilə İrana gətirdiyi İsa Əleyhissəlamın çarmıxa çəkildiyi xaç bu qalada torpaqda gizlədilmişdir.

Təbrizin meydanı İran şəhərlərinin bütün meydanlarından, hətta İsfahan meydanından da böyük və genişdir. Osmanlılar öz tarixlərində qeyd etdikləri kimi bu meydanda döyüş zamanı otuz min adamı cərgəyə düzmüşlər. Mən Təbrizdə olduğum zaman axşamdan sonra hər gecə bu meydanı əyləncə içində keçirən "kiçik" adamlarla dolu görürdüm. Bu əyləncələr oyunlardan, göz-bağlayıcılardan, köçəri akrobatların göstərdikləri hoqqabazlıqlardan, güləşdən, öküz və qoç döyüşlərindən, hekayətlərdən və boz qurd rəqslərindən ibarətdir. Təbriz əhalisi bu rəqsdən daha çox zövq alır. Harada yaxşı təlim gör-müş qurd görsələr, onu Təbrizə gətirirlər. Ən yaxşı təlim görmüş və ən yaxşı rəqs edən qurd 500 tümənə alınır və satılır. Xülasə, bu meydan gündüzlər də boş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olmur. O, gündüzlər hər cür ərzaq malları və qiyməti az olan şeylərin bazarına çevrilir.

Təbrizdə başqa bir meydan vardır. Bu meydan Çərər Paşa meydanı adlanır. Hazırda sallaqxanaya çevrilmişdir.

Təbrizin əhalisinin nə qədər olduğunu öyrənmək üçün çox səy göstərmişəm. Bununla belə, onu dəqiq öyrəndiyimə əmin deyiləm. Lakin belə fikirləşirəm ki, onun əhalisinin 550 min nəfərə qədər olduğunu qətiyyətlə demək olar. Şəhərin əyan və mötəbər adamlarının çoxu məni inandırmaq istədilər ki, onun əhalisi on bir yüz mindən (1 milyon yüz mindən) də çoxdur.

Təbriz şəhərində olan ticarət malları yer üzündə istehsal edilən, dünyanın hər tərəfindən, Avropa və Asiyadan gətirilən mallardır. Şəhərin özü pambıq, ipək üzrə sənətkarlarla və zərgərlərlə doludur. Ən yaxşı fars çalmaları orada hazırlanır. Şəhərin əsas tacirlərindən eşitdim ki, hər il Təbrizdə altı min tay ipək istehsal edilir və xaricə aparılır. Bu şəhərin ticarət yolları Osmanlı dövləti, Moskva, Tatarıstan, Hindistan və Qara dəniz sahillərinə uzanır.

Təbrizin havası soyuq və qurudur. Onun havasının əhval-ruhiyyəyə pis təsir etməsindən qətiyyən şikayətlənmək olmaz. İranın başqa şəhərlərinə nisbətən Təbriz çox soyuq şəhərdir. Şəhər özü şimala - ilin doqquz ayı zirvəsi qarla örtülü olan dağlarla əhatə edildiyindən orda soyuqlar uzun müddət davam edir. Demək olar ki, orda hər axşam-səhər külək əsir. Yay müstəsna olmaqla, tez-tez ya-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ğışlar yağır. Orda yaşayış üçün vacib olan hər şey boldur. Qənaətcil adam Təbrizdə asudə yaşaya bilər. Xəzər dənizi Təbrizdən təqribən 20 fərsəx uzaqdır. Oradan şəhərə növbənöv balıq gətirilir. Bir livr çörək (qədim Fransada təxminən 0,5 kq-a bərabər çəki vahidi - H.T.) adətən iki liard qiymətində olur (1 liard 1/100 dinara bərabərdir - H.T.) Ev quşları, ov quşları, meyvə, çaxır və azuqə istənilən qədər boldur. Tərəvəz, xüsusən şüyüd pulsuzdur. Yayda şəhər ətrafında xallı maral və su quşları ovlanır. İranda ov quşlarını sevmirlər xallı marallar və digər vəhşi heyvanları az-çox ovlayırlar. Dağlarda həm də qartallar olur. Əsilzadələr bu quşu qırğı ilə təqib edirlər. Bu təqib çox maraqlı və cazibədardır. Qırğının qartalı tutmaq tərzi belədir ki, qırğı çox yuxarıdan uçaraq, onun üzərinə sürətlə şığıyır, caynaqlarını qartalın böyrünə keçirir, elə hey uça-uça qanadları ilə onun başına vurur. Hərdən belə də olur ki, qırğı ilə qartal hər ikisi birlikdə yerə düşürlər. Qırğılar xallı maralları da bu yolla tutur, onu çox asanlıqla ovçulara təslim edirlər.

Hamıya məlumdur ki, Təbriz bağlarında altmışdan artıq üzüm növü yetişdirilir. Deyilənlərə görə Təbriz şəhərinin yaxınlığında ağ mərmər mədəni vardır, şəffaf ağ mərmər yavaş-yavaş donan mineral bulaqların suyundan əmələ gəlir. Həmçinin Təbrizin lap yaxınlığında iki böyük mə'dən-qızıl və duz mə'dənləri vardır və bir neçə il olar ki, qızıl mə'dəni işləmir, çünki onun verdiyi gəlir çəkilən xərci zorla ödəyir. Mən Təbriz ətrafında bir neçə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mineral sular gördüm. Bunlardan ən qiymətlisi Barinc suyudur. Bu, Təbrizin bir fərsəxliyindədir (Barinc indi də Təbriz kəndlərindən birinin adıdır. Burada çox dadlı pendir olur. Müəllifin atası (Hacı Əli xan - H.T.) Məhəmməd Şah zamanı sarayda xansalar vəzifəsində ikən bu kənd dövlətə vergi əvəzinə sultan karxanasına nəqd pedir də verirdi).

Seydkənd mədən suları da Təbrizin 6 fərsəxliyindədir. Hər iki mədənin suyu kükürdlü sulardır. Bu suların biri isti, digər soyuqdur. Təbrizin təsərrüfat işləriə baxan Mirzə İbrahim oğlu Mirzə Tahir Təbriz alimlərindədir. O, bu şəhərin adı ilə əlaqədar İran tarixçilərinin müxtəlif fikirdə olduqları barədə danışdı və mənə onların əksinə olan iki fikir söylədi.

Mən dünyada elə bir başqa şəhər tanımıram ki, Təbriz kimi mənşəyi və ilk adı barəsində müasir müəlliflər arasında bu qədər mübahisələrə səbəb olmuş olsun. O fikirlərdən biri budur ki, şəhər salınandan sonra insanları burada yaşamağa cəlb etmək üçün onu Təbriz adlandırırlar, yəni şəhərin havası sağlam olduğu üçün ona hər cür xəstəliyi, hərarəti dağıdan bir yer adı verirlər. Şəhərin tarixi qədimdir. Zibeydədən əvvəl olmuşdur və bunun Zibeydəyə heç bir dəxli yoxdur. İkinci fikir budur ki, bu söz Tab+rizdir. Tabın mənası işıq, ziya deməkdir. Tabriz işıq, ziya yayan deməkdir. Təbriz qədimdən Azərbaycanın paytaxt şəhəri olmuşdur. Farslara görə Azərbaycan Zərdüştün doğulduğu ölkədir, işıq atəşdən yarandığı üçün və bu şəhər atəşpərəstliyin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mərkəzi və atəşpərəstlər yaşayan yer olduğu üçün Tabriz, yəni işıq yayan yer adlandırılmışdır".

Müəllif deyir: Mötəbər tarix kitablarında yazılmışdır ki, Bəhram Kur atasının yerinə Əcəm ölkəsinin hakimi olduğundan sonra Rast Rövşəni özünə vəzir təyin etdi və özü eyş-işrətlə məşğul oldu. Rast Rövşən bütün hakimiyyəti ələ alaraq rəiyyətin vergisini artırdı və ordunun sayını azaltdı. O qorxurdu ki, bu iki xəyanətdən Məlik xəbər tutan və onu əməllərinə görə cəzalandırar. Ona görə də o, Bəhram Kuru eyş-işrətdən ayıltmağa çalışırdı. Bu səbəbdən Əcəm dövlətini məhv etmək xəyalına düşdü. O, Çin xaqanını İranı tutmağa dəvət etdi və Xaqan 250 min nəfər atlı və piyada ilə İrana üz tutur. O, hərb və cəng alətlərini işlətmədən, əziyyətsiz Türkmənistandan keçdi və Ceyhun çayını keçdi. Bəhram xəbər tutub, günorta taxta əyləşdi və əyanlara üzünü tutub dedi: "Mən sizin gözünüzün qarşısında olmadığım zaman siz işinizi başlı-başına buraxmayın. Belə olmasa, mən sizin hamınızı cəzalandıracağam". Bunu deyərək qardaşı Nersini öz yerində əyləşdirib dedi ki, mən Təbriz Atəşkədəsini ziyarət etməyə gedirəm. Özü ilə 7 nəfər şahzadə, üç yüz nəfər igid oğlanları götürüb Azərbaycana üz tutdu və orada Gürgan yolu ilə gedib Xaqanın ordusuna yetişdi, ona hücum edib, gecə ikən qanlı döyüş apardı və Xaqanı öldürdü, ordusunu darmadağın etdi.

Belə məlum olur ki, Təbrizdə atəşpəpərstlərin ziyarətgahları olan məbədlər çoxdu. Ona görə Mirzə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tahirin dediyi kimi, şəhərin adı ilə əlaqədar Təbriz yox, Tabriz sözü həqiqətə daha yaxındır.

Xülasə, bir halda ki, söhbət atəşpərəstlikdən düşdü onda müəllif, Məsudinin "Süruc-üz-zəhəb" (Qızıl yəhər) əsərinin 68-ci fəslinin "Atəşpərəstlik" bəndindən bir parçanı nəzərə çatdırmağı münasib bilir:

"İran hökmdarının birinci və ikinci nəsli öz ölkələrində atəşpərəslik məzhəbinə rəvac vermişlər. Atəşpərəstliyi ilk dəfə seçmiş İran dövlətinin hökmdarı Firidun olmuşdur. Bir gün bu padşah səhrada gəzərkən, od yandırıb, ona sitayiş edən bir kütlə görmüş, onlardan soruşmuşdur ki, oda sitayiş etməkdə məqsədiniz nədir? Onlar çavab verirlər: "Atəş, od təbiətin mürəbbisi və işıqın mayası olduğu üçün xaliqlə məxluq arasında vasitəçidir. Ona görə də ona gərək pərəstiş olunsun".

Atəşpərəstlərin əqidələri haqqında yazmıram, çünki onun şərhi üçün gərək ayrıca kitab yazılsın. Bunu söyləmək kifayətdir ki, od başqa ünsürlərdən öz üstünlükləri ilə fərqlənir. Odun işığı bütün heyvanları cəlb edir, bir maqnit qüvvəsi ilə insan və sair heyvanat oda tərəf meyl edir necə ki, havada uçan quşlar, dəryada balıqlar atəşə meyl etməsinə görə bəzən özü ovçunun toruna düşür. Xülasə, o zamandan Firidun atəşpərəst olmağı qərara alır. Ondan bir az sonra mövcud olan atəşi Xorasana apardı, Tus şəhərində bir məbəd bina etdi. Sonra Buxarada Bərdsurə adlı məbəd yarandı. Üçüncü məbəd Bəhmən ibn İsfəndiyar tərəfindən Sicistanda



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yaradıldı Kərakərkan adlı məbəd oldu. Dördüncü məbədi əl-Şiz və Arranda Ənuşirəvan tikdirmişdir. Keyxosrov Şirazda Kusçə adlı bir məbəd tikdirmişdir. Bir sıra banisi məlum olmayan məbədlər də vardır.

Qədim şəhər dağılandan sonra yeni şəhər yarandı və atəşpərəstlik məbədlərini bütpərəslik məbədləri əvəz etdi.

Səyavuş ibn Kavusun bina etdiyi məbəd Çin sərhəddindədir.

Yuxarıda göstərilən atəşkədə məbədləri Zərdüştün zühurundan əvvəl yaranmışdır. Zərdüştün zühurundan sonra atəşpərəstlik məzhəbi qüvvətləndi və yayılmağa başladı. Azərbaycanda, Nişapurda, Nisa şəhərində, Beyza və Şirazda bir neçə böyük atəşkədə yarandı. Zərdüştün hökmü ilə Cəmşidin pərəstiş etdiyi atəşi Kəştasib uzun axtarışlardan sonra Xarəzmin paytaxtında tapdı. Həmin atəşkədə indi də, yəni hicri 332-ci ildə (943/44) qorunub saxlanır və Azərcu adlanır. Maqlar burada qorunan oda çox ehtiram bəsləyirdilər.

Əcəm tarixçilərindən bəzilər yazmışlar ki, Keyxosrov Türküstanı zəbt edərkən müqəddəs odu Xarəzmdən İrana gətirdi. Digər tarix kitablarında isə belə söylənilir ki, Ənuşirəvan bu müqəddəs odu Türküstandan İranın kiçik şəhərlərin biri olan Karyan şəhərinə gətirmişdir. Maqlar, Ərəblər İranı istila edən vaxt müqəddəs odun Karyan şəhərində söndürüləcəyindən qorxub, onu Nisa və Beyzaya gətirdilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mötəbər atəşkədələrdən biri İstəxr atəşkəsidir ki, indi, yəni h.332-ci ildə o atəşkədə Süleyman məscidi kimi məşhurdur. Fars əyalətində Şapur şəhərində olan atəşkədəni Dara (e.ə. 522-486) bina etmişdir. Başqa bir atəşkədə indi Firuzabad adlanan Cudadır. Mən özüm bu atəşkədəni görmüşəm. Firuzabad şəhərindən bir fərsəx aralı çeşmə kənarında vaqedir. Kübarlar ildə bir dəfə bu atəşkədədə bayram edirlər. Bu atəşkədə Ərdəşir Babikanın zamanından qalır. Ərdəşir İran məmləkətini idarə etməyə başlayanda atəşkədə bina etdi". Məsudinin sözləri burada bitdi.

Şardən yazır: "Adını çəkdiyimiz həmin Mirzə Tahir mənə dedi ki, Təbriz yaxınlığındakı Azərbaycan şəhərlərindən Mərənd xarabalıqlarında bir xəzinə tapılmışdır. Çoxlu qızıl və gümüş sikkələri İsfahana, İran padşahının xəzinəsinə göndərilmişdir. Sikkəli pullar üzərində Dəqyanus adı yazılmışdır. Məndən soruşdu ki, Dəqyanus kimdir? İranda hakim olan hansı sülalədəndir? Cavab verdim ki, Yunan və Avropa tarixi kitablarda İranda hakim olan Dəqyanusun şəkli zəbt olunmuş sikkələr buraxılmayıbdır. Güman edirəm ki, bu həmin Dara olmalıdır. Ərəblər ərəbləşdirərək Dəqyanus adlandırmışlar. Həmin şəxsdən eşitdim ki, təqribən 400 il bunda əvvəl Qazan xanın zamanında şəhərin ərazisi şimaldan cənuba doğru olub, Çuran dağı ilə üzbəüz, Acıçaydan başlayaraq yuxarıda adı çəkilən Barinc kəndinə qədər uzanırdı. Bu məlumat digər tarix kitablarından birində də vardır. Orada göstərilir ki,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

taun xəstəliyi Təbriz şəhərində yayılan zaman məhəllələrindən birində qırx min nəfər adam ölmüşdür. Bir kəsin bu məhəllədə öldüyünü bilmədi. Səltənətə səfəvilər keçən dövrdən indiki zamanadək Təbriz xarabalığa çevrilməyə başladı.

Çünki bu hakimiyyət paytaxtı Təbrizdən Ərdəbilə, oradan Qəzvinə, sonra isə İsfahana göçürdü.

Sultan Səlim xan Osmani h.920-ci, (m.1514) ildə Çaldıran döyüşündən sonra Təbrizi fəth etdi, lakin bu şəhərdə iqamət etmədi. Şəhəri qarət etdikdən sonra xeyli mal-dövlət və 3000 min sənətkarı özü ilə İstambula apardı. Çox keçmədi ki, Təbriz əhalisi üsyan etdi və şəhərdə olan türk qarnizonunu qırdılar və şəhər İran ordusunun ixtiyarına keçdi. Sultan Səlim isə intiqam həsrətini özü ilə qəbrə apardı. Lakin ondan sonra hakimiyyətə gəlmiş Sultan Süleyman qoşun komandanı İbrahim Paşanı Təbrizi zəbt etməyə göndərdi və h.941-ci, (m.1535) ildə Təbrizi fəth etdi. Sultan Süleymanın özü isə hicri 942-ci ildə Təbrizə gəldi və şəhərin bir yerində bir qala tikdirdi. Bu qalada 4 min əsgər və 350 top yerləşirdi. Sultan Süleyman getdikdən sonra əhali bu yerləşdirilmiş qoşun və silaha görə tez-tez üsyan edirdi və nəhayət qalanı dağıtdılar. Sultan Süleyman ikinci dəfə İbrahim Paşanı Təbrizi tutmağa göndərdi. 3 il çəkişmədən sonra h.955-ci, (m.1548/49) ildə Təbriz İbrahim Paşa tərəfindən fəth olundu. Türk qoşunları insaniyyətdən və mədəniyyətdən kənar olub, əhalini qırdılar. Şah sarayının, Təhmasib şahın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

imarətini yox elədilər. Şəhər bir müddət osmanlı qoşunlarının əlində qaldı, ta Sultan Murad xanın dövrünə qədər. Əhali üçüncü dəfə üsyan edərək, osmanlı qoşununun on min əsgərini qırdı. Sultan Murad xan təbrizlilərin cəsarətindən qorxaraq külli miqdarda ordu ilə Osman Paşanı Təbrizə göndərdi ki, şəhəri viran etsin və əhalini qırsın. Təbriz şəhəri h.994-cü (m.1586) ildə Osman Paşa tərəfindən zəbt olundu, əhali qırıldı. Türk tarixçisi Hacı Xəlifə öz tarix kitabında yazır ki, Fərhad Paşa h.994-cü ilin zilhiccə ayında Təbriz şəhərini zəbt etdi və qızılbaşları oradan çıxardı. Şəhər alındıqdan sonra orada möhkəm bir qala tikildi. Bu 3-cü Sultan Muradın zamanında olmuşdur. Təbriz Böyük Şah Abbasın hakimiyyəti dövrünədək türklərin əlində olmuşdur. H.1012-ci (m.1603) ildə Böyük Şah Abbas Təbriz şəhərinin osmanlılardan aldı. Bu belə olmuşdur: Fərhad Paşanın şəhəri zəbt etməsindən 18 il sonra Şah Abbas Təbriz şəhərinə ordu yeritdi. Ordunu bir neçə dəstəyə bölüb, şəhər darvazalarında olan mühafizə dəstəsinii öldürdü 500 nəfər əsgəri tacir libası geydirib, şəhərin ortasına göndərdi. Onlara öyrətdi ki, şəhər əhalisinə desinlər ki, karvanlar sabah ertədən yetişəcəklər və biz mənzil tutmaq üçün bir mənzil qabağa gəlmişik. Şah Abbas özü 6000 nəfər atlı ilə həmin 500 nəfərin şəhərə girməsini gözləyirdi. Elə ki, 500 nəfər şəhərə yetişdi, onların arxasına düşüb, qəflətən şəhərə girdi və zəbt etdi. Osmanlı ordusu bu hücumu gözləmədiyindən Şah Abbasa təslim oldu. Bu hücum zamanı İran hərb



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tarixində ilk dəfə olaraq Şah Abbas ordusunun bir dəstəsi tüfənglə silahlanmışdı.

Təbriz qubernatorluğu və onun tabeliyində olanlar İranın ilk qubernatorluğu hesab olunur. İranın qoşun böyüyü həm də Təbrizin hakimidir. Təbrizin İsfahana göndərdiyi dövlət vergisi 135 min tüməndir. Təbrizin hakimi bəylərbəyi adlanır.

Təbrizdə həmişə 3 min atlı keşikçi hazır olmalıdır. Qars, Urmiya, Marağa və Ərdəbil xanlarının on bir min süvarisi hökumətin ixtiyarındadır və Təbriz bəylərbəyisinə sadiqdirlər.

Hal-hazırda Təbrizdə canişin Təhmasib bəydir, atası Mənsur xan Səpehsaların yerindədir. Atası indi İsfahandadır. Onu görmək üçün getdim. Hökumət iqamətgahında eşitdim ki, bir ay bunda əvvəl ildə bir dəfə İsfahandan quru yolla Hindistana Qəndəhar şəhərindən keçən bir karvan Hindistan sərhəddinin üç mənzilliyində əfqan tayfası tərəfindən qarət olunmuşdur. Karvanda iki min tacir və çarvardar var idi. 500 nəfər əfqan oğrusu karvan əhlini bir-birindən ayrı salıb dağıtdılar. Onlardan on bir nəfəri öldürüldü, külli miqdarda ticarət malları apardılar. İran padşahına yazılan ərizədə 60 nəfər mötəbər tacirin imzası və möhürü var idi. Ərizədə oğurlanmış malların siyahısı və bunların qiyməti 2 kürur 300 min tümən idi. Qəndəhar hakimini bu oğurluğa görə cəzalandırmaq üçün İsfahandan oraya bir məmur göndərirlər ki, Qəndəhar hakimini çılpaq dəvəyə qoyub, qandallayıb, Qəndəhardan İsfahana gətirsin.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## Coze Vayt sülaləsindən olan xristian alimlərindən birinin səfərnaməsində Təbrizə aid məlumat

H.1102-ci (m.1690) ildə Coze Vayt sülaləsindən olan xristian alimlərindən biri İrana səfər edərək, Təbrizin şərhi-halına dair belə yazmışdır: "Təbriz adı Tövratda iki-üç zikr olunmuşdur. İzdizaz, Buti və judit kitablarında bu şəhər İsfahandan sonra İranın ən böyük, əhalisi çox, dövlətli bir şəhəri kimi göstərilir. Burada on beş min ocaq, on beş min dükan vardır, üç yüz karvansara və iki yüz əlli məscid vardır, 300 mindən artıq əhali yaşayır.

Şardən "Səfərnamə"sində Təbriz şəhərinin əhalisinin 1 kürur 50 min, yaxud 2 kürur 100 min nəfər olduğunu söyləmişdir. Bu fikir təzadlıdır. Təbrizin əzəmətli düzbucaqlı meydan vardır. Girəcəyi uzunsov iri daşlarla döşənmişdir, onun dörd bir tərəfi bişmiş kərpicdən tikilmiş binalardır. Bu binalar bayır tərəfdən kaşılarla bəzənmişdir. Bu mədrəsələrdə tələbələr təhsil alırlar.

Təbrizin havası çox sağlamdır. Şəhərin ətrafında və evlərin yaxınlığında olan bağlarda meyvə ağacları doludur. Təbriz qovunu məşhurdur, ilin hər fəslində tapılır. Bu şəhər Hindistan, türk, rus və b. tacirlərinin görüşdüyü yerdir. Təbriz şəhərində Avropanın hər cür qəribə mallarını görmək olar. Şəhədar yaxınlığında qızıl və mərmər mədənləri vardır. Lakin bu mədəni işlədib fayda götürmək mümkün olduğu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

halda osmanlılar kimi iranlılar da bu işdə tənbəldirlər və bu mədəni işlətmirlər.

### Cənab Kinerin səfərnaməsində Təbrizə aid məlumat

General ser Con Məlkum xan h.1216-cı (m.1801) ildə İngiltərə dövləti tərəfindən İrana, mərhum Xaqanın sarayına səfir göndərildiyi vaxt İranın coğrafiyasından bəhs edən kitab yazmışdır. Onunla birlikdə İrana gələnlər arasında cənab Kiner də var idi. Onun Təbriz haqqında yazdığı təəssuratın məzmunu belədir: "Təbriz şəhəri qədimdə Kaza adlanmışdır. Böyük Keyxosrov miladdan əvvəl 548-ci ildə İzmir və Anadolu padşahı Kərsusu məğlub etmiş və o padşahın saysız-hesabsız dövlətinə yiyələnmişdi. Bütün bu xəzinəni bəzilərinin əqidəsinə görə indiki Təbriz olan Kazaya daşıtdırmışdı. (Kərsus o şəxslərdən olmuşdur ki, onun dövləti və qüdrəti dastana çevrilərək zərbülməsəl idi. İndi də Harunu İranda və Ərəbistanda, Kərsusu isə Avropada ən varlı şəxs kimi nümunə göstərirlər. Bəlkə də Harun elə həmin Kərsusdur).

Bu da məşhur əhvalatdır ki, İran sərdarlarından Sərbaz adlı bir nəfər Beytülmüqəddəsi zəbt etdikdən sonra həqiqi xaçı oradan Təbrizə gətirmişdir. Müəllif Sərbazı nə İran, nə də Avropa tarixi mənbələrində görməmişdir. Amma o məlumdur ki, Xosrov Pərvizin qoşunu 634-cü məsihi ilində Beytülmüqəddəsi fəth etdikdə həqiqi xaçı oradan İrana gətirdilər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Herakliyus h.7-ci (m.628) ildə İrana qoşun çəkdi və bir neçə döyüşdən sonra Xosrovla oğlu Şapurun münasibətini korladı və Təbrizi aldı və həqiqi xaçı oradan Beytülmüqəddəsə gətirdi. Həmin Herakliyusun zamanında İkinci xəlifənin islam qoşunları Beytülmüqəddəsi fəth etdi. Herakliyusun hakimiyyəti altında olan Misir, Ömər və Asın başçılığı ilə islam ordusu tərəfindən tutuldu."

Təbriz şəhəri cənab Kinerin əqidəsinə görə 30 mindən artıq əhaliyə malik deyildi və İranın çox da zəngin olmayan şəhərlərindən biridir. Müəllif deyir: əgər bu tarixçi söyləyir ki, o, Təbrizi filan ildə özü bu cür görmüşdür, amma nədənsə Avropanın başqa səyyahları cənab Kinerdən iki-üç il sonra Təbrizi görərək, onun yazdıqlarının tamamilə əksinə yazırlar.

Cənab Kiner yazmışdır ki, Təbriz şəhərində bir divar vardır ki, dağılmışdır və bir abad tikinti vardır ki, o da şahzadə Abbas Mirzə Naibüssəltənənin tikdirdiyi sərbazxanalardır.

### Cənab Kevrin[46] səfərnaməsində Təbrizə aid məlumat

Cənab Gevr Böyük Napoleonla tərcüməçi kimi Misrə getmişdir. Uzun illər Şərqdə yaşadığı üçün ərəb, türk və fars dillərini yaxşı bilirdi. O, hicri 1220-ci, miladi 1805-ci ildə I Napoleon tərəfindən dövlət işi ilə əlaqədar olaraq İran sarayına, Xaqanın hüzuruna e'zamiyyətə göndərilmişdir. O, Təbriz şəhərində olarkən bu şəhəri belə təsvir etmişdir:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Təbriz şəhəri neçə müddət idi ki, dağılmış və viran idi, əhalisi Azərbaycanın digər sakinləri kimi cilayi-vətən olaraq xarici ölkələrə üz tutmuşdular.

İranın vəliəhdi, şahzadə Abbas Mirzə az bir müddətdir ki, Azərbaycan valisidir. Təbriz və ümumən Azərbaycan şəhərləri abadlığa üz tutmuşdur. Mən bu fikirdəyəm ki, Azərbaycan əyaləti bu cür tərəqqi edərsə, baxmayaraq ki, Azərbaycanın qonşusu olan Osmanlı torpağında inqilablar və iğtişaşlar baş verir, bu əyalət tez bir zamanda əzəmətli, Təbriz şəhəri də İranın abad şəhərlərindən biri olacaqdır.

Şahzadə Abbas Mirzə indi Muğanda ordu ilə məşğul olduğu üçün öz yerinə Əhməd xanı şəhərin bəylərbəyisi təyin etmişdir. Əhməd xan hökumətinin canişini Fətəli xandır. Mənim Təbrizə gəlməyimi eşidib, mənə öz imarətinin yaxınlığında mənzil ayırmışdır. Fətəli xan öz həmməzhəbləri kimi avropalılara nə düşmən münasibəti bəsləyir, nə də şovinistdir. Hicri 1216-cı, miladi 1801-ci ildə İran şahı tərəfindən İngilis dövlətinin səfiri general ser Con Məlkuma qonaqpərvərlik göstərmək üçün öz dövrünün alimlərindən olan Fətəli xan da dəvət olunaraq, Şirazdan Tehrana gətirilmiş və o, Məlkumla söhbət etmişdir. Fətəli xan Fransa xalqının tərəqqisi barədə mə'lumat almaq üçün mənə müxtəlif suallar verirdi. Mən bir neçə qış gecəsini Təbrizdə qaldım. Onunla xeyli söhbət etdik. Söhbətin mövzusu ölkəmin vəziyyəti, elmin inkişafı, xüsusən Napoleona məftunluğu barədə idi. Mən də ondan İran sarayı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

barədə suallar edirdim. Sultan Əlahəzrət Fətəli şaha çox təriflər edirdi. Mənə Fətəli şahın İran məmləkətində, Əfqanıstan və Ərəbistanda olan əzəmət və iqtidarından danışırdı. Çox təəssüf ki, mən onun söhbətlərini kəsib İrandan getməli oldum. Vəliəhd Abbas Mirzənin Muğanda yerləşdirilmiş ordusunun yanına getdim. Ərdəbilə varid olanda vəliəhd Abbas Mirzənin həmin il qış soyuq olduğundan şəhərdə yaşadığını bildim. O, mənim üçün Mirzə Bozorg Fərəhaninin mənzilini ayırmağı tapşırmışdı. Şahzadə Abbas Mirzə Əlahəzrət Fətəli şahın ikinci oğludur. Onun valideyni Qacarlar tayfasındandır. Yaşı on doqquza çatmış bu gəncin qaməti uca, sifəti gözəldir. Üzünün cizgiləri mütənasib, baxışları ağıllıdır, uzun qara qaşları, günəşdən yanmış dərisi vardır. Mən onun qədər Avropa elminə və sənayesinə diqqət edən başqa İran şahzadəsi tanımıram. İran və ərəb elmlərinə bələd olan Abbas Mirzənin atası Fətəli şah dövründən etibarən İranda Fransa həyatına maraq artmışdır. Şahzadənin özü mənə nəql edir ki, o, on yeddi yaşında olarkən atası onu Azərbaycana və onun ordusuna rəhbərlik etməyi tapşırmışdır. O, bir neçə dəfə Gürcüstana qoşun göndərmişdir. Bu hərəkətlə onun həmin dövləti zəbt eləmək məqsədi olmasa da, rus dövlətinin əsgərinə göstərdi ki, güclü qolu olan düşmənlə rastlaşırsa, həmişə onun üzərində zəfər və qələbə çalmağa bacarır.

Abbas Mirzə qoşunda nizam-intizama riayət etməyi tələb edir, bu məqsədlə günah işlətmiş olan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

istər əsgərə, istərsə də adi bir insana qarşı amansız üsul tətbiq etməkdən də çəkinmir. Mənə bir əhvalat danışdılar və mən Abbas Mirzənin günah iş tutmuş Əli bəy adlı bir nəfərin qətlinə neçə fərman verdiyini eşitdim.

Azərbaycan əhalisinin Abbas Mirzə kimi düzlüyü tələb edən hökmdarı olduğunun nəticəsində Türküstan və Tatarıstan vilayətlərindən dəstə-dəstə gələnlər Azərbaycanda dağılmış kəndləri, xam torpaq olan yerləri abad edərək, burada məskən salırlar, onun mərhəmətli kölgəsinə baş əyirlər.

İrandan Avropaya qayıtdıqdan sonra eşidirəm ki, məndən sonra Azərbaycana gələn səyyah və müsafirlər bu əyalətin günbəgün tərəqqi etdiyini söyləyirlər, burada qayda-qanuna ciddi əməl olunur. Bu ölkənin hər bir nöqtəsindən, hər bir millətdən olan müsafirlər azad və asudə gedib-gələ bilirlər və burada Avropa əyaləti kimi qayda-qanun vardır.

Xülasə, Təbriz şəhərində iki gün qaldıqdan sonra şahzadənin hüzurunda oldum. Həmin iki gün mənə şahzadəyə məxsus mətbəxdən yemək gətirirdilər. Şahzadə Xorasan fərşinin üzərində əyləş-mişdi. Başında qiymətli cəvahirlə bəzənmiş tac, belində qiymətli qaşlı xəncər var idi. Rəsmi mərasimdən sonra mənə onunla üzbəüz oturmağa icazə verdi. Söhbət əsnasında belə nəticə çıxardım ki, şahzadə xeyli kədərləndi. Çünki Xəzər dənizinə tökülən Araz çayının mənbəyi və mənsəbi əvvəl İran dövlətinin, indi isə başqalarının ixtiyarındadır. Bir müddət Ərdəbildə qaldım və günün çox hissəsini şah-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

zadənin yanında olurdum. Onunla söhbətdən belə qənaətə gəlirdim ki, mənasız heç bir söz söyləmirdi və hər şeydən xəbərdar idi. Bir gün məndən soruşdu: "Nədən siz avropalılar yer üzünün başqa xalqlarının çoxundan qüdrətlisiniz, digərləri sizdən zəifdirlər? Bunun səbəbi nədədir? Niyə sizdə insanlar tərbiyət, Şərqdə kortəbii cəhalət vadisində bitən otlar kimidir? Aləmi işıqlandıran Günəş şüaları siz tərəfdən, faydasız işıq isə Şərqdən saçır? Sizdən həm sual edirəm, həm də məsləhət istəyirəm. İran məmləkətinin tərəqqisi üçün yaxşı olarmı ki, səltənət taxtını buraxaq və sizin məmləkətə gedək, bəlkə bu zahiri cah-cəlaldan, var-dövlətdən əl çəkək? Bəlkə öz atası Ulissi (Odisseyn - H.T.) tapmaq üçün nur dəryalarına baş vuran Tilmak kimi mən də zəhmətlər çəkim, elm və bilik olan əsl atamı axtarıb tapım?"

Şahzadənin bir-birinin ardınca verdiyi fazilanə suallar məni heyrətləndirirdi və fikirləşdim ki, təkcə Şərq torpağında yerləşən İran deyil, istər Osmanlı və istərsə Asiyanın başqa məmləkətlərinin xalqları da şərqlilərdir. Osmanlılar elmdən uzaq, tənbəl və ərköyündürlər. İranlılar da Avropadan uzaq olduqlarından belədirlər. Lakin necə olur ki, onların şahzadələri nəinki bizim tariximizdən xəbərdardılar, hətta nağıl və rəvayətlər haqqında, məsələn Tilmak dastanı barədə məlumatı vardır. Mən şahzadənin suallarına müfəssəl cavab vermək istəsə idim, gərək avropalıların özlərinin tərəqqi və böyüklüklərinin səbəbi barədə yazdıqlarını, əvvəl kim olduqlarını, sonra inkişaf edərək bugünki yüksək mərtəbəyə necə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

nail olduqlarını ona söyləyə idim. Mən bunları ona qısaca şərh etdim və dedim ki, hansı millətdə üç xüsusiyyət vardır, o tərəqqi edəcək. Bunlar bilmək, istəmək və bacarmaq xüsusiyyətləridir. Bu üç xüsusiyyəti şərh və bəyan eləmək uzun söhbətin mövzusudur. Qısası budur ki, hər kəs öz millətini və dövlətinin tərəqqisinin istəsə, bunu elm və bilik yolunda tapa bilər. Onda onun milləti tərəqqi edə bilər. Həmin üç sifətin hər üçü birlikdə olmasa, ayrı-ayrılıqda heç bir şeyə nail olmaq olmaz. Gərək hər üç sifət insanda birləşsin. Buna Böyük Napoleonu misal göstərmək olar. Bu üç xüsusiyyətə malik olan Böyük Napoleonun adı əbədi yaşayacaqdır. Napoleonun adını çəkən kimi şahzadə məndən Napoleonun xilqəti barədə danışmağı xahiş etdi. Napoleon 36 yaşındadır. Şahzadənin vacib məsələlərə aid suallarına cavab verdim. Ertəsi gün onun hüzuruna getdim. Abbas Mirzə məndən Fransa qoşunlarının Misri fəth etməsi xüsusunda soruşdu və qorxmaz, vəhşi Əhməd Cəzzar barədə nə bildiyimi soruşdu. Əhməd Cəzzar yalnız isəvilərin düşməni deyildir, hətta on iki imamın tayfasından olanlara qarşı da ədavəti çoxdur, rəhmsizdir. Son vaxtlar Məkkeyi-müəzziməyə ziyarətə gedən şiə hacıları qarət etmiş, öldürmüşdür. Şahzadəyə ərz elədim ki, o murdar vəhşini öz gözlərimlə görmüşəm. Bu görüş belə olmuşdur: "Əvvələn, Cəzzar Bosnidə, hicri 1130-cu, məsihi 1720-ci ildə anadan olmuşdur. Onun valideynləri isəviməzhəb idilər. Bu məlumdur ki, o otuz beş yaşında Misir valisi Əli bəyə qul kimi satılmışdır və onnu xidmətində yüksələrək, Qahirə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qubernatorluğunda çalışmışdır. Sonra Beyrutun hakimi olmuşdur. Hicri 1187-ci ildə (m.1773) Əkkə (Suriyada şəhərdir - H.T.) və Sə'diyyənin hakimi olmuşdur hicri 1189-cu (m.1775) ildə bütün Şamatı (Suriya ərazisindədir - H.T.) zəbt etmişdir. Ona Cəzzar, yəni qəssab ləqəbi vermişlər. General Bonapart ki, indi Fransa və İtaliyanın padşahı olan I Napoleondur, hicri 1207-ci (m.1792) ildə Fransa dövləti tərəfindən Şamata qoşun çəkdi və Əhməd Cəzzarla ağır döyüşlər apardı. Nəticədə o, Əkkə qalasında müdafiə olunmalı oldu. Fransa qoşunu bu qalanı mühasirə aldı, lakin fəth edə bilmədi. Mən o vaxt bu şəxslə söhbət etdim. Elə oldu ki, Fransa dövləti Misirlə və Şamatla ticarət müqaviləsi bağladı. Polkovnik Sebastian bu müqavilənin bağlanması üçün göndərildi və mən də onun tərcüməçisi oldum. İsgəndəriyyədə, Qahirədə və Damitdə bizi çox yaxşı qəbul etdilər. Məqsədimizə əməl olundu. Bu üç məkanda işimizi başa çatdırdıqdan sonra Əkkə istiqamətinə getdik. Misrin bəzi üləmaları bizim gəlişimizdən xəbər tutaraq gəlib dedilər: bilin ki, Əhməd Cəzzar Əkkədədir, lakin təklikdə fransızlarla əlaqə saxlayaraq danışmaq və xoş münasibətdə olmaq istəmir. O, sizin ona dost münasibətinizin və sevginizin əvəzinə sizinlə düşmənçilik edib vuruşacaq, o sizi öldürə və şikəst edə bilər, buna hazır olun!". Bu sözlər general Sebastiana yetişdikdə, o yenə Əkkəyə getmək fikrində tə'kid etdi, deyilən hökmlərə məhəl qoymayıb gəmini Əkkəyə yenəltdi. Sebastian gəmiyə oturub yelkəni çəkərək Əkkəyə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tərəf gedən vagt Şura çağırdı və şura Əkkəyə daxil olanadək davam etdi. Nəhayət, belə qərara gəldik ki, bu adaya daxil olmamışdan əvvəl Sebastianın tərəfindən Cəzzara ərəb dilində bir məktub yazılsın və daxil olmaq üçün icazə istəyək. Bizim gəmimiz Əkkə yaxınlığında olan Kirmul dağının ətəyinə paralel dayanmışdı. Buradan Əkkəyə az məsafə var idi. General adyutantı cavan və mən bir qayığa əyləşdik ki, Əkkəyə gedək və generalın kağızını Cəzzara verək. Günçıxana yaxın qayığımız Əkkə qalasının altına çatdı. Kömrükxana yerləşən sahildə qayığdan düşdük. Kömrükxananın işçiləri bizim gəlişimizdən heyrətləndilər. Bizi bir otağa aparıb gəlişimizin məqsədini biləndən sonra onlardan biri qalaya daxil oldu və oradan cavab gətirdi ki, Əhməd Cəzzar sizə bir saatdan sonra cavab göndərəcək. O zaman məlum olacaq ki, siz şəhərə daxil ola bilərsiniz, ya yox. Deyilən vaxta bir dəqiqə qalmış bir neçə mükəmməl silahlanmış əsgər bizə yaxınlaşdı və qalaya daxil olmağı təklif etdilər. Bizi meydan və bazardan keçirərək hökumət imarətinə gətirdilər. Bağa daxil olduq. Bir xiyabanda bizə işarə etdilər ki, gedin Paşanın yanına. Bələdçisiz uzun xiyabanı keçdik, bir qocaya rast gəldik. Qoca xurma ağacının kölgəsində, torpaq üzərində oturmuşdu. Saqqalı ağ, lakin seyrək idi. Libası köhnə və yırtıq, zahirən kasıb görünürdü. Ərəb dərvişlərinə oxşayırdı. Onun həmin Əhməd Cəzzar olduğunu düşünməzdik. İstədik ki, ona məhəl qoymadan yanından ötək, heyrətlə bizə baxdığı üçün dayandıq. Əli ilə işarə etdi ki, onun



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yanına gələk. Başı ilə işarə etdi və yerə oturduq. Mənə müraciət edib dedi ki, məndən nə istəyirsiniz, məni qəzəbləndirib, müharibəyə sövq edirsiniz. Bilmirsiniz ki, Cəzzar bir daş parçası kimidir, düşmən qarşısında onu heç bir qüvvə tərpədə bilməz? Mən dedim: "Fransanın nüfuz sahibi olan bir nümayəndəsi öz dövləti tərəfindən sizin yanınıza gəlmişdir. Bizi bu məktubla göndərib cavabınızı istəyir". O kağızı alaraq onu açıb oxumamış dedi:

- Mən nə qədər düşmənimə qarşı amansız olsam da, hər zaman mehriban dost olmağı da bacarıram. Mən rəhmsiz və vəhşi kimi məşhur olsam da, bu belə deyildir. Fransızlara digər Avropa millətlərindən artıq dostluq münasibəti bəsləyirəm. Onlara nə ziyan vermişəm ki, mənimlə müharibə edirlər? Sonuncu müharibədə silahla onlara yaxın olduqda, onların rəşadət və igidliklərini bəyəndim. Sən Əkkənin mühasirəsində oldun? Cavab verdim ki, bəli! Dedi: "Əlbəttə, yəqin ki, eşitmisən, fransızların ağır döyüşləri zamanı Əkkə üzərində bir çətin yürüşdə sizin ordu komandirlərindən biri (adını bilmirəm) cürətlə qala divarının üstünə qalxmış və şir kimi qəzəblə təkbaşına qoşuna qarşı vuruşmuşdur. Mən özüm ona tərəf süründüm və istədim ki, onu öldürəm, sonra belə mərdanə vuruşan rəşadətli insanı öldürməyə əlim gəlmədi. Onun papağını başından götürüb tulladım, özünü də sədəmə toxunmasın deyə, yavaşca hasarın üstündən yerə atdım. Bundan sonra Fransa dövləti ilə bizim aramızda sülh oldu. Yazılı əhdnaməyə ehtiyac yoxdur. Mənim sözüm bütün



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müahidənamələrdən mötəbərdir. Mən dedim dostam, deməli, həmişə dost olacağam. Onda ki, dedim düşmənəm, həmişə düşmən olacağam. Əkkəyə səfər edən sizin tacirlər mənim yurdumda əmin-amanlıq, sülh şəraitində yaşayacaqlar. Bu şərtlə ki, onlar mənim şəxsi işlərimə qarışmayacaqlar. Mən sizin tacir və ticarətinizə möhtac deyiləm, hər şeyim vardır. Mən bilirəm ki, bütün insanlarla dostluq, mehribançılıq münasibətləri yaratmaq lazımdır. Ona görə də mən öz limanımı fransız, ingilis, rus və italyanlar üçün açıq qoymuşam. Mən özüm Avropada doğulmuşam. Ata-anam o qədər yoxsul idilər ki, yemək hazırlamaq üçün qonşudan qazan borc götürürdülər. Görün, indi mən bütün Şamatın hakimiyəm".

Cəzzar sözünü bitirdikdən sonra mən dedim: "Məktubu açın və mənə cavb verin. O, kağızı açdı, gözdən keçirərək dedi: "Bu sözlər lazım deyil! Əyər sizin sahibmənsəb mənimlə üz-üzə dayanmaq istəsə, buyursun, xoş gəlir. Onda mən ondan bu sözlər yazmasını xahiş etdim. Bu zaman o dedi ki, əyər mənim sözlərimə e'timad yoxdursa, mənim yazdıqlarıma nə etimad olacaq? Sonra incimiş halda mənə dedi: "Elə zənn etməyin ki, sizə yazılı surətdə cavab verməməklə sizə qarşıyam. Mən Osmanlı dövlətinin Sədri - əzəminə yanımda əyləşməyə icazə verməyə bilərəm. Mən sənə oturmağa icazə verdim, bundan məmnun ol! Sənin yazılı cavabımı hansı cəhətə görə aparmaq istədiyini bilirəm. Sən rəisinə başa sal ki, Cəzzar cavab yazmaq istəmədi. Mən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hiylə və tədbirlə ondan cavab aldım və öz qabiliyyətini ona göstər, xudahafizləş, get! Cavab şifahi dediyim kimidir".

Körfəzdə qayığa əyləşib gəmiyə, general Sebastianın yanına gələrək, məlumat verdik. General cavabı bildikdən sonra ləngimədən qayığa oturub, Əkkəyə tərəf sürdürdü. Cəzzar bizə göstərdiyi həmin şəfqət və mehribanlıqla generalı qarşıladı. Onların söhbətini yadımda saxlayaraq artırıb-azaltmadan öz xatirəmə yazmışam. Bu belədir: "Cəzzar Sebastiana dedi ki, bizim ölüm saatımız yetişir və onun zəngi göydə çalınır. Bizim ölümümüzə heç nə mane ola bilməz, onu heç kim dəf edə bilməz. Belə olan halda Cəzzardan heç qorxmayın! Sən Fransa dövləti tərəfindən mənim yanıma məktubsuz və kağızsız gəlmisən. Yaxşı eləmisən ki, bu cür sadəcə gəlmisən. Mən də sənə yeməyə heç nə vermirəm. Əgər sussuz olsan, su da verməyəcəm ki, fikirləşməyəsən sənin yemək və içməyinə zəhər qatmışam. Əgər sənin gəlişini top atəşi ilə qarşılamamışamsa, bu ehtiramı sənin kimi sahibmənsəbə göstərmədiyim üçün təəssüf edirəm. Bunun səbəbi odur ki, öz barıtımı buradan daha artıq bəzənmiş yerdə işlətmək istədim. Lakin burada əyləşməyə söz vermişdim. O ki, qaldı sənin məktubuna cavab verməməyim, ədəbsizlikdən deyildir. Əgər yolunu bilmək istəyirsən, eşit! Keçmişdə yaxını və qohumu olmayan bir qara qul yoldaşsız və həmdəmsiz abad bir yerdən xaricə çıxır, səhraya üz tutur. Səhranın ortasında, abadlıqdan uzaq bir yerdə bir neçə xurma ağacı və bulaq görür. Burada



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yaşamaq qərarına gəlir və bir neçə il orada yaşayır. Nə şəhərlə bir əlaqəsi olur, nə də şəhərdən bir kəs bu məhəlləyə gəlmir. Xoşbəxt və firavan yaşayırdı. Bir gün bir ərəb onun yaşadığı evin yanından keçir, müsəlman adəti ilə qulama salam verir. Qulam ona ədəblə salamın cavabını vermək əvəzinə onu lənətləyir. Ərəb hirslə onun boynundan yapışır deyir: "Mən sənə salam verdim, sən isə məni lənətlədin". Qulam ikinci dəfə onu lənətlidi. Ərəb daha da qəzəbləndi, boynundan tutaraq dedi: "Bu rəftarı mənə əsaslandırmasan, səndən əl çəkən deyiləm". Qara qul dedi: "Əgər mən də sənin salamına "əleyk" deyə cavab versə idim, sənə mehribanlıq etmiş olardım. Onda sən susuzluğunu rəf etmək üçün və günəşin hərarətindən qurtulmaq üçün öz dəvənin üstündən aşağı enəcəkdin. Buranın səfalı havası sənə xoş gələcək idi və məndən qüvvətli olduğun üçün məni əzib, özün burada hökmran olacaqdın. Ömür insana əbədi verilməyibdir. Lakin bu az ömrünü də o müstəqil yaşamalıdır, yəni öz mülkünün sahibi olmalıdır". Və bu məsəli ona görə çəkdim ki, biləsiniz ki, əgər mən öz məmləkətimdə qəribləri mehriban qarşılasa idim, indi mən Şamana sahib ola bilməzdim".

Bilcümlə, bu tərz söhbətdən sonraa Cəzzarla Sebastian arasında məqsədi əhdnamə bağlanmadı və o, gəmiyə qayıtdı.

Cənab Gevr yazır ki, mənim şahzadə (Abbas Mirzə Naibüssəltənə) ilə söhbətim sevindirici oldu. Sabahısı günü şahzadə istədi ki, orduda olan əsgərləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sıraya düzdürsün və baxsın. Mən də onun qoşununun tamaşasına də'vət olunmuşdum. Orduya xeyli tüfəngçi və atlı toplanmışdı. Onlar sıra ilə şahzadənin qarşısından keçdilər. İran süvarilərindən çox xoşum gəldi. Yaxşı gənclər idilər və gözəl atları var idi. Nümayişdən sonra şahzadənin çadırına gəldik. Məndən soruşdu ki, İran qoşununun hərəkəti necə, qaneedicidirmi? Dedim: "İranın hər növ ordusu xoşuma gəldi". Bununla belə şahzadə ordusunda hər şey qaydasında olmaq üçün bir qədər piyada və bir neçə top lafeti lazımdır. O vaxt şahzadə ordusunda piyada qoşun yox idi. Şahzadə bu qoşunu yaratmaq qaydaları barədə mənə suallar verdi. Mən hərbçi olmadığım üçün və işi dərinliyinə qədər bilmədiyimdən yalnız bəzi səthi məlumatları ona söylədim. Şahzadə mənim qoşun barədə dediklərimdən sonra çox fikirləşdi, düşündü. Xeyli keçdikdən sonra başını qaldırıb buyurdu: "Biz iranlılar əsrimizdə baş verən hər cür tərəqqi və yenilikləri qəbul etməyən öz osmanlı qonşularımız kimi deyilik. Biz dürüst məsələləri dərhal qəbul etməyə hazırıq. Bu şərtlə ki, ölkəmizin xeyrinə olsun".

O vaxtdan bir müddət keçdikdən sonra Azərbaycanda piyada qoşunun təşkilinə başladığı barədə eşitdim".

Müəllif deyir: Naibüssəltənə rəhmətlik həzrət Xaqan Fətəli şahın böyük oğludur. O, hicri 1200-ci il zilhiccə ayının 14-də (1786, 9 oktyabr) anadan olmuşdur, hicri 1249-cu il cəmadüyül axır ayının 10-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

da (1833, 26 oktyabr) və Sərxəsin fəthindən sonra Məşhədi-Müqəddəsdə vəfat etmişdir.

**Cənab Tankuvanın səfərnaməsində Təbrizə aid məlumat**

Cənab Tankuvan mərhum Xaqanın (Fətəli şah - H.T.) sarayında I Napoleonun səfiri olmuş general Qarden xanın səfarətxanasında arbitr idi. O, hicri 1222-ci (m.1807) ildə Təbrizdə olmuş, şəhərin vəziyyəti barədə yazmışdır. Bu şəxs Təbriz şəhərinin əhalisi 50-60 mindən artıq olmadığını göstərir və yazır ki, Təbriz şəhərində çox hündür bir divar vardır ki, həm də enlidir. Dərin qazılmış bir xəndək şəhəri dövrəyə almışdır. Təbrizdə tez-tez zəlzələ olduğundan burada evləri bir mərtəbədən artıq tikmirlər. Şahzadə Abbas Mirzənin imarəti geniş, çox havalı, lakin sadədir. İmarətin qarşısındakı meydanda bir neçə top qoyulmuşdur. Təbrizin ali binalarından biri də şəhər kənarındakı məsciddir ki, ta qədimdən abad olmuşdur, indi isə uçulur. Buna səbəb baş vermiş zəlzələdir və uçulduğu vaxtdan onu bərpa etmək heç kəsin yadına düşmür. Təbriz şəhəri İranın başqa şəhərlərinə nisbətən ticarətlə çox məşğul olduğu üçün daha sərvətlidir. Burada hər cür zərli, ipək, pambıq və yun parçalar toxunur. Şəhərə daxil olduğumuz üçüncü günü bizi şahzadə Abbas Mirzənin hüzuruna çağırdılar. Şahzadə tərəfindən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

göndərilmiş Əhməd xan bəylərbəyi bizi birinci həyətdə qəbul etdi. Sonra səfir general Qarden xandan bizim haqqımızda məlumat alaraq, özü qabağa düşüb, bizi başqa bir həyətə apardı. Şahzadənin hüzurunda gördük ki, vəzir və əyanlar ayaq üstə müntəzirdirlər, yalnız şahzadə əyləşmişdir. O gün şahzadənin əynində qırmızı atlasdan libas var idi, əlində qiymətli daş-qaşla bəzənmiş iki qolbağ var idi. Dizinin üsütündə qoyduğu qılıncın dəstəsi qiymətli qaş-daşla bəzənmişdi. Başında isə şal və papaq var idi. Şahzadə səfiri və səfirliyin üzvlərini otağına çağırdı. Səfir üçün qızıl suyu ilə işlənmiş səndəli, üzvlər üçün taxta stullar qoyulmuşdu. Şahzadə Abbas Mirzə yerə oturmuşdu. Biz isə onun hüzurunda səndəlilərə əyləşmişdik. Rəsmi mərasimdən sonra şahzadənin general Qarden xanla söhbəti qısa oldu. Bu da qoşun barədə məlumatdan ibarət idi. Bu zaman şahzadə Abbas Mirzənin iyipmi bir yaşı var idi. Məclis iki saat çəkdi. Söhbətin məqsədi İran ordusunun Fransa qaydasında təşkili idi. Burada cənab Tankuvanın sözləri tamam olur.

**Cənab Flandin Fransəvinin səfərnaməsində**

**Təbrizə aid məlumat**



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fransalı Flandin (arxeoloqdur. Təxti-Cəmşidin rəsmini çəkmiş, diqqətəliyiq heykəltaraşlıq nümunələri tapmışdır. XIX əsrdə yaşamışdır - H.T.) mərhum Məhəmməd şahın sarayında Fransa dövlətinin səfiri cənab Sersinin başçılıq etdiyi səfarətxananın üzvlərindən olmuşdur. Hicri 1257-ci, miladi 1841-ci ildə adı çəkilən səfirlə İrana gəlmiş, Təbrizdə olarkən bu şəhər barədə yazmışdır: "Biz həddən ziyadə tamaşaya və istiqbala gələnləri böyük zəhmət və çətinliklə yarıb, Təbrizə daxil olduq. Elçilər üçün tə'yin olunmuş mənzilə gəldik. Təbrizə yenicə gələn avropalı qonaqlara bu mənzillərin xüsusi qaydaya salınmışını və yəqin ki, avropalı tərəfindən tikildiyi hiss olunan otağı verdilər. Mən zənnimdə yanılmamışdım. Belə ki, Təbrizdə yaşamış bir ingilis məmuru bu evi təmir etdirmiş, buradan getdikdə onu erməni millətindən olan bir nəfərə tapşırmışdı.

Bu zaman Təbrizin hakimi İran padşahının (Məhəmməd şahın - H.T.) qardaşı Qəhrəman Mirzədir. Qaydaya görə biz gəlişimizin üçüncü günü şahzadəni görməyə getməli idik. Lakin güclü qar yağdığından və islam dininə mənsub olan iranlıların rütubət zamanı isəvilərlə görüşü yolverilməz olduğundan, şahzadə bu görüşü tə'xirə saldı. Biz də bu güclü yağan qar zamanı yol getməyək deyə, bundan çox məmnun olduq. Bu hal təəccüblüdür ki, biz Təbrizə daxil olduğumuz gündən şahzadə ilə görüşümüz zamanı ayaqqabı çıxarıb corabla şahzadənin hüzuruna getməli, orada yerə oturmalı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olacaq idik. Bu iki məsələ (corabla daxil olub yerə əyləşmək) şahzadənin nəzərində əhəmiyyətlidir. Bizi qarşılayan məmur (mehmandar) dəfələrlə bu barədə gələn qonaqlara danışır. Qəbul olunmuş qaydaya görə İran sarayında səfirlər padşahın hüzurunda əyləşirlər. Səltənətin şahzadələri isə ayaq üstə dayanırlar. Ona görə də səfirliyin işçilərinin hüzurunda əyləşmək hüququ vardır. Bununla belə şahzadə bu məsələdə çətinlik yaradır və səfirliyin üzvlərinin onun hüzurunda əyləşməsini qəbul etmir. Məlum oldu ki, o, çox təkəbbürlü və məğrurdur. Deməli, xarici və daxili əhalinin padşaha göstərdikləri ehtiram qeyri-səmimidir. Xülasə, mehmandar bizim şahzadənin hüzurunda əyləşməyimiz üçün icazə aldı. Lakin ayaqqabı məsələsində heç cür təmkin etmədi. Sarayda qəbul olunmuşdur ki, səfir və səfirliyin üzvləri əlavə bir ayaqqabı da geysinlər və hüzura gəldikdə ikinci ayaqqabını çıxarsınlar və birinci ilə corab əvəzi kimi otağa daxil olsunlar. Buna baxmayaraq şahzadə razı olmadı ki, istədiyimiz tərzdə daxil olaq. Axırda elçi çarəsiz qalıb, ona xəbər göndərdi ki, əgər sizin ölkədə adət ayaqqabını çıxarmaqdırsa, bizim ölkədə də başıaçıq oturmaqdır. Bizim padşahımız sizin elçiniz Hüseyn xanı başıpapaqlı qəbul edirsə, siz də gərək bizi ayağımızda olan çəkmə ilə qəbul edəsiniz.

Xülasə, belə qərar qəbul olundu ki, şahzadənin hüzuruna gedən səfir və əməkdaşlar üçün xüsusi atlar gətirilsin. Atlara mindik. Biz imarətə gəlincə artıq bir dəstə əsgər orada düzülmüşdü. Salam verdilər. Atdan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

düşdük. Musiqi sədaları altında saraya yollandıq. Eşikağasıbaşı xüsusi libasda,əlində onun çinini bildirən ağacla imarətin qarşısında bizi qarşıladı və bağın ortasından bizə yoldaş olub, bir otağa gətirdi. Otağın divarlarının bə'zisi güzgü idi, bə'zisi isə Qəhrəman Mirzənin atası Abbas Mirzə Naibüssəltənənin Osmanlı qoşunları ilə apardığı döyüş səhnələrini təsvir edən rəsmlərlə bəzənmişdi. O cümlədən Topraqqalanın zəbti səhnəsi, sağ və sol tərəfdə Çingiz xan və Şah İsmayılın, Rüstəm və Nadir şahın şəkilləri çəkilmişdi. Bir qədər ehtiram ifadə olunduqdan sonra əvvəldən qoyulmuş səndəlilərə əyləşdik. Qəhrəman Mirzənin özü otağın aşağı hissəsində əyləşmişdi. Onun əynində qırmızı rəngdə paltar var idi, paltarın sinəsi daş-qaşla işlənmiş məxmər parçadan idi. Şalvarı Avropa tərzində, kəməri qızıldan olub, böyük almaz dənələri ilə bəzənərək iki tərəfdən bağlanmışdı. Kəmərin üstündəki qılıncın dəstəsi almazla bəzənmişdi. Çiynində böyük apuletlər var idi. Sinəsindən orden və lent asılmışdı.

Elçi daxil olduqda şahzadə heç öz yerindən tərpənmədi. Rəsmi mərasimdən sonra bizə əyləşməyə icazə verdi və bir nəfər tərcüməçi vasitəsilə elçinin Təbrizə gəlməsinin səbəbi və onun səfərinin məqsədi barədə qısa soruşdu. Biz bu məclisdə çox dayanmadıq. Buradan Məlik, Qasım Mirzənin görüşünə getdik. Qəhrəman Mirzənin bizimlə rəftarı və onun əhvalı bizdə ona qarşı bir küdurət hissi oyatdı. O bizim xatirimizdə bu cür qaldı.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Lakin Qəhrəman Mirzənin təbiətinə oxşamayan başqa şahzadələrin rəftarından çox xoşhal olduq. Fətəli şahın 70-ci oğlu olan Məlik Qasım Mirzənin öz elmi, zəkası ilə, yüksək xəyallarla yaşaması, Avropa həyat tərzi ilə maraqlanması onu İranın mümtaz şəxsiyyətlərindən biri etmişdir. O, fransız dilini mükəmməl bilir, ingilis, rus, osmanlı, ərəb, hind dəllərində danışır. Fransa məktəbini çox tərifləyirdi. Bu tip mədrəsələr təsis etmək və burada fransız müəllimlərinin dərs tədris etmələri üçün şahın xüsusi fərmanlarını almışdır. Bu fərmanların məzmunu elə yaxşı idi ki, fransızların bu məmləkətə məmnuniyyətlə, kəmali-meyl ilə gəlmələri üçün şərait yaradırdı. Lakin bəzi məmurlar şahın rəyinin məqsədini başqa cür saxtalaşdırıb fransızları çaşdırmış, bu fərmanların üzərindən xətt çəkərək məhv etmişlər. Xülasə, Məlik Qasım Mirzə ilə maraqlı söhbət etdik. O deyirdi ki, fransız dilini Tehranda yaşamış madam Dolamari adlı bir fransız qadınından öyrənmişdir. Bu şahzadə xoş qamətli, cavan, üzü nəcib görkəmlidir, saqqalı şahın saqqalı kimi qısa, lakin bığları çox dikdir. Paltarı həm İran, həm də Avropa qaydasında idi. Onun rəftarında olan məhəbbət və mehribanlığı Qəhrəman Mirzəni bizə unutdurdu. Onun bizə göstərdiyi qonaqpərvərlikdən sonra getmək üçün icazə istədik. Elçi Fransadan yola düşərkən özü ilə qiymətli hədiyyələr götürmüşdü. Cib və divar saatları, silahlar, cəvahir, zərif parçalar, Sur şəhərinin çini qabları, çoxlu rəsmlər və s. Görüşdən sonra hər iki şahzadə üçün bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hədiyyələrdən göndərdi. Yollarda çoxlu qar və yer dərə-təpə olduğundan qatırla aparılan bu hədiyyələrin bəzisi zədələnmişdi. Buna görə də səfirin Qəhrəman Mirzə üçün göndərdiyi Sur şəhərində istehsal olunmuş çay dəstgahına bir az xətər dəymişdi və onu düzəltmək mümkün olmadı. Elçi çarəsiz onu ünvanlanmış adama - Qəhrəman Mirzəyə göndərdi. Qəhrəman Mirzə onu etinasız qəbul etdi. Bu barədə belə deyiblər: dost göndərən gül yarpağının qiyməti bir aləmdir, ta ki, o gül yarpağı pəjmürdə olmasın.

Məlik Qasım Mirzə bir neçə gündən sonra bizi şahinlə ova dəvət etdi. Ov çox maraqlı idi. Deyirlər şahinlə hətta ən böyük yırtıcı heyvanları ovlamaq mümkündür. Əgər şahin öz ovu qarşısında aciz qalsa, o zaman ovun qarşısında dayanır və öz dimdiyi ilə heyvanın gözlərini deşir. İranda şahinlə ov get-gedə ləğv edilir, çünki bu ölkədə hətta böyük mənzilləri olanların da hamısı quş və ya tazı saxlamaq imkanına malik deyillər. Ona görə əksər insanlar ova tüfənglə gedirlər. Deyirlər ki, səfəvilər hakimiyyəti dövründə şahın quşxanasında 800 şahin var imiş.

Biz çoxdandır ki, İran əhalisinin yaşayışından xəbərsizik. Amma sübut olunmuşdur ki, bu millət bütün incə sənətlərə qabildir. İstər padşah sarayları, istərsə başqa binaların divarları və hətta qeyri-mühüm binaların üzərində olan rəsm işləri bunu sübut edir.

Məlik Qasım Mirzə də rəssamlıqda gözəl təsvirləri xoşlayır. Məlumdur ki, bu sənətə iranlılar osmanlılardan daha çox meyl edirlər və bu böyük sənətin nümunələri daha çox İranda yaranmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbrizdə bir neçə nəfər fransız gördük ki, onlar tanınmış adamlar idilər. Cənab Ojin Bore bir il olar ki, Təbrizdədir. Bu şəxs çoxlu səfər və səyahətlərdən sonra Urmiya gölü sahillərindən keçərək, Azərbaycanın paytaxtını özü üçün yaşayış yeri seçmişdir. Yollarda olarkən əhalinin yaşayışından agah olduqca burada maarif və mədəniyyəti yaymaq üçün çox düşünmüş və bu işlə özü məşğul olmaq qərarına gəlmişdi. Ona görə də 1839-cu il yanvar ayının əvvəllərində, hicri tarixlə 1255-ci ildə Təbrizdə bir mədrəsə təsis etdi. Məqsədi bu mədrəsədə hər şeydən əvvəl fransız dilini təlim etmək, sonra isə xristianlığı yaymaq idi. Bundan ötəri o, İran şahından icazə istədi və bunun əvəzinə iyirmi nəfər iranlı gənci pulsuz oxutdurmağı öhdəsinə götürdü. Məlik Qasım Mirzə bu zaman Təbrizdə idi. O, Avropa həyat tərzi ilə çox maraqlandığından cənab Ojin Boreni himayə etdi və ona öz işlərini icra etmək üçün bir sıra fərmanlar əldə etməyə yardımçı oldu. Bu fərmanlar mədrəsənin yaradılmasında qarşıya çıxan çətinlikləri aradan qaldırdı.

Biz Təbrizə daxil olanda cənab Bore təhsil alan bir neçə gənci mədrəsəyə topladı, səfirliyin buraya gəlməsindin istifadə edərək, yerlərdə möhkəmlənmək məqsədilə həmin gəncləri götürüb keşiş kimi bizimlə İranın mərkəzi olan İsfahana yola düşdülər.

Digər fransızlar isə İranın Fransa dövlətindəki səfiri Hüseyn xanla birlikdə gəlmişdilər. Onlar Fransada könüllü, qeyri-nizami ordudan gələrək, İran



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qoşunu ilə təlim keçməklə məşğul idilər. Hüseyn xan öz dövlətinin ona tapşırdığı səfirlik vəzifəsini icra etmək əvəzinə hərbçilərin burada həyat şəraitlərini qaydaya salmaq üçün müəyyən işlərlə məşğul olurdu. İran qoşunu ilə məşğul olan Fransa hərbçiləri çətinliklərlə rast gəlirdilər. Bir tərəfdən, Rus dövlətinin siyasəti üçün o cəhət əlverişli idi ki, çox şücaətli, cəsur olan İran əsgəri hərbi biliklərə yiyələnməsin. Rusiya ilə müharibədə Abbas Mirzə Naibüssəltənə ilə həmrah olan və Gürcüstanın İran tərəfindən zəbt olunması müdafiə edən ingilislər Herat və Əfqanıstanı mühasirə etdikləri üçün İran ordusunun qüvvətlənməsini istəmirdilər. Bunlarla yanaşı İranın daxilində isə bu işə mane olan qoşun böyüklərinin təkəbbürü idi. Onlar hərbi bilikdə zəif olduqlarının aşkar edilməsinə heç vaxt razı olmazdılar.

Xülasə, elçi İrana daxil olduqda, Şeyxülislam onu görməyə gəldi. İslam dini rəhbərinin xristian səfirin görüşünə gəlməsi səfir üçün böyük şərəf idi.

Biz altı gün Təbrizdə olduq. Bu müddət bəzi xəbərləri öyrənmək məqsədilə yığışırdıq. Təbrizin qədim adı ilə əlaqədar çox söhbət edirdik. Bəzi tarixçilər bu fikirdədirlər ki, Ptolomey Misri (qədim yünan alimi ömrünün çox hissəsini İsgəndəriyyədə keçirmişdir - H.T.) öz kitabında bu şəhərin adını Kabris yazmışdır. Bəziləri də onun Ekbatan (indiki Həmədan) olduğunu deyirlər. Bir qrup alim isə Təbrizin qədim adını Qazan (Qaza) olduğunu göstərir. Amma onun yeni adını bə'ziləri Təbriz və digəri Tori (Toriz) kimi oxuyurlar. İranlılar Təbriz



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deyirlər və bu adı belə zikr edirlər: İran tarixçisi bu şəhərin əsasının hicri tarixlə 165-ci, məsihi 787-ci ildə qoyulduğunu zənn edirlər (bu tarix 787 yox, 781 olmalıdır - H.T.) Onun banisi isə Harun ər-Rəşidin zövcəsi Zibeydə xatun olduğunu yazırlar və əsas məsələdə hamı bir fikirdədir. Fikir ayrılığı bundadır ki, bəziləri yazır: Zibeydə xəstə olarkən Azərbaycan həkimləri onu müalicə etmiş, bunun əvəzinə ondan bir şəhər bina etməyi istəmişlər, o da şəhəri tikdirmişdir.

Bəziləri isə belə yazırlar ki, Zibeydənin xəstəliyi uzun çəkmiş, o, Bağdaddan səfər edərək Təbrizdə yerləşən mahala gəlib çıxmış, buranın ab-havası gözəl olduğundan onun bədənində olan hərarət düşmüş, ona görə də burada bir şəhər salmışdır və onu Təbriz adlandırmışdır, yəni qızdırma düşən yer.

Tarixçilər bunu da qeyd etməlidirlər ki, Təbrizdə Zibeydənin adı ilə bağlı bir neçə indi dağılmış bina vardır. Təbrizin havası çox yaxşı olsa da və xəstəliyi dəf edə bilsə də, onun torpağı aramsız zəlzələlərdən insanlar üçün daim təhlükəli olmuşdur. Bu səbəbdən Azərbaycanda xarab olub, dağılmış binalar çoxdur.

Bu məmləkəti Azərbaycan adlandırmışlar. Bu, odlar yurdu deməkdir. Çünki atəşpərəstlik məzhəbinin banisi və onu yayan Zərdüşt Marağada, Urmiya gölünün şərqində, Təbrizdən bir qədər uzuaqda dünyaya gəlmişdir, orada da bu məzhəbi yaymağa başlamışdır. O, bu məzhəbi buradan yaymağa başlamış, Zend və Pazend kitabını



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yazmışdır. Bunlar haqqında tədqiqat, şübhəsiz ki, səhvdən xali deyildir, çünki bu bir həqiqətdir ki, Təbrizdə islamdan əvvəlki əsərlər burada tez-tez baş verən zəlzələlər nəticəsində məhv olmuşdur. İndi xarabalıqları qalmış binalar bizim dövrə yaxın bir vaxtda tikilmiş binalardır. Şərq tarixçiləri yazırlar ki, Təbriz bina olandan sonra 609 il abad qalmışdır və 858-ci məsihi ilində tamam dağılıb yerlə yeksan olmuşdur. Bir neçə ildən sonra onu yenidən qurmuşlar və o yüksəlmişdir. Sonralar Təbrizdə dəfələrlə zəlzələ baş vermişdir. 1721-ci məsihi ilində (h.1134-cü il) şah Sultan Hüseyn hakimiyyəti dövründə Təbrizdə zəlzələ baş verdi ki, bu əvvəlkilərdən daha şiddətlidir. Əhalinin 80 min nəfəri həlak oldu. Bu zaman şah Sultan Hüseyn İranın taxt-tacını bacarıqsızlıqdan İsfahanı yenicə mühasirə etmiş əfqanlılara tapşırdı.

Şiddətli zəlzələlərdən əlavə Təbrizin dağılmasına səbəb bir də İran-Osmanlı müharibələri olmuşdur. Osmanlılar Təbrizi Şah İsmayıldan almış, Sultan Səlim xan hakimiyyəti zamanı iranlılar onu yenidən geri almışlar və Sultan Süleyman xan dövründə bu şəhər yenidən zəbt olunmuş, böyük Şah Abbas şəhəri onların əlindən almışdır.

Təbrizin dağılmış binalarından biri də böyük məsciddir ki, məsihi XIII əsrin sonlarında moğol sultanlarından Qazan xan tərəfindən tikilmişdir. Məscid xoş rəngli kaşılarla bəzənmişdi. Binanın bəzi divarlarının payaları qalmışdır ki, bunlar ağ mərmərdəndir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu məmləkətin yaxşı binalarından biri olan məscid bu cür mərmərlə bəzənmişdir. Bu mərəmərlər Marağa ətrafından gətirilir, hissələrlə yolunur. Məscidin bişmiş kərpicdən tikilmiş və Şərq memarlarının əməlidir. Qalıqlardan belə görünür ki, kərpiclərin üstündə bəzək işləri aparılmış, bunlar uçulub-dağılsa da, daşların laciverd rəngləri hələ də qalır. Bu dağıntı iki yüz il bundan əvvəl baş vermiş zəlzələnin nəticəsidir.

Digər əzəmətli binalardan birinin kiçik bir hissəsi qalmışdır ki, bunun da Harunun zövcəsi Zibeydənin tikdirdiyi böyük qəsr olduğunu deyirlər.

Sultan Süleyman xan Təbrizi tutduqdan sonra orada böyük bir imarət tikdirdi və 4 min əsgərdən ibarət qarnizon, 50 top yerləşdirdi ki, şəhəri mühafizə etsinlər. Binanın divar və tavanında qədim şəkillər görünür. Şahid kimi bu əzəmətli binadan yalnız xarici qopuq divarlar qalmışdır. İndi burada karxana və silah anbarı yerləşdirilmişdir.

Təbrizdə tez-tez zəlzələlər baş verdiyindən burada əsasən alçaq, birmərtəbəli binalar tikilmişdir. Bazarda tikilən binalar bəzəksiz, sadə,tavanı taxtadandır.

Təbriz İranın mötəbər şəhərlərindən üstündür. Avropa və Asiya ölkələrindən gələn saysız-hesabsız karvanlar buraya müxtəlif yüklər gətirirlər. İranın əsas ticarət evi Təbrizdir. İngiltərədən gətirilən pambıq parçaları və çit, İranda hazırlanan qumaş parçalar burada ucuzdur və tez satılır. Heratın mühasirəsindən sonra İngilis səfiri ilə İran arasında



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əmələ gəlmiş kudurət ingilis mallarının İrana daxil edilməsinə maneələr yaratmışdı. Lakin bu ticarət əlaqələri iranlılar üçün xeyirli olduğundan həmin vəziyyət çox çəkmədi.

Bu şəhərdə bir neçə yunan ticarət evləri də fəaliyyət göstərir. Gürcülər Rusiyadan İrana büllur əşyalar, dəri, mis və mahud gətirirlər. Lakin bunun keyfiyyəti o qədər də yaxşı deyildir və iranlılar Rusiya mahuduna nisbətən az tapılan Fransa mahuduna daha çox üstünlük verirlər.

Təbriz şəhəri bürclər, divarlar və xəndəklərlə əhatə olunmuşdur. Şəhərin bir neçə darvazası vardır. Ən böyük və bəzəkli üç darvaza minarə kimi hündür bürclüdür. Bunların üzərində çox gözəl kaşı işləri görülmüşdür.

Şəhərin bayır hissəsində çoxlu imarətlər tikilmişidr. Əvvəllər şəhər daha geniş olmuşdur. Güman edilir ki, şəhərin bayır hissəsində olan imarətlər də indiki şəhərin daxilində olmuşdur. Şiddətli zəlzələlər əhalini buradan didərgin salmışdır, sonra məhəllələr məhdudlaşdırılmışdır ki, bu fəlakətə az adam dücar olsun. Ona görə də indiki şəhər kiçilmişdir. Şəhər xaricində olan tikililərin arasında bol meyvəsi olan çoxlu geniş bağlar vardır. Burada su boldur. İspinçay adlı çay şəhərin ortasından keçir, suyu çox zaman az olur. Lakin bahar fəsli tüğyan edir, bu da çox ziyan gətirir. Şəhərin ətrafında kükürd çeşmələri vardır. Bu yerlər Barinc və Səidkünd adlanır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbrizin əhalisi Şardənin zamanında, yəni iki yüz il bundan əvvəl 500 min nəfər olmuşdur. Lakin hal-hazırda burada 150 min əhali yaşayır. Sakinlər müsəlman və ermənilərdən ibarətdir. Bu şəhər xilafətin hakimiyyətindən sonra Şeyx Səfiəddinin övladlarının paytaxtı oldu. Şeyx Səfiəddinnin ilk nəvəsi Şah İsmayıl Ərdəbildən çıxdı, üzərində "Əliyyən vəliyullah" nəqş olunmuş bir bayrağı Əmir Teymurun fəaliyyət göstərdiyi məmləkətdə qaldıraraq, Təbriz şəhərini öz paytaxtı etdi. O özünü şiələrin padşahı elan edərək, əhalini öz ətrafına topladı. İndi də əhalinin bir qismi qızılbaşlar adlandırılır. Bu o deməkdir ki, bu tayfa başqalarından fərqlənmək üçün başlarına qırmızı papaq qoyurlar. Şah İsmayıl İstambuldan qoşun çəkən Sultan Səlimlə müharibə etmiş, lakin Sultan Səlim qələbə çalmışdır. O Azərbaycanın üç min sənət adamını Anadoluya apararaq, orada yerləşdirmişdir. Sultan Səlim Təbrizi zəbt etdi. Sonra İran padşahı onu yenidən geri almışdır. Osmanlı padşahı yenidən şəhəri zəbt etdi və taladı, od vurdu yerlə yeksan etdi. Bu keşməkeş ta hicri 1012, miladi 1603-cü ilədək davam etdi və Böyük Şah Abbas Təbrizi osmanlılardan azad etdi. O vaxtdan İranın hakimiyyəti altındadır. Təbriz özünün əvvəlki əzəmətini itirdiyi üçün Səfəvilər özlərinin ilk paytaxtlarını Qəzvin şəhərində seçdilər. Qəzvindən sonra İsfahana köçdülər. İsfahan indiyədək paytaxtdır. O zaman Təbriz İran məmləkətində birinci dərəcəli şəhər olmasa da, lakin ikinci dərəcəli şəhər olmaqdan məhrum deyil. İran dövləti böyük və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qüdrətlidir. Təbriz Rusiya və Osmanlı sərhəddinə yaxın yerləşmişdir. Buna görə də İran hökmdarından birinin iqamətgahıdır. Əlahəzrət Fətəli şahın hakimiyyəti zamanı vəliəhd Abbas Mirzə bütün ordu hissələrini Təbrizdə yerləşdirmişdir.

Təbriz və onun ətrafında yaşayan qızılbaşlar elə bir dildə danışırlar ki, cığatay lüğəti, türkmən dili və türk dilinə çox yaxındır. İstanbul və Anadoluda da işlənir. Tehranda da bu dildə danışırlar və fars dili ilə qarışıq işlədilir". Cənab Flandini sözləri burada bitdi.

## Cənab Liklama Nijheltin səfərnaməsində Təbrizə aid məlumat

Bu cənab miladi 1866-cı, hicri 1283-cü ildə ticarət məqsədi ilə İrana gəlmişdir. Onun səfəri 1868-ci miladi, 1285-ci hicri ilinədək davam etmişdir. Təbriz haqqında belə yazır: "Təbrizə daxil olan gün şəhərə bir qədər qalmış hündür görkəmli atlılar görünürdü. Keçmişdə bu şəhər çox geniş və əzəmətli şəhərlərdən biri olmuşdur. Deyirlər ki, o zaman bu şəhərin əhalisi yarım milyon imiş. Şardən isə açıq-aydın əhalinin 15 min ocaqdan az və 15 min dükan olduğunu göstərir. Həqiqətdə isə mötəbər fakt budur ki, əhali 150 mindən artıq olmamışdır.

Bu şəhər geniş bir düzənlikdə salınmış, hündür bir dağ üç tərəfdən zəncirvari şəkildə onu əhatə edir. Qərb tərəfdən isə açıqdır və əkin sahələri bu istiqamətdə yerləşir. Şimal tərəfdə olan dağların ətəkləri çoxlu dərələr və konusvari təpələrlə əhatə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olunmuşdur. Bu şəhərin meydança və ətraflarında, hər yerdə qədim, uçulub, dağılmışdı olmar görünür. Bunlar qədim qala, istehkam və imarətlərin qalıqlarıdır. Təbriz şəhərindən kənar olan məhəllələrdən birində çoxlu dükanlar var idi və onlar dar küçələrdə yerləşmişdi. Mən burada belə qərara gəldim ki, Təbrizin qədim tarixini öyrənim. Burada qaldığım 80 gün ərzində bütün qüvvə və şüurumu buna sərf etdim və və əmin oldum ki, bu şəhərin dürüst adı məlum deyildir. Şərqin bütün tarixçiləri və dünyanın səyyahları da hər biri bu barədə yazmışlar. O cümlədən deyirlər ki, Harun ər-Rəşidin sərdarlarından biri İran sərhədlərində olarkən, iki il malyariya xəstəliyinə tutulur. İki ildən sonra bu yerdə ordugah qurur. O, adı məlum olmayan bir otu biçərək yeyir və hərarəti düşür. Bu xoş hadisəni yadigar saxlamaq üçün o məkanda bir şəhər tikdirir və onu Təbriz, yəni "bu mahalda qızdırma xəstəliyi məndən uzaq oldu" adlandırır.

Bu şəhərdə xarabalıqlar çoxdur. Buna səbəb şəhərə çoxlu müharibələr, hadisələr nəticəsində dəyən zərbələrdir. Ümumiyyətlə, bu şəhər də Şirvan və Xəzər sahillərinə yaxında yerləşən başqa vilayətlər kimi tez-tez baş verən zəlzələlərdən çox ziyan çəkmişdir.

Təbriz bina olanda fasilələrlə 69 və ya 39 il şiddətli zəlzələlərə düçar olaraq dağılmışdır. Miladi 858-ci, hicri 244-cü idə Təbrizdə baş verən güclü zəlzələ nəticəsində şəhərdə böyük dağıntılar olmuş, üç ildən sonra təkrar zəlzələ baş vermişdir. Şəhər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

deməsk olar ki, yenidən qurulmuşdur. Bu tarixdən təxminən 200 il sonra şiddətli zəlzələ nəticəsində Təbriz yerlə-yeksan olmuş, 40 min nəfər adam həlak olmuşdur. Şəhər üçüncü dəfə Abbasi xəlifəsinin İrana hakim təyin etdiyi Əmiri Sudan tərəfindən tikilmişdir. Şəhər əvvəlki vəziyyətindən də abad olmuşdur.

İki əsr keçdikdən sonra iki dəfə ardıcıl olaraq baş verən zəlzələ Təbriz şəhərini əvvəlki zəlzələlərin qoyduğu vəziyyətə saldı. Xülasə, miladın 13-cü yüzilliyində şəhər əzəmətli rövnəq tapmışdı və İranın mötəbər əyalətlərindən idi. Lakin miladi 1721-ci, hicri 1134-cü ildə yer altından vulkan püskürərək şəhəri yerlə-yeksan etdi. 90 min adamın həlak olduğu müəyyənləşdi. Şəhərin abad olması üçün bir əsr yarım zaman keçdi. Müharibələr və inqilablar da Azərbaycanın vəziyyətinə təsir edirdi. Təbrizin qədim binaları və xarabalıqları göstərir ki, onun əhalisinin və sultanlarının tarixinə qısa da olsa nəzər salmaq məsləhətdir.

Şəhər bir dağın ətəyindəki geniş düzənlikdə yerləşir. Bu dağdan su axır və bütün şəhər, onun ətrafında çoxlu bağ-bağat, yam-yaşıl əkin sahələrinin hamısı bu su ilə suvarılır. Bundan əlavə Mehranrud adlanan çay da buradan keçir. Bəziləri bu çayın adını Səpəsənçay yazırlar.Bu çayın suyu dadlıdır, yüngül olması ilə məşhurdur. Lakin burada su həmişə yox, bə'zən çox olur. Bə'zən də tüğyan edir və ətraf əkinlərə ziyan vurur. Təbrizin kənarında, şimal tərəfə Acı adlı böyük bir çay axır. Bu çayın suyu yağış yumuş torpaqlardan keçərək axdığı üçün şorməzədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çayın suyu yağış yağan aylarda çox artır. Balıqlar bu çaydan qaçırlar.

Təbrizin bazarları onun geniş küçələrində yerləşir. Bu küçələr gəzmək və gediş-gəliş üçün yaxşıdır. Bazarda hər şey alınıb-satılır. Gecələr tacirlər məhəllələrdə və şəhərin xaricində olan evlərdə qalırlar. Şəhərin evlərinin içərisi, ümumiyyətlə evlər küçədən görünmür. Çünki evin divarları çox hündürdür.

Təbrizin evləri sadə olub, gil və çiy kərpicdən tikilmişdir. Üzərində saman qarışıq gil çəkilən bu evlər çox davamsızdır və zəlzələ onu asanlıqla uçurur. 1721-ci ildə baş vermiş zəlzələdən sonra şəhərdə indiyədək hündür məscidlər və minarələr görünmür. Təbriz daxili və xarici olmaqla iki hissədən ibarətdir. Daxili şəhər qala kimi istehkamdır. Xəndək və hasar vasitəsilə düşməni dəf etmək imkanına malikdir. Qalanın bir neçə darvazası vardır, o cümlədən üç darvaza başlıca yollar üçündür, qalanları istifadə olunmur. Darvazalar çox gözəldir və kaşı ilə işlənmişdir, kaşıdan hər cürə təsvir düzəldilmişdir. Şəhərin xaricində abad, səfalı bağlar, gəzinti üçün bağçalar çoxdur. Burada olan xoş hava şəhəri təravətli edir. Hal-hazırkı Təbriz bazarları qədimdən qalmışdır. Belə ki, onlar uçulmuş bazarların yerində yenidən düzəldilmiş, deşilmiş tağlar örtülmüşdür. Təbriz bazarında böyük dükanlar vardır ki, nə İranda, nə də Tiflisdə beləlari yoxdur. Təbrizin bütün bazarlarında istər İranın Şərqində olan şəhərlərdən, istərsə başqa yerlərdən gətirilmiş hər cür mallar



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vardır. Karvansaraların əksəriyyəti ikimərtəbəlidir və bunlarda əsasən mötəbər tacirlər qalırlar.

Təbriz İranda ticarətin çox inkişaf etdiyi ən başlıca şəhərdir və həmişə ticarət mərkəzi olmuşdur, ində də belədir. O, daima ərəblər, osmanlılar, gürcülər, hindlilər, Moskva əhalisi və tatarlarla ticarət əlaqəsi saxlamışdır. Tavernyenin dediyinə görə onun sənayesi bütün şərqin şəhərləri arasında məşhurdur. Bu şəhərdə haşiyəsi zərli ipək parça, qumaş, pambıq parça istehsal olunur. Təbriz əmmamə üçün çox əla şallar toxumaqla məşhurdur. Burada at, ulaq və qatıq gönündən müxtəlif şeylər düzəldilir ki, bular bütün İranda seçilir. Mis alətlər və dəmir alətlər çox keyfiyyətlə hazırlanır.

Mən Təbriz bazarında müxtəlif insanları; iranlı, erməni, türk, tatar və başqa millətlərdən olan insanları gördüm və bazar çox maraqlı bir aləm idi. Təbrizin dükan və hamamlarının qapılarında qəribə rəsmlər çəkilmişdir. O cümlədən öküzü parçalayan canavarlar, Əcəm tarixçilərinin bütün Şərqin pəhlivan siması kimi təsvir etdikləri İran pəhlivanı məşhur Rüstəm pəhlivanın surəti də vardır.

Şardənin yazdığına görə Təbrizdə 250 məscid olmuşdür. Bu rəqəmin dəqiqliyinə şübhə vardır, çünki məscidlərin xaribalıqları 250-dən azdır. Bu da həqiqətdir ki, İranda əsrlər boyu hökmranlıq etmiş şahlar özlərindən sonra iz qoymaq üçün külli miqdarda məscidlər tikdirmişlər, lakin baş vermiş zəlzələlər və müharibələr onları viran etmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qədim məscidlərdən biri dağılmış vəziyyətdə olan Harun ər-Rəşidin zövcəsi Zibeydənin məscididir. Bu məscidin ətrafında o zamanlar inşa edilmiş ən yaxşı imarətlər olmuşdur. Bu məscid barəsində məşhur səyyahlar Şardən və Tavernye yazmışlar. Mən isə onu görməmişəm və mənim yazıma ehtiyac yoxdur. Lakin bu iki səyyahdan sonra keçən iki yüz il ərzində Təbrizin vəziyyəti barədə yazmağı lazım bilirəm. İndi Təbrizdə dörd böyük əhəmiyyətə malik şey qədimdən qalmışdır: məscidlər, istehkamlar, bazarlar və bağlar.

Xülasə, xəlifələrin Təbrizdə üç yüz il ardıcıl olaraq tikdirdiklərindən heç nə qalmamışdır. Çünki Təbriz Bağdaddan uzaq idi və xəlifənin tə'yin etdiyi hakimlər zəif iradəli adamlar olduqlarından onu yaxşı qoruya bilmədilər. Təbrizin bir sıra yerləri Səffariyyə sülaləsi tərəfindən zəbt edildi (Səffarilər - X əsr İranın şərqində hakimiyyətdə olmuş sülalə - H.T.).

Təbriz Çingiz xanın övladlarının hakimiyyəti dövründə rövnəq tapmışdı onlar payız fəslində Marağaya gedirdilər və orada qalırdılar. Təbrizdən Marağayadək 20 fərsəxdir. Hülakü xanın qəbri Marağadadır. Qəbrin yaxınlığında Hülakü xanın hökmü ilə xacə Nəsirəddin Tusinin düzəltdiyi rəsədxana olmuşdur ki, indi onun əlamətləri görünür.

Təbrizdə Darültəlim olmuşdur ki, burada ədəbi elmlər və sənaye bilikləri təlim edilirdi.

Hülakü xanın oğlu Abaqaan İstambul sultanının Mişel Palulik adlı qızına evlənmişdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Marko Polo adlı səyyah 1293-cü məsihi ilində Təbrizdə olmuş, buradan sonralar tatar və Çin məmləkətlərinə getmişdir. O, bir neçə il Çin və tatarların hakimi Qobilai Qaana xidmət etmişdi, onun elçiliyi ilə bu zaman Qobilai xanın qızını Abaqaanın oğlu Arğun xana almışdılar. Arğun xan evlənmək ərəfəsində öldükdən sonra bu qız Qazan xana qismət oldu.

Moğollar 1294-cu məsihi, 694-cu hicri ilinədək islamı qəbul etməmişdilər. Bir ildən sonra Qazan xan müsəlman oldu. Onunla birlikdə 100 min moğol da müsəlmanlığı qəbul etdi. Bu xəbər yayıldı və İran şəhərlərinə səpələnmiş moğollar bu xəbəri eşidərək islamı seçdilər.

Moğol sülaləsinin Təbrizdə bina etdiyi ilk məscid Arqun xanın oğlu Qazan xana məxsusdur. Bu məscid Təbriz şəhərinin cənubunda olan bürcün xarabalıqlarına yaxın bir yerdə tikilmişdir. Məscid Qoca Əlişah məscidi adlanırdı. Qoca Əlişah Qazan xanın vəziri idi və uzun müddət bu məscidi idarə etdiyindən onun adı ilə məşhur idi. Məscidin divarları sarı rəngli bişmiş kərpicdən tikilmişdir. Şahzadə Abbas Mirzə Naibüssəltənə axırıncı dəfə Rusiya ilə müharibə edərkən bu məhəllədə bir topxana və bir cəbbəxana tikdirmişdi.

Qazan xanın qardaşı Sultan Məhəmməd Xudabəndə paytaxtı Təbrizdən Sultaniyyəyə köçürdüyü üçün şəhər bir müddət gözəlliyini itirdi. Bu həmin Sultan Məhəmməd idi ki, şiəliyi qəbul etmişdi və bu təriqəti təbliğ edirdi. Onun ardınca



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

başqaları da şiəliyi qəbul edirdi və sünniməzhəbləri öz torpaqlarından çıxarırdı. Buna görə də əsrlərdən bəridir ki, sünni-şiə ədavəti rumlular və iranlılar arasında davam edir. Qazan xan Hülakü xanın nəslindən olan axırıncı mötəbər padşahdır. Ondan sonra gələnlər zəif, məğlubiyyətə uğramış vəziyyət-də olmuşlar.

Təbriz şəhərinin xaricində, İsfahan yolunun üstündə gözəl bir məscid tikilmişdir. Əhalinin dediyinə görə bu məscid sünnilərindir. Ona görə də baxımsız və uçuqdur. Onun minarələri və daxili əlvan kaşı ilə bəzənmiş, rəsmlər və ərəb hürufatı ilə müxtəlif yazılar qızıl suyu və laciverdlə işlənmişdir. Məscid ağ daşdan tikilmişdir, eni 12 qədəm hündürlüyü 24 qədəmdir. Məscid günbəzinin dairəsi 36 qədəm olub, daxildə 12 sütun üzərində qurulmuş, xaricdən 16 sütunludur. Bu sütunlar çox hündürdür. Məscidin həyəti və günbəz mərmər mozaika ilə bəzənmişdir. Mərmərlər Urmiyadan gətirilirdi. Mərmər mə'dənləri Təbrizin 15 fərsəxliyindədir.

Sultan Səlimin İrana gəlməsinin səbəbi bu idi ki, Səfəvilər hakimiyyəti dövründə şiə təriqəti geniş yayıldığı üçün sünni təriqətinə mənsub olan bütün şahzadələri digər sünni əhali ilə bərabər qətlə yetirirdilər, ona görə də əlli yaşlı hökmdar Sultan Səlim o vaxt hələ İranda mövcud olmayan toplarla silahlandırdığı güclü ordu ilə bu məmləkətə üz tutdu və Azərbaycan sərhəddinə yetişdi. Şah İsmayıl döyüşə hazır olmadığı üçün ehtiyat edib öz əyalını və uşaqlarını Qəzvinə göndərdi. Özü isə Sultan Səlimlə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

döyüşə girdi, lakin məğlub oldu. Sultan Səlim Təbrizi tutdu və şəhər çox qarət olundu. Sonra əsasən sənətkarlardan ibarət olan 3000 ailəni özü ilə İstanbula apardı. Təbriz əhalisi olan Saxlu tayfasından xeyli adam öldürüldü və düşmənçiliyi Təhmasib şah zamanı da davam etdirdilər. Sultan Səlimin oğlu Sultan Süleyman da taxta əyləşib, Təbrizi zəbt etdi. O, öz sərdarı İbrahim Paşanı göndərdi ki, Təbrizdə qala və istehkam tiksin. Bunların əlaməti indi də qalır. O, istehkamın ətrafına 350 top düzdü, 4000 nəfər mühafiz yerləşdirdi. On iki il keçdikdən sonra Təbrizdə əhali yenidən üsyan etdi. İbrahim Paşa xeyli qoşunla gələrək sakitlik yaratdı.

Müəllif deyir: Bu, dünya səyyahlarının səyahətnamələrindən edilmiş tərcümələrin xülasəsidir. İbn Bəttutə Tənci də qısa bir müddətdə Təbrizə səfər etmişdir. Onun səyahəti Sultan Əbu Səid xan Moğolun hakimiyyəti dövrünə təsadüf edir.

## MİR'ATÜL-BULDANİ-NASİRİ. CİLD 4.

(S.13) Cabərəvan. "Möcəmül-büldan" müəllifinin əqidəsinə görə Təbriz ətrafında yerləşən Azərbaycan şəhərlərindən olmuşdur.

(S.13) Capərlu Zəncan nahiyəsində olan Qızılkəclu kəndlərindən biridir.

(S.13) Çapıq Zəncanın qədim İcrud kəndlərindəndir. Havası mülayimdir, kənd təsərrüfatında dəmyə əkinlər əsas yer tutur. Kavənd



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ətrafında olan sulardan buraya axır, çay ətrafında çoxlu söyüd və küknar ağacları əkilmiş, meyvə bağları da vardır. Bu kənddə iyirmi səkkiz ailə yaşayır.

(S.42) Çaharbürc Marağanın Satılmış qəzasında iki kənddir ki, hər ikisi Çarbürc adlanır. Bu iki kənd bir-birinə bitişikdir. Onların ərazisi Ceğtu[47] çayı ilə suvarılır və hər bir kənd qırx beş ailədən ibarətdir.

(S.43) Çarbulaq Zəncanın İçrud mahalı kəndlərindəndir, cənab Əmidülməlikin mülküdür. Havası səfalı, torpağı həm dəmyədir, həm də suvarılandır. Bir yeraltı suvarma kanalı vardır ki, indi xarabdır. Bu kəndin əkin sahələri dörd bulaq vasitəsilə suvarılır. Əhalisi on beş ailədən ibarətdir.

(S.43) Çartan Araz kənarında yerləşən Qarabağ kəndlərindəndir. Xudafərin körpüsü yaxınlığındadır. Körpüdən Çartana qədər olan məsafə iki fərsəx yarımdır.

(S.44) Carçı Zəncanrud mahalı kəndlərindən olub, Zəncan şəhərinin üç fərsəxliyindədir. Müzəffərülmülkün mülki və tiyuli torpaqlarındandır. Havası mülayimdir. Əvvvəllər çox abad idi. Abadlıq işlərin əksəriyyəti mərhum Müzəffərüddövlənin vaxtında olmuşdur. Əkinə yararlı torpağı dəmyədir. Çay və yeraltı suvarma kanalı yoxdur. Bir çeşməsi vardır ki, onunla əhali yay əkinlərini suvarır. Çoxlu ağacları var ki, türk istilahı ilə ona qaraağac deyirlər, susuz böyüyür. Bu ağacları avam camaat pir hesab etdiklərindən onun altında qurban kəsirlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.72) Çal "Möcəm əl-buldan"ın müəllifinin yazdığına görə Azərbaycanın kəndlərindən biridir. Mədainin dörd fərsəxliyindədir. İbn Həccac onu "Kal" adlandırmış və bir beyt demişdir. Çal eləcə də Azərbaycanda bir məkan adıdır.

(S.73) Çalhəqq Zəncanın kəndlərindəndir. Otuz kəndli ailəsindən ibarətdir. Dəmyə və suvarılan əkin sahələri vardır. Məhsulun çoxu taxıldır. Suyu dövlətabad çayındandır, bağı yoxdur. Havası yaylaq havasıdır. Şahsevən, qurdbəyli eli orada yaylaq edirlər.

(S.74-78) Çaldıran Xoy mahallarından birinin adı olub, Təbrizin şimal-qərbində yerləşir. Hərçənd bu xəritədə belə göstərilir, lakin biz Şah İsmayıl Səfəvi ilə Sultan Səlim xan Osmani arasında baş vermiş və Çaldıran döyüşü adı ilə dildə-ağızda məşhur olan bu hadisə barədə onun baş verdiyi vilayətin adı ilə deyil, Çaldıran sözündə geniş bəhs edirik.

"Aləmara" müəllifi Mirzə İsgəndər Türkman yazır: "918-ci ildə (1512/13) Şah İsmayıl Həmədan yaylaqda olarkən Sultan Səlim xanın İran məmləkəti istiqamətində şəhərə gəlməsi xəbəri yayıldı. Həmin tarixçi yazır: I Sultan Səlim xanın atası Sultan Bəyazid Səfəvilər dövlətini tanımış, Şah İsmayıl ona qarşı pis münasibətdə olmamış, mehriban və dostluq munasibətində idilər. Bu münasibət 917-ci (1511-12) ildədək, yə'ni Yeniçəri tayfası Sultan Bəyazid xanı hakimiyyətindən kənar edib yerinə onun Sultan Səlim xanı qoyanadək davam etdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şah İsmayıl Osmanlı tayfasından olan, İrana pənah gətirən Sultan Murad adlı bir nəfərə sığıncaq vermişdi. Bu şəxs Şah İsmayılın tərəfində olan Zəncan hakimi Nurəli ilə birləşərək Sultan Səlimlə vuruşub, Sinan paşanı qətlə yetirdilər, Kax qalasını və Diyarbəkrin bəzi qalalarını da Osmanlı sultanı tutmuşdu. Hicri 918-ci (1512/13) ildə Sultan Səlim xan böyük qoşunla Azərbaycana üz tutdu. Bu döyüşü gözləməyən Şah İsmayıl rəcəb ayında özü ilə olan məhdud saylı qoşunla Həmədandan yola düşdü. Xoy mahalında olan Çaldıran düzündə 20000 osmanlı qoşunları ilə üz-üzə gəldi. Hərcənd Xan Məhəmməd İstaclu[48] Diyarbəkrdən böyük qoşunla gələrək, Şah İsmayılla birləşdi, lakin yenə də Şah İsmayılın ordusu Osmanlı qoşunlarından az idi. Döyüşdə Osmanlı qoşununun cəngavər döyüşçüsü olan Qoçoğlu Şah İsmayıl tərəfindən öldürüldü. Ümumiyyətlə, bu döyüşdə Şah İsmayıl rəşadətini göstərdi. Deyirlər ki, o, qılıncı ilə topların zəncirini qırırdı. Döyüşdə Şah İsmayılın bir çox əsgəri öldürüldü və əsir götürüldü. Lakin o, məğlub olsa da, onun döyüşdə şəxsi şücaəti bəlli oldu, ad qazandı. Lakin Şah İsmayıl qaçıb Həmədana gəldi. Sultan Səlim Təbrizə girdi, lakin orada altı gündən artıq qalmadı. Məlumdur ki, bu döyüşdə 3000 nəfər osmanlı qoşunundan və 2000 nəfər isə Şah İsmayılın ordusundan öldürülmüşdür.

"Zübdətüt-təvarix" müəllifi belə yazır ki, Sultan Bəyazid Şah İsmayılla dost münasibətində olduğundan yeniçərilər vasitəsilə Sultan Bəyazədin yerinə hakimiyyətə keçən oğlu Sultan Səlimi təbrik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etmişdi. O da qəzəblənib, Diyarbəkir hakimi Əlaüddövlə Zülqədərin üsünə qoşun göndərdi və onu qətlə yetirdi. Əlaüddövlədən sonra Diyarbəkir hakimi xan Məhəmməd adlı birisi Sultan Səlimə bəzi nalayiq məktublar yazmışdı. Ona görə Sultan Səlim yüz min atlı on min yeniçərili ilə Azərbaycana yola düşdü. Bu tarixin sahibi Şah İsmayılla vuruşan və onun əli ilə öldürülən Qoçoğlu adlı sərkərdənin adını əl-Qoçoğlu yazır və göstərir ki, Çaldıran vuruşanda Osmanlı qoşunundan on min nəfər öldürülmüşdü. Avropanın mötəbər tarixi mənbələri Şah İsmayıl ilə Sultan Səlimi müharibəsinin h.920-ci (m.1514) ilin hadisəsi olduğunu qeyd edir. Məlumdur ki, Sultan Səlim İrana doğru hərəkət edərək, öz ailəsinddə cihad elan eləmişdi və bildirmişdi ki, islam dinində kafir olan şəxsə cihad etmək vacibdir və Şah İsmayılı öz bəyanatında Şeytan qulu adlandırmışdı. Sünniməzhəb alimlər və camaat Osmanlı məmləkətində belə fitva yazdılar ki, bir nəfər şiəni öldürmək 70 nəfər İsəvinin qətlindən savabdır. Digər Avropa tarixi kitablarında Çaldıran vuruşu hadisəsi barədə təfsilən yazıb göstərilir ki, bu müharibə hicri 920-ci ilin rəcəb ayında, məsihi ili ilə 1514-cü il seşənbə günü 22 avqustda baş vermişdir. Həmin tarixçilər və alimlər vuruşun tarixi barədə müxtəlif nəticələrə gəlmişlər. Bəzi nəticələr tarixi dəqiqlikdən məhrumdur. Biz çox açıq gözlə və dəqiqliklə onları oxuculara çatdırırıq. Elə ki, Şah İsmayıl və Sultan Səlim xan arasında düşmənçilik əmələ gəldi, bir-birinə göndərdikləri məktublar bu münasibəti daha da qızışdırdı. Həmin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məktubların surəti müəllif tərəfindən əldə edilmişdir. Orada dərc olunmuş ibarələr küdurəti şiddətləndirir və böyük islam dövlətləri arasında birlik və dostluğu unutdurur.

Çaldıran döyüşünün əvvəlində Şah İsmayılın qoşununun önündə gedən atlılardan biri kəşfiyyat üçün və Sultan Səlim xanın əsgərləri arasında bir xəbər öyrənmək məqsədilə osmanlı qoşununun qarovulçularının qarşısına gəlmişdi. Onu tutaraq Sultanın yanına apardılar. Sultan Səlim xan bu atlını və həbs etdirdiyi Şah İsmayılın elçisini bəzi məlumatları əldə etdikdən və istintaqdan sonra qətlə yetirdi. Bağdad, Kürdüstan və Diyarbəkir əmirləri, Ustaclı Məhəmməd və Məhəmmədkamune və İsfahan, Fars, Loristan əmirləri Çaldıran vuruşanda Şah İsmayılın yanıda idilər. Müharibə əsnasında Anatolu valisi Sinan Paşa öz qoşunu ilə Şah İsmayılın ordusuna hücum etdi. Bu qanlı döyüşdə osmanlılardan birisi cəsur, lakin ehtiyatsızlıq edən Məhəmməd İstaclunu qətlə yetirdi və onun başını nizəyə taxaraq Sultan Səlim xanın atının ayaqları altında yerə atdı. Bundan sonra Şah İsmayıl bütün ordusu ilə qalxaraq hücuma kecdi və iranlılar rumeli qoşununa həmlə edərək, Həsən Paşanı yaraladılar. Bu hal osmanlı qoşununu vahiməyə saldı və bu xəbəri Sultan Səlimə çatdırdılar. Sultan özü şəxsən topla və başqa hərbi ləvazimatla sağ cinahdan əmirlərlə Şah İsmayılın ordusuna tərəf üz tutdu. Şiddətli döyüşdə igidlik göstərirdi. Lakin döyüşdə yaralanıb zəif düşdüyündən, axşama yaxın onun əsgərləri



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müqavimətə tab gətirmədi, düşmən onların arxasına keçdi. Osmanlı qoşunları onları təqib edib, çoxusunu qətlə yetirdilər, xeyli mal-mülk, qadın, uşaq osmanlıların əlinə keçdi. Bir osmanlı qarışıqlıqda qiymətli daş-qaş olan sandıq ələ keçirmişdi ki, sandıqda iki kürur[49] tümən qiymətinə bərabər cəvahir var idi. Bu vaqiədən sonra Çaldırandan Təbrizədək hərəkət edən osmanlı qoşunu döyüşən hər bir qızılbaşı qətlə yetirdi. Rəcəb ayının 16-da, pəncşənbə günü Sultan Səlim xan Təbrizə daxil oldu və o günün namazını Təbriz şəhərində qıldı. (Osmanlıların) Təbriz şəhərində qaldıqları beş gün müddətində gördükləri işlərdən biri də bu oldu ki, Əhməd bəy qızıbaş tərəfdarlırını əsir edib ələ keçirməklə onların əmlakını zəbt edərək nə tapdılar apardılar. rəcəb ayının 22-si çəharşənbə günü Xorasan hökmdarı Sultan Hüseyn Bayqaranın oğlu Bədiüzzəman Mirzəni, bütün Xorasan və Təbriz əhlindən olan söz və sənət ustaları ilə birlikdə İstambula göndərirlər. Onları İstambula sağ-salamat çatdırmaq üçün Sultan Səlimə məxsusu qulamlar qoruyub müşayiət etmişlər. Rəcəb 23-ü pəncşənbə günü Anadolu və Rumeli qoşunlarının az olmasından və azuqə çatışmazlığından qoşunların uzaqlaşdırılmasına icazə verildi.

Rəcəb ayının 29-u çərşənbə günü Sultan Səlim xanın ordusu Arazın sularını keçirkən bu zaman xeyli at, ləvazimat, adamlar suda qərq və həlak oldular. Ayın axırı, pəncşənbə günü Naxçıvana daxil oldular. Naxçıvan əhalisi xaricən qızılbaşlara oxşadıqları üçün



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yalnız özlərini sünni kimi qələmə verib, ölümdən xilas oldular, lakin Osmanlı qoşununa onların mallarını qarət etmək əmri verildi.

Sultan Səlim xan Ədirnədən İstambula on günə, İstambuldan ta Təbrizə yüz atlmış günə, Təbrizdən Amasiyaya əldi üç günə gəlmişdi. Bu səfər Sultan Səlim xanın ürəyincə başa çatdığı üçün əsgər şəhərlərə fəthnamə yazdı. O cümlədən Çaldıran döyüşündən sonra Təbrizə yollanarkən, Ədinə hakiminə yazdığı fəthnamənin surəti aşağıdakı məzmundadır:

**Sultan Səlim xanın Çaldıran vuruşu ilə əlaqədar Ədirnə hakiminə yazdığı fəthnamənin məzmunu**

Allahın köməkliyi ilə Azərbaycan diyarına varid olduq. Onları bir neçə dəfə yazılı surətdə təmkinə və təslim olmağa dəvət etdim. İnadkarlıq və düşmənçilik, vuruşmaq əhval-ruhiyyəli cavab yetişdi. Nəhayət, rəcəb ayının ikisi çərşənbə günü günorta vaxtı qalib əsgərlər Çaldıran səhrasına varid oldular. Şah İsmayılın qoşunlarının müqavimət göstərmək ürəklərindən deyildi, ona görə qoşunu iki yerə böldü. Bir hissəsini İstaclu Məhəmmədin başçılığı ilə sağ tərəfdə və bir hissəsini özü ilə sol tərəfdə qoyub qərar tutdu və döyüşə başladı. İstaclu Məhəmmədin qoşununu bəylərbəyi Sinan Paşa bir göz qırpımında tamamilə yerlə-yeksan etdi. Sinan Paşa sağ cinahı



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məğlub edib, İstaclu Məhəmmədin qoşununu dağıtdıqdan sonra özünü Şah İsmayılın başçılıq etdiyi sol tərəfə vurub, həmlə etdi. Şah İsmayıl da Rumeli qoşununa həmlə edib onları məğlub etdi. Bu zaman hər iki tərəfdən çoxlu ölən və yaralanan oldu. Rumeli qoşunu başçısı Həsən Paşa da yaralandı. Buna görə düşmən daha da cürətləndi və Şah İsmayıla hər yerdən kömək gəldi. Yeniçərilər tayfası da tüfəng və topla hücum etdilər. Düşmən bu halı gördü, qaçmağa üz tutdu və vuruşdan əl çəkdi. Bizim qoşun onların arxasına keçib bütün sərkərdə və qoşun başçılarını atdan yerə salıb, nizə, qılınc və gülləyə tutdular, əsir götürdülər. Müəyyən oldu ki, Şah İsmayılın özü yaralanıb qaçmışdı. İndi Təbriz istiqamətinə yollanırıq. İnşaallah təala bizim alnımıza çoxlu fəthlər yazıb və buna nail olacağıq. Bu böyük fəth münasibətilə bütün Ədirnə əhalisinə gözaydınlığı verin ki, ta onlar sevinib şənlik etsinlər, uca tanrının hədiyyəsindən xoşhal və şad olsunlar. Son.

(S.99) Cameyi-Təbriz. Təbriz şəhərində bir neçə mötəbər abad və dağılmış məscid vardır ki, hər biri bu adı daşımağa layiqdir. Bunlardan Came məscidi digərindən ona görə üstündür ki, Abbasilər xilafəti hakimiyyəti dövründə bina olunmuşdur. Lakin sonralar dağılmış və yenidən tikilmişdir. Digər Müzəffər məscidi Cahanşah məscidin adı ilə məşhurdur ki, Sultan Mahmud Qazan xanını binalarındandır. Bu məscidin tarixi məscid kaşısı üzərində yazılmış 870-ci hicri, rəbiüləvvəl ayıdır (1465, oktyabr).



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İndi içqala olan məşhur Əlişah məscidinin baniləri Əlişah və Sultan Mahmud Qazandır. İndi ona Taqi-Əlişah deyirlər. Sultan Əbu Səid moğol hakimiyyəti zamanı Təbrizdə olmuş, İbn Bətutə ki, o vaxt Əlişah Gilani vəzir idi, bu came məscidi barədə belə deyir: "Dünyada ali binalardan hesab olunan məscidin öz binasından başqa onunla üzbəüz cənub tərəfdə mədrəsə yerləşir. Divarı kaşıdır. Məscidin ortasından çay axır, çoxlu ağaclar, xüsusən meynə və yasəmən ağacları əkilmişdir və hər gün künorta namazından sonra məsciddə surələr oxunur.

Digər Həsən Paşa məscidi isə 885-ci hicri ilində (1480/81) tikilmişdir. Bu, vaxtilə çox ali, böyük, bəzəkli bir məscid olmuşdur ki, sonralar tamam dağılmış və təbrizlilər həmin məscidin yerinə bir məscid tikmişlər.

Ustad-şagird məscidi isə 840-cı ildə tikilmişdir. Əvvəl Hülakü xanın övladdlarındın Süleyman tikdirmiş, sonra dağılmış, 1237-ci (1821) ildə Hacı Mirzə Yusif Müctəhid yenidən bərpa etmişdir.

(S.101) Cameyi-Xoy. Xoyda bir neçə abad və dağılmış məscid vardır. Onlara came demək olar. Hər birində camaat namaz qılsa da, lakin hec birində cümə namazı qılınır. O cümlədən onlardan birincisinin banisi mərhum Hüseyn xan Dünbüli olub, h.1212-ci (m.1797) ildə bina etmişdir. H.1287-ci (m.1870) ildə mərhum Şücaüddövlənin hökuməti zamanı onun özülünü qazıb, əhəng və bişmiş kərpiclə sütunlarını daşla yenidən tikmişdilər. Deyilənə görə Xoyda bundan başqa qədim məscid yoxdur. Adına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xan məscidi deyirlər. İçərisindəki kiçik mədrəsə çox yaxşı, qəşəngdir. Digər məscidi mərhum Axund Həsən Şeyxülislam tikdirmişdir və mərhum Hacı Seyid Ağahüseyn İmam Cümənin ixtiyarında idi, ondan sonra o mərhumun övladının ixtiyarında qalmışdır. Bu məscid dağılmaq üzrə idi. Bir il bundan əvvəl, yəni h.1296-cı (m.1878) ildə Hacı İbrahim tacir onu yenidən əhəng və bişmiş kərpiclə, sütunlarını daşla bərpa etdi. Seyid mədrəsəsi bu məscidin yanındadır. Başqa bir məscidi mərhum Molla Məhəməd Qazi bina etmiş və h.1260-cı ildə və yaxud 1270-ci ildə (m.1844 və yaxud 1854-cu il) mərhum Əlixan Makui təmir edib, yəni əhəng və bişmiş kərpiclə çox möhkəm və qəşəng olub təzələmişdir. Yaxşı bir həyəti vardır.

Başqa bir məscid də vardır ki, keçmiş mərhum hökmdar Hacı Mirzə Ağasının qardaşı oğlu mərhum Mirzə Seyid Ağasıdır. Bu məscid taxtadan tikilmişdir. Burada Məhəmməd şah dövründə tikilmiş məscidlərdən biri də tacir Hacı baba məscididir.

Xoyda iki məscid də vardır ki, onlar dağılmışdır. Birisi əvvəl qeyd etdiyimiz mərhum Hüseyn xan Dünbülinin məscididir ki, əbədi olan Xaqanın adına tikilmişdir və Şah məscidi adı ilə məşhurdur. Bu, çox ali binadır, lakin naqis və uçulmuşdur. Digəri mərhum Hacı Mətləb tikdirdiyi məscididir ki, çox xərc məsrəf olunsa da, naqis və uçulmuşdur.

(S.98) Cameyi-İrəvan. Bu məscid Məhmməd xan Sərdarın atası, İrəvan hakimi Hüseynəli xanın binalarındandır. O, Xanbaba xan Sərdarın babasıdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.98) Cameyi-Badkubə. Ağa Nur məscidi, Zülfüqar məscidi, Elçi məscidi, Əli məscidi, mərhum Hacı Ağaməhəmməd CƏfər Abadeye və başqaları bu qəbildəndir.

(S.105) Cameyi-Zəncan. Bu şəhərdə olan mötəbər məscidlərindən birinin banisi mərhum Abdulla Mirzə Dara olmuşdur. Onun tikildiyi tarix h.1237-ci ildir. Məscidin vəqf əmlakı da (kənd, hamam) vardır. Qəyyumu Məhəmmədhüseyn Mirzə vələdi-mərhum Əmirzadeyi-Mövsin Mirzədir.

Digər bir məscid mərhum Mirzə Əbülqasim Müctəhidindir ki, otuz il əvvəl tikilmişdir. Məscidin üç tərəfi tamamlanmış, bir tərəfi isə natamamdır.

Başqa bir məscidi şəhər məscid-mədrəsəsidir ki, mərhum Nəsrulla xan, şəhərin naibi 56 il bundan əvvəl bina etmişdir və vəqf əmlakı vardır. Digər bir məscid də vardır ki, mərhum Hacı Mir Əbülqasimindir və qədim binalardandır. O, 60 il bundan əvvəl tə'mir olunmuşdur, indi yenə çox dağılmış yerləri vardır, bu məscid üçün xeyli vəqf vardır.

1173-gü (1759/60) ildə tikilmiş Hacı Pirvəli adlı şəxsin məscidini Molla Məhəmmədəli Babi adlı birisi təmir etdiyi üçün indi bu məscid Molla Məhəmmədəli məscidi kimi məşhurdur. O qədər də dağılmamışdır. Zəncanda bir sıra məscidlər vardır ki, onlar came hesab olunmur.

(S.105) Cameye-Savucbulaq. Savucbulaq (Meşkin şəhəri kəndlərindəndir) Came məscidi Bədaq Sultan bin Şirxan bin Şeyx Heydər xan Mokri binalarındandır ki, Mokri, Savucbulaq və başqa yer-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

lərdə vardır. Bu Savucbulaq məscidini müşarünileyh h.1089-cu (m.1678/78) ildə bina etmiş və bəzi vəqf əmlakı da vardır.

(S.120) Cameye-Mərənd. Bu cümə məscidi Qənbər Çeşmə məhəlləsində və şəhərin şərq tərəfindədir. Came məscidi qapısının üzü məğribədir. Bu qapının yuxarısında bu məzmunda yazı vardır: "Binanı böyük ürəklə yenidən işləyən Xacə Hüseyn bin Seyfədin Mahmud bin Tace Xacənin əməlidir, 704-cü il şəvval ayının axırları (m.1305, may)".

(S.121) Cameyi-Məlayir (Həmədanın cənubunda yerləşir). Mərhum Şeyxülmülukun binalarındandır. Altmış üç il bundan əvvəl tikilmiş, Məlayirə aid olan Dövlətabad mülklərindəndir. (Qeyd: "Miratül-büldan" h.1296-cı ildə (m.1878/79) çap olunub məscid bu tarixdən 63 il əvvəl, yəni h.1233 (m.1818) ildə tikilmişdir - H.T.).

(S.124) Cameyi-Həmədan. Həmədanın qədim məscidi şəhərin adı ilə məşhurdur və şəhərin ortasında yerləşən yüksək və mötəbər binalardandır. Əhalinin bütün ruhaniləri hər tərəfdən bu məscidə gəlib namaz qılırlar. Məscidi tikən Albalu xan Zənginədir (Qarabağın altı kəndindən biridir. Qədim İran şəhəri Fəsanın mərkəzində yerləşir - H.T.). Lakin binanın neçənci ildə tikildiyi məlum deyil.

Mərhum Xaqan Fətəli şahın əmri ilə mərhum Ağa Axund Molla Məhəmmədhüseynin şəhərin ortasında tikdirdiyi böyük məscidin mədrəsəsi, böyük günbəzi və hücrələri vardır. Məscid tikintisi yarımçıq



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

qalmışdır. Bu məscid üçün otuz-qırx liyiqli daş sütun tikilmişdir. Lakin həmin vaxt Həzrəti-Xaqan behiştlik olduğundan (17834-cü il Fətəli şah Qacar vəfat etmişdir - H.T.) məscid yarımçıq qaldı və sütunlardan bəzisi şəhərdə, hazırlanan sütunlar isə yollarda baxımsız qaldılar və əlbəttə, yarımçıq binanın xarabalığa çevriləcəyi şübhəsizdir.

Həmədan şəhərinin yaşayış məntəqələrinin bölgələrinin hər birində qədim və müasir yaxşı məscidlər çoxdur, lakin Came məscidinə tay ola bilməz.

(S.131) Canqurbanlu Simbar çayının kənarındadır. Kənd təsərrüfatında arpa mühüm sahəsidir. Suyu və havası istidir. Burada iyirmi ailə sakindir.

Cavər. Zəncan kəndlərindəndir. Xəmsə çayı Müzəffərülmülkün xalisə və tiyul torpağlarındandır. Havası mülayimdir, məhsulu dəmyə bitkiləridir. Zəncan çayının suyu içməli su kimi istifadə olunur. Yay əkini ilə də məşğul olurlar.

Cavərsan. "Möcəmül-buldan"ın müəllifi yazır ki, bəziləri bu əqidədir ki, Cavərsan Həmədanın yaşayış yerlərindəndir. Bəziləri də Həmədana yaxın kəndlərdən biri olduğunu deyirlər.

Əbülməali Hüseyn bini-Cəfər əl-Kərci Cavərsanda doğulmuş və onun məqbərəsi Gəncədir.

(S.134) Çahək Zəncan kəndlərindəndir. Qədim və xırdamalik torpaqdır. Suyu Sar çeşməsindəndir. Üzüm bağları və meyvə ağacları vardır. Əkinçilikdə pambıqçılıq və dəmyə suvarılan taxılçılıq əsas yer



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

tutur. Havası mülayimdir və Şahsevən tayfasından İnanlu elləri oranı yaylaq edirlər.

(S.135) Çayırlı Zəncan kəndlərindəndir. Dağ ətəyində yerləşən Qızılkəclu mahalından Hüseynəli xan Yavər mülklərindəndir. Əkinçilikdə torpaqlar suvarılmır, dəmyə torpaqlara malikdir, lakin bol yağan yağışlarla suvarılır. Suyu abad çeşmədəndir. Havası yaylağa xasdır və çox soyuqdar olur. Əhalisi 35 ailədən ibarətdir.

(S.212) Çubdərə Zəncanın Səcasrud mahalında bir kənddir. Qədim xalisə divan torpağıdır. Məhsulu taxıldan ibarətdir ki, həm dəmyə, həm də suvarılan torpaqlarda yetişir. Onun ərazisində çeşmə suyu içməli sudur. Havası yaylaq. Bağları yoxdur. Yalnız bir neçə söyüd ağacı bu yaşayış məntəqəsində görünür. Bu kənddə on ailə yaşayır.

(S.212) Çubuqlu Zəncanın Sührəvərd mahalında kənddir. Qədimdən bu mülki torpaqlarda şahsevən və əfşar tayfası və cəmiyyətindən iyirmi ailə yaşayır. Əkinçilikdə dəmyə və suvarılan torpaqları vardır. Yeraltı suvarma kanalları yrxdur. Torpaqları Qaraquş çeşməsi ilə suvarılır, bu, həm də içməli su mənbəyidir. Burada həm yay, həm də qış əkini ilə məşğul olmaq mümkündür. Üzüm bağları, söyüd, iydə aə başqa ağacları vardır. Havası istidir. Çubuqlu Xurrəqan[50] kəndlərindəndir. Əkinçilikdə yarı torpaqları dəmyə, yarısı suvarılan torpaqlarıdır. Burada müqəddəs İsmayıl imamzadəsi vardır və İsmayıl burada dəfn olunmuşdur. Ətraf kəndlərdən buraya qurban kəsmək üçün gəlirlər. Məhəmməd



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hüseyn xan Xurrəqani bu kəndi həmin müqəddəs ocağa vəqf etmişdir.

(S.212) Cəbəlabad Xürrəqanın Qaragözlü ərazisinin tabeliyində olan dağ ətəyində yerləşir. Suyu çay suyudur. Kiçik çeşməsi də vardır. Xırdamalik mülkdür. Əhalisi on beş ailədən ibarətdir.

(S.213) Çəpexal. Çay adıdır. Şirvanda Kəllexaldan ayrılıb, Mahmudabadın şimalından keçərək, Xəzər dənizinə tökülür.

(S.214) Çətiz Zəncanda İçrud kəndlərindən olub, qədim kənddir. Yaylaqdır. Kənd təsərrüfatı dəmyə və suvarılan torpqlardan ibarətdir. Kəndin kənarında bir çeşmə vardır ki, bununla bir qədər geniş əkin sahələrini, bir qədər də meyvə ağaclarını suvarmaq olur. Əhalisi qırx beş ailədən ibarətdir.

Çəçanrud. Çay kənarında. Dövlətabadın qərbində Məlayirdədir və xalisə əmlakıdır. Çayın suyuü ilə suvarılır. Əkinçilikdə suvarmadan istifadə olunur. Bağı yoxdur, amma yaxşı çəmənliyi vardır. Keçmişdə on beş ailədən ibarət olub, indi burada cəmi iki ailə yaşayır. Bu yerdə yaxşı duz mə'dəni vardır. On-on iki il bundan əvvəl mə'dəndə işləyirdilər, indi buraxılıb. Çəçanruddan Dövlətabada qədər məsafə üç fərsəngdir. Sahilində Çəçanrudun yerləşdiyi çay Məlayirdən keçir və payızda və qış fəslində burada çoxlu ördək və sair su quşları ovlamaq olur. Eni yetmiş zərə yaxındır və çay Məlayirdən keçərək Nəhavənd ərazisindəki Kamasb çayınadək ok iki fərsəx davam edir. Ümumi uzunluğu on beş fərsəngdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.214) Çiçi Quba mahalı kənlərindəndir. H.1225-ci ildə (m.1810-cu il) Şeyx Əlixan Dərbəndi Çiçidə rus qoşunu tərəfindən məğlüb edilmişdir.

(S.214) Həcmas (Xaçmaz) Dağıstandan aşağı Şirvanla Quba arasında kənddir.

(S.218) Çıraq Hasari. Zəncan mahalı Sührəvərd kəndlərindəndir. Qədimdən Mirzə Əli Müstofinin mülküdür. Bu kəndin məhsulu taxıl, dəmyə əkindir. Kiçik bir çeşməsi vardır, bir az yonca əkilir. Ərazisi kiçik olduğu üçün xırdabuynuzlu və iribuynuzlu heyvan saxlamırlar.

(S.218) Çıraq Məzrəə. Bu da Sührəvərd mahalı kəndlərindəndir. Binayi-qədimdən bunun üç dangı (1 dang dirhəmin altında birinə bərabərd köhnə çəki daşıdır. Əmlakın altıda bir hissəsi) Əmidülmülkün mülkü, digər üç dangı isə Mirzə Məhəmmədəli Müstofinin mülküdür. Məhsulu taxıl və dəmyə əkinlərdir. Cüzi bağlara malikdir ki, çeşmə ilə suvarılır. Yazlıq əkinlə də məşğul olurlar. Havası sərindir. Əhalisi iyirmi beş ailədən ibarətdir.

(S.221) Çərkər. Əbhər və Zəncan çay ərazisi kəndlərindən biridir. Kəndin yerləşdiyi dağ ətəyində Çərkər xanlarının atları üçün otlaqlar vardır. Hacı Murtuzaqulu xan Mir Şikarın nəslindən olan on doqquz nəfər bu kənddə yaşayır və hamısı ovçudur. Onlar çoxlu ilxıya malikdirlər və bu ilxıdan çox yaxşı qulanlar bəsləyirlər ki, Çərkər atları kimi məşhurdur. Kəndin məhsulu oldan taxıl suvarılan və dəmyə torpaqlarda yetişir və Sarcəbəl bulağı ilə suvarılır. Buradan Sultaniyyə qəsəbəsinədək iki fərsəxdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Havası yaylaqdır, əhalisi iki yüz iyirmi ailədən ibarətdir.

(S.221) Çerkeni. Qədim sərhəd qalalarından olub Sefnan adlanırdı. H.136-cı (m.753/54) ildə Əbu Cəfər Mənsur Dəvaniqinin xilafəti zamanı Yəzid ibn Əsəd Şirvan və Dərbəndi idarə edirdi. O, burada Xəzər tayfasının zülmündən Bağdada çoxlu şikayət etdi və bu tayfanı dəf etmək üçün görülən tədbirlərdən biri bu oldu ki, xilafət tərəfindən sərhəddə olan qədim şəhərlərin təmiri barədə hökm verildi. O cümlədən Sefnan qalası da təmir olundu ki, indi ona Çerken deyirlər. Təmirdən sonra oraya bir neçə şami ailəsi göçürüldü.

(S.224) Cirya Dövlətabadın qərbində yerləşən Məlayirdə ərbabi bir kənddir. Çox da böyük olmayan yeraltı suvarma kanalı vardır. Məhsulunun çoxu dəmyə torpaqlardandır. Hamam və məscidi vardır. Əhalisi iyipmi ailədən ibarətdir, yaşayış yeri düzənlikdir. Havası digər kəndlərə nisbətən istidir, yaylaq yoxdur. Dövlətabad şəhərinin dörd fərsəxliyindədir.

(S.226) Cəznəq. "Möcəmül-buldan" müəllifi yazır ki, Cəznəq Azərbaycanda Marağa yaxınlığında yaşayış olan şəhərdir. Orada İran sultanlarının (sasanilərin) qədim imarətlərinin və bir atəşkədənin xarabalıqları qalmışdır.

(S.240;243) Çeşmeyi-Əliməhəmməd Məlayirin şərqində ərbabi bir kənddir. Şamlu ailələrinə məxsus olub, kənd təsərrüfatında bəzi yerlərdə yeraltı kanallarla suvarmadan istifadə olunur. Əksər tor-



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

paqları dəmyədir. Bu kənddə otuz rəiyyət ailəsi yaşayır. Şamlu ailələrindən olan kənd ağsaqqalı Məhəmmədvəli xan burada yaxşı bir qala tikdirmişdir. Buralar çəmənliyi və ağacları olan çox səfalı yerlərdir. Əhalinin məskun olduğu yer təpənin başında yerləşir. Yayı sərin olur. Qışda yağan qar gediş-gəlişi çətinləşdirir, yol bağlanır. Kəzzazla sərhəddə məscid, hamam və yaxşı otlağı vardır. Baharda burada kəklik ovlanır. Buradan Dövlətabada qədər altı fərsəngdir. İki-üç tarladan savayı ətraf sıldırım dağlardan ibarətdir.

(S.243)Çeşmeyi-Qəssaban. Həmədan kəndlərindən olub, əsrin məşhur filosofu mərhum Molla Vəliyullahın mülküdür.

(S244) Çeşmeyi-Kəndab. Bu torpaq mülkiyyəti Əsədabad torpağı ilə Tuysərqan sərhəddində yerləşən Əsədabad xanlarının mülkündəndir. Neçə ildir ki, Tuysərqana vergi verir. Bu mülkiyyət dəmyə torpaqlardır, çox məhsuldardır, lakin indi bununla məşğul olan rəiyyət yoxdur. Çeşmə elə vəziyyətdədir ki, onun suyu 100 cərib (91,44 sm-ə bərabər ingilis uzunluq ölçüsü - H.T.) ərazini suvarmaq iqtidarına malik deyil. Əhalinin içməli suyu quyudandır. Bu mülkiyyət çaydan da uzaq düşmüşdür. Əhali yuxarıda göstərilən çeşmədən və quyudan başqa suya malik deyil. Çeşmeyi-Kəndab şərqi və Cənubi Tuysərqan arasında, cənub tərəfdən isə Xangörməz dağıdır.

(S.227-228) Cavad körpüsü (Cesre-Cavad). Bu körpüyə Cavad və ya Cavat bərəsi də deyirlər. Bu körpü Kür çayı ilə Araz çayının qovuşduğu yerdədir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

və cənub tərəfində Muğan torpağı, şimal səmtində isə Qarabağ torpağıdır. Bu körpüdən məhz Şirvan torpaqlarına keçmək üçün istifadə edilir. Məlumdur ki, Keyxosrov səltənətdən əl çəkdikdən sonra Cavad bərəsindən keçərək qeyb olmuşdur, həqiqətdə isə bu iş Allahın əmri idi.

I Şah Səfəvi h.906-cı ildə (m.1501) Şirvan torpaqlarını tutduqdan sonqra Kür çayını keçib Azərbaycana tərəf gəlmək üçün Cəvad körpüsündən keçərək, Əlvənd Mirzə Türkmanla (Ağqoyunlu hökmdarı Uzun Həsənin nəvəsi - H.T.) vuruşmuşdur.

Şah İsmayıl 915-ci ildə (1509/10) yenidən Cavad körpüsünü keçərək, ona itaətsizlik göstərən və özbaşınalıq edən Şeyx Şamanı tənbeh etmək üçün Şirvana gəlmişdir. O, həmin yerləri fəth etdikdən sonra yenidən körpünü keçib, Qarabağa qışlamağa getmişdir. Bu səfər zamanı Şah Heydərin cəsədini Şirvandan Ərdəbilə aparmışdır.

I Şah Abbas h.1015-ci ilin (m.1606/07) qışında Gəncəni və Gürcüstanı fəth etdikdən sonra o vaxt osmanlı əsgərinin zəbt etdiyi Şirvanı tutmaq məqsədilə Cavad körpüsü dağıldığından və zədələndiyindən ordusunu on gün müddətinə qayıqlarla keçirmiş, bu zaman xeyli araba və mal tələf olmuşdu. O Dağıstan və Şirvanı zəbt etdikdən sonra qayıdanda Əli bəy Cavanşir adlı bir nəfərə körpünü düzəltməyi tapşırmış və sonra ordusu ilə körpünü keçib Ərdəbilə gəlmişdi.

Nadir şah Əfşar 1148-ci ilin şubat ayında (1736-cı il fevral) hökm verdi ki, həmin Cavad körpüsü



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

ətrafında, Muğanda təcili olaraq ağacdan və gildən on iki min ev, məscid, karvansara və hamam tikilsin ki, tacqoyma mərasimi keçirsin. Həmin ilin 26 şubat ayında bu hadisə, yəni Nadir şahın tacqoyma mərasimi baş verdi.

(S.246) Çeşmeyi-mə'dəniyi-Savucbulaq (Meşkin. Savucbulaq mineral bulağı). Bu bulaq Qəsri-Fərhad dağından, Savucbulaq körpüsündən 300 qədəm aralı, təpənin üstündən qaynayır. Onun suyu zəy dadı verir və bir qədər axdıqdan sonra donur və ağ rəngdədir. Deyirlər ki, donmuş maddə diş ağrısına xeyirlidir.

(S.246) Cəşnisəra Zəncanın İçrud kəndindən biridir. Qədimdən xırdamalik mülkdür. Havası yaylaqdır. Əkinçilikdə dəmyə və suvarılan torpaqlardan i\stifadə olunur. Bu kənd dağ ətəyində yerləşir, düzənlikdə bir neçə çeşmə vardır ki, onlardan suvarmada istifadə olunur. Əhalisi iyirmi ailədən ibarətdir.

(S.247) Çəşin. Əbhər və Zəncan kəndlərindəndir. Qədimdən Rüknüddövlə Məhəmmədtağı Mirzənin mülküdür. Altmış səkkiz rəiyyət ailəsinə malikdir. Kənd təsərrüfatında taxılçılıqdır. Dəmyə torpaqları və Dövlətabad və Abbasabad çaylarıv vasitəsilə suvarılan torpaqları dağ arasında yerləşir. Havası yaylaqdır və İnanlu eli burada yaylaq edir.

(S.247) Cəfərabad. Dövlətabadda Məlayirdə sahədir, cüzi bağları vardır. Kənd təsərrüfatında suvarmadan istifadə olunur. Ərbabi mülkdür.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.249) Cəfərabadi-Şəmiran. Çox səfalı bir kənddir. Dərbənd Şəmiranına bitişikdir. Təcrişdən bir qədər yuxarıda vaqe olub, xoş havası ilə məşhurdur.

(S.249) Cəki. Şamaxıdan Bakıya gələn yolda olan çaparxanalardan birinin adıdır.

(S.249-250) Ciğatu (ya Ciğtu). Azərbaycanda çay adıdır. "Nüzhətül qülub"un müəllifi yazır ki, Ciğtunun suyu Kürdüstan dağlarından, Siyakuh kəndinin hüdudundan axır və Marağa vilayətindən keçib, Safi çayı və Niğtu (Niftu) suları ilə birləşir və əvvəllər Şor Təsuc dəryası adlanan Urmiya dəryaçasına tökülür. Uzunluğu iyirmi beş fərsəngdir. Safi çayı başlanğıcını Səhənd dağından alır və Marağanın altında Niftu ilə birləşir. Niftu mənbəyini Kürdüstan dağlarından alır və Sinna dərəsindən Ciğtuya daxil olur və Təsuc (Urmiya) dəryaçasına tökülür. Uzunluğu on beş fərsəxdir.

Müəllif deyir: Ciğtu moğol istilasından əvvəl Zərinəçay adlanırdı. Moğollar onu Ciğtu-Niğtu adlandırmışlar. Belə ki, xacə Rəşid yazır: "Hülakü xan moğolların Ciğatu-Niğatu adlandırdıqları Zərinə çayının kənarına çatdı və oradan Marağa şəhərinə getdi, orada bir müddət qaldı və Hülakü xanın ölümü Ciğtuda baş verdi. Abaqa xan çox vaxt qəşlağı Ciğtu kənarında, yaylağı isə Aladağda keçirirdi. Çəharşənbə, 17 ramazan 736-cı ildə (30 aprel, 1336) Musa xanla Arpa xan moğolun əsgərləri arasında Ciğtu sahilində ağır bir döyüş baş verdi, Musa xan qalib gəldi. 741-ci ildə (1340/41) Süleyyman xan moğol Təbrizdən yola düşüb Əmir Şeyx Həsən



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çobani Azərbaycan istiqamətinə gələn Teymur xan moğolun dəstəsilə Niğtu sahilində görüşmüşdür".

"Coğrafiye İran" kitabının müəllifi, Mülküm xanla İrana gəlmiş mühəndis Kiynir yazır ki, Ciğtu Azərbaycanın əzəmətli çaylarından biridir. Baxmayaraq ki, o qədər də uzun deyil, gur axar suyu yoxdur, lakin əzəmətlidir. Mənbəyini Ərdlan dağlarından alan bu çay şimala axır və Urmiya dəryaçasına tökülür. Mənsəbi Marağanın qərbindən yeddi fərsəx aralı olan dəryaçayıdır. Bu çayda uzunluğu bir zər yarım olan balıqları ovlayırlar. Mustafa Çələbi Ciğtu çayını Ciftü Ciftə və Niğtunu Niftu yazmışdır.

(S.250) Çəğur Sə'd ki, Çuxur Sə'd kimi də yazırlar, Şərur-İrəvan kəndlərindən və çəmənliklərindəndir. 906-cı (1501) ildə bu mahalda Şah İsmayılla Əlvənd Mirzə Türkman arasında döyüş olmuşdur.

(Qeyd etmək lazımdır ki, Şərur düzündə baş vermiş bu döyüşdə yeddi minlik qızılbaş qoşunu otuz minlik Ağqoyunlu ordusunu məğlub etmişdir).

(S.251) Coft çaydır ki, Kürdüstanın Siyahkuh kəndindən başlayır, Marağa yaxınlığında Safi çayına daxil olub, sonra Urmiya dəryaçasına tökülür. Müəllif deyir: Bu həmin Ciğtu çayıdır ki, bə'zən də adını Coft yazırlar.

(S.251-252) Çaxmaqlı vadi adıdır ki, Məlayer kəndlərindən biri olan Miyanə vadisinin şərqində yerləşir. Üç dank xalisə və üç dank ərbabi mülkiyyəti vardır. Bir su çeşməsinə malikdir. Rəiyyəti Miyanə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vadisində əkinçiliklə məşğul olur. Torpaqları dəmyədir. Qışda çox qar yağdığı üçün havsı sərtdir. Yayda isə hava yaxşıdır. Dövlətabada beş fərsəxlik yoldur.

(S.252) Çuxuryurd Zəncan mahalında olan Sührəvərd kəndlərindəndir, qədimdən xırdamalik mülkdür. On rəiyyət ailəsinə malikdir. Məhsulu dəmyə torpaqlarında yetişən taxıldır. İki çeşmə vasitəsilə suvarılır bir neçə hissədən ibarət olan yonca sahəsidir. Əhalisnin bəzisi yayda da əkin işləri ilə məşğul olur. Bu kənd dağlıq yerdə olduğu üçün havası yaylaqdır.

(S.259) Celqan Dərbənd yaxınlığındakı Təbərsəran kəndlərindən biri olmuşdur.

(S.259) Cilqəlan Zəncanın Sührəvərd kəndinə tabe olub, qədimdən xırdamalik bir mülkdür, beş ailə yaşayır. Keçmişdə mötəbər kəndlərdən biri olmuşdur. Əkinçilikdə suvarılan və dəmyə torpaqlara malikdir. Suyu az, dağılmış, yeraltı bir suvarma kanalı və kəndin kənarından axıb keçən üç çeşməsi vardır. Əhali kənd təsərrüfatı ilə məşğul olur. Havası istidir.

(S.259) Celoabad. "Möcəmül-buldan"ın müəllifi Əbu Səidin dediyinə əsasən göstərir ki, Celoabad Həmədan yaxınlığında qəsəbədir.

(S.260) Cəlilabad Zəncanın kəndlərindəndir. Qədimdən onun üç dank xalisə və divan, üç dank mülki xırdamalik torpağı olub, qırx beş rəiyyət ailəsinə malikdir. Kənd təsərrüfatında suvarılan və dəmyə torpaqlardır. Bu kəndin geniş və çoxlu çeşməsi olan əkin yerləri vardır. Əkinləri suvarılır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çoxlu bağçaları vardır. Xalxal və Təbrizə gedib-gələn üçün çoxlu kavansaralar düzəldilmişdir. Havası mülayimdir.

(S.263) Camalabad Darülxülafeyi-Tehrandan Təbrizə gələn yol ayrıcında bir yerdir ki, oradan keçib Miyanə gedirlər. Camalabad əhlindən olan yaşlı bir qocanın dediyinə görə təxminən əlli il bundan əvvəl mərhum Abbas Mirzə Naibüssəltənə Məhəmmədəli xan Xələci on nəfərlə birlikdə Camalabada göndərərək, mühafizə dəstəsi təyin etmişdir. Qarabağdan Kərbəlayi Məhəməd adlı birisi Məhəmməli xanın yanında nökər idi. Kərbəlayi Məhəmmədin Şükür adlı qardaşı üç ailə ilə Camalabada gəlib burada sakin olurlar. Get-gedə bir neçə başqa ailə də gələrək Camalabadda yerləşirlər. İndi Camalabadda iyirmi beş ailə yaşayır. Şah Abbasın dövründən bir karvansara var. Karvansaranın dörd tərəfində isə bu cür böyük tağ vardır. Dörd hücrədən ibarət otaqdır. Otaqların arxası tövlədir. Karvansaranın xarici altı bürclü qala şəklindədir. Bu cəhətdən onu Camalabad qalası adlandırırlar. Karvansaranın maddeyi-tarixi onun qapısının başında olan ağ daş üzərinə nəstəliq xətti ilə yazılmış bir neçə misra, şerin ara beytlərindədir. Burada iki Şah Abbas ovdanı vardır ki, bir çərək suyu vardır (çərək - batmanın 1/4-i - H.T.). Məhəmmədəli xanın oğlu Cəfərqulu xan orada bir bağ meydana gətirmişdir ki, çətinliklə bu iki ovdan vasitəsilə onu suvarır. Hər iki yeraltı kanalın suyu şimaldan cənuba doğru axır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Camalabaddan Miyanəcədək iki körpü vardır. Üç gözlü olan birinci körpünün özülü çox möhkəmdir. Hündür körpüdür. Onun iki tağı böyük, iki tağı isə kiçikdir ki, Qızılüzən çayı bu körpüdən keçir. O biri körpü isə Miyanə körpüsüdür, iyirmi dörd gözlüdür.

1295-ci ildə (1878) Əlahəzrət Hümayun (Nəsrəddin Şah - H.T.) bu körpüdən keçdikdən sonra bu körpünün dörd gözü dağılmışdır. Bu körpüdən keçib Miyanəcə də daxil olurlar.

(S.269) Cənnətabad. Zəncanda Qızılkəclinin qədim kəndlərindən olub, kənd təsərrüfatı tamamilə geniş dəmyə torpaqlarından ibarətdir. Havası çox soyuqdur. Suyu dağdan axan Sar çeşməsindəndir. Burada iyirmi beş ailə sakindir.

(S.269) Condsin Zəncanın Əbhərrud kəndlərindəndir, əhalisi on beş ailədən ibarətdir. Kənd təsərrüfatında dəmyə torpaqlardandır. Sar çeşməsi əsas su mənbəyidir.

(S.270) Cəndəqlu Zəncan qədim kəndlərindəndir. İyirmi ailə yaşayır, suyu çaydan alırlar, havası mulayimdir.

(S.271) Cənzə (ərəblər Gəncə deyirlər) Yaqut Həməvi deyir ki, xalq arasında Cənzəyə Gəncə də deyirlər və o, əvvəldən, Arran torpaqlarında mötəbər şəhərdir. Şirvan və Azərbaycan arasında, Bərdənin 16 fərsəxliyində vaqedir. Əhalisinə Cənzəvi deyirlər. Saniyən, İbn Fəqihin əqidəsinə görə Kabil torpağında şəhərdir. Müəllif (E'timadüssəltənə - H.T.) deyir ki, inşaallah Gəncənin şərhi "Kaf" hərfində olacaqdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.272) Çinar Əsədabaddan (Həmədan yaxınlığında - H.T.) Kangavərə gedən yolun sağ tərəfində dərədə Çinar adlı bir kənddir. Çoxlu ağacları vardır. Xalisə divan torpaqlardandır. Bu kəndin yaxınlığında, ətəyində bir imamzadə vardır.

(S.274) Çinari. Nəhavənd kəndlərindən olan Çinari şəhərdən üç fərsəx aralı, qərbdə yerləşir. Kürd dağına bitişik dağın ətəyində vaqedir. Beş-altı kiçik çeşməsi vardır ki, suyu cəmisi yarım səngdir (Dəyirman daşı bir dəfə hərlənərkən suvarılan sahənin suyuna bərabər su ölçü vahidi bir səngdir - H.T.). Onun ərazisində dəmyə torpaqlar becərilir və suyu az olan yerdir. Dağda iyimi cüt öküz, ayı, kəklik, çöl toyuğu görmək olar. Ərazisi dərə-təpəlikdir. Təxminən iki yüz nəfər əhalisi vardır.

(S.275) Çənkurə Xərrəqanın Qaragözlü kəndlərindəndir. Əkinçilikdə yarısı suvarılan, yarısı dəmyə torpaqlardır. Çoxlu meyvə bağları vardır. Bu kənddə yüz ailə yaşayır.

(S.275) Çənkuri Zəncan şəhəri Səcasrud rayonu kəndlərindəndir. Qədimdən xalisə divan torpaqlardan olub, otuz ailədən ibarətdir. Dəmyə və suvarılan torpaqlarda dənli bitkilər becərilir. Çayla suvarılır, suyu olan iki bulağı vardır. Yonca yetişdirilir, havası yaylaqdır.

(S.276-278) Çubin. Çubini bəziləri səltənət şəhəri hesab edirlər, bəziləri də Bəhram Çubinə aid edirlər (Bəhram Çubin (? - 592) Sasani sərkərdəsi və İran şahı olmuşdur - H.T.). Hər hala deyirlər ki, Səfəvilər zamanı Çubin dağılmışdır. Dağıldıqdan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sonra burada bir qala tikilmiş, mərhum Fətəli şah Xaqan zamanında isə Məlayir rayonu hakimi Həsib xan bu qala binasını yenidən bərpa etdirmişdir ki, indi də abaddır. Ondan sonra mərhum Şeyx Əli Mirzə Şeyxülmülk Məlayirə gəldi. Çubində şəhərin bünövrəsini qoydu. Bu Əkinçiliövlətabad adlandırıldı. Məlayirin hökumət idarəsi burada yerləşirdi. Dövlətabadda üç məscid vardır. Birisi Şeyx Əli Mirzənin binalarındandır ki, bura abaddır, tələbələrin tədris yeridir. Məscidlərdən biri də Həsib xanın binalarındandır ki, indi tamam dağılmışdır. Bir mədrəsə də elmlər və mədən naziri Etimadüssəltənənin birinci müavini Mirzə Əsədulla xanın Məlayirin naibi olarkən tikdirdiyi vəqf mülkiyyətidir. Bir bazar və hamam və bir karvansara da Şeyxülmülk tikdirmişdir ki, bunlar mədrəsənin vəqf mülküdür. Bu şəhərin beş məhəlləsi vardır: biri Zorabad, digəri Dövlətabaddır ki, burada xalisə torpaqların rəiyyəti yaşayır. Bir məhəllə Fərahanilər, biri Zəndiyyə, bir məhəllə də Dərvazeyi-Əzinnadır. Bu şəhərin əhalisi təxminən min ailədən ibarətdir. Dörd xalisə, üç ərbabi yeraltı suvarma kanalı vardır. Dövlətabad lap əvvəldən bu əbədi dövlətin xalisə torpağı sayılmırdı. O vaxtdan xalisə oldu. Əkinçilikdə burada əksərən suvarılan, kiçik bir hissə isə dəmyə torpaqları vardır. Təxminən 600 cərib ( 1 cərib 144 yard, 1 yard 91,44 sm. ingilis uzunluq ölçüsüdür - H.T.) bağlar xalisədir. 500 cərib də ərbabi bağları vardır. Şəhər əhalisi dağın ətəyində yaşayır. Şəhərin Şərq tərəfindən bir qayalıq, möhkəm dağ vardır ki, Bonə dağı adı ilə məşhurdur. Dağın



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üstündə dəmyə torpaq sahəsi vardır. Heyvanlar aləmində ovlamaq üçün bir az keçi və çoxlu kəkliyə malikdir. Bu dağda çeşmə və su yoxdur. Şəhərin şimal tərəfində Gərmkuh dağıdır. Şərq tərəfdə bu iki dağın arasında bir enli qısa küçə (dərbənd) vardır ki, onun eni 500 qədəmdən artıq deyildir. Həmin küçədə Əzinna  və Xalisə kəndləri yerləşmişdir. Bonə dağı üçbucaq şəklindədir və onun küçələri Dövlətabadın üstündən və başqa ətraf dağlardan görünür. Şərq tərəfdə də bir enli qısa küçə vardır ki, eni 1500 qədəm olar. Manizan və Cuzan dərələri bu dağ vasitəsilə bir-birindən ayrılır. İznavilə həmin dərədədir və yaxşı bir kənddir. Bu kənddən xüsusən üzümdən şirə, yaxşı sucuq və baslıq hazırlayırlar. Kəndin şərq tərəfində Leşkərdər dağıdır ki, onun silsiləsi üzü Şərqə tərəf uzanaraq böyük, əzəmətli Gəzzaz və İraq və Şahkuh dağlarına bitişir. Bu dağda çoxlu kəklik, vəhşi qoç və keçi vardır. Həmçinin pələng də görmək olar. Ləşkərdər dağının cənub tərəfində  Kəmazan dərəsi, Mişin və Pəri xalisə kəndlərdəndir, burada bir sıra başqa kəndlər də vardır. Şimal tərəfdən Manizan dərəsi, Cuzan dərəsidir. Hər dərədən iki kiçik çay Şərqdən başlayıb Qərbə tərəf axaraq, Dəmşatır, Həzarcərib kəndlərindən ötüb cənuba enir, Taimə keçidindən keçib Nəhavənd düzənliyinə çatır və Visicdə Kamasəb çayına tökülür. Sonra yenə qərbə tərəf cərəyan edərək, Xəzəl və Gorus kəndlərindən keçir və Kirmanşahan rayonlarından olan Çəmçəmal düzənliyinə yetişir. Kərəm dağı şərqdən qərbədək



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uzanaraq, Həmədan, Tuysərqan və Əlvənd dağlarında qurtarır. Dövlətabadın havası Kərəm kəndlərinkinə oxşayır. Şəhərin ətrafında çəkilmiş xəndək və hasar xarabalıqları indi də qalır. İki dəyirmanı vardır ki, biri xalisə və digəri ərbabidir.

Məlayirdən Nəhavəndə, Brucerdə və Tuysərqanadək məsafə eynidir, yəni Məlayirdən hər üç şəhərə altı fərsəxdir. Həmədana isə doqquz fərsəxdir.

(S.278) Curab Dövlətabadın cənub-şərqində Məlayirin xalisə divan kəndlərindəndir. İki yüz ailə rəiyyət yaşayır. Yeraltı suvarma kanalı vardır. Torpaqları suvarılandır, az bir hissəsi dəmyədir. Üç su dəyirmanı vardır. Biri xalisə, ikisi ərbabidir. Bu kənddə məşhur Fulad qalası vardır ki, mərhum Şeyx Əli Mirzə onu təpənin üstündə tikdirmiş, indi isə dağılmışdır. Cuzan tərəfdən axan bir çay Curabdan keçərək böyük çaya daxil olur, lakin bu yerin məhsuldarlığına yaramır. Buradan Dövlətabada qədər olan məsafə bir fərsəxdir. 15 cəribə yaxın bağ və meşəsi vardır.

(S.278) Curan "Möcəmül-buldan"ın müəllifi yazır ki, Həmədan darvazaları yaxınlığında bir qəsəbədir.

(S.283) Curzəq qədimdən Zəncanın Zəncanrud mahalı kəndlərindəndir. Havası mülayimdir, məhsulu dəmyədir və başqa kəndlərdən gələn çayların suyu vasitəsilə suvarılan torpaqlarda yetişir.

(S.284) Curəbad Zəncanda Zəncanrud kənlərindəndir. Məhsulu dəmyə və kəndin ortasına



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

axan kiçik bir çayla suvarılan torpaqlarda yetişir. Çayın suyu Sar çeşməsindəndir. Yayın məhsulu və bəzi ərazi bu çay vasitəsilə suvarılır. Bu çayın mənbəyi Dizədəndir ki, Aşıqlı dərəsi adlanır. Təxminən səkkiz fərsəx bağları vardır. Bu kəndin dağlıq yerləri çəmənlik və suludur. Havası yaylaqdır.

(S.284) Curəxan Zəncanın Əbhər mahalı əkin sahələrindəndir ki, dəmyə və suvarılan torpaqlarında dənli bitkilər əkilir, torpaqları kəndin çay suyu ilə suvarılır. Havası mülayimdir.

(S.284) Cuzan Məlayirin kəndlərindəndir. Bu kəndin keçmiş torpaq sahibi və qoşun başçısı Qılıc xan burada bir qala tikdirdi. Deyirlər binaları və hamamı olan bu qalaya 30 min tümən xərc qoyulmuşdur, indi dağılmış vəziyyətdədir. Burada təxminən 300 rəiyyət ailəsi yaşayır. 1500 cərib bağ və meşəsi, yeraltı suvarma kanalı, suyu olan çayı vardır. Cuzanın əkinçiliyi əsasən suvarılan torpaqlardır və bir qədər dəmyə torpaqları vardır. Bu kəndin çoxlu tarlaları vardır. O cümlədən yaxşı ov məskəni olan Uzamən adlı sahə vardır. Leşkərdər adlı məşhur bir dağ vardır. Keyxosrov zamanı bu dağda vuruşmalar olmuşdur. Ona görə də dağın adı Leşkərdər qalmışdır. Bu dağda bir marağa vardır ki, Keyxosrov mağarası adlanır. Xalq arasında deyirlər ki, Keyxosrov bu marağada qeyb olmuşdur və bura ziyarətə çevrilmişdir. Leşkərdər dağının şimal ətəyində Manizanın cənub tərəfində bir neçə qədim ağac və bir abidə görünür ki, bu Kivequdərzin qəbridir. Bütün Leşkərdər dağında yaxşı qurğuşun mə'dəni mövcuddur. Bu



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

dağda çoxlu dağ keçisi ovlamaq mümkündür və yaxşı çəmənlikdir. Baharda köçərilər yaşıl ot, yem üçün bu yerlərə gəlirlər. Oranın suyu və havası çox yaxşıdır. Cuzan Manizan vadisinin aşağı hissəsində və həmin vadidə yerləşir. Leşkərdər dağı həmin vadinin cənub tərəfindədir və Babarəis, Qalibaf və başqa dağlar isə bu vadinin şimalında yerləşərək, şərqdən qərbə doğru uzanır. Xalisə Curab kəndidə su Məlayir çayından daxil olur və bu vadinin başçılanğıcı Gülgül və Gəmasa kəndləridir. Bu vadidə yaxşı kəndlər vardır.

(S.286) Cuzqan. "Möcəmül-buldan"ın müəllifi yazır ki, Cüzqan əvvələn Həmədan torpağında qəsəbədir, ikincisi kürdlərin məskəni olan həlvanda dağ adıdır.

(S.288) Cuqin Zəncanın İçrud mahalı kəndlərindəndir. Havası mülayimdir. Məhsulu dəmyə və suvarılan torpaqlarda yetişdirilən dənli bitkilərdir, Sarcari adlı çeşmədən başlanan kiçik bir çay buradan keçir. Cuqində yay əkini ilə də məşğul olurlar.

(S.289) Culustan Tuysərqan şəhərinin məhəllələrindən biridir. Böyük məhəllədir və əhalisi digər qəsəbələrin bütün əhalisi qədərdir. Şəhərin şimalında yerləşən bu məhəllədə mədrəsə vardır. Deyilənlərə görə Şeyx Əli xan Zənginə binalarından olan bu möhkəm bina Şah Süleyman Səfəvinin göstərişi ilə tikilmişdir və onun inşasında xeyli usta çalışmışdır. Lakin bir o qədər də səy göstərməsələr də, hər halda möhkəm bir divar düzəlmişdir. Bu məhəllədə bir rastabazar və dörd yarmarka vardır ki, bunlar da həmin dövrdə tikilmişdir və mədrəsəyə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəqf edilmişdir. Mərhum Şeyx Əli xanın binalarından olan bir hamam bu məhəllədə xan hamamı kim məşhurdur və görkəmini qədimliyinə və görkəmliyinə görə fərqlənir.

(S.290) Çölcə Zəncanın Qızılgəclu kəndlərindəndir. Əkinçilikdə tamamilə dəmyə torpaqlardır. Az bir sahədən ibarət olan bağları bir dağın ətəyindən axan çeşmə suyu ilə suvarılır. Havası soyuqdur. Burada 90 ailə yaşayır.

(S.290) Çölcə Şahsevən Əfşar tayfalarının qışlaqlarından biridir. Onun sakinləri tohidlu tayfası adlanır və qırx ailədən ibarətdir. Torpaqları quyu suyu vasitəsilə suvarılır. Məhsulu dəmyə və suvarılan torpaqlarda yetişir. Məşhur Dəmirli dağ onların yaylaqlarıdır.

(S.290) Çülək Nahəvənd kəndlərindəndir. Kənd şəhərin qərbində, onun bir fərsəxliyində yerləşir. Onun bir tərəfi dağdır. Bu dağ susuz və otsuz olub, Məlayir ilə Nəhavənd arasında yerləşir. Bu dağda əfi ilanlar çoxdu. Çüləkin ərazisi Kamasəb vasitəsilə suvarılır. Meşə  və bağlarıda vardır. Burada bir hamam və iki yağ istehsal edən müəssisə vardır. Ərazisinin çoxu suvarılan, az bir hissəsi isə dəmyə torpaqlardır. Əhalisi 600 nəfərdir. Bunlardan 28 cütü (56) isə dövlət qulluqçusudur.

(S.298) Çaharbulaq Zəncanrud mahalı kəndlərindəndir. Qədimdən Əmidülməlikin mülküdür. Havası səfalıdır. Dəmyə və suvarılan torpaqlarından dənli bitkilər əkilir. Bir yeraltı suvarma kanalı olmuşdur ki, indi dağılıbdır. Dörd



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çeşməsi vardır ki, elə kəndin adı da buradan alınmışdır, yəni türkcə bulaq çeşmə deməkdir (Çahar-bulaq - dörd çeşmə). Bu kəndin torpaqları həmin çeşmələr vasitəsilə suvarılır. Kənddə 15 ailə yaşayır.

(S.298) Çahartağ Zəncanın qədim kəndlərindəndir. Kənd təsərrüfatında dəmyə və suvarılan torpaqlardır. Torpaqları çeşmə vasitəsilə suvarılır. İsti iqlimli olduqundan burada pambıq da becərilir. Kənddə 35 ailə yaşayır.

(S.298-299) Cahanabad Nəhavənd kəndlərindəndir. Cənub-Şərq tərəfdən şəhərin 1,5 fərsəxliyində yerləşir. Onun ərazisi Sərab Kamasəb çaylarından suvarılır və Sərab Kamasəb çayı Nahavəndin cənubunda yerləşən Kərru dağının ətəyindən başlanır. Adı çəkilən dağın hündürlüyü bir fərsəx yarımdır. Deyirlər bu dağda qırx imamzadə dəfn olunmuşdur. Dağın yuxarısında qardan öküz və balıq şəkli nəzərə çarpır ki, yayda da öz yerindədir və heç vaxt bu qar suya dönüb əriməmişdir. Avam xalq kütləsi söyləyir ki, güya nə vaxt qar şəklində olan həmin şəkillər suya dönüb ərisə, böyük hadisə üz verəcək. Bu dağda ov etmək çətindir. Sərab Kamasəb çayının üstündə təqribən on addım uzunluğunda mağara vardır və mağaranın altında Sarabın suyu axır. Payızda Sarabın suyu iyirmi səng (səng - İranda su ölçü vahididir - H.T.), baharda isə əyər o il qışda qar çox yağıbsa, əlli səngdən artıq olur. Nəhavəndin şəhər və kəndlərinin ərazisi çox vaxt bu su ilə suvarılır. O suyun çoxu Xəzəl, Bisütün və Kirman-şahan kəndlərinə gedir. Cahanabad kəndinin əhalisi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

üç yüz nəfərdir. Ərazisi hamardır. Əhalisinin otuz cütü dövlət qulluqçusudur. Kənd təsərrüfatı suvarılan və cüzi dəmyə torpaqlarından ibarətdir.

(S.300) Çehrabad Zəncanın Qənibəyli kəndlərindən olub, dağın ortasında yerləşir. Yaxşı bağ və çəmənlikləri vardır. Təqribən 1,5 səng suyu olan iki çeşmə çəmən arasından axır. Kəndin bağları və ərazisi bu iki çeşmənin və çayın suyu ilə suvarılır. Suyu və havası çox səfalıdır. Yayda pambıq və kərəc də yetişdirilir. Əhalisi on beş ailədən ibarətdir.

(S.302) Çehriq Xoyda qalalardan biridir və qırx il bundan əvvəl babi tayfasının başçısı olmuş Seyid Əli Məhəmməd Bab tutulub bir müddət bu qalada saxlanmışdır. Bunun şərhi kitabın əvvəlki cildlərində yazılmışdır.

(S.343) Cilaxor qədimdən Zəncanın Səcasrud kəndlərindəndir. İyirmi beş ailə yaşayır, məhsulu dəmyə torpaqlarda yetişir. Kəndin ortasından bir suvarma kanalı keçir. Havası səfalıdır. Burada ən çox söyüd ağacları nəzərə çarpır.

Mə'lum olduğu kimi Etimadüssəltənənin dörd cildlik "Miratül-buldani-Nasiri" əsəri tamamlanmamış, yarımçıqdır və Azərbaycanın bir çox şəhərləri haqqında məlumat yazılsa da, çap olunmamışdır. Bunu müəllifin aşağıdakı qeydi sübut edir:

(S.271) Cənzə. Yaqut Həməvi yazır ki, xalq arasında Cənzəyə "Gəncə" də deyirlər və o, əvvələn, Arran torpağında mötəbər şəhərdir, Şirvan və Azərbaycan arasında, Bərdənin on altı fərsəxliyində



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vaqedir. Əhalisinə cənzəvi deyirlər. Saniyan, İbn Fəqihin əqidəsinə görə Kabil torpağında şəhərdir. Gəncənin şərhi "Gaf" hərfində veriləcəkdir.

## "ƏL-MƏASİR VƏL-ASAR" ƏSƏRİNDƏN TƏRCÜMƏLƏR

(S.191) Abbas Mirzə Mülkara[51] bu dövlətin alimlərindəndir. Bu məmləkətin şöhrətli elmləri olan hədis, təfsir və ədəbiyyat sənətləri üzrə dövrünün fövqəladə şəxsiyyətidir. Keçmiş və müasir dövrün böyük alimlərindən bəhrələnən kitab mühafizidir. O, həmçinin xarici dillərdən və elmi nailiyyətlərdən də faydalanmışdır.

(S.198-199) Molla Abbasəli Ağcaqışlaqi Əyrəlu[52] Əfşarın ulularından və alimlərindəndir. Ağcaqışlaq Tarim Sofla[53] torpağının kəndlərindəndir.

(S.223) Hac Ağaəli Binab[54] qazisi, şəriətməab bir alim və yüksək mənsəb sahibi olub, orada böyük nüfuza malik idi. Azərbaycana qarşı Şeyx Abdulla Nəqşbəndinin fitnəsinə və kürdlərin hücumuna baxmayaraq, o, dövlətə və xalqa xidmət edirdi, mətanət və qorxmazlıq göstərirdi ki, adı əbədi oldu. Dövlət ona Seyfülüləma ləqəbini verdi. Bü məzlumların mügtəhidi keçən il, yəni h.1305-ci ildə Məşhəddə vəfat etmişdir.

(S.157) Ustadlar ustadı Əli Ağa Zünüzi. O, Ağa Abdulla Müdərrisin oğludur. Tehranda mərhum Mirzə Məhəmməd xan Sipəhsalar Qacarın mədrəsəsində dərs deyir. Əqli və nəqli elmlər



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

sahəsində nadir alimlərdəndir. Dini fəlsəfədən də dərs deyir, fiqh kitabları haqqında özünəməxsus nəticələri vardır. Zəmanənin alimləri içərisində yüksək düşüncələri və hörməti ilə seçildiyi kimi, boyunun gödəkliyi və bədəninin arıqlığı idə də əsrinin alimləri içərisində seçilirdi. Sənət günəşini öz gözləri ilə görmüşdür. Qurandan fal açmaq, istixarə etmək və bu barədə fikir söyləməkdə də mahirdir. Xəbərləri yaxşı təfsir eləyir. Bu kamil filosof və fəqihin atası və qardaşı – onların hər ikisi zəmanəsinin böyük alimləri olmuşlar. Dini, fəlsəfi, riyazi elmlər sahəsində ustadlardan sayılırdılar. Sözün qısası, bu gün Tehran vilayətində, eləcə də İran məmləkətində bu yüksək şəxsiyyətin varlığı ilə fəxr edir və onu özlərinə bir dayaq sayırlar. Allah belələrinin sayını artırsın və kölgələrini uzun eləsin.

(S.164) Qari Mirzə Mehdi Təbrizi Quran qiraətində və təcvid elmində savadlı idi. O, Şeyx Murtuza Ənsarinin şagirdlərindən olmuşdur. Mirzə Mehdi Qari h.q. XIII (XIX) əsrin axırlarında vəfat etmişdir.

(S.161) Əbdülvahab Qəzvinin Kəlizəvər kəndinin kəndxudası Hacı Əbdüləlinin oğlu olub, Molla Ağa adı ilə məşhurdur. Ərəb elmləri, ədəbiyyat, islamın məşhur üləma və şəxsiyyətlərinin tərcümeyi-halını öyrənib tədqiq etməsi sahəsində mahir idi. "Nameyi-daneşvərani-Nasiri"nin idarə heyətində çalışırdı. Bu il, yəni h.1306-cı ildə vəfat etmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.176) Mirzə Əbdulqəni Qarıcadaği əsli qaradağlı olub, Təbriz sakinidir. O, fiqh və üsul, təfsir və ərəb elmləri və ədəbiyatın şöbələri sahəsində çox məharətli və kamildir. O, münəccimlərin ustadı, riyaziyyatı tədris edən Mirzə Hacı Ağanın qardaşıdır. O bir neçə il bundan əvvəl Tehranda idi. Bütün böyük, nüfuzlu alimlər ona hörmət və ehtiramla yanaşırdılar. O, hal-hazırda Təbrizdədir. Fiqhə dair bir mənzum əsər çap etmişdir.

(S.191) Əbdüləli Mirzə Ehtişamüddövlə Fərhad Mirzə Mötəmədüddövlənin oğludur. Fəzilətli və elmlidir. İnsafən, ərəb ədəbiyyatına mükəmməl yiyələnmişdir. Xoş xətti vardır, həm də "Əbdi" təxəllüslə yazşı şer yazır. Ali fəlsəfəni və riyaziyyat elmlərini, sufi və ariflərin kitablarını öyrənmək məqsədilə illərlə dövrün Mirzə Məhəmmədəli Qaini və Mirzə Məhəmmədrza Qəmişe kimi ustadların yanında şagirdlik etmişdir.

(S.221) Əbdüləli Mirzə Gavgani astrologiya və nücum elmlərində məşhur olan alimlərdəndir. O, Xacə Nəsirəddin Tusinin "Si fəsil" əsərinə izah yazmışdır. Bu əsər h.q.1322-ci (1904) ildə Təbrizdə çap edilmişdir. Azərbaycanda uzun müddət təqvim düzəltmək, astrologiya və astronomiya işləri ancaq ona tapşırılmışdır. (Mirzə Əbdüləli h.q.1335 (1916)-cı ildə vəfat etmişdir). Onun atası Molla Əhməd (vəfatı h.q.1295 (1878)-ci ildə) riyaziyyat elmində usta olmuş və bir çox riyaziyyat alimləri onun şagirdi olmuşdur.

Gavgan Təbriz kəndlərindəndir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.191) Ədibülməlik Əbdüləli xan ibn Etimadüssəltənə müəllifin doğma qardaşı idi, gözəl danışan, ustad və mahir şair idi. Onun haqqında "Əncümənarayi-Nasiri" və "Gənci-şayiqan" kitablarında yazılmışdır. Mirzə Əliqulu Müsəvvir onun ləqəb qəbul etmə tarixi barədə demişdir:

Müssəvir sər birun avərd və qofta
Ədibülməlik şod Əbdüləli xan. [55]

O, h.1302-ci ildə Tehranda vəfat etmişdir.

(S.220) Mirzə Əbdülsəməd Xameneyi ustad ədəbiyyatçıdır. Sağlam təbi və gerçək istedadı ilə ərəb dilində şer yazır. Hal-hazırda Təbrizin kəndlərindən biri olan Xamenədə yaşayır.

(S.149) Hac Mirzə Əbülqasim Musəvi Zəncanın müctəhidi, məzhəbinin görkəmli başçılarından idi. Zəncan babilərinin fitnəsi ilə çox əziyyətlərə məruz qaldı və dinə və dövlətə xidmət edərək fiqh, üsul, say, hədis və başqa elmlərə aid yararlı kitablar yazmışdır. Bu kitablardan neçə əsrdir ki, Darüssəadəti-Zəncanda istifadə olunur və indiyədək onun səviyyəsinə çatan yoxdür. Üç alim oğlu: Hacı Mirzə Əbutalib, Hacı Mirzə Əbülmükarəm və Hacı Mirzə Əbu Abdulla - hər üçü xalq içərisində şöhrət qazanmışdır. Yuxarıda adı çəkilən ikinci oğlu Hacı Əbülmükarəm Zəncanda onu əvəz etmişdir.

(S.186) Mirzə Əbülqasim xan Nasirülmülk Qaragözlü[56] yeni dövrün yetişdirdiyi və əbədi dövlətin tərbiyə etdiyi şəxslərdən biridir. Bir neçə il Fransanın məktəblərində biliyini təkmilləşdirmiş və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

bir sıra elmlərə və dillərə mükəmməl yiyələnmişdir, xüsusən, ingilis və fransız dilini kamil bilməklə o, dövrünün yeganə adamıdır.

(S.219) Mirzə Əli Münəccimbaşı Mirzə Cəfər Münəccimbaşının oğlu və Təbrizin məşhur münəccimlərindən olan mərhum Mirzə Rza Nəcmülmülkün qardaşlığıdır. O həmçinin ədəbiyyat sahəsində qabiliyyətli idi və şerlər yazırdı.

(S.222) Hac Mirzə Əli Naibüssədr aşağıda haqqında danışılmış Ağa Məhəmmədrəhimin oğludur. O da öz dövrünün ariflərindən olmuş, şikəstə və nəstəliq xətlərini yazmaqda çox mahir idi.

(S.194-195) Mirzə Əli Həmədani. Doktor Mirzə Əli Həmədaninin ləqəbi həkimlər başçısı (rəisülütəbba) olub, mərhum Mirzə Seyid Simnanidən sonra hərbi hissələrin baş həkimi vəzifəsində çalışırdı. O əvvəllər hərbi nazir Naibüssəltənə ilə danışıq aparmaqda məqsədi o olub ki, Avropa əhalisi ilə birlik yaratsın, əhalinin əksər təbəqələrinin istədiyi kimi mənfur müharibə baş verməsin.

(S.222) Mirzə Əli Hüseyn Urmiya vilayətinin fəzilət sahiblərindən olub, fəsahətli və duzlu şerlər yazardı. Rəhmətlik Sənglax Xorasani öz təzkirəsində onun şerlərindən nümunə vermişdir. O, 80 yaşında (h.1286-cı ildə) vəfat etmişdir.

(S.221) Əhməd Gavgani.[57] Molla Əhməd riyaziyyat elmində öz dövrünün məşhur alimlərindən idi. Onun bir çox azərbaycanlı şagirdləri olmuşdur. O,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

hicri qəməri 1295-ci (1878) ildə vəfat etmiş və oğlu Mirzə Əbdüləli onun yerini tutmuşdur.

(S.173-174) Mirzə Əhməd Müctəhidi-Təbrizi Azərbaycanda şəriəti qoruyan, millətin böyük havadarı idi. Böyük nüfuzu, şöhrəti aləmə yayılmışdı. Həmin şan-şöhrət indiyədək onun nəslində və övladlarında qalmışdır. Bu sülalə bütün Azərbaycan əyalətində müqəddəsdir. Burada bu sülalənin böyüklüyündən danışsaq, ixtisar etməli olarıq və geniş danışmağa imkan olmadığından onun ləyaqətini azaldaraq. Bu böyük islam alimi barədə ilk İran salnaməsində yazmışıq. O, h.1265-ci ildə vəfat etmişdir.

(S.223) Molla Kəlbəli Əfşar Xərrəqan[58] əyaləti sakini, xəttatdır. Nəsx xətti ilə gözəl və zərif yazır. O, köçürdüyü kitabların çoxsu ilə İranda sözsüz birinci şəxs, bəlkə də zəmanənin möcüzəsidir. Hər kəs onun qələminin yazısını köçürdüyü bir beytlə müəyyənləşdirə bilir. Çap olunmamış gözəl kalliqrafik yazıları vardır. Hər qəlbi saf insan onu böyük qüdrət sahiblərindən biri hesab edəcəkdir. Büzügvarın oğlu Ağa Sədra da şikəstə və nəsxlə gözəl yazır.

(S.203-204) Mirzə Məhəmmədrza Kəlhur.[59] Mir İmad Qəzvinidən sonra nəstəliq xətti ilə yazmaqda ona bərabəri olan yoxdur. Bu incəsənətin böyük ustadları onun xəttini Mirin xətti ilə müqayisə edirlər. Dərviş təbiətli, xoşxasiyyət, zarafatcıl bir adamdır. Xarici görkəmi və fitri istedadı ilə bütün xəttatlardan seçilir. Digər xəttatlardan üstün, şöhrətli olmasına baxmayaraq, hələ də yüksək dairələrdən özünə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

vəzifə və yardım almır, öz əllərinin zəhmətilə dolanır. Bu həqir üçün (müəllif üçün - H.T.) "Şərəf", "Orduye hümayun" qəzetlərini və şahın bir neçə səfərnaməsini yazmışdır. Ustadı, Ağaməhəmməd Mehdi Tehraninin şagirdi Mirzə Məhəmməd Xunsari olmuşdur. Ox-yay atmaqda və ərəb atı sürməkdə də çox mahirdir.

(S.219) Miizə Mahmud Xəttat Ürməvi Mirzə Hüseynin oğludur. Əslən Üştübildəndir[60]. Amma Urmiyada yaşayırdı. Şikəstə və nəstəliq xətti ilə yazmaqda o, Əbdülməcid, Mir İmad Hürri[61] və Həqiq kimidir. Musiqi aləmində bu dövrün Farabisi hesab olunur.

(S.207) Mail, Mirzə Həsən şairi-Əfşar Ali Məhkəmədə qulluqçu idi və Xariciyyə vəzirliyində nazirlik edirdi. Uzun müddət Bəndərləngədə qalmışdır. Şairlik hissi axırda qalib gəldi və xidməti tərk etdi. Çox yazdı, pozdu, nəhayət böyük bir ustad oldu. "Mail" təxəllüsü qəbul etdi. Lakin bə'zən iti qələmi və acı sözləri ilə adamları özündən incik salırdı.

(S.203) Hac Məlik Məhəmməd Qəzvinli xəttatdır. Nəstəliqlə yazmaqda Həqiqi ötmüş ustad idi. Dərviş təbiətli olub, sufi təriqətli idi. Belə ki, yazdığı qitələrin kənarını özünəməxsus aydın xətlə, qələminin ucu ilə bəzəmiş, yeni çalarlar vurmuşdur.

(S.163) Molla Məhəmməd Zəncani fəlsəfi elmlərdə böyük ustad idi və riyaziyyatda yüksək mövqe sahibi idi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

(S.209) Məhəmməd Münəccim Əfşar Urməvi Mirzə Məhəmməd Ağatağı Münəccim Əfşarın qohumlarındandır. O, nücum elmində böyük müvəffəqiyyət əldə etmiş və bu barədə onun verdiyi hökmlər səhvsiz və xətasız olmuşdur. Məhəmməd neçə il vəfatından əvvəl öz vəfatı tarixini nücum vasitəsilə bir səhifədə müəyyən etmişdi. Hal-hazırda (h.q.1306 (1888)) bu səhifə də onun uşaqlarındadır. Bu tarix tamamilə düzgün çıxmışdır.

(S.198) Nəvvabi-Rizvanməab Hac Məhəmmədvəli Mirzə rəhmətlik Xaqan Fətəli şahın oğlu nücum elmi alimlərindən idi və həmçinin bir sıra başqa elmlərə də bələd idi. Onun hökmlərindən birini bu kitabın müəllifi (Məhəmmədhəsə xan - H.T.) şəxsən onun özündən eşitmişdir. Bir gün müəllifin atası (Əli xan Etimadüssəltənə) əmrə müvafiq olaraq, hökmdarın vəliəhdi Məhəmmədqasım xanın varisliyi şərəfinə ziyafət düzəltmişdi. Məhəmmədvəli Mirzə həmin məclisdə ona məhrəm olanlara, o cümlədən, Əli xana (müəllif də eşidirdi) dedi ki, bu ziyafətin zəhməti faydasızdır. Bu dövlətin hökmdarı Fətulla Mirzə Şüaüssəltənənin qız övladının bətnindəki uşaq olacaqdır.

O, 1281-ci cəmadiyülaxirin 24-də cümə günü (1864, 25 noyabr) axşam vəfat etmişdir və cənazəsi Məşhədi-mübarəki-Rəzəviyyəyə aparılmışdır.

(S.175-176) Mirzə Məhəmmədəli Qaracadaği müctəhidlərin məşhuru, din və şəriəti yayanlardandır. Müsəlman hüquqşünaslığı, üsul, əxbar, ərəb elmləri və ədəbi fənlərdə əlçatmaz mövqe və yüksək bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məqama çatmışdır. Bu fənlərin bir çox sahəsində əsərləri vardır. Zeynəbin məşhur xütbəsinə şərh və təfsir yazmışdır və çap olunmuşdur. Neçə il bundan əvvəl Məşhədi ziyarət etmişdir. O vaxt Xorasanın hakimi, mərhum Mirzə Əbdülvahab xan Asəfüddövlə onu bir müddət Məşhədi-müqəddəsin məscid və mədrəsələrində dərs demək üçün saxlamışdır. Bir qədər sonra oradan Tehrana qayıtmışdır. Şahın mərhəməti ona da şamil olmuşdur ki, dövlət qazetlərində bu barədə qeyd etmişdik. Bu dövlətin tikdirdiyi "Soltani" adlı məscid və mədrəsədə dərs demək ona tapşırılmışdı. Sonra Təbriz əhalisinin xahişi ilə Azərbaycana getdi. İndi isə orada elmlərin və dini əhkamın yayılmasına çalışır.

(S.222) Ağa Məhəmmədrəhim Naibüssədr Əfşar məşhur arif və ariflər rəhbəri olan Mirzə Nəsrulla Nəsr Ərdəbilinin şagirdi olmuşdur. O, Mirzə Nəsrulla tərəfindən irfani fikirləri xalq içərisində yaymaq üçün xüsusi göstəriş almışdır. Ağa Məhəmmədrəhimin qəzəllər divanı məşhurdur. O, h.q.1285-ci ildə vəfat etmişdir.

(S.164) Mirzə Məhəmmədrza Həmədani fiqh, üsul, hədis, təfsir, fəlsəfə və irfan[62] elmlərinə dərindən yiyələnmiş və indi Tehranda yaşayır. Hamı onun moizələrinə və qeydlərinə böyük həvəs göstərir. O, ürfan, elm və hikmət ocağında böyümüşdür. Atası Hacı Mirzə Əlinəqi məşhur alim və filosoflardan olmuş, onun babası Hacı Rza nübüvvəti isbat edən "Miftahül-nübüvvət" əsərinin müəllifidir. O, həmçinin "Dürrül nəzim fi təfsirül-quranül əzim"



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

əsərinin də müəllifidir. Hər iki əsər çap olunmuşdur. Hacı Molla Rzanın şöhrəti Henri Martin Padri kimi Avropa ölkələrinə gedib çatmışdır.

Mirzə Məhəmmədrzanın nəsli bir tərəfdən Mirzə Məhəmməd Əxbariyə də çatır. Əgər Mirzə Məhəmməd Əxbarini zamanın nadir şəxsiyyətlərindən sayırıqsa, onun sülaləsindən də belə alimlərin çıxması qanunauyğundur. O aşağıdakı əsərlərin müəllifidir:

1.Nüxbətüs-sovarim fi-l-fiqh vəl-üsul (Fiqh və üsulda seçilmiş surətlər).

2.Mənzumeyi-təcvid məəş-şərh.

3.Tərbi'üş şeyxeyn və təsniyətül sülsə.

4. Risaleyi fi əhvalil hüccət məə əleyhəssəlam.

5. Divani-əşər.

(S.189) Mirzə Məhəmmədhüseyn Əzodülmülk Qəzvini böyük alimlərdən biri idi. Öz bilik və bacarığı ilə dövlətə çox xidmət etmişdir. Onun tutduğu mövqe bu dövrün tarixinə yazılmışdır və şerləri yeni təzkirələrdədir. Vəfat etmişdir.

(S.175) Mirzə Məhəmmədtağı Təbrizi hüccətül-islam ləqəbli, mərhum Molla Məhəmməd Məməqanin oğlu, Şeyxiyyə partiyasının şeyxlərindən olan görkəmli alimdir. Azərbaycan şeyxləri arasında böyük etibara malikdir.

(S.215) Hacı Seyid Məhəmmətağı Təbrizi. Ləqəbi nazimüttüccardır. Zəmanənin nüfuzlu ədibi və alimidir.

(S.174) Mirzə Məhəmmədhüseyn Şəriətmədar Təbrizi Azərbaycanın məşhur alimlərindəndir. O,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəcəfi-Əşrəfdə ümumi kitabxana təşkil etmiş, böyük işlər görərək şöhrətlənmiş, gördüyü işlər bəhrə vermişdir.

(S.183) Mirzə Məhəmməd Həmədani Kazimeynin tanınmış məşhur alimlərindəndir, bir çox almlərdə, xüsusilə ədəbiyyatda mahirdir. İran kəndliləri arasında baş verən münaqişələrə orada İran konsulu onun hökmü ilə baxır.[63]

(S.183) Nizamülüləma Mirzə Rəfi Təbatəbai Təbrizi Azərbaycanın alimlərindəndir. Çap olunmuş əsərləri vardır.

(S.150) Hacı Mirzə Möhsün Müctəhid Ərdəbili Azərbaycanın görkəmli alimlərindən olub, fiqh və digər elmlərdə yüksək mövqe tuturdu.

(S.161) Hacı Murtuzaqulu Mərəndi. Ləqəbi elmül-hüdadır.[64]

(S.165) Ağa Seyid Musa Həmədani. O yerin alimlərindəndir. Ədəbiyyat elmləri sahəsində biliyi artırmaq üçün Herat şəhərinədək getmişdir. Fars dilində "Əsrarül-səlat" adlı risalə yazmışdır. Vəfat etmişdir.

(S.213) Sədrül-Əfazil Nizam Əfşar həm şairdir, həm katib və həm də yaxşı xətti vardır. Yazıları müstəsna, səlis və aydındır. Təqvimə aid məlumat xarakterli əsər onun zehninin məhsuludur. İndi, yəni 1306-cı ildə bunu yazan mən bu kitabın qaralamasını ağardıram. O Tehrandadır və həcv yazmaqda və lətifə söyləməkdə tay-tuşlarından irəlidədir və üstündür.

(S.215) Rəzi. Mirzə Rəzi məşhur xəttat Mirzə Rəzinin nəvəsidir. O, bir çox fənlərdə və xüsusilə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

inşa və xəttatlıqda öz əsrinin yeganəsi idi. O, hicri qəməri 1305/1887-ci ildə vəfat etmişdir.

(S.215) Mirzə Əli xan Əfşar mərhum, təmiz ürəkli Mirzə Mustafa xan Bəhaülmülkün oğlu, qılınc və qələm sahibidir. Elmli, şikəstə xətti ilə yazmaqda birinci, yüksək vəzifə sahibidir.

(S.215) Hac Mirzə Yusif Təbrizi Şəmsülüləma Azərbaycanın nüfuzlu alimlərindən olub, ədəbiyyat elmlərində mətin mövqeyə malik idi.

(S.215) Hac Mirzə Kazım Vəkil Təbrizi Təbriz şəhərinin kəndxudalarındandır və tanınmış böyük alim hesab olunur.

(S.220) Hac Molla Rəcəb Üstürlabi Təbrizdə ticarətlə məşğul olmuşdur. Lakin astronomiya elmində kamillik səviyyəsində idi.

(S.215) Mirzə Rəşid Şairi-Əfşarın farsca və türkcə duzlu və fəsahətli şerləri vardır.

(S.204) Rəşid xan Bəqdeli - Hacı Rəşid xan bu dövrün şair və xəttatlarından idi. Şikəstə xətti ilə yazmaqda böyük ustad hesab olunurdu. Onun yüksək dairələrdə hörməti çox idi. Onunla yaxın olmağa çalışan vəzifə sahibləri bir-birinə paxıllıq edirdilər. "Əxgər"[65] təxəllüsü ilə şerlər yazardı. "Atəşkədə" müəllifi Lütfəli bəy Azər onun ata babasıdır. O, Məşhəd şəhərində vəfat etmişdir.

(S.150) Ağa Seyid Sadıq Təbatəbai Həmədani fiqh elmində qabaqcıl, böyük din xadimi, tanınmış müctəhidlərdən idi. Tehranda yaşayırdı. Mənsəb sahibi kimi yüksək vəzifədə olarkən öz hökmləri ilə onun kimi nüfuz qazanan az tapılardı. Tələbəsi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

olduğu "Füsul"un müəllifi Şeyx Məhəmmədhüseynin qanunları onun üçün ən əsas idi və həmin kitaba yazdığı şərhi bitirmişdir. Bə'zən fəqihanə şe'rlər yazardı. O həqiqətən islam qanunlarını həmişə qoruyurdu. Bu cəhətdən onun kimi təşəbbüskar və səy göstərən yox idi. Lakin onun məhkəməsinə yığılmış bəzi şeytanlar, çox təmiz olmasına baxmayaraq, onu rüşvətxor adlandırır, onun hökmlərinə şər atırdılar. Müşarileyhin övladları da çox ləyaqətli və nüfuzludurlar. Xüsusən, şəriətmədar Ağa Seyid Məhəmmədrza onun məscid və mehrabının varisidir. Vəfatı 16 rəbiülsani 1300-cü ilə təsadüf edir (25 fevral 1882-ci il).

(S.150) Ağa Seyid Cəfər Təbatəbai yuxarıda adı çəkilən Ağa Seyid Sadığın oğlu idi, fiqh və digər elmlərdə iste'dadı ilə yüksək mövqeyə malik idi. O, həyatının çiçəklənən vaxtında, çox gənc vəfat etmişdir və "Məcməül-füsəha"da şe'rlərindən danışılır.

(S.185) Ağa Seyid Saleh Xalxali (?-1306 h.) - Məhəmməd Səid Xalxalinin oğlu və "Cilvə" ləqəbli, dövrünün görkəmli filosofu Mirzə Əbülhəsən İsfahaninin şagirdidir. O, fəlsəfə və kəlam elmlərində mütəxəssis olmuş, Tehranda Dostəlixan Nizamüddövlə mədrəsəsində dərs demişdir. İti zehinli, dərin düşüncəli şəxs olmuşdur. Seyid Saleh Xalxalinin ən görkəmli əsəri "Şüruhi səlasə" ("Üç izah")dir. Möhyəddin ibn əl-Ərəbinin (vəfat tarixi: h.q.638 (1240)) "dəvazdəh imam" əsərinin; Mir Findriskinin (vəfatı tarixi: h.q.1050 (1640))



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

"Qəsidəeyiyaiyy" əsərinin və Şeyx Murtuza Ənsarinin (vəfat tarixi: h.q.1281(1864)) "Fəraid" əsərinin tərcümə və izahı da ona məxsusdur. Bu əsərlər maraqlı kitablardandır və Tehranda çap edilmişdir. Ağa Seyid Saleh h.q. 1306-cı il səfər ayının birində (1888, 7 sentyabr) vəfat etmiş və İbn Babəveyh qəbiristanında dəfn edilmişdir.

(S.197) Nadir Mirzə Əbu Məhəmməd ibn Bədiüzzəman ibn Məhəmmədqulu ibn Fətəli şah kamil bir alim idi. Buna sübut onun təlif etdiyi bir kitabdır ki, bu kitabda İran xörəkləri və bişmişlərinin adlarını, istərsə şəhərdə və istərsə də elat içərisində necə və nədən hazırlandığını qələmə almış və bunları roman şəklində, ayələrə, atalar sözünə, xəbərlərə və şerlərə əsaslanaraq, bədii bir tərzdə izah etmişdir. Bu orijinal əsərin təlifində o, böyük əmək sərf etmişdir.

(S.221) Nəsrulla Mirzə Nəsrulla Ağa Məhəmmədrza Marağayinin oğludur. Onun babası Əbülhəsən ibn Şeyx Mirzə ibn Hacı Babaxan ibn Qazı Cahan ibn Ağabəy ibn Qazı Abdulla ibn Qazı Əlaüddövlə ibn Qazı Şərəfəddin ibn Xacə Şəmsəddin ibn Şeyx Möhyəddin ibn əl-Ərəbi olmuşdur. Onların hamısı Marağadandırlar. Mirzə Nəsrulla nücum elmində çox bilikli olmuş, riyaziyyat elmini də dərindən bilmişdir. O, Fətəli şah Qacar sarayının xüsusi münəccimbaşısı olmuş və getdikcə o zamanın əyan-əşrafından sayılaraq, saraydan böyük miqdarda tiyul və təqaüd almışdır. Xacə Nəsirəddin Marağa rəsədxanasını təsis etmək istədikdə Xacə Şəmsəddin o şəhərdə qalmışdır. Deyilənlərə görə, Möhyəddin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hatəm Tainin sülaləsindən olmuşdur. Mirzə Nəsrulla h.q.1276(1859)-cı ildə vəfat etmişdir və ondan elm sahəsində səylə çalışan oğlanları qalmışdır.

(S.197-198) Nəcəfəli xan. Misirdə Baş konsul olan Hacı Nəcəfəli xan əslən Azərbaycan vilayətinin Xoy məhəlləsindəndir. Əqli və nəqli elmlərdə, diplomatika, xəttatlıq, incəsənət və digər fəzilətlərdə hünər sahibidir. Bu tanınmış alimin əsərinin bir neçəsi, o cümlədən "Mizanül-məvazin" çap olunmuşdur.

(S.209) Ağa Tağı Əfşar Ürməvi nücum elmində məharətli, hikmət və digər biliklərdə orta səviyyəli olmuşdur. O, bir müddət Ətabatda dini bilikləri öyrənmiş, sonra atası Hacı Ağa Əbülhəsənin (indi də sağdır) istədiyinə görə Urmiya şəhərinə qayıtmışdır. Atasının arzusu bu idi ki, o, Urmiyada məscid və minbər sahibi olsun. Ancaq o, qəbul etməmiş, guşənişin olub, h.q.1284-cü (1867) ildə əlli yaşında vəfat etmişdir. O, ədad (sayların xüsusiyyətini aydınlaşdıran elm) və ovfaq (ay, həftə, gün və illərin xüsusiyyətlərini aydınlaşdıran elm), eləcə də cəfr elmlərində məharət qazanmışdır.

(S.9) (Mirzə Məhəmməd Münəccim Əfşar Ürməvi onun qohumlarından olmuş, o da nücum elmində məşhur olmuşdur).

(S.208) Hacı Mirzə Təqi Əhəri Təbrizdə yaşamışdır. Ailəli idi. Ədəbiyyat elmində istedadlı idi və astronomiya elminə və təqvim tərtibi işinə yiyələnmişdi. Lakin çox dərdli idi. Müəllimlikdən aldığı maaşla keçinirdi. Bir neçə il bundan əvvəl çox



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

alicənab, xeyirxah adam olan İsfahan taciri Hacı Əbülhəsənin yanından qayıdarkən Ərzənərrumda[65] vəfat etmişdir. Onun yerində bir o qədər də savadı olmayan övladı qalmışdır.

(S.208) Mirzə Tahir Həmədani "Nameyi-daneşvərani-Nasiri"nin əsas nüsxəsinin katibidir. Nəstəliq xətti ilə yaxşı yazır.

(S.190) Təhmasib Mirzə Müəyyidüddövlə Böyük Qacar elinin nüfuzlu fazillərindən olub, farslar və ərəblər haqqında, onların həyat tərzi, elmləri barədə zəngin məlumatı ilə zəmanəsinin yeganə şəxsiyyəti idi.

(S.195) Nəvvab Tubaməab Hac Fərhad Mirzə Mötəmədüddövlə mərhum-məğfur padşahın vəliəhdi Abbas Mirzənin oğlu, Qacarlar dövrünün yüksək nüfuzlu, mütaliə dairəsi geniş olan fazillərdən olub, alınan məlumata görə mərhum, elmlər nazirinin məsləkdaşı idi. Onun tarix, coğrafiya, ingilis dilinin lüğəti və başqa elmlərə dair yazdığı mötəbər əsərləri məşhurdur. O cümlədən: "Kitabi-Cami-Cəm" və "Qəmqame zəxxar" və "Hidayətüs-səbil" və "Nisabi-ingilisi" nəşr olunaraq yayılmışdır. Tarixə aid kitablarımızı yazarkən, onun Roma müharibəsi, Mərivan qalasının bina edilməsi və başqa tarixi məlumatlarla zəngin olan əsərlərindən istifadə etmişik. Onun islam aləminə etdiyi böyük xidmətlərdən biri Müqəddəs Kazimeyndəki həyət tikintisini bərpa etməsidir. Bundan əlavə şahzadənin şərəfli ömründə islama etdiyi böyük xidməti "Qəmqame şərəf" adlı əsəri tamamlamasıdır. Savab iş



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

gördü, yaxşı aqibət qazandı. Bir sözlə o, 1305-ci ildə bu fani dünyadan köçdü və cənazəsi 1306-cı ildə böyük şərəflə Tehrandan Müqəddəs Kazimeyn ziyarətgahına aparıldı.

(S.207) Hacı Ağa Qaracadağ əhli, Təbriz yaxınlığındakı Əhər qəsəbəsində doğulmuşdur. Mirzə Hacı Ağa Azərbaycanın məşhur ədiblərindən və elm xadimlərindəndir. O, bir çox dəqiq elmlərdə məharət əldə etmiş, riyaziyyatda ustad və nücum, astrologiyada misli-bərabəri yox idi. Mirzə Hacı Ağa İqlidis (Evklid) və Məcəstinin[66] əsərlərinə müxtəlif haşiyələr və əlavələr yazmışdır. Astrologiyada onun xüsusi üsulu olmuşdur. Onun tərtib etdiyi təqvimlər Azərbaycanda çap edilmiş, bütün əsərləri qardaşı Mirzə Əbülqəni Qaracadağidədir. Mirzə Hacı Ağa h.q. 1271-ci (1854) ildə vəfat etmişdir.

(S.223) Heydər xan fazillər ixtiyarı Heydər xan Qacar böyük filosof Ağa Əli Müdərris Zünuzinin ən şöhrətli şagirdlərindəndir. Fəlsəfə. kəlam və riyazi elmləri ustalıqla tədris edir. İllərdən bəri Tehrandakı Hacı Mirzə Məhəmmədxan Sipəhsalar Qacarın mədrəsəsində tənha guşəyə çəkilmişdir, sufi təbiətlidir.

(S.208) Mirzə Həbib Xəttat şikəstə xətti ilə yazan məşhur həmədanlı ustaddır. [67]

(S.222) Molla Həsən Məhəllati şübhəsiz münəccim idi. İllərlə ustadı Molla Hüseyn Zünuzidən sonra təqvimlər çap etməklə məşğul olmuşdur.

(S.209) Molla Həsən Münəccimi-Əfşar Mirzə Məhəmməd Əfşarın şagirdlərindəndir, həm də bir



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

müddət Molla Ağayi Münəccimi-Əfşar və Molla Sadıq Münəccimi-Əfşar və Molla Əli Münəccimi-Əfşarın yanında təhsil almışdır. Mərhum, nücum elmində aldığı hökmlərdə məharətli idi. Çoxlu təqvimləri vardır. İndi düsturlarının bir qismi hazırdır. O, xoşxasiyyətli, yaxşı rəftara malik bir şəxs idi. Ağa Mirpəncin qızı ilə evlənmişdi. 8-9 ildən sonra vəfat etdi və onun elmini mənimsəyib davam etdirən qabiliyyətli övladı yoxdur.

(S.188) Mirzə Həsənxan Münşiyi-Əsrar. Əsli Təbrizin adlı-sanlı Cahanşahı seyidlərindən olmuşdur. O, münşilikdə, xəttatlıqda, eləcə də müxtəlif elmlərdə tədqiqat aparmaqda məşhur şəxsiyyətlərdən idi. Bədii mövzular, qədim abidələrdəki kitabələr, öz səfərlərindəki hadisələr haqqında bir məcmuə tərtib etmişdir ki, bu əsər həqiqətən onun öz dövrünün ən qiymətli cünglərindən sayılır.

(S.208) Mirzə Hidayətulla. Təbriz sakini Mirzə Hacı Ağa Münəccim Qaracadağının oğlu Mirzə Hidayətulla riyaziyyat elmlərində və digər elmlərdə öz istedadı ilə seçilir.

(S.222) Molla Hüseyn Münəccim alimlər iftixarı, ustadlar ustadı, Ağa Əli Zünuzinin qardaşıdır. Əslən Azərbaycanın Zünuz əyalətindəndir. Mərhum Molla Hüseyn bu əsrin nücum elmlərində misilsiz idi.

(S.220) Hacı Mirzə Hüseyn Həkkakbaşı. Onun əsli Şirazdan olsa da, 40 il əvvəl Azərbaycana köçmüşdür. O, adı hər yerdə məşhur olan ustad Məhəmməd Tahirin yanında qulluq edirdi. Nəstəliq xətti ilə yazmaqda, bütün xətləri oluğu kimi təqlid



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

etməkdə, möhürə həkk etmək, kitabə yazmaq, dövlət nişanları üzərinə (şahın ad və ləqəbini bildirən) monoqram işində əsrin yeganə adamı, zəmanənin fövqəladə şəxsiyyəti idi. Sarayların üzərindəki naxışlar, dövlətin qalib ərlərinin möhürləri və bütün Təbriz sikkələri bu böyük sənətkarın əli ilə düzəlirdi. Bütün həkkaklar, rəssamlar, xəttatlar onun qüdrətinə heyrət edirdilər. O, dövlət fərmanı ilə parlaq möhürə layiq görülərək həkkakbaşı (baş oymaçı) ləqəbini almışdır. O, h.1290-cı ildə Təbrizdə vəfat etmişdir. Qardaşı Hacı Mirzə Həsən Şiraz Akademiyasında bu sənətdə ona bərabər idi.

(S.156) Hac Mirzə Cavad ağa, müctəhid və Darülsəltəneyi-Təbrizin cümə imamı. Bunların şəcərəsi bütün Azərbaycanda xalq içərisində imtiyazlıdır və bu yüksək mövqe sahibi fiqh və üsul elmlərində hamıdan nüfuzlu sayılır. Hədis, təfsir, rical və islam elmlərində də nəinki Təbrizdə, bəlkə bütün Azərbaycanda birincidir və onun dövlət və din qarşısındakı qazandığı hörmətdən, ölkə və millət qarşısındakı qüdrətdən danışmağa ehtiyac yoxdur.

(S.224-225) Seyid Cəmaləddin Əsadabadi[68] qədim elmlərdə və muasir fənlərdə yüksək mövqe tutmuşdur. İran xalqı onunla fəxr edir. Şəriət elmlərini o, Qəzvində təhsil etdikdən sonra Tehrana gəldi və bir müddət Əfqanıstanda, Hindistanda qaldıqdan sonra İstambula getdi və oradan Misrə gəldi. Əzhər[69] darülfünunun tələbələri onun ətrafına toplaşaraq,Re'rlərindən daə çalışırdılar. O, Misir diyarının əksər qəzetlərində həqiqətən natiqlik



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

məharəti ilə çıxış edirdi. Sonra Avropaya getmişdir. Parisdə "Ürvətül vüsqa" qəzetini yaratdı. Bu vaxtdan etibarən onun adı bütün ölkələrdə məşhur oldu. Fəzilətli şöhrəti və xasiyyətinin avazı ağızlara düşdü. Böyük dövlətlərdən bəzisi bu misilsiz qəzetin yayılmasına mane olmağa səy edirdilər. Ona görə də Seyidin qəlbi Avropadan usandı və Asiyanı dolandı. O, İranın yaxınlığına yetişdi. Bu kitabın müəllifi onu şahın icazəsi ilə Tehrana dəvət etmişdi və dəfələrlə şahın hüzuruna gətirib şərəfləndirmişdi. Əhalinin alim və yuksək təbəqəsindən olanlar bu büzürgvarla görüşmüşlər. Sonra o, Rusiyaya getdi və hal-hazırda Peterburqdadır.[70] Ona hər yerdə hörmətlə yanaşırlar, sünnilər və Avropa əhalisi onu "əfqani" hesab edirlər. Belə ki, onun tələbəsi ustad Məhəmməd Əbdə "Risaleyi-rəddi-Niqeriyyə" kitabının müqəddiməsində bu barədə yazmışdır. Bir sözlə, yüksək mövqe tutmuş bu şəxs ruzgarın əcaibi, nadir adamıdır.

(S.208) Mirzə Cəfər Münəccim Təbrizi Mirzə Qulam Mustofinin oğludur. O, üstürlab (nücum) elmində və şikəstə, nəstəliq xətti ilə yazmaqda ustad idi. Atası vəfat etdikdən sonra onun yerinə Mustofi olmuşdur. O bir müddət mustofi olduqdan sonra, divan işindən əl çəkib, arifməslək olduğuna görə güşənişin olmuş, böyük vəzifədə olmaq və divan maaşı almaqdansa, dərviş ziyində yaşamağı üstün tutmuşdur. Ondan gələcək hadisələr haqqında fikir söyləmək tələb olunduqda, öz fikrini açıq deməkdən əsirgəməzdi. Maraqlıdır ki, onun bir sıra qabaqgörənliyi doğru çıxar və real gerçəklikliyə



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

uyğun gələrdi. Bu hadisələrdən biri Mərv şəhərinin məğlubiyyəti və Qəvamüddövlənin müvəffəqiyyətsizliyə uğraması hadisəsidir ki, qabaqcadan onun dediyi kimi olmuşdur.

(S.202-203) Mirzə Cəfər xan Sərhəng Zəncani rəhmətlik Mirzə Sadığın oğlu olub, fövqəladə sənətkardır. Darülfünunun iki mədrəsəsində təhsil almışdır. Rəssamlar içərisində istər yağlı və istərsə sulu boyalarla surət, gül, mənzərə səhnələri, heyvanlar aləmi və s. çəkməkdə mahirdir.

(S.205) Mirzə Cəfər Həmədani - "Riyaz" təxəllüslü məşhur ustad ədəbiyyatçı idi və risalələr yazmaqda kamillik həddində idi. O, Bədiüzzaman[71] və Həmidəddin[72] tərzində zərbülməsəllər yazmışdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## QEYDLƏR

1. İranda maarifin yayılması və yeni məktəblər açılması əsas vasitəsi olan "Maarif əncüməni" 1897-ci ildə Əminüddövlənin yardımı və bir sıra tərəqqipərvər ziyalıların (o cümlədən Yəhya Dövlətabadinin) iştirakı ilə təşkil edilmişdi.
2. Müqəddəm tayfası Marağa, Zəncan və Türkiyə ilə sərhəddə yerləşirdi. Onun başçıları Səfəvilər zamanı İran şahlarının saraylarında görkəmli mövqe tuturdular.
3. Mənbələr Əli xanı Əmir Kəbir Mirzə Tağı xanın qatili kimi təqdim edir. Doğrudur, Nəsrəddin şahın fərmanını o icra etmişdir. Lakin unutmaq olmaz ki, məşhur islahatçı Əmir Kəbirin qətli ölkədə tərəqqiyə, yeniliyə mane olan daxili irticanın və gənc şahı (o zaman Nəsrəddin şahın 20 yaşı var idi) bu faciəli sonluğa təhrik edən, İranın bütün sərvətlərini ələ



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

keçirmək üstündə didişən xarici imperializmin törətdiyi cinayət idi.

4. Qacarqovanlı-qacar ailə və tayfalarından olan bir qrup əmir, əsilzadələr və qeyriləri nəzərdə tutulur / Bax: Mir'atül buldane Naseri, Cild 3, əlavə, s. 3.

5. Nəsrəddin şah özünə üç dəfə vəliəhd tə'yin etmiş, lakin onlar vaxtsız vəfat etmişlər. 1 vəliəhd Sultan Mahmud Mirzədir ki, Fətəli şahın nəvəsi Şəmsüddövlədən olub, dörd aylığında ölmüşdür, P vəliəhd Müinəddin Fətəli şahın nəvəsi Tacüddövlədən olub, altı yaşında vəfat etmiş, Ş vəliəhd isə Məhəmməd Qasım Mirzədir ki, şahın sevimli zövcəsi Ceyran xanımdan olmuşdur, O öldükdən sonra Nəsrəddin şah uzun müddət vəliəhd təyin etməmiş, yalnız dörd ildən sonra Müzəffərəddin Mirzə vəliəhd e'lan olunmuşdur.

6. Həsənəli xan 1858-1866-cı illərdə, İranın Parisdəki səlahiyyətli nümayəndəsi olmuşdur.

7. Məhəmmədhəsən xanın çox savadlı şəxs olduğu və fransız dilinə mükəmməl yiyələndiyi barədə 1889-1892-ci illərdə Nəsrəddin şahın şəxsi həkimi kimi sarayda işləmiş və Məhəmmdhəsən xanla çox yaxın münasibətdə olmuş fransalı Fəvriyə Parisdə 1894-cü ildə çap etdirdiyi "Se sal dər dərbari-İran" (sarayda üç il) adlı kitabında geniş bəhs etmişdir. Kitab İranın görkəmli adamları, dəqqətəlayiq yerləri haqqındadır.

8. Məhəmmədhəsən xan şahı Avropaya 3 səfərində: 1873, 1878 və 1889-cu illərdə müşayiət etmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

9. Söhbət Mirzə Tağı xanın nəşr etdirdiyi "Vəqayeyi-ittifaqiyyə" qəzetindən gedir.

10. 1895-ci ilin sonlarında Rentgen şüası kəşf olunmuşdur.

11. Şah Əbdüləzim Tehranın yaxınlığında müqəddəs ziyarətgahdır.

12. Mirzə Əlinəqi xan Həkimülməmalik Nəsrəddin şahın həkimi olmuşdur.

13. Bax: Ə.Cəfərzadə. Qur'anın izi ilə. - "Elm", qəz. 1 dekabr, 1990.

14. Cəmiyyətin sədri, fəxri prezidenti fransız şərqşünası, ərəbşünas, türkoloq Stlvestr de Sasi idi.

15. Bu cəmiyyət 1823-cü ildə tə'cis edilmişdi. Azərbaycanın alim-şərqşünaslarından Mirzə Kazım bəy və Mirzə Cəfər Topçubaşov bunun həqiqi üzvləri olmuşlar.

16. Hələ 1851-ci ildə M.C.Topçubaşovun təklifi ilə bu jurnalın nəşri məsələsi qoyulmuşdur. Bax: А.К.Рзайев. Азербайдъанские востоковеды XIX века. Б., 1966.

17. "Hacı Baba İsfahani" romanı ingilis yazıçısı Ceyms Mryerin əsəridir. Əsər 1824-cü ildə İngiltərədə fransız dilinə tərcümə olunaraq Parisdə nəşr edilmişdir. Əsəri fransız dilinə tərcümə edən məşhu ingilis yazıçısı, Valter Skott əsərlərinin mütərəcimi Baptiste de Faukonpret olmuşdur. "Hacı Baba İsfahani" əsərinin fransız dilindən fars dilinə tərcüməsi barədə kitabın 1965-ci il Tehran nəşrinin müqəddiməsində ətraflı yazılmışdır və mütərcimi



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mirzə Həbib İsfahani olduğu göstərilmişdir. Lakin "Ruznameye xatirate E'timadüssəltənə" bu əsərin fars dilinə tərcüməsi barədə tədqiqat aparmağı və əsərrin mütərciminin dəqiqləşdirməsini tələb edir. Çünki E'timadüssəltənə yazır: "1308. 4 zilhiccə, şənbə... Axşam "Hacı Baba" kitabını tərcümə etməklə məşğul oldum". S.868. Və yaxud: "1309, 5 səfər, çəharşənbə. Rüstəmabaddan qayıtdıqdan sonra Əminüssultanın mənzilinə getdim. "Hacı Baba" kitabından tərcümə etdiyim bir hissəni ona verdim". S.877.

18. Əlyazmalar İnstitutu, şifrə 1-291, II-365. Bu əsərin 1 nəhrinin titul vərəqində kitabın adı "Əlhimar yəhmil ül əsfarən, axırıncı vərəqində isə "Kitabi-məntiqül-vəhş" yazılmışdır.

19. İranda rus səfirliyinin əməkdaşı olmuş Q.D.Batyuşkov, V.A.Jukovskiyə yazdığı məktubunda İranda Məhəmmədhəsən xan qədər çox mütaliə edən, savadlı alim tanımadığını e'tiraf edirdi.

20. Ədibül-mülk Əbdüləli xanın oğlu.

21. XI əsrdə Ərzurumu səlcuqlar tutmuş, 1473-cu ildən isə Türkiyənin tərkibindədir.

22. 1857-1859-cu illər xalq üsyanı nəzərdə tutulur.

23. Mütənəbbi Əbu Teyyib Əhməd bəlağətli orta əsr şairidir. Məhəmmədhəsən xan onu "Peyğəmbəre süxən" (Söz peyğəmbəri) adlandırır. Təzkirələr yazır ki, o, şe'rlərinə güvənərək, peyğəmbərlik iddiasında olduğundan "Mütənəbbi" ləqəbi ilə məşhur olmuşdur. Bir sıra beytlərin zərbül məsəl kimi işlənmişdir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

24. Mir İmad hürri Təbrizdə Mirəli Katibin nəstə'liq xəttini mükəmməl öyrənmiş, XVI əsrin II yarısında yaşamış məşhur xəttatdır. O, Xətainin bizə mə'lum olmayan mükəmməl bir divan nüsxənin üzünü köçürmüşdür. Divanın bu əlyazma nüsxəsinə Mir İmadın xəttilə o dövrdə yaradılan "Şah Xətai vaqiəsi" (Şah Xətai dastanı) da əlavə edilmişdir.

25 Azərb.EA Əlyazmalar İnstitutunda Kəlhur tayfasının kəngərli qəbiləsindən olduğu barədə sənəd saxlanılır. Bax: hibənamə, №11/455, II bölmə.

26. Əlyazmalar İnsatitutunda olan h.1305-ci il Konstantinopolda çap olunmuş "Xətt və xəttat" adlı təzkirəsi saxlanılır, (şifrə XVI-998).

27. Bədiüzzaman Əhməd ibn Hüseyn həmədanlı ədib idi və məşhur "Məqamat" əsərinin müəllifidir.

28. Şe'rin sətri tərcüməsi Mail Əliyevindir.

29. Mirzə Məhəmmədtağı Hüccətül-islam "Nəyyir". Məhəmməd hüccətülislam TƏbrizinin oğludur. "Atəşkədə" adlı divanı vardır. Ətraflı bax: Əziz Dövlətabadi, Süxənvərane Azərbaycan. Cild 2. - S.655.

30. Kursurə və ya Kursere - Cənubi Azərbaycanda məskun yer adı indiki Kültəpədir, Marağadan 10 fərsəx və yaxud 53 km. şərqdədir. Məşhur bazar burada yerləşir.

31. Bələncər - Dərbəndin arxasında, Xəzər sahili şəhərlərdən olmuşdur. Deyirlər Əbdürrəhman ibn Rəbiə fəth etmişdir. Digərlər Salman ibn Rəbiə Bahilini onun fatehi hesab edirlər. Vaxtilə Xəzərlərin



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

paytaxtı olmuş h.q.104 (m.722/23)-cü ildə müsəlmanlar tərəfindən zəbt olunmuşdur. H.118 (m.737)-ci ildən, yə'ni ərəblərlə ikinci müharibədən sonra adına təsadüf olunmur. (Dehxuda. C.12, s.258, Tehr.1349 ş.)

32. Bahili - Bahilət Həmədandan olan bir qadının adıdır. Oğlanları var idi. Bahili onun nəslindən olan deməkdir. Həmədanda bir qəbilə bahili adlanır. (Bax: Dehxuda. C.11. Tehran, 1343 ş. S.612).

33. İbn Ə'cəm Kufi Məhəmməd bin Əli bin Ə'cəm Kufi - ərəb tarixçisidir 214-cü ildə vəfat etmişdir. "Tarixe-xüləfa" adlı bir kitab yazmış, fars dilinə tərcümə olunmuşdur. Əslində onun ərəb olması unudulmuşdur və onu hərəvi hesab edirdilər.

34. Vaqidi Məhəmməd bin Ömər Vaqid əl-Vaqidi əl-Mədini (130-207 h.q.) qədim tarixçilərdəndir (747-748; 822-823).

35. Əbu Müxtəf-Luq ibn Yəhya ibn Səid ibn Səlim əl-İzdi - 57 h.q.

36. Tilistan - Talışan - talışa mənsub.

37. Tüman (tümən) - Səfəvilər dövründən əvvəl və sonra tümən "on min" mə'namında və yüz "ara kənd" mə'nasında işlənmişdir. (H.Zərinəzadə - fars dilində Azərbaycan sözləri. - B. : Azərb. EA nəşri, 1962. - S.243.

38. Çiçəst - Urmiya gölünün qədim adıdır. Həmdulla Müstofi "Nüzhətül qülub" əsərində onun Azərbaycan vilayətində suyu şor olan göl olduğunu göstərir. Urmiya şəhəri, Əşnəviyyə, Dehxarqan, Tərvəc və



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səlmas onun sahilindədir, ortasında ada və burada bir dağ vardır ki, moğol padşahları orada dəfn olunmuşlar.

39. Abdulla Miyanəci böyük alim olub, fəlsəfi əsərlərinə görə Həmədanda dardan asılmışdır. (? - 525/1130).

40. Kəngavər - Həmədanla Kirmvnşahan arasında şəhərdir.

41. Münkir - Mələklərdən birinin adıdır. Ölüləri həyatı və inamları barədə sorğu-suala çəkən mələk.

42. İsmaililik-şiəlikdə təriqətdir. VIII əsrdə Xilafətdə sinfi ziddiyyətlərin kəskinləşməsi yaranmışdır. İsmaililik ifadəsi şiə imamı Cəfər Sadığın oğlu İsmayılın adından götürülmüşdür. İ-ə görə Allah insanlar üçün dərkedilməzdir. Buna görə, dua zamanı ona yox, Allahın yaratdığı "dünya şüuruna" müraciət etmək lazımdır.

43. Rəvvad bin əl-Müsənna əl-Əzdi rəvvadilər nəslinin banisidir. Bu nəsl h. IV əsrin sonu V əsrin əvvəllərində Azərbaycanda hakim olmuşdur. O, Yəqubinin yazdığına görə Əbu Cəfər Mənsur Əbbasinin xilafəti zamanında Azərbaycan valisi tərəfindən Təbriz və onun ətrafına hakim göndərildi.

44. Xərbəndə. Qazan xanın qardaşı Sultan Məhəmməd Xudabəndəyə işarədir.

45. Xudabəndə paytaxtı Təbrizdən Srçalaryyəyə köçürmüşdü.

46 Gevr-Fransız səyyahı. Şərqşünas, coğrafiyaşünas alim (1779-1847) Məşhur islam alimi Əbu Abdulla



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Məhəmməd ibn Məhəmməd İdrisinin ikicildlik coğrafiya kitabını, Fərqanə tarixini fransız dilinə tərcümə etmişdir. Şərqə dair bir çox məqalələr yazaraq "Asiya" məcəlləsində dərc etdirmişdir, İran tarixinə aid yazdığı kitab 1821-ci ildə Parisdə çap olunmuşdur. Parisdə Şərq dilləri fakültəsinin müdiri, Silvestr de Sasinin şagirdlərindəndir.

47 Çeğtu - Azərbaycanda çaydır. Moğollar onu Çiğtu-Niğtu adlandırırdılar. - Bax: Dehxuda. Lüğətnamə. S.34 (L-1243).

48 İstaclu - türk elindən olan 7 qəbilədən biridir. Bu qəbilələr Səfəvilərin ən məsul, ən böyük vəzifə daşıyan, dayağı olan adamları olmuşlar. Bu yeddi qəbilə aşağıdakılardır: Şamlu, Qumlu, İstaclu, Təkəllu, Zülqədəv, Əfşar və Qacar qəbilələri.

49 Kürur - yarım milyon.

50 Xurrəqan - Qəzvindədir

51. Abbas Mirzə Nəsrəddin şahın kiçik qardaşıdır.

52. Əyrəlu əfşarın qollarındandır.

53. Qəzvindədir.

54. Mərənd kənlərindəndir.

55. Əbcəd hesabı ilə 1298 1872/73-cü illər.

56. Həmədanlı. Qaragöz Əhər kəndlərindəndir.

57. Gavgan Təbrizin kəndlərindəndir.

58. Həmədanın kəndlərindən biridir.

59. Azərbaycan EA Əlyazmalar İnstitutunda Kəlpur tayfasının Kəngərli qəbiləsindən oldduğu barədə sənəd saxlanır. Bax : Hibənamə №11/455. II bölmə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

60. Cənubi Azərbaycandadır.

61. Mir İmad Hürri Təbrizdə Mirəli Katibin nəstəliq xəttini mükəmməl öyrənmiş, XVI əsrin ikinci yarısında yaşamış məşhur xəttatdır. O, Xətainin bizə mə'lum olmayan mükəmməl bir divan nüsxəsinin üzünü köçürmüşdür. Divanın bu əlyazma nüszəsinə Mir İmadın xəttilə o dövrdə yaradılan "Şah Xətai vaqisi" (Şah Xətai dastanı) də əlavə edilmişdir (Ətraflı bax : Xətai - Əsərləri.C.I. - B., 1975. - S.13.

62. İrfan - təsəvvüf, sufizm.

63. Azərbaycan EA Əlyazmalar İnstitutunda onun 1897-ci ildə çap olmuş "Məqalati-Nizamiyyə" adlı əsəri saxlanılır. Əsər uşaqların tərbiyəsinə həsr olunmuş, islamın dini, etik və əxlaqi normalar kimi qanunlarından bəhs edir. Kitabın sonunda müəllifin digər əsərlərinin siyahısı verilmişdir.

64. Həqiqi, doğru elm deməkdir.

65. Ərzəne ər-Rum - Şiraz yaxınlığında bir ziyarətgahdır. Rəvayətə görə İmam Əli orada zühur etmişdir.

66. Yunan alimləridir.

67. Azərbaycanın EA Əlyazmalar İnstitutunda Mirzə Həbibin "Xətt və xəttatan" əsərinin 1887-ci il İstambul nəşri saxlanılır.

68. Əsədabad Həmədan yaxınlığındadır.

69. Əl-Əzhər.

70. İmperator Rus Arxeoloji Cəmiyyəti şərq şö'bəsinin 25 fevral 1888-ci il iclası protokolundan



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

mə'lum olur ki, Seyid Cəmaləddin fəxri qonaqlardan biri kimi həmin iclasda iştirak etmişdir.

71. Bədiüzzaman Əhməd ibn Hüseyn həmədanlı ədibdir. "Məqamət" əsərinin müəllifidir.

72. Həmidəddin məşhur Hind şairidir, h.1216-cı ildə vəfat etmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

1. Ariyənpur Y. Əz Səba ta Nima. C.I. Tehran, 1356 ş./1978.
2. Bosvort K. Musulğmanskie dinastii. M., 1971.
3. Doktor İsa Sədiq. Tarixe fərhənge İran. Tehran, 1338 ş./1959.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

4. Abdulla Mustofi. Şərhe zendeqaniye mən, ya tarixe ectimai və edariye doureye Qacariyyə. C.I. Tehran, 1321 ş./1942.
5. İbrahimov (Şahin) T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906). B., 1967.
6. Firidun Adəmiyyət. Əmire Kəbir və İran. C.I. Tehran, 1323 ş./1944.
7. Mehdi Bamdad. Tarixe ricale İran. C.I. Tehran, 1966.
8. Mehdi Məlikzadə. Tarixe enqelabe məşrutiyyəte İran. C.I. [Tehran].
9. Cənubi Azərbaycan tarixinin oçerki. B., 1985.
10. Məhəmmədhəsən xan Səniüddövlə. Tarixe montəzəme Naseri. C.3. [Tehran, 1883].
11. Yəhya Dövlətabadi. Həyate Yəhya. C.I. Tehran, 1362 ş./1983.
12. Mehdi Bamdad. Tarixe ricale İran. C.4. Tehran, 1966.
13. Mirzə Yusif xan. Yek kəlmə. Tehran, 1287 h.q./1870.
14. Nazimülislam Kirmani. Tarixe bidariye iraniyan. Tehran, 1328 h.q./1910.
15. M.F.Axundov. Əsərləri. C.3. B., 1988.
16. Xan Məlik Sasan. Siyasətgərani doureye Qacar. C.2. Tehran, 1346 ş./1967.
17. Doktor Hüseyn Məhbubi. Tarixe moəssəsate təməddone cədid dər İran. C.2. Tehran, 1978.
18. Etimadüssəltənə, Məhəmmədhəsən xan. əl-Məasir vəl-asar. Tehran, 1306 h.q./1887.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

19. Stori Çarlğz. Persidskaə literatura. C.3. M., 1972.
20. M.F.Axundov. Əsərləri. C.3. B., 1963.
21. Etimadüssəltənə. Miratül büldane Naseri. C.2. Tehran, 1294 h.q./1877.
22. Mehdi Bamdad. Tarixe ricale İran. C.3. Tehran, 1966.
23. Etimadüssəltənə, Xabnamə. Məşhəd, 1324 ş./1945.
24. Ruznameye xaterate Etimadüssəltənə. Tehran, 1345 ş./1966.
25. Əhməd Gülçin Məani. Tarixe təzkirehaye farsi. C.I. Tehran, 1348 ş./1969.
26. Mehdi Bamdad. Tarixe ricale İran. C.2. Tehran, 1966.
27. İbrahim Teymuri. Təhrime tənbaku. Tehran, 1361 ş./1982.
28. Azərbaycan Sovet Ensiklopediyası. C.10. Bakı, 1987.
29. O.P.Heqlova. İranskaə litoqrafirovannaə kniqa. M., 1979.
30. İran və Türkiyə məsələləri, Bakı, 1986.
31. Etimadüssəltənə. Mətlə üş-Şəms. C.2. Tehran, 1302 h.q./1885.
32. (Баумгартен). Поездка по Восточной Персии л-гв. Волынского полка поручика Баумгартена в 1894 г. С.-Пб., 1896.
33. Fehriste nüsxəhaye xəttiye do ketabxaneye Məşhəd. Tehran, 1351 ş./1972.
34. Н.Ханыков. Записки по этнографии Персии. М., 1977.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

35. Н.Ханыков. Экспедиция в Хорасан. М., 1973.
36. И.Ю.Крачковский. Избранные сочинения. Т.5. М.-Л., 1958.
37. Записки Восточного Отделения Императорского Русского Археографического Общество (ЗВОИРАО). Т.9. Вып.1-4, С.-Пб., 1896.
38. ЗВОИРАО. Т.3. Вып.1 и 2. С.-Пб., 1888.
39. ЗВОИРАО. Т.2. С.-Пб., 1888.
40. Ян Рипка. История персидской и тадъикской литературы. М., 1970.
41. И.Ю.Крачковский. Избранные сочинения. Т.4. М.-Л., 1957.
42. Д.М.Анаркулова. Социально-политическая борьба в Иране в середине XIX в. М., 1983.
43. А.Ромаскевич. Литературное двиъение в современной Персии. - "Восток", 1923. кн.3.
44. Ə.Hüseynzadə. XIX əsrin II yarısında Azərbaycan tarixşünaslığı. B., 1967.
45. Etimadüssəltənə. Tətbiqe lüğate coğrafiyaye qədim və cədide İran. Tehran, 1984.
46. Etimadüssəltənə. Miratül büldane Naseri. C.I. Tehran, 1904.
47. Etimadüssəltənə. Miratül büldani Naseri. C.4. Tehran, 1880.
48. Etimadüssəltənə. Dürərüt-tican fi tarix-i bəni Əşkan. İstambul, 1890.
49. A.Fazili. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. III-VII əsrlər. B., 1984.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

50. О.П.Щеглова. Каталог литографированных книг на персидском языке в собрании ЛО ИВ АН СССР. Т.1. М., 1975.
51. Etimadüssəltənə. Xeyrate Həsan. C.1. Tehran, 1886.
52. Etimadüssəltənə. Xeyrate Həsan. C.2. Tehran, 1887.
53. Etimadüssəltənə. Xeyrate Həsan. C.3. Tehran, 1888.
54. О.С.Меликов. Персидская мемуарная литература XIX века как источник по истории Ирана. - İran və Türkiyə. B., 1986.
55. Э.Я.Бертельс. Избранные труды. М., 1988.
56. Ч.А.Стори. Персидская литература. Ъ.2., 1972.
57. M.Mənafi. Mirzə Əbdürrəhim Talıbov. B., 1977.
58. Əlhimar yəhmilül əsfarən. (Tehran), 1306 h.q./18
59. Kitab yüklü eşşək. B., 1979.
60. В.Г.Белинский. Полное собрание сочинений. Т.3. М., 1953
61. S.Nəfisi. Fehreste ketabxaneye məclise şuraye melli.C.6. Tehran, 1344 ş./1965.
62. Firidun Adəmiyyət. Əndişehaye Talıbov Təbrizi. Tehran, 1984.
63. Историография Ирана нового и новейшего времени. М.,1989.
64. P.Makulu. Ədəbi məlumat cədvəli. B., 1962.
65. М.Маклай. Описание персидских и таджикских рукописей Института Востоковедения. Вып.3. М., 1975.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

66. Əhməd Külçin Məani. Tarixe təzkirehaye farsi. C.2. Tehran, 1343 ş./1969.
67. Ф.А.Розенберг. Список мусульманских рукописей поступивших в Азиатский музей в первом полугодии 1919г. - Известия Российской АН, 1919, №1.
68. Müdərris Təbrizi. Reyhanətül ədəb. C.2. Tehran 1327 ş./1948 (fotosurət)
69. Əhməd Münzəvi. Fehristi nüsxəhayi farsi. C.2. Tehran, 1350 ş./1972.
70. M.Müctəhidi. Ricale Azərbaycan dər əsre məşrutiyyət. Tehran, 1327 ş./1040.
71. H.Məmmədzadə. Mirzə Fətəli Axundov və Şərq. B., 1971.
72. А.Жуковский. Образцы персидского народного творчества. С.-Пб., 1902.
73. Azərbaycan ədəbiyyatı tarixi. C.2. B., 1960.
74. Mehdi Bəyani. Əhval və asare xoşnəvisan. Tehran, 1966.
75. Ş.Sami. Qamusül-elam. C.6. İstambul, 1315 ş./1897.
76. M.Tərbiyət. Daneşməndane Azərbaycan. Tehran, 131 ş./1936.
77. M.Sami. Qamusül-elam. C.3. Tehran, 1337 ş./1959.
78. Məliküşşüəra Bahar. Səbokşünasi. C.3. Tehran, 1337 ş./1959.
79. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. C.1. B., 1981.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

80. Əziz Dövlətabadi. Süxənvərane Azərbaycan. C.1-2. Təbriz, 1976.
81. Əhməd Münzəvi. Fehriste nüsxəhaye xəttiye farsi. C.3. Tehran, 1350 ş./1972.
82. Əhməd Münzəvi. Fehriste nüsxəhaye xəttiye farsi. C.5. Tehran, 1349 ş./1971.
83. Azadə R. Fələki Şirvani. B., 1986.
84. M.H.Османов. Стиль персидско-таджикской поэзии. (IX-X вв.) M., 1974.
85. Gülçine Cahanbani. Tehran, 1316 ş./1938.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

M Ü N D Ə R İ C A T

1. Ön söz ______________________ s.1-8

2. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin həyat və yaradıcılığı______ s.9-115

3. Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri ______ s.116-282

4. Ədəbiyyat _____________ s.283-286



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Created by Neevia Personal Converter trial version http://www.neevia.com